AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTU

**VƏLİ HƏBİBOĞLU**

2884

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİASPORU

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

**Bakı - Qartal - 2001**

**Kitabın çapına böyük qayğı və diqqət göstərən Nizami Rayon İcra hakimiyyətinin başçısı Eldar Əzizov cənablarına öz dərin təşəkkürümü bildirirəm.**

**Müəllif**

Redaktoru və ön sözün müəllifi: VAQİF ARZUMANLI, filologiya elmləri doktoru, professor.

Rəyçi: ƏLİKRAM TAĞIYEV, Fəlsəfə elmləri doktoru, professor

Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı, Qartal-2001, 358 səh.

Kitabda Azərbaycan Respublikasının Prezidenti, möhtərəm Heydər Əliyev cənablarının Azərbaycan diasporunun formalaşması və inkişafı sahəsindəki məqsədyönlü fəaliyyəti, onun xaricdə yaşayan soydaşlarımız qarşısında çıxışları, respublikamızda və xarici ölkələrdə mühacir azərbaycanlılarla görüşləri əsasında işıqlandırılır.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, dövlət quruculuğunun inkişafında mühüm əhəmiyyət kəsb edən diasporun fəaliyyəti nəzərdən keçirilir, diasporun gələcək inkişafı barədə dəyərli tövsiyyələr irəli sürülür.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

H 4702020400 / 044 - 2001 qrifli nəşr - 2001

© Qartal, 2001

# DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Bu il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə - Azərbaycan Dövlət Müstəqilliyinin 10 illik yubileyi geniş qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümünə həsr edilən tədbirlər planı təsdiq olunmuş və onun həyata keçirilməsi üçün ölkəmizin bütün guşələrində əməli işlər aparılır. Azərbaycanın onillik müstəqil inkişaf yolunun təhlilinə həsr olunmuş elmi simpozium və konfranslar keçirilir, bu müddət ərzində əldə olunmuş nailiyyətləri əks etdirən sərgilər, kinofilmlər nümayiş etdirilir, çap mə`mulatı hazırlanır, müxtəlif kütləvi tədbirlər təşkil edilir.

Bütün obyektiv çətinliklərə, bu və ya digər problemlərə baxmayaraq, tarixi baxımdan olduqca qısa bir müddət - 10 il ərzində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi sahələrində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan vermişdir. Bu gün qətiyyətlə demək olar ki,

Azərbaycanda sosial-iqtisadi inkişafın yeni mərhələsinin möhkəm təməli qoyulmuş və ölkəmiz müstəqil inkişaf yolu ilə inamla irəliləyir. Müstəqil dövlət kimi Azərbaycan bütün dünyada tanınır və dünya birliyində öz layiqli yerini tutur. Müstəqilliyimiz sarsılmaz, dönməz xarakter almışdır.

Müstəqil inkişaf yolunda atılmış hər bir addım, əldə edilmiş hər bir qələbə xalqımızı azad, müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə dərin inamla və böyük nikbinliklə baxmağa ruhlandırır, ona yeni güc, qüvvət verir. Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizin də qəlbində böyük qürur və iftixar hissi doğurur. Bütün dünya azərbaycanlılarının əcdadlarının mərkəzi, tarixi vətəni olan Azərbaycan soydaşlarımızın daim diqqət mərkəzindədir

Ölkəmizin tərəqqi və inkişaf yollarındakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır, müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imkanların yaradılmasına səy göstərir.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi -



yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür, iş tapmaq, təhsil almaq məqsədi ilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin keçmiş sovet dövlətinin qadağaları bu arzunun həyata keçməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-ci illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli qərarı ilə həmin səylərin böyük əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz olan 31 dekabr - Dünya Azərbaycanlılarının həmrəylik Günü təntənə ilə qeyd olunur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onların arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahəsində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana gündən-günə möhkəmləndirir. Azərbaycan ayrı-ayrı ölkələrlə fəaliyyət göstərən cəmiyyətləri, klub və dərnəkləri soydaşlarımızın və həmvətənlərimizin təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinə xarakter verilməsi yolunda faydalı iş aparır, məskunlaşdıqları ölkələrdə Azərbaycanı daha yaxından tanıtmaq üçün müxtəlif tədbirlər görür. Bu qurumlar bir-biri ilə, Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqələr yaradır, əməkdaşlıq etməyə səy göstərirlər. Müstəqil Azərbaycan Respublikası isə bütün Dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün öz üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə çalı-şır. Həmin yolda bu vaxta kimi atılmış addımlarının nəticələrinin təhlili göstərir ki, Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, müstəqil Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Belə bir işin uğurla və məqsədyönlü yerinə yetirilməsi isə ilk növbədə həmin sahədə toplanmış təcrübənin hərtərəfli müzakirə və təhlil edilib müvafiq strateji proqramın hazırlanmasını tələb edir.

Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin tə`min



olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq qərara alıram:

1. 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində dünya azərbaycanlılarının qurultayı keçirilsin.

2. Azərbaycan Respublikasının İcra Aparatı dünya azərbaycanlılarının I qurultayının keçirilməsi məqsədi ilə işçi qrupu yaratsın, iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsinə nəzarət etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

(Bakı şəhəri, 23 may 2001-ci il.)

# DİASPORUMUZUN FORMALAŞMASINDA YENİ MƏRHƏLƏ

"Azərbaycanın Dövlət Müstəqilliyi bizim tarixi nailiyyətlərimizdir deyən Prezident Heydər Əliyev cə-nabları bu gün Azərbaycan xalqını və Azərbaycan dövlətini bütün dünyada qururla, layiqincə təmsil edir. Son bir neçə il ərzində Azərbaycan diplomatiyasının uğurları, ölkə daxilindəki sabitlik, əmin-amanlıq məhz Azərbaycan Prezidentinin xarici və daxili siyasət sa-həsində atdığı uğurlu addımların nəticəsidir. Elə bütün bunlara görə də Heydər Əliyev cənablarına dünya ictimaiyyətinin marağı, rəğbəti güclənir. Xalqımızın ona olan etimadı, inamı, məhəbbəti getdikcə artır.

Dövrümüzün görkəmli şəxsiyyətlərindən olan Heydər Əliyev cənablarının xalqı, vətəni qarşısında göstərdiyi böyük xidmətlər, keçdiyi şərəfli, zəngin ömür və həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı üçün həyat məktəbidir, ibrət məktəbidir. Son illərdə bir sıra ağır sınaqlardan çıxmış Azərbaycan xalqı bu gün bütün ümidini möhtərəm prezidentimiz Heydər Əliyev cənablarına bağlamışdır. Üst-üstə yığılıb qalmış taleyüklü məsələlərin həlli yollarını axtaran prezidentimiz doğrudan da qalan bütün ömrünü xalqının, torpağının qayğılarına həsr edib. Düzdür, bu hal bütün ölkələr və prezidentlər, dövlət başçıları üçün ən müqəddəs borc hesab olunur. Lakin, dövrümüzün reallıqları, müasir dünyamızın ictimai-siyasi mənzərəsi bu mənada qəribəliklərlə doludur. Elə öz xalqımızın, öz Vətənimizin son bir neçə illik tarixi sübut edir ki, hökumət və dövlət başçılarımızın çoxunun dedikləri ilə əməlləri, vədləri ilə hərəkətləri düz gəlmirdi. Nəticədə torpaqlarımız əldən gedir, qaçqın və köçkünlərimizin sayı artır, xalqın yaşayış tərzi gündən-günə ağırlaşır, ölkəmizin iqtisadiyyatı bərbadlaşırdı. Hakimiyyət uğrunda qardaş qanının tökülməsi, milli zonalara bölünən cırtdan dövlətlər yaratmaq cəhdləri reallığa çevrilirdi. Məhz, belə bir ağır şəraitdə ölkənin idarəetmə sükanını ələ almağı baca-ran güclü şəxsiyyətə, müdrik dövlət xadiminə, uzaq-görən siyasətçiyə böyük ehtiyac vardı... Nə yaxşı ki, Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev nüfuzu, Hey-dər Əliyev müdrikliyi dadımıza çatdı. Dərin nikbinliyi, uzaqgörən siyasəti ilə ötən illər ərzində ölkə prezidenti kimi çox şeyə nail olan Heydər Əliyev cənabları bu gün hər bir azərbaycanlının ürəyində ümid çırağı yandır-mışdır.

Məqsədi, amalı Azərbaycan Respublikasını - müstəqillik və demokratiya yollarında kövrək ad-dımlarını atan bir ölkənin, inkişaf etmiş dünya dövlət-ləri sırasına çıxarmaq olan Prezidentimizlə bağlı hər şey bizim üçün qiymətlidir.

1993-cü ildə respublikamızın müstəqilliyinin başı üzərini ağır təhlükə aldığı bir vaxtda Azərbayca-nın rəhbərliyini, son dərəcə çətin bir şəraitdə belə məsuliyyətli vəzifəni öz üzərinə götürən Heydər Əliyev qısa müddət ərzində nəinki ölkəmizi bu böh-randan çıxarmağa nail oldu. Həm də xaricdəki soydaş-larımızla əlaqələrin genişlənməsi, Azərbaycan dövlət-

çiliyinin möhkəmlənməsində diasporun qüvvəsindən lazımi səviyyədə istifadə olunması sahəsində böyük uğurlar qazandı.

Respublikamızın prezidenti Böyük Britaniya, Almaniya, Fransa, Belçika, Türkiyə, Rusiya, ABŞ, Çin, Polşa, Danimarka və bir çox dövlətlərdə rəsmi səfərlərdə olarkən xaricdəki soydaşlarımız qarşısında son dərəcə maraqlı çıxışlar etmişdir.

Möhtərəm prezidentimiz çox doğru olaraq Azərbaycan diasporunun öz fəaliyyətini genişləndirməsinə və qüvvətləndirməsinə müstəqil dövlətçiliyimizin möhkəmlənməsində mühüm rol oynayan tə`sirli bir vasitə kimi baxır. Buna görə də o, soydaşlarımız qarşısında çıxışlarında dəfələrlə bu məsələyə toxunur, onları dövlətçiliyimizin möhkəmlənməsi işində yaxından, həm də fəal iştirak etməyə çağırır.

Azərbaycan prezidenti diasporun formalaşmasına iki aspektdən təsir göstərir.

Birinci, o, xarici ölkələrdə rəsmi səfərlərdə olduğu vaxt dövlət başçıları, rəsmi dairələr, eləcə də soydaşlarımızla görüşdüyü zaman ölkəmiz haqqında geniş mə`lumat verir, erməni təcavüzkarlarının əsl simasını ifşa edir, böyük siyasi uzaqgörənliklə və məqsədyönlü fəaliyyəti ilə informasiya blokadasını yarıb müstəqil respublikamızın mövcud vəziyyəti barədə dolğun və obyektiv təsəvvür yaradır. Onun bu səfərləri həmin ölkələrdə diasporun inkişafı üçün real zəmin hazırlayır, soydaşlarımıza qarşı formalaşmış mənfi münasibət altüst olurki, bu da xaricdəki azərbycanlıların geniş fəaliyyət göstərməsində böyük əhəmiyyət kəsb edir.

İkincisi, möhtərəm prezidentimiz xaricdəki soydaşlarımız, habelə ölkəmizə gəlmiş diaspor nümayəndələri ilə görüşlərində onlar qarşısında son dərəcə vacib, elə aktual problemlər qaldırır ki, onları yerinə yetirmədən diasporun fəaliyyətini lazımi səviyyədə qurmaq olmaz. Məsələn, Böyük Britaniyada, Belçikada, ABŞ-da rəsmi səfərlərində cənab Heydər Əliyev soydaşlarımızı təşkilatlanmağa və Azərbaycan ilə daha sıx əlaqə saxlamağa, milli mənafeyi hər şeydən uca tutmağa, milli adət və ənənəni unutmağa, milli dilimizi qərib diyarlarda da qoruyub saxlamağa çağırmışdır.

Azərbaycan öz istiqlaliyyətini möhkəmləndirdikcə, düşdüyü ağır problemləri həll etdikcə diasporun fəaliyyətinə respublikamızın yardımı daha da artacaqdır. Bu, möhtərəm prezidentin böyük arzusudur.

Mən belə bir cəhəti xüsusilə vurğulamaq istərdim ki, bu günlərdə dünya azərbaycanlılarına ünvanlanan və dövri mətbuatda çap olunan təbrik-müraciət təkcə ümumilli bayram təbriki deyil, Azərbaycanı, azərbaycanlılığı, *milli dövlətçiliyimizi*, bütün azərbaycanlıları sevənlər üçün fəaliyyət istiqamətləridir. Çünki möhtərəm prezidentimiz çox aydın şəkildə bildirir ki, "Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycanlılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməliyik. Vətəni, xalqını sevən hər bir soydaşımız, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxs Azərbaycan dövlətini öz arxasında hiss edərək azərbaycançılıq, vətənpərvərlik hissləri ilə tarixi torpaqlarımıza, yurdumuza, *mədəniyyətimizə məhəbbət aşılmalıdır*. Vətənimizin, respublikamızın taleyi hər bir azərbaycanlının

taleyinə çevrilməlidir.

Respublika Prezidentinin inandığı kimi, doğrudan da çox çəkməyəcək hər bir azərbaycanlı yaşadığı ölkədən asılı olmayaraq, eyni arzularla, eyni amallarla, eyni duyğulurla nəfəs alacaq, monolit bir qüvvəyə çevriləcəkdir.

Son bir neçə ildə başda Respublika Prezidenti olmaqla Azərbaycan Respublika dövlət nümayəndələrinin, xarici ölkələrdə səfərlərinin tarixi və siyasi əhəmiyyəti olduqca böyükdür. Bu gün iqtisadi, siyasi böhran içində çırpınan Müstəqil Azərbaycan üçün "dünyaya açılan pəncərə kimi qiymətləndirən dünya mətbuatı Azərbaycan xalqı barədə, onun düşdüyü çətin vəziyyət, erməni işğalı, Qarabağ həqiqətləri barədə nəhayət geniş informasiyaya yiyələnib xeyli məlumatlar çap etməyə başlamışlar. Prezident H.Ə.Əliyevin Avropa ölkələrinə rəsmi dövlət səfərləri Azərbaycan barədə həqiqətlər daha rasional açıqlanmağa başlamışdır. Belə ki, onun ABŞ, Fransa, İngiltərə və digər yaxın və uzaq xarici ölkələrə səfəri zamanı indi artıq Azərbaycan diasporu nümayəndələri prezident Heydər Əliyevi çox yüksək qürur hissləri ilə qarşılayırlar.

Məsələn, Belçikanın paytaxtı Brüsseldə NATO-nun Sülh naminə əməkdaşlıq müqaviləsini imzalamaq üçün buraya rəsmi səfərə gələn Azərbaycan prezidentini mehmanxanada qarşılayan diaspora nümayəndələrindən biri Səid Hüssami çıxış edərək H.Ə.Əliyevin bu səfərindən çox razı qaldığını bildirərək öz sevincini belə ifadə etmişdir:

"Mən Heydər Əliyevi təcrübəli adam hesab edirəm, ümidim budur ki, bu adam müvəffəq olacaq.



Lakin Azərbaycana 100 min Heydər Əliyev lazımdır ki, işi qabağa aparsın.

Brüsseldə həmvətənlərimizin həyəcanlı çıxışlarına cavabında isə Azərbaycan prezidenti demişdir: "Sizə ana vətəndən hərarətli salamlar çatdırıram, Azərbaycan indi bir çox beynəlxalq təşkilatların üzvüdür. Biz Şərqi Avropada 15-ci ölkəyik ki, NATO-nun Sülh Naminə Əməkdaşlıq Təşkilatına üzv oluruq, Müstəqil Azərbaycan dünyadakı bütün azərbaycanlıların vətənidir."

Xarici ölkələrdə Azərbaycan diasporunun siyasi, ictimai, mədəni fəaliyyətinin fəallaşması ilə yanaşı onu da demək vacibdir ki, bu fəaliyyət nə qədər güclü olsa da, biz xarici ölkələrdə güclü lobbi yaratmadan istədiyimiz nəticələr əldə etməkdə bir sıra çətinliklərlə üzləşəcəyik. Bu vacib məsələni vaxtında açıqlayan Heydər Əliyev Brüssel şəhərində 1995-ci ilin aprel ayının 22-də diaspora nümayənlələrimizlə görüşdə həmvətənlərimizin lobbi yaratmaq arzularına cavab olaraq bildirmişdir ki, Amerikanın ən zəngin adamlarından biri ermənidir. O, heç Ermənistanı görməyib. Ancaq o, Ermənistana güclü kömək edir və Ermənistanı xaricdə təbliğ edir. Orada yayıblar ki, Azərbaycan Ermənistanı iqtisadi blokadaya alıb. Buna görə də Amerika Azərbaycana kömək etməyib.

Belə fakt və misallardan çox sadalamaq olar.

* * *

1998-ci ilin son günlərində Azərbaycan Prezidenti Dünya Azərbaycanlılarına müraciətində demişdir:

"Xalqımızın mədəniyyətini, dilini, milli adət-ən`ənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək bizim hər birimizin üzərinə düşən çox məsuliyyətli bir tarixi yükdür.

Azərbaycan Respublikasından kənarda on milyonlarla soydaşımız yaşayır. Onların içərisində çoxlu məşhur elm və mədəniyyət xadimləri, iş adamları, yüksək mənsəb sahibi olan insanlar vardır. Onları dünyada və Azərbaycanda tanıtmaq hamımızın borcu olduğu kimi, bizim də onlardan öz tarixi vətənləri, doğma ata-baba yurdları üçün qayğıkeş və təəssübkeş olmağı tələb etməyə haqqımız var.

Hal-hazırda qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni, istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu tə`min etməkdir.

XXI əsrin astanasında dünya azərbaycanlılarının həmrəyliyinə daha böyük ehtiyac vardır. Sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı qarşıda gələn yeni yüzillik və minillikdə ciddi və müqəddəs mübarizələr gözləyir. Biz nəinki təkcə müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmlənməsi və inkişaf etməsi uğrunda, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx



birləşməliyik. Vətənini, xalqını sevən hər bir soydaşımız, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxs Azərbaycan dövlətini öz arxasında hiss edərək azərbaycançılıq, vətənpərvərlik hissləri ilə tarixi torpaqlarımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamalıdır. Vətənimizin, respublikamızın taleyi hər bir azərbaycanlının taleyinə çevrilməlidir. ("Xalq" qəzeti, 25 dekabr 1998-ci il).

Xalqımızın müstəqillik əzmi və iradəsi, sıx birliyi qarşılaşdığımız hər bir çətinliyə qalib gələcəkdir.

Sizi bu ümumilli bayram münasibətilə ürəkdən təbrik edir və ali məqsədlərimizin reallaşması naminə yenilməz birliyə, həmrəyliyə çağırıram.

Ulu Tanrıdan hamınıza səadət və əminamanlıq diləyirəm.

Bu mənada, daha doğrusu, Azərbaycan diasporunun fəaliyyətinin öyrənilməsi və genişləndirilməsi sahəsində Azərbaycan MEA Beynəlxalq Münasibətlər İnstitutu kollektivinin gördüyü işlər xüsusilə təqdirəlayiqdir. Təsadüfi deyil ki, bu gün milli diasporumuzun və Azərbaycan lobbisinin istər respublika, istərsə də beynəlxalq miqyasda qayğıları və problemləri ilə nəfəs alan bir neçə ictimai təşkilatın "Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin", "Beynəlxalq "Soydaş Assosiasiyasının, "Dünya Azərbaycanlı Gənclərinin Birliyi Cəmiyyətinin" prezidentləri və vitse-prezidentləri məhz Beynəlxalq Münasibətlər İnstitutunun əməkdaşlarıdır.

Həmçinin Respublikamızın bütün ictimai-humanitar İnstitutu və təşkilatları içərisində Beynəlxalq Münasibətlər İnstitutu yeganə elmi tədqiqat mər-

kəzidir ki, onun strukturunda "Azərbaycan diasporu şöbəsi fəaliyyət göstərir.

Beynəlxalq Münasibətlər İnstitutu həm Azərbaycan Respublikası Prezident Aparatının ictimai-siyasi şöbəsinin "xaricdə yaşayan həmvətənlərimizlə əlaqə bölməsi, "Vətən cəmiyyəti, "Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzi, həm ABŞ-dakı "Dünya Azərbaycanlıları Konqresi, həm də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən onlarla Azərbaycan milli mədəniyyət mərkəzləri və cəmiyyətləri ilə yaxından əlaqə saxlayır və yeri gələndə birgə tədbirlər də keçirir.

Təsadüfi deyildir ki, Respublikamızda ilk dəfə Azərbaycan diasporuna həsr edilmiş kitab və məqalələrin müəllifləri də məhz bizim İnstitutun əməkdaşları olub.

Fəlsəfə elmləri doktoru Vəli Həbiboğlu /Məcidov/ xeyli vaxtdır ki, Azərbaycan diasporunun aktual problemlərinin öyrənilməsi ilə məşğuldur. O, bir müddət Beynəlxalq Münasibətlər İnstitutunda "Azərbaycan diasporu şöbəsinə rəhbərlik etmişdir. İndi oxuculara təqdim olunan "Heydər Əliyev və Azərbaycan diasporu kitabı məhz müəllifin bu sahədəki ardıcıl işinin və axtarışlarının nəticəsidir.

Son bir neçə ildə Azərbaycan diasporunun fəaliyyətinin genişlənməsi və intensivləşməsində cənab Heydər Əliyevin müntəzəm və ardıcıl işləri ilə bağlı dövri mətbuatda bəzi yazı və məqalələr çap olunsa da, ilk dəfədir ki, bu istiqamətdə daha geniş, daha ətraflı araşdırma aparılmış, monoqrafik məzmunlu bir əsər hazırlanmışdır.

Azərbaycan prezidentinin məhz "Bütün ölkə-



2884

lərdə soydaşlarımız bir-biri ilə həmrəy, birgə olmalı, Azərbaycanın, millətimizin, müstəqil ölkəmizin naminə birləşməlidirlər çağırışından sonra Azərbaycan diasporunun fəaliyyətində güclü canlanma, intensiv əlaqələr, məqsədyönlü işbirliyi daha geniş şəkildə özünü biruzə verir. Öz kitabının strukturunu elə bu bucaq altında, bu istiqamətdə quran müəllif bir neçə bölmədə araşdırdığı problemi əhatə etməyə cəhd göstərmişdir. Xüsusən, "Dünyaya açılan pəncərə və "Əsrlərə nümunə bölmələri Azərbaycan diasporunun yaranma yollarından, son illərdə diasporumuzun fəaliyyətinin hərtərəfli şəkildə güclənməsində zatililəri, Azərbaycan prezidenti, cənab Heydər Əliyevin xidmətləri ardıcıl şəkildə izlənilir.

"Əsrlərə nümunə bölməsində həmçinin dünya ölkələri dövlət və hökumət başçılarının, xarici ölkələrin görkəmli ictimai, elm və mədəniyyət xadimlərinin prezident H.Əliyev haqqında söylədikləri fikirlər də oxuculara təqdim olunur.

V.Həbiboğlunun kitabının dəyərli məziyyətlərindən biri də odur ki, burada Azərbaycan prezidentinin Dünya azərbaycanlılarına müraciətləri, Dünya azərbaycanlılarının möhtərəm prezidentə göndərdikləri təbriklərdə toplanmışdır.

Kitabın sonunda əlavə kimi verilən Dünya ölkələrində yaşayan azərbaycanlıların sayına dair statistik rəqəmlər də araşdırılan problem haqqında təsəvvürlərin tamlığına xidmət edir və bütünlükdə Azərbaycan diasporu barədə bildiklərimizi daha da zənginləşdirir,

Fəlsəfə elmləri doktoru V.Həbiboğlunun bu dəyərli kitabına dair qeydlərimi Gürcüstan Respub-



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

likasının prezidenti E.A.Şevarnadzenin "Heydər Əliyev dünya miqyaslı görkəmli siyasi xadimdir adlı müsahibəsindən götürdüyümüz belə bir fikirlə tamamlamaq istərdik: "Mən dəfələrlə demişəm, Azərbaycan xalqının bəxti çox, olduqca çox gətirib ki, belə keşməkeşli, mürəkkəb bir dövrdə Azərbaycana nəinki öz ölkəsində, Zaqafqaziyada, keçmiş Sovet İttifaqı məkanında, həm də bütün dünyada tanınmış görkəmli siyasi xadim - Heydər Əlirza oğlu Əliyev başçılıq edir. O, olduqca böyük e'timada malikdir, dünya miqyaslı məşhur xadimdir. Əminəm ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə, Azərbaycan xalqının inkişafına və tərəqqisinə məhz o nail olacaqdır. Nəzərə çarpdırıram ki, bu, sizin üçün, eləcə də bizim üçün böyük səadətdir.

Bu kitabın ilk nəşri 1999-cu ildə olmuşdur. Həmin il mayın 9-da Azərbaycan Milli Elmlər Akademiyasının Beynəlxalq Münasibətlər İnstitutunda kitabın geniş təqdimat mərasimi keçirilmişdir.

**VAQİF ARZUMANLI,**
**filologiya elmləri doktoru, professor**



*Mən azərbaycanlıların harada yaşamasından asılı olmayaraq, Azərbaycan prezidenti kimi, onlara daim qayğı göstərməyə çalışıram".*

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## MÜƏLLİFDƏN

Azərbaycan Respublikasının Prezidenti möhtə-rəm Heydər Əliyev cənablarının ikinci dəfə müstəqil, istiqlaliyyət qazanmış bir dövlətin siyasi lideri - prezidenti seçilməsi bütün xalqımız, o cümlədən milli respublikamızın istiqlaliyyətinin möhkəmlənməsini arzulayan və bu istiqamətdə öz gündəlik fəaliyyətində ona kömək etməyə çalışan görkəmli siyasi xadimlər, dövlət başçıları, ayrı-ayrı siyasi qüvvələr tərəfindən böyük rəğbətlə qarşılandı. Azərbaycan xalqı tarixin ağır sınaqlarından çıxmış öz övladına, siyasət meydanında böyük təcrübə toplamış Heydər Əliyev cənablarına ikinci dəfə böyük etimad göstərib, onu ölkənin ikinci dəfə prezidenti seçdi, Vətənin, xalqın taleyi ona tapşırıldı.

Heydər Əliyevin Azərbaycan xalqı və Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində çox böyük tarixi xidmətləri vardır. Əgər keçmiş Sovetlər ölkəsində onun Azərbaycana 13 il rəhbərlik etməsini və bu müddətdə respublikamızın bütün ictimai həyat sahə-

lərində qazandığı *tarixi nailiyyətləri* nəzərə almasaq, cəmi 6 il ərzində Moskvada işlədiyi vaxt Azərbaycan, o cümlədən türk mənşəli respublikalar üçün gördüyü işləri sadalamasaq, görərik ki, böyük təşkilatçılıq, siyasi uzaqgörənlik qabiliyyətinə malik olan bu şəxsin təkcə son 9 il ərzində, yəni Azərbaycan istiqlaliyyət qazandıqdan sonra keçən müddət ərzində onun nə qədər misilsiz tarixi xidmətləri olmuşdur.

Bu gün tam cəsarətlə deyə bilərik ki, Azərbaycan dövlətçiliyinin qorunub saxlanması və tədricən möhkəmləndirilməsi sahəsində həyata keçirilən bütün *ictimai, siyasi, sosial-iqtisadi* və *sosial-mənəvi* tədbirlər bilavasitə onun adı ilə bağlıdır.

Azərbaycanda yaradılmış sabitlik milli dövlətçiliyimizin inkişafında mühüm rol oynayır. Bu mühüm məsələni diqqət mərkəzində saxlayan ölkə prezidenti sabitliyin pozulmaması qayğısına qalır, mövcud şəraitdən dövlətçiliyimizin möhkəmləndirilməsinə çalışır.

Heydər Əliyev cənablarının ölkənin prezidenti olduğu illərdə Azərbaycanda çox böyük nailiyyətlər qazanılmışdır. Belə ki, bu dövrdə milli istiqlaliyyətimiz, Azərbaycanın suverenliyi saxlanmış, Vətənimizə qarşı həyata keçirilən bütün *qara niyyətlər, silahlı* toqquşmalar aradan qaldırılmış, qarşısı alınmış, dövlətçiliyimizin siyasi dayaqları möhkəmləndirilmiş, respublikamızın dünya dövlətləri ilə əlaqələri yaradılmış və bu sahədə geniş, məqsədyönlü iş aparılmış, ölkədə vətəndaş müharibəsinin qarşısı alınmış, respublikamızın bir neçə yerə parçalanması təhlükəsi qəti olaraq aradan qaldırılmış, əhalinin sərbəst, təhlükəsiz, rahat yaşaması üçün lazımi şərait yaradılmışdır.

Bütün bunlar prezident Heydər Əliyev cənab-



larının ölkəmizdə apardığı ardıcıl, məqsədyönlü daxili və xarici siyasətinin nəticəsi sayəsində mümkün olmuşdur.

Heydər Əliyev çoxtərəfli, geniş ictimai fəaliyyəti olan bir şəxsiyyət, dünya əhəmiyyətli siyasətçidir. Onun ən böyük xüsusiyyətlərindən biri də budur ki, o dövlətçilik işində bütün vasitələrdən maksimum dərəcədə səmərəli istifadə etməyə çalışır, daim bu sahədə təkmilləşmələr aparır, yeni-yeni fikirlər irəli sürür.

Müstəqilliyimizin qazandığı və dövlətçiliyimizin möhkəmləndirilməsinə böyük ehtiyac duyulduğu ilk dövrdə onun respublikamızın başında durub, ona rəhbərlik etməsi özlüyündə son dərəcə təqdirəlayiq bir hadisə kimi qiymətləndirilməlidir. Çünki belə ağır bir dövrdə onun ölkəyə rəhbərlik etməsi Azərbaycanı sözün əsl mənasında məhv olmaqdan xilas etmişdir. Bunu və ümumiyyətlə Heydər Əliyevin vətənimiz qarşısındakı xidmətlərini layiqincə dərk edən xalqımız çox düzgün olaraq onu ikinci dəfə prezident seçmişdir.

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edən bir çox amillər arasında Heydər Əliyev milli diasporun formalaşmasına və onun fəaliyyətinə yüksək qiymət verir. Buna görə də o demək olar bütün səfərlərində diasporun fəaliyyətini diqqət mərkəzində saxlayır, bu işə dövlətçiliyimizin mühüm tərkib hissəsi kimi baxır.

Tarixi təcrübə sübut edir ki, diasporun fəaliyyətinin yaxşılaşdırılmasında dövlətin apardığı xarici siyasət xətti mühüm əhəmiyyət kəsb edir. Bu sahədə xüsusi tədqiqat işi aparan professor Vaqif Arzumanlı yazmışdır: "Xaricdə yaşayan həmvətənlərimizlə həmrəyliyin əsas təminatı Azərbaycan Respublikasının

müstəqil xarici siyasətindən çox asılıdır. Məlumdur ki, Azərbaycan dövlətinin bütün ölkələrlə dinc yanaşı yaşamaq, mübahisəli məsələlərdə zorakılığa yol verməmək, bir-birinin daxili işlərinə qarışmamaq, hərtərəfli əməkdaşlıq və qarşılıqlı yardım əsasında münasibətlər qurmaq prinsiplərinə əməl etməsi çox mühüm şərtdir. Son vaxtlar Azərbaycan Respublikasının bir çox dövlətlərlə iqtisadi və siyasi əməkdaşlığı, birbaşa diplomatik əlaqələr yaratması və beynəlxalq təşkilatlarda təmsil olunması xaricdəki soydaşlarımızla əlaqələrin genişlənməsinə xeyli kömək etmişdir". /V.Arzumanlı, A.Hüseynov. Azərbaycan ünvanı. Bakı, Qorqud, 1994, səh.3-4/.

Heydər Əliyev cənablarının xarici siyasət sahəsində məqsədyönlü fəaliyyəti dövlətimizin möhkəmlənməsi işində diaspor nümayəndələrinin fəal iştirakı üçün geniş imkanlar açmışdır.

Biz görkəmli siyasi xadim Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində çoxtərəfli xidmətlərini qeyd etməklə onun yalnız bir istiqamətdə çoxcəhətli fəaliyyətini qələmə almağa çalışmışıq. Əslində isə "Heydər Əliyev və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi" mövzusu çox genişdir, ölkə prezidentinin bu sahədəki fəaliyyəti xüsusi tədqiq olunmalıdır.

Fikrimizcə, gələcəkdə bu istiqamətdə tədqiqat aparanlar möhtərəm prezidentin dövlətçiliyimizin möhkəmləndirilməsində rolunu araşdırmaq işində bu kitabdan dəyərli vəsait kimi istifadə edə biləcəklər.

Kitabda Respublikamızın prezidenti Heydər Əliyev cənablarının son 9 il ərzində bu istiqamətdə apardığı siyasət, geniş siyasi fəaliyyəti, gördüyü işlər



konkret faktlar əsasında təhlil olunur, Azərbaycan diasporunun formalaşması və inkişafı prosesində bir dövlət xadimi kimi onun mühüm rolu işıqlandırılır.

***

**Kitabın ilk nəşrinin sponsoru vətənpərvər ziyalı, Hacı Zeynalabdin Tağıyev adına mükafatın laureatı Əli Abuzər oğlu Əliyev olmuşdur.**

## MÜSTƏQİLLİYİMİZİ ƏBƏDİLƏŞDİRƏN DAHİ ŞƏXSİYYƏT

XX əsrdə Azərbycan xalqı iki dəfə müstəqilliyə can atmışdır. 1918-ci ildə öz müstəqilliyini elan edən Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşadı, amma bu müddət ərzində xeyli iş görə bildi.

Xarici müdaxiləçilərin və daxili inqilabi qüvvələrin fəaliyyəti nəticəsində xalqımızın suverenliyi 1920-ci ilin aprelində məhv oldu, Azərbaycan öz müstəqil inkişafından uzun müddət uzaq düşdü. Azadlıq, müstəqillik arzusu yalnız ürəklərdə yaşadı.

XX əsrin axırlarına yaxın Azərbaycan xalqı ikinci dəfə öz istiqlaliyyətini qazanmaq imkanı əldə etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini yenidən bütün dünyaya elan etdi. Xalq əsrlər boyu arzuladığı, əziz bir nemət kimi ürəklərdə yaşatdığı Azadlıq bayrağını göylərə ucaltdı, öz suverenliyini, istiqlaliyyətini qorumaq üçün ayağa qalxdı.

Lakin az keçməmiş qara buludlar yenidən müstəqilliyimizin başı üzərini aldı. Xalq dərk etdi ki, müstəqilliyi, istiqlaliyyəti qazanmaq nə qədər çətindirsə, onu saxlamaq, möhkəmləndirmək bir o qədər ağır və mürəkkəb bir işdir.

Bu gün Azərbaycan xalqı, dövlətçiliyimiz müstəqil respublikamızın yaşamasına, müxtəlif həyat sahələrində qazandığı uğurlara görə öz müdrik oğlu, dünya siyasətində öz dəsti-xətti ilə seçilən və fərqlənən, görkəmli dövlət xadimi, möhtərəm prezidentimiz Heydər Əliyevə minnətdardır. Əgər 1993-cü ilin isti İyun günlərində Heydər Əliyev xalqın tələbi ilə müstəqil respublikamızın idarəetmə sükanı arxasında durmasaydı, Azərbaycanın dövlətçiliyini qoruyub saxlamağı öz üzərinə götürməsəydi, bu gün Azərbaycan Respublikası öz müstəqilliyini möhkəmləndirmək istiqamətində mühüm addım ata bilməyəcəkdi. Çünki həmin dövrdə Azərbaycanın dövlət müstəqilliyi böyük təhlükə altında idi.

Ölkədə yaranmış ictimai-siyasi vəziyyətdən baş çıxarmaq, vətəndaş müharibəsi təhlükəsinin qarşısını almaq, torpaqlarımızın bütövlüyünü qorumaq, daxildə meydan sulayan xəyanətkar qüvvələrin iç üzünü açmaq, əsl simalarını xalqa tanıtdırmaq, dünya dövlətlərini Azərbaycana cəlb etmək, respublikamız haqqında əsl həqiqətləri düzgün şəkildə dünya ictimaiyyətinə çatdırmaq, informasiya blokadasını yarmaq və s. həlli vacib olan bir çox problemləri müdrikcəsinə həll etmək ancaq böyük siyasətçi, zəngin təcrübə məktəbi və dövlətçilik səriştəsinə malik cənab Heydər Əliyevə müyəssər ola bilərdi. Onun Azərbaycanda belə çətin bir şəraitdə hakimiyyət başına gəlməsi müstəqil Azərbaycan Respublikasını yenidən məhv olmaqdan xilas etdi. O, Azərbaycanın gələcək inkişafının mühüm vəzifə və perspektivlərini müəyyənləşdirdi.

Həmin dövrdə respublikamızın ağır böhran vəziyyətindən çıxması üçün sosial-iqtisadi sahədə böyük işlər görülməliydi. Müstəqilliyimiz tarixi bir hadisə kimi möhkəmlənməli idi, əks halda müstəqilliyin məhvinə göz dikən qüvvələrin fəallaşması nəticəsində Azərbaycanda parçalanma prosesi, vətəndaş müharibəsi təhlükəsi daha da artacaqdır. Xalqın ağır vəziy-

yətində hakimiyyət başına gələn Heydər Əliyev ilk növbədə müstəqilliyimizi qoruyub saxlamağı və möhkəmləndirməyi vacib hesab elədi, o zəngin siyasi təcrübəyə, dövlətçilik səriştəsinə arxalanaraq qısa müddət ərzində ölkədə sabitlik və əminamanlıq yaratmağa müvəffəq oldu.

Azərbaycan iqtisadiyyatının dağılması prosesini böyük ürək ağrısı ilə görüb qeyd edən Heydər Əliyev siyasi sabitlik sahəsində böyük uğurlar qazanmaqla yanaşı həm də bu iqtisadiyyatın böhran vəziyyətindən çıxmasını da diqqət mərkəzində saxladı. Tamamilə dağılmış və respublika vətəndaşlarının rifahının aşağı düşməsinə səbəb olmuş iqtisadiyyat ölkə prezidentinin həyata keçirdiyi mühüm iqtisadi tədbirlər sayəsində tədricən dirçəlməyə başladı. Görkəmli siyasi xadim hələ hakimiyyətə gəldiyi ilk günlərdə xalqın ümidinin ölməməsi üçün demişdi: "Respublikanın böyük sosial-iqtisadi potensialı vardır. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir".

Həyat bu uzaqgörənliyi çox keçmədən sübuta yetirdi. Azərbaycan iqtisadi-sosial sahədə mühüm tədbirlər həyata keçirməklə ağır böhran vəziyyətindən çıxmağa başladı. Ölkə rəhbərinin apardığı düzgün, düşünülmüş siyasət nəticəsində Respublikamız iqtisadi yüksəlişə doğru inamla irəlilədi.

Bu gün Azərbaycan Respublikası sosial-iqtisadi sahədə, daxili və xarici siyasət sahəsində çox mühüm nailiyyətlər qazanmışdır. Vaxtilə Azərbaycanın müstəqilliyini məhvə aparan qüvvələr yenə də baş qaldırır, Heydər Əliyevin rəhbərliyi altında qazanılmış bu uğurların üzərinə kölgə salmağa çalışırlar. Halbuki 1993-cü ildə Azərbaycanda ölkəni xaotik vəziyyətə çatdıran bu müxalif qüvvələr yaranmış vəziyyətdən çıxış yolu tapmayaraq cənab Heydər Əliyevi Naxçıvandan Bakıya də'vət etmişdilər. Həmin dövrdə həm xalqımızın, həm də müxalifət qüvvələrinin ümid yeri məhz Heydər Əliyev idi. Çünki ölkədə yaranmış vəziyyəti, vətəndaş müharibəsini, parçalanmağı, dövlət müstəqilliyini məhv olmaqdan heç kim xilas edə və aradan qaldıra bilməzdi.

Azərbaycan Respublikasının sabiq prezidenti Əbülfəz Elçibəy 1993-cü il may ayının 25-də Prezident Aparatında hüquq mühafizə orqanlarının işçiləri ilə müşavirədə ölkədə yaratdıqları vəziyyətdən gileylənərək demişdir: "Xalq deyir. Kaş canımız bu Xalq Cəbhəsinin əlindən qurtaraydı. Prokurorluqdan və məhkəmədən xahiş edirəm buna cavab versinlər. Bu gün respublika niyə dağılır?" /"Yeni Azərbaycan",12 iyun 2001-ci il/.

Bu gün özlərini vətən fədaisi, xalq qəhrəmanı kimi göstərməyə çalışanlar, respublikanı 1993-cü ildə girdaba, ağır iqtisadi və sosial böhranlı vəziyyətə, nəhayət, məhv olmağa sürükləyənlər həmin günləri nə tez unutdular.

Həmin müşavirədə, vaxtilə respublikanın dövlət katibi vəzifəsini tutmuş Əli Kərimov da ölkənin ağır vəziyyətə salınması haqqında demişdi: "İqtisadi cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyriqanuni yollarla xaricə satılması, bir sözlə, dövlət əmlakının talan edilməsi adi hala çevrilib. Respublikada rəsmi özəlləşdirmə başlamamış, qeyri-qanuni yolla dövlət əmlakının özəlləş-

dirmə adı ilə mənimsənilməsi prosesi gedir. Respublikada xidməti maşınların özəlləşdirilməsi kütləvi hal alıb. 3 mindən çox xidməti maşın özəlləşdirilib". /"Yeni Azərbaycan", 12 iyun 2001-ci il/.

Bu tarixi faktdır, ondan qaçmaq olmaz. Hər şey göz qabağındadır. Çox çətinliklə qazanılmış dövlət müstəqilliyini təhlükə altına salmış və ölkədə yaranmış ağır sosial-iqtisadi böhranı həll etmək qabiliyyəti olmayan AXC-Müsavat qüvvələri çarəsiz qalaraq Heydər Əliyevi təcili hakimiyyətə çağırdılar. Çünki artıq dövləti idarə etmək mümkün deyildi. Vətəndaş müharibəsi, Talış-Muğan Respublikası kimi separatçılıq meylinin ölkədə artması, sadvalçıların pozuculuq fəaliyyəti, dövlət çevrilişlərinə cəhd, silahlı dəstələrin özbaşınalığı, ərazilərimizin işğalı, 1 milyondan artıq qaçqının yerləşdirilməsi və təmin edilməsi, sosial-iqtisadi böhranın daha da dərinləşməsi və s. neqativ halların mövcudluğu heç də Heydər Əliyevi qorxutmadı. O, özünəməxsus yüksək təşkilatçılıq və siyasi uzaqgörənliklə qarşıya çıxan bu problemləri bir-bir həll etdi. Azərbaycan Respublikasının dövlət müstəqilliyini məhv olmağa qoymadı, onun beynəlxalq əlaqələrini inkişaf etdirdi, demokratik, hüquqi dövlət yaratmaq yolunda mühüm addımlar atdı.

Bu kitab dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın fəaliyyətini, Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin soydaşlarımızla görüşlərini, onlara verdiyi məsləhət və tövsiyələrini əks etdirdiyinə görə soydaşlarımıza qısa da olsa cənab Heydər Əliyevin bioqrafiyası, keçdiyi həyat yolu barədə məlumat verməyimiz məqsədəuyğundur.



Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da qədim Naxçıvanda fəhlə ailəsində anadan olmuşdur. O, pedaqoji texnikumu Naxçıvanda bitirmiş, 16 yaşında Bakıya gələrək Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdur.

Lakin müharibənin başlanması təhsili yarımçıq qoymuşdur. O, çox arzuladığı me`marlıq ixtisasına yiyələnə bilməmişdir. Amma bütün ömrü boyu Azərbaycanın dövlət qurucusu me`marı kimi fəaliyyət göstərmiş, rəhbərlik etdiyi illərdə ölkədə saysız-hesabsız binalar ucaltmışdır.

Heydər Əliyev 1944-cü ildə Naxçıvan Muxtar Respublikası Xalq Komissarları Sovetinin şöbə müdirliyindən Azərbaycan Dövlət Təhlükəsizliyi orqanlarına işə keçmişdir. Azərbaycanlılar üçün çox böyük tarixi əhəmiyyəti olan bu tə`yinat sayəsində Heydər Əliyev qısa vaxt ərzində özünün qabiliyyət və bacarığı ilə diqqəti cəlb etmiş və general-mayor rütbəsinə qədər yüksəlmişdir.

Heydər Əliyev bu orqanlarda bu rütbəyə yüksələn ilk azərbaycanlıdır.

Heydər Əliyev 1969-cu ilin iyun ayında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. O, 14 il bu vəzifədə işləmiş, Azərbaycanın simasını kökündən dəyişmişdir. 1969-1982-ci illərdə adambaşına düşən milli gəlir iki dəfə, onun ümumi həcmi isə 2,5 dəfə yüksəlmiş, həmin dövr ərzində milli gəlirin təkcə artımı isə 1969-cu ilin həcmi qədər olmuşdu. Respublikada sənaye istehsalı təxminən 3 dəfə, əmək məhsuldarlığı isə iki dəfə artmış, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə çoxalmışdı. Ümumi kənd təsərrüfatı məhsulu 2,7 dəfə artmış, kənd

təsərrüfatında məhsuldarlıq və əmək məhsuldarlığı təxminin 2 dəfə artmışdı. Bu dövrdə respublikada 250 iri zavod, fabrik, sex, istehsal sahəsi tikilmişdir, 2 milyondan çox adam öz mənzil şəraitini yaxşılaşdırmışdır.

Bu illərdə ölkədə neft məhsulları, neft-mədən avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil şinləri, mineral kübrələr, çini saxsı məmulatı, xalça və xalça məmulatı istehsal olunurdu ki, Azərbaycan məhz bu istehsala görə keçmiş SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Həmin illərdə Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Bu illərdə gün ərzində Azərbaycanda istehsal olunan məhsulun siyahısına diqqət yetirəndə təəccüblənməmək mümkün deyildir: 41 min ton neft, 37 milyon kubmetr qaz, 2200 ton polad, ümumi uzunluğu 169 min ton boru, 4900 avtomobil şini, 2700 ton mineral kübrə, 968 məişət kondisioneri, 734 soyuducu, ümumi uzunluğu 564 min metr müxtəlif parça.

1969-1982-ci illər ərzində SSRİ-nin 170-dən çox qabaqcıl ali tədris müəssisələrində Azərbaycandan gəlmiş gənclər təhsil alırdı. Hər il Azərbaycandan kənara 800 nəfərdən çox gənc təhsil almağa göndərilirdi. Azərbaycanlı gənclərin hərbi-tədris müəssisələrinə oxumağa göndərilməsinə xüsusi diqqət verilirdi.

Bu dövrdə Azərbaycanda həyata keçirilən yeniliklər, görülmüş işlər öz miqyasına görə o qədər çoxdur ki, onların hamısını sadalamaq belə mümkün deyildir.

Heydər Əliyevin 1976-cı ildə Sov.İKP MK-nın Siyasi Bürosu üzvülüyünə namizəd, 1982-ci ilin dekabrında isə Büro üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi təkcə Azərbaycan xalqı üçün deyil, həm də bütün Türk dünyası üçün böyük fəxr idi.

Heydər Əliyev 20 il Sovet İttifaqı kimi dünyanın ən böyük superdövlətin parlamentinin üzvü olub, işində fəal iştirak edib. O, Sovet İttifaqı rəhbərlərindən biri seçildikdən sonra Avropa, Asiya, Afrika və Latın Amerikası ölkələrinə gedən nümayəndə heyətlərinə dəfələrlə rəhbərlik etmiş, keçmiş SSRİ-nin beynəlxalq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

Heydər Əliyevin böyük siyasi təşkilatçılıq qabiliyyəti bu vəzifədə daha qabarıq nəzərə çarpmışdır. Keçmiş SSRİ-nin ən ağır sahələrinin inkişafı onun adı ilə bağlıdır. Onun bu vəzifədə işlədiyi o tarixi günlərdən xeyli vaxt keçməsinə baxmayaraq bu gün Rusiyadan, eləcə də keçmiş SSRİ-nin müxtəlif respublikalarından, həmçinin dünyanın bir sıra dövlətlərindən müstəqil Azərbaycana gələn hər bir yüksək vəzifə sahibləri, rəsmi şəxslər bu böyük siyasi xadimin həmin illərdə gördüyü işlərdən böyük ruh yüksəkliyi ilə danışırlar. Görkəmli dövlət xadiminin təşkilatçılıq, dövləti idarəetmə qabiliyyətini yüksək qiymətləndirirlər.

Çox təəssüf ki, Heydər Əliyevin Moskvada yüksək vəzifədə işlədiyi dövr, illər ayrıca tədqiq olunub xalqa çatdırılmamışdır. Onun siyasi uzaqgörənliyi, M.S.Qorbaçovun hakimiyyəti dövründə baş verən hadisələrə prinsipial, həssascasına münasibəti həmin illərdə çoxları, xüsusilə Siyasi Büroda çalışan öz ətrafı tərəfindən lazımi səviyyədə qiymətləndirilməsə də, sonralar bu müdrik siyasətçinin obyektivliyi, ölkədə baş verən mövcud ictimai-siyasi vəziyyəti düzgün

qiymətləndirmək bacarığı, prinsipial mövqeyi dəfələrlə siyasətçilər, dövlət xadimləri tərəfindən qiymətləndirilərək etiraf olundu.

Sonralar Heydər Əliyev bu haqda belə demişdir: "Tam qətiyyətlə demək olar ki, 1985-ci ildə ölkəmizdə başlanmış dəyişikliklərin elmi, siyasi, iqtisadi cəhətdən əsaslandırılmış, uzunmüddətli strategiyası yox idi. Təbii ki, ayaq-üstü görülən, bəzən bir-birinə zidd tədbirlər müsbət nəticə vermədi...

Milli siyasətdə buraxılmış ciddi səhvlər əksər respublikalarda faciələrə səbəb oldu. Alma-Ata, Tbilisi, Fərqanə, Bakı, Yeni Uzen, Oş şəhərlərində, Baltikyanı respublikalarda baş verən hadisələr respublikaların suveren *hüquqlarının tapdanmasının, mərkəzin imperiya* siyasətinin birbaşa nəticəsi idi.

Ötən illərdə özünü büruzə vermiş demokratiya, aşkarlıq, siyasi plüralizm artıq məhdudlaşdırılır, ölkədə diktatura bərqərar olurdu.

...Bütün bunlar cəmiyyətimizi ümumilli fəlakət həddinə gətirib çıxardı". /"Mənim idealım" Heydər Əliyev. Bakı, Qorqud, 1998, səh.20/.

Görkəmli siyasi xadim böyük uzaqgörənliklə bütün bunları yaxşı görürdü, yaranan fəlakətin Azərbaycanın başında çatlayacağını duyurdu. Onun hadisələrin gedişinə prinsipiallıqla müdaxilə etməsi, obyektiv fikir söyləməsi, xalqı, dövləti, yaranmaqda olan demokratiyanı müdafiə etməsi ilk növbədə M.S.Qorbaçova və onun ətrafına toplaşmış ermənipərəst qüvvələrin xoşuna gəlmirdi. Onlar bu müdrik siyasətçini, görkəmli dövlət xadimini işdən çıxarıb istirahətə göndərməklə, daha doğrusu, onu siyasi meydandan uzaqlaşdırmaqla öz avantürüst, ermənipərəst siyasətlərini, çoxdan nəzərdə tutduqları məkri niyyətlərini həyata keçirməyə başladılar. Qondarma Dağlıq Qarabağ münaqişəsi ortaya atıldı və bununla da erməni və Azərbaycan xalqı böyük fəlakət, uçurum qarşısında qaldı.



Ermənistanla heç bir sərhədi olmayan, sosial-iqtisadi inkişaf nöqteyi nəzərindən yalnız Azərbaycanla sıx bağlı olan Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində 123 min erməni yaşayırdı. Onların da böyük əksəriyyəti keçmiş SSRİ-nin müxtəlif respublikalarına işləməyə getdiklərindən bu ərazidə məskunlaşmamışdılar. Dağlıq Qarabağ ərazisində həmin dövrdə 32 min nəfər azərbaycanlı yaşayırdı.

Ermənilər hələ XX əsrin *iyirminci illərində* Azərbaycanın torpaqları hesabına Ermənistan Sovet Sosialist Respublikasını qurmuşdu. Bundan əlavə, həmin dövrdə Sovet dövlətinin apardığı milli siyasətin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası Azərbaycandan sün'i surətdə təcrid olunmuşdu. Bütün bunlar azmış kimi Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistana birləşdirilməsi tələbinin irəli *sürülməsi Azərbaycan torpaqlarının xeyli hissəsinin* yenidən qoparılması demək idi. Ermənilər Heydər Əliyevi tutduğu yüksək vəzifədən uzaqlaşdırdıqdan sonra geniş əl-qol açа bildilər, öz məkri siyasətlərini həyata keçirməyə başladılar. Məhz Mərkəzin əli ilə Azərbaycan Respublikasının rəhbərliyinə elə bir şəxs axtarılıb tapıldı ki, o bütün ömrü boyu öz milli kökündən uzaqlaşmış bir insan idi. Ə.Vəzirov kimi xalqdan uzaq bir dövlət başçısının ermənipərəst, mərkəzin əlində oyuncağa çevrilmiş, xalqın ağır həyat şəraitinə, başına gətirilmiş faciələrə biganə qalaraq

əhaliyə hamam tikmək, qoz ağacı əkmək məsləhətlərini verən, öz ana dilində fikrini aydın izah edə bilməyən manqurt bir insanın xalqa zidd hərəkətlərini görən əhali yaranmış gərgin ictimai-siyasi vəziyyəti daha da gərginləşdirdi, öz qanuni haqlarını tələb etdi. Ermənistandan 200 mindən çox soydaşımızın öz dədə-baba yurdlarından vəhşicəsinə qovulması, bu deportasiya zamanı xeyli azərbaycanlının öldürülməsi, döyülərək işgəncələrə mə`ruz qalması, bütün ömrü boyu işləyərək özünə ev-eşik düzəltmiş Qərbi Azərbaycanda yaşayan həmvətənlərimizin bir gün ərzində var-yoxdan çıxması Əbdürrəhman Vəzirov kimi manqurtların vətənpərvərlik hisslərini oyada bilmədi, əksinə, onlar bu zavallı insanların ermənilərin yaşadıqları Dağlıq Qarabağ Vilayəti ərazisində qaçqın vəziyyətində məskunlaşması qarşısına belə sədd çəkdi. Çünki mərkəzin tələbi belə idi. Mərkəz həmin dövrdə Heydər Əliyevin böyüklüyünü, siyasi qüdrətini, nüfuzunu da xalqın gözündən salmaq üçün onun ətrafında müəmmalı siyasət yürütməyə çalışır, mərkəzi və respublika mətbuatında heç bir əsası olmayan fitnə dolu yazılar dərc elətdirirdi. Bir sözlə, Heydər Əliyevi bütünlüklə ictimai-siyasi hadisələrdən təcrid etmək siyasəti yeridilirdi.

Əbdürrəhman Vəzirovun Mərkəzdən idarə olunan fəaliyyəti Azərbaycan xalqına 20 yanvar faciəsini bəxş etdi. Belə bir qanlı tarixi hadisə gününün səhərisi Azərbaycan xalqı öz müdrük oğlunun səsini eşitdi, Heydər Əliyev Moskvada Azərbaycan səfirliyinə gələrək xalqın başına açılmış faciə ilə bağlı dünya ictimaiyyətinə bəyanat verdi, onun yaranması səbəblərini açıqladı. O, 20 yanvar faciəsini öz dərdi kimi qəbul etdi, xalqın kədərinə şərik oldu, bu faciəni törədənlərə qarşı



öz qəzəb və nifrətini bildirdi.

Həmin dövrdə Heydər Əliyevin Bakıya gəlib şəhidlərin dəfnində iştirak etməsinə yol verilmədi. Xalq öz şəhidlərini tək-tənha dəfn etməli oldu, yüksək hakimiyyət strukturlarından heç kim bu böyük ümumxalq hüznündə iştirak edə bilmədi.

Heydər Əliyev 1990-cı ilin iyulunda Bakıya gəldi, böyük siyasətə qoşuldu, bir qədər sonra isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsinə seçildi.

Heydər Əliyev kimi böyük siyasi təcrübəyə və yüksək təşkilatçılıq qabiliyyətinə malik olan dövlət xadimi üçün kiçik bir muxtar respublikanı idarə etmək heç nə idi. Lakin Allah-Taala onu həmin vaxtda Naxçıvana sanki bir pənahgah, xalqın ümid yeri kimi göndərmişdi. Çox ağır vəziyyətdə, blokada şəraitində yaşayan bu regionun əhalisini qışdan çıxarmaq, dolandırmaq və üstəlik də erməni təcavüzündən qorumaq, Bakıdan göndərilən hər cür fitnəfəsadın qarşısını almaq heç də asan məsələ deyildi.

Bu çətinliyi ancaq Heydər Əliyev əzəməti, siyasi təcrübəsi, yüksək təşkilatçılığı aradan qaldıra bilərdi.

Heydər Əliyevin həmin dövrdə Naxçıvanda Ali Məclisə rəhbərlik etməsi sayəsində Naxçıvan öz varlığını saxlaya bildi, erməni qəsbkarları tərəfindən işğala məruz qalmadı.

Naxçıvan blokada vəziyyətində olsa da, həmin dövrdə dövlət içində bir dövlət kimi fəaliyyət göstərirdi. O, Bakıdan tam təcrid olunmuşdu. Muxtar respublikanın bütün sosial-iqtisadi problemlərinin həlli Heydər Əliyevin öhdəsinə buraxılmışdı.

Xalq öz övladına, müdrük siyasətçiyə inanırdı. Onun ardınca gedirdi, hər bir hərəkətini, fəaliyyətini dəstəkləyirdi. Heydər Əliyev isə belə ağır bir vaxtdan özünü xalqdan ayrı təsəvvür edə bilmirdi, o xalqın ona inamından, etibarından qüvvət alırdı, bütün qüvvə və bacarığını bu blokada şəraitində yaşayan muxtar respublikanın yaşamasına, erməni təcavüzkarlarından xilas olmasına çalışırdı. Ona rəsmi dövlət orqanlarından heç kim kömək etmirdi. Əksinə, çalışılırdı ki, onu xalqın gözündən salsınlar, bu məqsədlə də onun əleyhinə böhtan, iftira kampaniyası baş alıb gedirdi.

Lakin bu təbliğat maşınının yaydığı hər cür böhtan və iftira dolu hədyanlar xalqın qəlbində özünə möhkəm yer tutmuş Heydər Əliyevin nüfuzunu sarsıda bilmədi. Buna görə də Azərbaycan xalqı ölkənin ən ağır, mürəkkəb bir vaxtında üzünü öz müdrik oğluna, xilaskarına tutdu, onu hakimiyyətə çağıraraq ölkədə baş verən anarxiyaya son qoymağa, müstəqilliyimizin qorunub saxlanmasını təmin etməyə səslədi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də Heydər Əliyev ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. O, Azərbaycan xalqı qarşısında and içdi, respublikanın gələcək inkişafı və perspektivləri barədə aşağıdakıları qeyd etdi: "And içirəm ki, Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm. Azərbaycan Respublikasının dünya dövlətləri içərisində ləyaqətli yer



tutmasına çalışacağam...

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikamızın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yol ilə gedəcəyik.

Azərbaycan Respublikasının ağır böhran vəziyyətindən çıxması üçün sosial-iqtisadi sahədə böyük işlər görülməlidir. Təsəvvür edin ki, müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi bir hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olması ağır və çətin haldır. Təəssüf ki, son illərdə respublikanın böhran vəziyyətində olması iqtisadiyyatın bütün sahələrinə mənfi tə`sir göstərmişdir. İqtisadiyyat demək olar tamamilə dağılmış və bu da respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır. Eyni zamanda qeyd etmək istəyirik ki, respublikanın böyük iqtisadi-sosial, elmi-texniki potensialı vardır. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir.

Bu tarixi çıxışdan xeyli vaxt keçmişdir. Azərbaycanda Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uzaqgörənliyi, müdrikliyi, milli maraqlara tam cavab verməsi nəticəsində respublikamızın

müstəqilliyi möhkəmlənmiş, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmış, dünya dövlətləri sırasında Azərbaycan Respublikasının nüfuzu xeyli yüksəlmişdir.

Ölkəmizdə vətəndaş cəmiyyətinin qurulması istiqamətində çox mühüm işlər görülməkdədir.

Bütün bunların həyata keçirilməsi işində, möhtərəm prezidentimiz Heydər Əliyev belə hesab edir ki, mütləq bütün dünya azərbaycanlıları fəal iştirak etməlidir. Azərbaycanın mənafeyi, milli maraqları dünyanın müxtəlif dövlətlərində yaşayan hər bir soydaşımızın həyati fəaliyyətində mühüm yer tutmalıdır.



***"Biz öz müstəqilliyimizi dünyada təsdiq etmək, onu toxunulmaz etmək, əbədiləşdirmək, enməz etmək üçün dünya birliyində Azərbaycanın bu gün nə olduğunu və gələcəkdə nəcür ölkə olacağını sübut etməliyik".***

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

## DÜNYAYA AÇILAN GENİŞ PƏNCƏRƏ

İyirminci əsrdə iki dəfə müstəqillik əldə edib istiqlaliyyət bayrağını qaldırmış Azərbaycan Respublikası çox çətin və mürəkkəb ictimai-siyasi, iqtisadi vəziyyətlə qarşılaşıb. Birinci dəfə, yəni 1918-ci il mayın 28-də yaradılmış və cəmi 23 ay yaşamış Azərbaycan Demokratik Respublikasını qoruyub saxlamaq mümkün olmayıb, amma müstəqillik əldə etmək, istiqlaliyyətə qovuşmaq xalqımızın ümdə arzusuna çevrilib. Xalq istiqlaliyyət qazanacağı günü uzun illər boyu səbirsizliklə gözləyib.

İkinci dəfə isə istiqlaliyyətimizin qorunub saxlanması zəmanəmizin böyük siyasi lideri, xalqımızın ləyaqətli oğlu Heydər Əliyev cənablarının adı ilə bağlıdır. Əgər 1993-cü ildə Azərbaycan Respublikasının başı üzərini ağır təhlükə aldığı bir vaxtda, daha doğrusu, müstəqilliyimizin məhv olması təhlükəsi mey-

dana çıxdığı bir dövrdə o hakimiyyətə gəlməsəydi, yə`qin ki, Azərbaycan Respublikasında vətəndaş müharibəsi başlanacaq, ölkəmiz müxtəlif regionlara parçalanacaq, bir sözlə, müstəqilliyimizə diş qıcamış qara qüvvələrin niyyətinə müvafiq olaraq respublikamız yenidən əsarət, asılılıq girdabına düşüb boğulacaqdı. Həmin dövrdə istər erməni siyasətbazları, istərsə də Azərbaycanın müstəqilliyinə xor baxanlar ölkədə sabitliyin qərarlaşmasına müxtəlif vasitələrlə mənfi təsir göstərir, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsinin qarşısını almağa çalışırdılar. Məhz belə bir dövrdə Heydər Əliyevin siyasi müdrikliyi, uzun illər dövlət quruculuğu sahəsində topladığı zəngin təcrübə, hadisələrin axarını qabaqcadan görmək bacarığı dövlətin, xalqın ziyanına olan hər bir atılan addımı vaxtında saxlamaq qabiliyyəti sayəsində ölkədə baş verən hərcmərcliyin, siyasi oyunbazların, təcrübəsiz dövlət rəhbərlərinin əlində bir alətə, şəxsi mənafelərinin təmin olunması üçün yağlı bir tikəyə çevrilmiş müstəqil respublikamızın, dövlətçiliyimizin məhv olmasının qarşısı alınmışdır.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və dünyanın sivil dövlətləri sırasında özünəlayiq şərəfli bir yer tutması istiqamətində Heydər Əliyev cənabları görkəmli bir siyasi xadim kimi çox geniş və məqsədyönlü iş aparır. Onun xüsusilə respublikanın prezidenti seçildikdən sonra bütün sahələrdə gərgin və məqsədyönlü fəaliyyəti haqlı olaraq dünyanın müxtəlif siyasi xadimləri, aparıcı kütləvi informasiya orqanları tərəfindən təqdirəlayiq hesab olunur. Təsadüfi deyil ki, o, 1997-ci ilin yekunlarına görə dünyanın qabaqcıl siyasi xadimləri arasında birinci yer tutmuşdur. Bu, xalqımızı



sevindirir, hörmətli prezidentimizə qarşı hamımızın rəğbət və etimad hissini artırır, respublikamızın qarşısında duran qlobal problemlərin həll olunmasına dərin inam hissi yaradır.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi təkcə iqtisadi problemlərin həll olunması ilə başa çatmır. Bu mühüm tarixi vəzifənin həlli üçün bir çox mənəvi-siyasi amillərin də yerinə yetirilməsi çox vaxt şərtlərdən biridir.

Azərbaycan xalqı XXI əsri böyük ruh yüksəkliyi ilə qarşılamışdır. Respublikamız Avropa Şurasına daxil olmuşdur. Bu il öz müstəqilliyinin 10-cu ildönümünü böyük təntənə ilə qeyd etməyə hazırlaşır. Torpaqlarımızın azğın erməni təcavüzkarlarından təmizlənməsi, qaçqınların dədə-baba yurdlarına qaytarılması, iqtisadiyyatımızın bərpa və inkişaf etdirilməsi naminə dünya dövlətləri ilə hərtərəfli əlaqələrin yaradılması və normal məcrada inkişaf etdirilməsi kimi taleyüklü mühüm problemlərin həlli sahəsində mühüm addımlar atılmışdır.

Azərbaycan xalqı xoşbəxtdir ki, belə problemləri həll etmək, ümumiyyətlə müstəqilliyi möhkəmləndirmək, milli dövlətçiliyimizi inkişaf etdirmək sükanı başında dünyanın görkəmli siyasi xadimləri tərəfindən qiymətləndirilən, zəmanəmizin böyük siyasi xadimi Heydər Əliyev cənabları durur. Onun son bir neçə il ərzində milli istiqlaliyyətimizin qorunub saxlanması və möhkəmləndirilməsi sahəsində gördüyü nəhəng, məqsədyönlü işlər Azərbaycanın dövlətçiliyi tarixinə şərəfli səhifə kimi həkk olunmuşdur.

Bu gün dünya dövlət rəhbərlərinin heç biri ilə müqayisə edilməyən Heydər Əliyev cənablarının Azər-

baycanın gələcəyi naminə gərgin, məqsədyönlü fəaliyyəti, dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində səmərəli axtarışları, siyasi uzaqgörənliyi respublikamızın yaxın gələcəkdə sosial-iqtisadi problemlərini həll edəcəyinə böyük ümidlər verir. Xüsusilə neft şirkətləri ilə bağlanan müqavilələr, dünyanın bir çox tanınmış korporasiyalarının, tikinti, sənaye şirkətlərinin Azərbaycana cəlb edilərək investisiyalar qoyması bir tərəfdən tədricən respublikamızda iqtisadi həyatın dirçəldilməsinə, digər tərəfdənsə, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi işinə xidmət edir. Bütün bu nailiyyətlərin qazanılmasında ölkə rəhbərinin, möhtərəm prezidentimiz Heydər Əliyevin son dərəcə böyük xidməti vardır.

İstiqlaliyyət yoluna qədəm qoymuş dünya dövlətlərinin tarixi təcrübəsi göstərir ki, azadlığa çıxmış hər hansı bir ölkə öz müstəqilliyini möhkəmləndirmək üçün təkcə sosial-iqtisadi amillərdən deyil, həm də mənəvi-siyasi amillərdən güclü istifadə etməlidir. Bu cəhətdən hər bir azadlıq yolunu seçmiş milli dövlət öz fəaliyyətində güclü mənəvi-siyasi amil kimi xarici ölkələrdə yaşayan soydaşlarının qüvvəsindən istifadə etməyi də bacarmalıdır. Öz dövlətçilik fəaliyyətində bu mühüm amili nəzərə almayan milli dövlətlər böyük mənəvi-siyasi potensialdan məhrum olur, qarşılarına qoyduqları, həll etmək istədikləri bir çox mühüm problemləri nisbətən gec yerinə yetirirlər, başqa sözlə desək, dövlət quruculuğu işində milli dövlətçilik mənafeyini müqəddəs tutan və bu sahədə bütün varlığı ilə çalışan böyük bir qüvvəni nəzərə almır, özündən təcrid edir.

Fikrimizcə, bu hər bir ölkənin dövlətçilik tarixində bağışlanmaz bir səhvdir.



Azərbaycan Respublikasının dövlətçilik sükanı arxasında böyük mətanətlə dayanmış Heydər Əliyev cənabları öz fəaliyyətində məhz bu mühüm amilə, yəni milli dövlətçiliyimizin möhkəmləndirilməsi işinə xaricdə yaşayan soydaşlarımızın da fəal, məqsədyönlü şəkildə cəlb olunması, çalışması məsələsinə xüsusi diqqət yetirir. Belə ki, ölkə prezidenti Azərbaycanın siyasi suverenliyinin möhkəmləndirilməsi işində xaricdə yaşayan soydaşlarımızın qüvvəsindən geniş istifadə etməyi öz fəaliyyətinin tərkib hissəsi hesab edir, demək olar, gündəlik iş fəaliyyətində bu mühüm sahənin canlanmasını diqqət mərkəzində saxlayır.

Onun xarici ölkələrə elə bir səfəri yoxdur ki, orada yaşayan soydaşlarımızla görüşməsin, onların həyat şəraitləri, ictimai vəziyyətləri, həyat tərzləri ilə maraqlanmasın, eyni zamanda, rəsmi, işgüzar görüşləri zamanı qarşılarına konkret vəzifələr qoymasın.

Prezident Heydər Əliyevin bu mühüm sahəyə bu qədər diqqət yetirməsi heç də təsadüfi deyil. O, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi işinə təkcə respublikamızın əhalisini yox, həm də bütün dünya azərbaycanlılarını cəlb etmək, doğma vətənimizin hərtərəfli inkişaf etdirilməsində onların qüvvəsindən geniş istifadə etmək siyasəti ilə yaşayır və öz gündəlik fəaliyyətində bu siyasəti dönmədən həyata keçirir.

Müdrik siyasətçi yaxşı bilir ki, Vətənin möhkəmləndirilməsində, mühüm problemlərin həll olunması işində bütün xalq, o cümlədən, dünyanın müxtəlif regionlarına səpələnmiş soydaşlarımız da mütləq yaxından iştirak etməlidirlər.

Xaricdə yaşayan soydaşlarımızın bir diaspor

halında fəaliyyət göstərməsi çox vacibdir. Onlar dağınıq, pərakəndə, bir-birindən xəbərsiz vəziyyətdə yaşamamalıdırlar.

Diaspor nə deməkdir? Bu məfhuma hansı anlayışlar daxildir və onun yaranmasını nə vaxtdan hesablamaq düzgün olardı?

Diaspor termini yunan sözü olub, dağılma, səpələnmə və yayılma anlayışlarını özündə əks etdirir, daha doğrusu, onun hərfi tərcüməsi belədir.

Diaspor dedikdə, bu və ya digər xalqın, etnik birliyin müəyyən bir hissəsinin öz vətənlərindən kənarda yaşaması və onların mənsub olduğu xalqın, vətənin mənafeyi uğrunda fəaliyyəti nəzərdə tutulur.

Azərbaycan diasporunun yaranmasında əsasən 3 müxtəlif ölkənin vətəndaşı sayılan azərbaycanlılar, yə`ni Müstəqil Azərbaycan Respublikasından, Cənubi Azərbaycandan və Türkiyədən olan soydaşlarımız yaxından iştirak edirlər. Bu cəhətdən diasporumuzun tarixi çox qədimdir. Azərbaycanın Rusiya İmperiyası tərəfindən işğalı ilə əlaqədar olaraq həmvətənlərimizin müəyyən hissəsi öz dədə-baba yurdlarından didərgin salınmış və dünyanın müxtəlif ölkələrində yaşamaq məcburiyyətində qalmışlar. Xüsusilə Türkmənçay müqaviləsindən sonra torpaqlarımıza ermənilərin sürətlə köçürülüb məskunlaşdırılması həmvətənlərimizin xarici ölkələrə dağınıq, pərakəndə vəziyyətdə getmələrinə və bir-birindən əlaqəsiz halda yaşamalarına səbəb olmuşdur. Bu vəziyyət uzun müddət davam etsə də, əsrimizin demək olar ikinci yarısından sonra bəzi ölkələrdə yaşayan azərbaycanlılar arasında əvvəlki dövrlərə nisbətən müəyyən tərpəniş hiss olunmağa başlamışdır. Bu da ikinci cahan müharibəsindən sonra



böyük miqdarda azərbaycanlıların doğma vətənə qayıda bilməmələri ilə əlaqədardır.

Əsrimizin 70-80-ci illərindən başlayaraq artıq Azərbaycan diasporunun zəif də olsa addımları eşidilir. Lakin həmin dövrdə bu diaspor vətənlə sıx əlaqə saxlaya bilmirdi, buna görə də bir çox siyasi-iqtisadi, sosial-mənəvi problemlərini istənilən səviyyədə həll etmək iqtidarında deyildi.

Azərbaycan müstəqillik qazandıqdan sonra xaricdə yaşayan soydaşlarımızın diaspor halında fəaliyyət göstərməsi qarşısında geniş perspektivlər açıldı.

Yaxın vaxtlara qədər Azərbaycan Respublikası əhalisinin xaricdə yaşayan soydaşlarımızla demək olar ki, heç bir əlaqəsi yox idi. Daha doğrusu, keçmiş Sovetlər Ölkəsində qanı bir, dili bir, dini bir, məsləki bir olan xalqların bir-biri ilə yaxınlaşmasına, əlaqə saxlamasına imkan verilmirdi. Dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımız doğma vətənləri, qohum-əqrəbaları ilə əlaqə saxlaya bilmirdi. Eyni zamanda, Sovet Azərbaycanında yaşayan azərbaycanlılar da həmçinin bu əlaqədən məhrum idilər. Başqa xalqlar, o cümlədən Sovetlər ölkəsində yaşayan, eyni bərabər hüquqa malik olan ermənilər isə nəinki xaricdə yaşayan erməni soydaşları ilə lazımi əlaqələr saxlayırdılar, hətta bəzi Avropa dövlətlərində erməni diasporunun nümayəndələri Ermənistana təyyarə marşrutları açır, müntəzəm gedib-gəlirdilər. Xaricdə erməni diasporunun yaratdığı müxtəlif xarakterli ictimai-siyasi təşkilatlar yalnız bir məqsədə - "Böyük Ermənistan" ideyasını həyata keçirmək siyasətinə xidmət edirdi. Onlar bu gün də həmin siyasəti təbliğ edirlər.

Bu cəhətdən, ermənilər arasında milli həmrəy-

liyin yaradılması istiqamətində çoxdan məqsədyönlü iş aparılır.

Bütün fəaliyyəti boyu dünya azərbaycanlıları arasında milli həmrəyliyin yaranması və güclənməsini arzulayan, bu sahədə hələ Sovetlər dövründə konkret addımlar atan Heydər Əliyev cənabları SSRİ-nin dağılması ərəfəsində, yəni 1991-ci il dekabr ayının 16-da hər il dünya azərbaycanlılarının həmrəylik və milli birlik gününün dekabrın 31-də keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Milli Məclisinin sədri olduğu vaxt fərman vermişdir. O vaxt Naxçıvanda belə bir fərmanın imzalanması Heydər Əliyevin böyük siyasi uzaqgörənliyini bir daha sübuta yetirir.

Görkəmli siyasətçi hələ o vaxt Azərbaycan prezidenti deyildi, ona qarşı haqsız hücumlar, əsassız tənqidlər olurdu. Lakin o bunları boş, mənasız hesab edirdi. Həmişə olduğu kimi, yenə də Azərbaycanın sabahını, gələcəyini fikirləşirdi, dövlətçiliyimizin möhkəmlənməsi, milli suverenliyimizin saxlanması və qorunması naminə dünya azərbaycanlıları arasında milli həmrəyliyin və milli birliyin yaradılmasını başlıca amil hesab edirdi. Onun Naxçıvanda bu sahədə atdığı addım sonralar Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən bəyənildi və hər il dekabr ayının 31-ni bütün dünya azərbaycanlılarının həmrəylik günü kimi keçirmək barədə sərəncam verildi.

Biz həmin tarixi hadisədən hər il uzaqlaşırıq. Lakin bu tarixi hadisənin xalqımızın ictimai həyatındakı rolu və əhəmiyyəti getdikcə daha da, dünya azərbaycanlıları milli həmrə`ylik gününün əsl mahiyyətini, dövlətçiliyimizin möhkəmlənməsi işində azərbaycanlılar arasında milli birliyin nə qədər zəruri olduğunu daha dərindən dərk edirlər.

Son bir neçə il ərzində gecə-gündüz rahatlıq bilməyən Azərbaycan prezidentinin xarici dövlətlərə rəsmi səfərlərinin bir tərəfdən, müstəqillik yolu ilə irəliləyən Azərbaycanın siyasi, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsində, milli istiqlaliyyətimizin möhkəmləndirilməsində, digər tərəfdənsə, Azərbaycan haqqında əsl həqiqətlərin geniş, özü də obyektiv faktlar əsasında yayılmasında, Azərbaycanın suverenliyi ətrafında xarici ölkələrdə yaşayan soydaşlarımızın birləşməsində çox böyük rolu olmuşdur. Zəngin şəxsi təcrübə, dərin elmi və siyasi dünyagörüşü, böyük vətənpərvərlik eşqi ilə Azərbaycanın istiqlaliyyətinin möhkəmlənməsi naminə gecə-gündüz gərgin və məqsədyönlü iş fəaliyyəti sosial-iqtisadi vəziyyətin əvvəlki dövrə nisbətən müqayisəolunmaz dərəcədə xeyli yaxşılaşmasını, respublikamızın xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrinin möhkəmlənməsini təmin etmişdir. Şübhəsiz ki, hörmətli prezidentin bu sahədə atdığı addımlar bundan sonra da xarici ölkələrdəki soydaşlarımızla hərtərəfli əlaqələrimizin artmasına və möhkəmləndirilməsinə güclü təkan verəcəkdir.

Azərbaycan diasporu hazırda formalaşma prosesi keçirir. Onun təşəkkülü əsasən, əsrimizin əvvəllərindən etibarən başlayıb böyük tarixi bir mərhələ, yəni 90-cı illərə qədər zəngin bir dövr keçsə də, ayrı-ayrı mühacirlərimiz bu diasporun fəaliyyətində mühüm rol oynasalar da, gəlin açıq etiraf edək ki, başqa xalqların, xüsusən yəhudi, yunan və erməni diasporunun fəaliyyəti ilə müqayisədə Azərbaycan diasporunun fəaliyyəti hələ çox zəifdir.

Erməni diasporunun dünyanın demək olar bütün ölkələrində siyasi təşkilat və cəmiyyətləri olduğu halda, Azərbaycan diasporunun nümayəndələri 70-80-ci illərdə hələ təzəcə təşkilatlanma prosesi ilə məşğul idi. Onu qeyd edək ki, diasporun gücü təkcə təşkilat və cəmiyyətlərin bolluğunda deyil, öz ətrafında mənsub olduğu xalqı daha çox təmsil edən nümayəndələri cəlb edə bilməsində, milli həmrəylik və milli birlik ideyalarını daha bacarıqla mənimsəməsində və təbliğ etməsində, milli mənafeyə, Vətənə layiqincə xidmət göstərməsində, fəaliyyətini öz xalqı, dövləti ilə sıx əlaqəli şəkildə qurmasındadır.

1988-ci ildə Azərbaycana qarşı qonşu Ermənistan respublikası ərazi iddiaları qaldırdığı, öz dədə-baba yurdlarından Ermənistandakı soydaşlarımız vəhşicəsinə qovulduğu və didərgin salındığı zaman, bir qədər sonra isə mənhus qonşularımız torpaqlarımızın işğalına başladığı vaxt xaricdəki soydaşlarımızla lazımi sosial-mənəvi əlaqələr yaradılmadığından və genişləndirilmədiyindən başımıza gələn müsibətləri, əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq mümkün deyildi. Bu, bir tərəfdən bizim ideoloji cəhətdən hazırlıqsızlığımızla, daha doğrusu, ermənilərin təcavüzkarlığına, ideoloji təxribatlarına vaxtında cavab verməmək üçün bütün imkan və vasitələrdən səmərəli istifadə edə bilməməyimizlə, çox vaxt düşmənin təxribatçılıq fəaliyyətinə etinasız yanaşmağımızla bağlıdırsa, digər tərəfdən, diasporun qüvvəsindən nəinki istifadə etməməyimizlə, həm də xaricdəki soydaşlarımızla əlaqələrimizin zəifliyində, onları respublikanın mühüm sosial-iqtisadi problemlərinin həllinə cəlb edə bilməməyimizlə əlaqədardır.

Azərbaycan prezidenti Heydər Əliyev fəaliyyətə başladığı ilk gündən xaricdəki soydaşlarımızla əlaqələrin yaradılması, möhkəmləndirilməsi, onları respublikamızın qarşısında duran mühüm problemlərin həllinə cəlb olunması işini dövlətçiliyin əsas tərkib hissəsi kimi qiymətləndirdi və bu sahəyə qayğı və diqqətlə yanaşmağa başladı. Gündəlik diqqət, həm xarici ölkələrə səfərləri zamanı, həm də respublikamıza gələn görkəmli soydaşlarımızla saxladığı əlaqələr, şəxsi görüşlər onların fəaliyyətləri ilə müntəzəm maraqlanması diasporunun formalaşmasına çox müsbət təsir göstərirdi. Artıq bir neçə ildir ki, Azərbaycan diasporu əvvəlki illər ilə müqayisədə xeyli mətinləşib, dünyagörüşü və fəaliyyət dairəsi genişlənib, sıraları daha da sıxlaşıb, respublikamızla əlaqələri xeyli artıb. Diasporun fəaliyyətində yaranmış bu mühüm dəyişikliklər, bu sahədə qazanılmış nailiyyətlər, şübhəsiz ki, Heydər Əliyev cənablarının bilavasitə məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Azərbaycan prezidenti Heydər Əliyev cənabları Azərbaycan diasporunun təşəkkülündə və formalaşmasında əsasən bir neçə istiqamətdə iş aparmaqdadır. O, Fransa, İngiltərə, Almaniya, Türkiyə, Belçika, Rusiya, ABŞ, Çin, Polşa və başqa dövlətlərdə olduğu vaxt, bir tərəfdən, xalqımızın düçar olduğu ictimai bəlalalr, iki xalq arasında baş verən ixtilafın, münaqişənin səbəbləri və günahkarları, bu işdə marağı olan qüvvələr barədə dünya xalqlarına ətraflı məlumat verir, Azərbaycan haqqında dünya xalqlarının təsəvvüründə böyük dəyişikliklərin yaranmasına, əsl tarixi həqiqətlərin aşkara çıxmasına, informasiya blokadasının aradan qaldırılmasına, suveren dövlətimizin dünya dövlətləri ilə hərtərəfli münasibətlərinin yaranmasına çalışırsa, digər tərəf-

dən, bu ölkələrdə yaşayan, fəaliyyət göstərən azərbaycanlıların bir siyasi təşkilat kimi qayğısına qalır, onlarla fərdi söhbətlər aparır, hər birini diqqətlə dinləyir, doğma Vətənlə bağlılıqlarını artırmaq üçün ölkəmizin tarixindən, mədəniyyətindən, bu günkü həyatından, real obyektiv həqiqətlərdən söhbət açır, başqa xalqların dünya miqyasında yaratdıqları diasporun fəaliyyəti barədə məlumat verir, müqayisələr edir, Vətənin mənafeyini düşünən hər bir azərbaycanlının ictimai-siyasi fəallığının artmasına və onları məhz bu istiqamətdə, yəni Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, sivil dünya dövlətləri səviyyəsinə çıxması üçün əlindən gələni əsirgəməməyə çağırır.

Onun 1997-ci il 25 dekabr tarixində dünya azərbaycanlılarına müraciətində bütün bu keyfiyyətlər öz parlaq əksini tapmışdır. O, soydaşlarımıza müraciətində bir daha xatırladır ki, "Azərbaycan bütün dünya azərbaycanlılıranın tarixi vətəni, doğma ata-baba yurdudur. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, dünyanın bütün ölkələrində yaşayan və qəlbi doğma Azərbaycanla bir döyünən həmvətənlərimizin də xalqımızın milli azadlıq mübarizəsində, ölkəmizin tərəqqisi və inkişafı yolunda önəmli xidmətləri vardır.

Bu gün harada yaşamasından asılı olmayaraq Azərbaycan özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrəylik nümayiş etdirməlidir. Vətəni, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin dönməz olması üçün səy göstərməlidir. Bütün azərbaycanlılarda, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxs azərbaycançılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir. Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır". /"Respublika", 27 dekabr 1997-ci il/.

Bəli, bu müdrik, həyat təcrübəsindən çıxmış fikirlər hər bir azərbaycanlının yaddaşında möhkəm yer tutmalıdır. Öz taleyini Vətənin taleyi ilə bağlamayan, Vətənə arxa çevirib, yaxud etinasızlıq edib öz şəxsi mənafeyini düşünən, onu uca tutan insanlar vətəndaşlıq, övladlıq səviyyəsinə yüksələ bilməzlər.

Görkəmli dövlət xadimi 1997-ci ildə dünya azərbaycanlılarına müraciətində xaricdəki soydaşlarımızın fəaliyyəti qarşısında bir çox tarixi vəzifələr qoymuşdur. Belə ki, müraciətdə Azərbaycan xalqının tarixi keçmişinə və mədəniyyətinə müəyyən yer ayıran prezident hər bir azərbaycanlının dünya şöhrətli sənətkarlarımız və mədəniyyət xadimlərimizlə fəxr etməsini, onların yaradıcılığını, həyat fəaliyyətini dərindən bilməyi tövsiyə etmişdir. Çünki öz tarixi keçmişinə bələd olmaq hər bir insanda yüksək vətənpərvərlik hisslərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. Xüsusilə xalqımızın qəhrəmanlıq və mübarizə tarixində görkəmli yer tutan ayrı-ayrı şəxsiyyətlərin həyat və fəaliyyətinin öyrənilməsi xaricdəki soydaşlarımızda milli vətənpərvərlik və dövlətçilik hisslərinin inkişaf etdirilməsində böyük rol oynayır. Müraciətdə bu məsələyə toxunan Azərbaycan prezidenti demişdir: "Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan

Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir". /"Respublika", 27 dekabr 1997-ci il/.

Ümumiyyətlə, Heydər Əliyev cənabları xaricdəki soydaşlarımız qarşısında haqlı olaraq belə bir vəzifə qoyur ki, hər bir azərbaycanlı taleyini Vətənin taleyi ilə bağlamaqla bərabər, həm də onun tarixi keçmişini, mədəniyyətini nəinki bilməli, onunla fəxr etməli, eyni zamanda yaşadığı ölkələrdə onun təbliği ilə məşğul olmalıdır. Azərbaycanı tanıtmaq, onun şərəfini qorumaq vəzifəsi onların hər birinin fəaliyyətində müqəddəs bir borca, amala çevrilməlidir.

Azərbaycan diasporunun formalaşması dialektik, həm də tarixi bir proses kimi, özbaşına deyil, məqsədyönlü şəkildə həyata keçirilməlidir. Bu prosesin gedişi daim diqqət mərkəzində saxlanmalıdır, qayğı ilə əhatə olunmalıdır. Onun formalaşmasında mühüm rol oynayan sosial-iqtisadi, siyasi-mənəvi amillərin həyata keçirilməsi diasporun fəaliyyət göstərdiyi ölkənin milli dövlətçilik ənənələri, bir çox yerli xüsusiyyətləri ilə əlaqələndirilməlidir.

Dövrümüzün böyük siyasi xadimi öz fəaliyyətində bu mühüm cəhətlərə xüsusi diqqət yetirir. Onun fikrincə, Azərbaycan diasporunun nümayəndələri milli dövlət quruculuğunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi işinə müntəzəm olaraq öz vətənpərvərlik töhfələrini verməlidirlər. Xaricdə yaşayan soydaşlarımızın hər biri Azərbaycanda müstəqil, suveren dövlətin qurulmasının heç də asan deyil, çox çətin sınaqlara mə'ruz



qalması sayəsində qurulduğunu yaxşı bilməlidir. O, dəfələrlə həm soydaşlarımız qarşısında çıxışlarında, həm də xarici ölkələrə səfərləri zamanı yüksək dövlət rəhbərləri, müxtəlif şirkətlərin və korporasiyaların nümayəndələri ilə rəsmi görüşlərində milli dövlətçiliyimizin ağır sınaqlara məruz qaldığını faktlarla açıb göstərmişdir.

Azərbaycan diasporu nümayəndələrinin dövlət başçısının dilindən bu həqiqətləri eşitməsi çox vacibdir. Prezidentin dəfələrlə dediyi bu tarixi həqiqətləri bir tərəfdən ölkəmiz haqqında erməni siyasətbazlarının uydurmalarını, şaiyələrini, ümumiyyətlə qeyri-obyektiv mə'lumatların təkzib edir, aradan qaldırır, digər tərəfdənsə, hər bir həmvətənimiz bu obyektiv həqiqətlərlə silahlanır, doğma Vətənin bugünkü inkişafı barədə onların təsəvvürləri daha da artır, genişlənir.

Heydər Əliyev cənabları "Dünya azərbaycanlılarına müraciət"ində həmin ənənəni pozmamış, həm soydaşlarımızın, həm də bütövlükdə dünya ictimaiyyətinin diqqətini bu məsələyə cəlb etmişdir: "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, erməni qəsbkarlarının ərazimizin 20 faizini işğal etməsi bir milyondan çox həmvətənimizi doğma yurd-yuvasından didərgin salaraq qaçqın və köçkünə çevirmişdir.

Müstəqil dövlətçiliyimizə mane olmağa çalışan daxili və xarici qüvvələrin təxribatları, keçmiş iqtisadi əlaqələrin pozulması, keçid dövrünün sosial-iqtisadi çətinlikləri və sair problemlər də bizim müstəqillik yolumuzu xeyli çətinləşdirmişdir. Lakin bütün bunlar xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, mübarizə əzmini və qətiyyətini nəinki sarsıtmamış, əksinə, daha da möhkəmlətmişdir". /"Respublika" 27 de-

kabr 1997-ci il/.

Etiraf etmək lazımdır ki, Azərbaycan müstəqillik əldə edənə qədər xarici ölkələrdə yaşayan soydaşlarımız bir diaspor kimi lazımi səviyyədə təşəkkül tapmamışdı. Bunun obyektiv səbəbləri vardır.

Dünyada gedən müharibələr, inqilablar, hərbi münaqişələr, ictimai-siyasi proseslər nəticəsində Azərbaycan iki yerə parçalanmışdır. Müxtəlif illərdə azərbaycanlıların bir qismi yerlərindən - yurdlarından sürgün, deportasiya olunmuşdur, eyni zamanda bir xalqın iki yerə parçalanması nəticəsində onlar bir-birindən ayrı düşmüşlər, dünyanın demək olar hər yerinə səpələnmişlər. Lakin onların arasındakı əlaqələr müxtəlif obyektiv səbəblər nəticəsində zəif olmuşdur, bir çox hallarda isə aralarındakı müxtəlif ixtilafların mövcudluğu soydaşlarımızın bir diaspor kimi təşəkkül tapmasına və formalaşmasına böyük maneçilik törətmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları xaricdə olduğu vaxt azərbaycanlılarla görüşləri zamanı bu mühüm məsələyə xüsusi diqqət yetirir, soydaşlarımız arasında milli birliyin yaradılmasını və bundan müstəqil Azərbaycanın mənafeyi naminə istifadə edilməsini mühüm bir vəzifə kimi qarşıya qoyur. Onu həm xaricdə yaşayan soydaşlarımız, həm də müstəqil Azərbaycanla diaspor arasındakı əlaqələrin zəif olması narahat edir, onlarla görüşlərində bu taleyüklü problemə toxunur, nöqsanın aradan qaldırılmasını çox vacib, həm də aktual vəzifə hesab edir.

Ölkə prezidenti haqlı olaraq görüşlərində belə bir fikrin üzərində dayanır ki, Azərbaycanın müstəqilliyinin qorunmasında və möhkəmlənməsində təkcə bölgə daxilində yaşayan əhali deyil, həm də xaricdə yaşayan azərbaycanlılar da yaxından, fəal iştirak etməlidirlər. Azərbaycan dünyada yaşayan bütün azərbaycanlıların doğma vətənidir.

Bu gün Yer kürəsində 50 milyona yaxın azərbaycanlı yaşayır. Dünyanın müxtəlif dövlətlərində müxtəlif dövrlərdə məskunlaşan bu həmvətənlərimizin bir diaspor halında formalaşması prosesi yalnız son illərdə tədricən artmağa və güclənməyə başlanmışdır.

Azərbaycan diasporunun keçdiyi həyat yoluna diqqət yetirdikdə, ədalət naminə, bir mühüm cəhəti də burada qeyd etməliyik. Çünki bu gün Rusiyada, eləcə də dünyanın müxtəlif bölgələrində yaşayıb işləyən həmvətənlərimizin bir diaspor halında təşəkkül tapmasının əsası məhz hörmətli Heydər Əliyev cənabları tərəfindən qoyulmuşdur. Onun 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin ən tanınmış ali məktəblərinə oxumağa göndərilmiş, onlar bir çox şəhərlərdə və ölkələrdə xalqımızı layiqincə təmsil etmişlər. Bu gün həmin dövrdə təhsil alan gənclərin diasporun fəaliyyətindəki xidmətlərini böyük fəxrlə qeyd edə bilərik. Həqiqətən, müxtəlif respublikalarda Azərbaycan diasporunu formalaşdırmaq həmvətənlərimizin Azərbaycanın mənafeyi naminə geniş fəaliyyət göstərməsinə, fəal həyat mövqeyi tutmasına, azərbaycanlılar arasında sıx birlik və həmrəylik yaratmağa çalışanların əksəriyyəti məhz həmin illərdə Heydər Əliyev cənabları tərəfindən təhsil almağa göndərilən, xalqımızı həm o vaxt, həm də bu ağır günlərdə şərəflə təmsil edən şəxslərdir.

Bu gün Rusiyada, eləcə də Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdə xeyli azərbaycanlı yaşayır. Rusiyanın Moskva, Sankt-Peterburq, Samara, Nijni Novqorod, Vladivostok, Xabarovsk, Saxalin, Murmansk, Arxangelsk və başqa şəhərlərdə yaşayan azərbaycanlılar doğma Vətənlə müntəzəm əlaqə saxlayırlar. Hazırda Moskvada 400 minə yaxın, Sankt-Peterburqda 200 min nəfər, Tümen vilayətində 23 min nəfər /bu rəqəm qeydiyyatı olmayanlarla birgə 100 min nəfər/, Omsk vilayətində 200 min nəfər, Tomsk vilayətində 50 min nəfər, Cənubi Sibir şəhərlərində 150 min nəfər, Vladivostokda 70 min nəfər azərbaycanlı yaşamaqdadır. Bəzi məlumatlara görə Rusiya Federasiyasında 2 milyondan çox həmvətənimiz yaşayır" . /"Ayna", 1 fevral 1997-ci il/.

Digər MDB ölkələrində də azərbaycanlılar məskunlaşmış və artıq öz diasporunu yaratmışlar. Belə ki, Belarusiyanın təkcə Minsk şəhərində 50 minədək, Ukraynada yarımmilyondan çox, Qazaxıstanda 300 min nəfər soydaşımız yaşayıb işləyir. /Bax: Yenə orada/.

Bütövlükdə, hazırda MDB ölkələrində 3 milyondan çox azərbaycanlı yaşayıb fəaliyyət göstərməkdədir. Rusiyada öz milli cəmiyyətlərini və təşkilatlarını yaradan, onlar vasitəsilə Azərbaycanın müxtəlif rəsmi dairələri ilə əlaqə saxlayan soydaşlarımız Heydər Əliyev cənablarının Rusiya Federasiyasına rəsmi səfərləri zamanı onunla görüşmüş, lazımi məsləhətlər almış, bir diaspora kimi formalaşmaq üçün qarşılarına çıxan maneələri qətiyyətlə dəf etməyə çalışmışlar. Onların böyük əksəriyyəti Azərbaycan prezidentinin tövsiyyəsi ilə respublikamızda lazımi rəhbər orqanlarla əlaqə saxlayırlar.



Azərbaycan televiziyasının "Yurd" jurnalı bu haqda müntəzəm məlumat verir, soydaşlarımızın həyatından maraqlı verilişlər hazırlayır.

Rusiya Federasiyasında Azərbaycan diasporunun təşkilatlanma prosesi qənaətbəxş səviyyədədir. Hazırda Rusiyada 50-dən çox müxtəlif adda Azərbaycan mədəniyyət mərkəzi və cəmiyyəti fəaliyyət göstərir. Təkcə Moskva şəhərində azərbaycanlıların bir neçə cəmiyyəti var. Burada "Ocaq" Azərbaycan mədəniyyət cəmiyyəti, "Azərbaycan vətəndaşlıq assambleyası", "Rusiya-Azərbaycan dostluğu" cəmiyyəti, "Bakılı" cəmiyyəti ilk yaranan təşkilatlardandır. Bu cəmiyyətlərin hər biri Moskva şəhərində yaşayan həmvətənlərimizi öz ətrafında birləşdirir, onlar arasında geniş ictimai-təşkilati iş aparır.

Bu cəmiyyətlər Azərbaycan üçün çox çətin dövrlərdə yaranıb. O vaxtlar Azərbaycana qarşı aparılan informasiya blokadası bütün azərbaycanlıların qəlbini sıxırdı. Çünki Sovet hökumətinin yüksək vəzifələrində çalışan ermənilərin köməyi nəticəsində mətbuat, televiziya vasitəsilə Qarabağ məsələsi bütün xalqlar arasında geniş təbliğ olunurdu. Azərbaycan belə təbliğat zamanı gözdən salınırdı, haqqında hər cür yalan və böhtanlar irəli sürülürdü.

Məhz belə bir şəraitdə həmvətənlərimiz kənardan seyrçi kimi bu hadisələri izləyə bilməzdilər. Onlar Moskva şəhərində "Azərbaycan" cəmiyyətini yaradaraq onun ətrafında sıx birləşməyi, erməni təbliğatına qarşı mübarizə aparmağı, əsl həqiqətləri ictimaiyyətə çatdırmağı vacib saydılar. Həmvətənlərimiz az vaxt ərzində bu sahədə xeyli iş gördülər.

Bu dövrdə yaranmış "Ocaq" cəmiyyəti Moskva-

dakı elm, mədəniyyət və incəsənət xadimlərimizi öz ətrafında birləşdirdi.

Cəmiyyətin sədri, professor Tofiq Məlikov bu sahədə çox iş görmüşdür. O, Rusiyada Azərbaycan diasporunun formalaşmasında və inkişafında Azərbaycan prezidenti, cənab Heydər Əliyevin apardığı məqsədyönlü siyasəti çox yüksək qiymətləndirir. Tofiq Məlikov müsahibələrinin birində bu haqda demişdir: "Biz fəxr edirik ki, bu gün Azərbaycan müstəqil dövlət olaraq bütün dünyada tanınır və beynəlxalq birlikdə layiqli yer tutur. Müstəqilliyə qovuşduqdan sonra dövlətimiz qısa müddətdə bütün mötəbər beynəlxalq təşkilatların üzvü olmuşdur. Müasir dövrün müdrik və uzaqgörən siyasi xadimi, hörmətli prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətimizin müstəqilliyinin, təhlükəsizliyinin və suverenliyinin tə'min edilməsində, habelə bütün ölkələrlə hərtərəfli, bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər qurulması sahəsində böyük uğurlar qazanmışdır.

Biz, Moskvadakı azərbaycanlılar dövlətimizin başçısının böyük qayğısını və dəstəyini hiss edirik. Buna görə ona çox sağ olun deyirik". ("Azərbaycan", 31 may 2000-ci il).

Moskvada yaşayan həmvətənimiz Elman Bayramov Azərbaycan diasporunun gələcəyinə böyük ümidlə yanaşan möhtərəm prezidentin fəaliyyətini yüksək qiymətləndirmiş və hamının onun ətrafında sıx birləşməsini tövsiyə etmişdir:

"Suveren Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının, o cümlədən də Rusiya Federasiyasında yaşayan azərbaycanlıların vətənidir. Azərbaycanlı harada yaşayırsa yaşasın, o ana dilini, öz mənəvi



dəyərlərini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun vətəni olan Azərbaycan şanlı tarixə, qədim və zəngin mədəniyyətə malikdir. Dünya azərbaycanlıları bilirlər ki, onların müstəqil Azərbaycan Respublikası kimi arxadayağı var. Vətənini, millətini, xalqını sevən hər bir azərbaycanlı öz ölkəsinin - Azərbaycanın müstəqilliyinin əbədi olması üçün əlindən gələni əsirgəməməlidir. İndi harada yaşamasından asılı olmayaraq, Azərbaycanı öz tarixi vətəni sayanların hamısı dövlətçiliyimizin ideyaları ətrafında, millətimizin rəhbəri, çox hörmətli Azərbaycan prezidenti Heydər Əliyevin ətrafında sıx birləşməlidir". (Yenə orada).

Moskvada yaşayıb fəaliyyət göstərən yüzlərlə görkəmli elm, mədəniyyət xadimimiz, eləcə də başqa sahələrdə çalışan soydaşlarımız yaratdıqları, fəaliyyətində çox aktiv iştirak etdikləri mədəniyyət cəmiyyətləri xətti ilə doğma Azərbaycanın haqq səsini, müxtəlif sahələrdə qazandıqları böyük uğurları yerli əhaliyə, eləcə də dünya ictimaiyyətinə əzmlə çatdırırlar. Hər yerdə Azərbaycanın milli mənafeyini müdafiə edirlər. Onlar həm də Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsində fəal iştirak edirlər.

General-leytenant, Sosialist Əməyi Qəhrəmanı Kərim Kərimov, SSRİ Xalq Rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Tahir Salahov, SSRİ Xalq artisti Müslüm Maqomayev, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı Fərman Salmanov, Moskva Dövlət Universitetinin professoru Xaliq Koroğlu və yüzlərlə başqa görkəmli elm və mədəniyyət xadimlərimiz Azərbaycan diasporunun Rusiya Federasiyasında

inkişaf etməsi işində yaxından iştirak edirlər, soydaşlarımıza düzgün istiqamət verməyə çalışırlar.

2001-ci ilin noyabrında Bakıda dünya azərbaycanlılarının keçiriləcək birinci qurultayı qarşısında bütün soydaşlarımız böyük hazırlıq işləri aparırlar. Rusiya Federasiyasında fəaliyyət göstərən Azərbaycan Konqresi də həmçinin bu qurultaya ciddi hazırlaşmışdır. Onlar Moskva şəhərində bu məqsədlə Ümumrusiya Azərbaycan Konqresinin birinci qurultayını keçirmişlər. Azərbaycan prezidenti cənab Heydər Əliyev 2 oktyabr 2001-ci il tarixində qurultaya təbrik məktubu göndərmişdir. Bu məktubda Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsində soydaşlarımızın qarşısında mühüm vəzifələr qoyulmuş, Rusiya Federasiyası kimi böyük bir dövlətin fəaliyyətində onların rolu qeyd edilmişdir. Təbrik məktubunda bu haqda deyilir: "Mənim üçün çox xoşdur ki, çoxmilli Azərbaycan icması da bu qaynar tarixi proseslərdən kənarda deyil və Rusiyanın ictimai-siyasi və elmi-mədəni, sosial-iqtisadi həyatında yaxından iştirak edir, soydaşlarımız ölkə qarşısında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirirlər. Rusiya elminə, mədəniyyətinə, iqtisadiyyatına sanballı töhfələr verən Azərbaycan övladları ilə, dünya şöhrətli soydaşlarımızla haqlı olaraq fəxr edirik". ("Azərbaycan", 4 oktyabr 2001-ci il).

Rusiya Federasiyasının ayrı-ayrı şəhər və vilayət mərkəzlərində fəaliyyət göstərən çoxsaylı Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətlərinin qurultaya göndərdikləri nümayəndələr, o cümlədən Rusiyadakı bütün Azərbaycan diasporu üzvləri Azərbaycan prezidentinin bu təbrik məktubunu çox böyük fərəh və inam hissi ilə qarşılamışlar. Qurultayda doğma Vətəndən uzaqlarda yaşayan soydaşlarımızın fəaliyyətinə Azərbaycan prezidentinin böyük qayğı və diqqətlə yanaşması böyük ruh yüksəkliyi ilə qeyd olunmuşdur.

Qurultayda Rusiya Federasiyasının 57 subyektindən 300-dək nümayəndə, o cümlədən Rsiyada yaşayıb fəaliyyət göstərən görkəmli azərbaycanlılar iştirak etmişlər. Qurultay iştirakçıları Rusiyada yaşayan azərbaycanlıların sıx birləşdirilməsi və bu ölkədə güclü milli diasporun yaradılması, Rusiyadakı çoxsaylı Azərbaycan ictimai təşkitlatlarının əlaqələndirilməsi, onların federal, yerli hakimiyyət orqanları ilə sıx əməkdaşlığının sahmana salınmasına kömək göstərilməsi, həmvətənlərimizin konstitusiya, vətəndaş hüquqlarının müdafiəsi, Azərbaycanın milli ənənələrinin, dil və mədəniyyətin qorunub saxlanması və təbliğ edilməsi, Azərbaycan tarixi və bu günü haqqında geniş məluma-ta malik olmağı, ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu, bunun nəticəsində bir milyondan çox həmvətənlərimizin qaçqına çevrildiyi ölkəmizin problemləri haqqında obyektiv məlumatın yayılması məsələlərini qarşılarına məqsəd qoymuşlar.

Rusiyada yaşayan azərbaycanlılar ölkəmizin strateji vəzifələrinin həllində də yaxından iştirak edirlər. Qurultayda bir daha qeyd edilmişdir ki, strateji vəzifələrdən biri də Azərbaycanla Rusiya arasındakı ən'ənəvi dostluğun və səmərəli əlaqələrin inkişafına, ölkələrimizin əməkdaşlığının genişlənməsinə hər vasitə ilə kömək etməkdən ibarətdir. Bu məqsəd və vəzifələr bu gün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin və Rusiya Federasiyasının prezidenti Vladimir Putinin hərtərəfli düşünülmüş praq-

matik və uzaqgörən siyasətinin iki dövlət arasında münasibətlərə yeni müsbət təkan verdiyi bir vaxtda son dərəcə böyük əhəmiyyətə malikdir.

Qurultayda iki dövlət - Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında münasibətlərin daha da möhkəmləndirilməsi işində diasporun fəaliyyətinin diqqət mərkəzində saxlanılması xüsusi qeyd olunmuşdur. Rusiya Federasiyasının prezidenti Vladimir Putinin qurultaya təbrik məktubunda bu haqda deyilir ki, bu forum iki xalqın və dövlətin həyatında mühüm hadisə olmalıdır. Həm də konqres Rusiya və Azərbaycan xalqları arasında müsbət dialoqa kömək edəcəkdir.

Qurultayda Ümumrusiya Azərbaycan Konqresinin prezidenti, Rusiya dövlət mükafatı laureatı, professor Məmməd Əliyev məruzə etdi. Məruzədə göstərildi ki, Ümumrusiya Azərbaycan Konqresinin birinci qurultayı bütün azərbaycanlılar üçün əlamətdar hadisə - oktyabrın 18-də qeyd olunacaq Müstəqillik gününün 10-cu ildönümü ərəfəsində keçirilir.

Qurultayın gündəliyinə əsasən, iki məsələ - Ümumrusiya Azərbaycan konqresinin fəaliyyətinə əsas istiqamətləri və dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da vətənimizin paytaxtında keçiriləcək qurultayında Rusiya azərbaycanlılarının iştirakı məsələləri daxil edilmişdi.

Qurultayda məruzə ətrafında çoxlu çıxış oldu. Bütün səyləri Rusiya ilə Azərbaycan arasında və iki dövlətin qədim tarixi, mədəni tellərlə və dostluq telləri ilə bağlı olan xalqları arasında münasibətlərin daha da genişləndirilməsinə yönəltmək arzusu bu çıxışların başlıca mövzusu idi.



Qurultayda Rus Pravoslav Kilsəsinin, Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi, Rusiyanın Federasiya, Milli və Miqrasiya Siyasəti İşləri Nazirliyi, "Avrasiya Ümumrusiya ictimai-siyasi hərəkatı, Dövlət Dumasının deputat fraksiyaları, Rusiya regionlarının rəhbərləri, Rusiya Xalqları Assambleyasının sədri, professor, Federasiya Şurasının üzvü Ramazan Abdulatipov, paytaxt meriyasının rəhbərləri və başqaları da öz təbrik məktublarını göndərmişdilər.

Eyni zamanda, Azərbaycanın Moskvadakı Fövqəladə və Səlahiyyətli səfiri Ramiz Rizayev, Rusiyadakı digər milli diaspor və icmaların nümayəndələri də qurultayın nümayəndələrini təbrik etdilər.

Qurultay iştirakçıları Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Rusiya Federasiyasının prezidenti Vladimir Putinə müraciət qəbul etdilər". ("Xalq" qəzeti, 6 oktyabr 2001-ci il).

Qeyd etmək lazımdır ki, Azərbaycan prezidenti 22 iyun 2000-ci il tarixində Ümumrusiya azərbaycanlılarının konqresi işində yaxından iştirak etmiş və ayrı-ayrı diaspor nümayəndələri ilə görüşmüşdür.

Rusiya Federasiyasında 80-ci illərin axırları və 90-cı illərdə bir çox Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri yaradılmışdır. Məsələn, Sankt-Peterburqda "Dayaq" Azərbaycan mədəniyyət cəmiyyəti, "Azərbaycan" mədəniyyət mərkəzi, "Sankt-Peterburq-Azərbaycan" iqtisadi, elmi və mədəni əməkdaşlıq cəmiyyəti, "Boz qurd", Dərbənddə "Azəri" cəmiyyəti, Nijne-Vartovskda "Azərbaycan" mədəniyyət cəmiyyəti, Kalininqradda "Azərbaycan" tarixi və mədəniyyəti cəmiyyəti, Novosibirskdə "Azərbaycan" cəmiyyəti, "Xəzri" cəmiyyəti, Vladiqafqazda "Azəri"

cəmiyyəti, Tolyatti şəhərində "Azəri" cəmiyyəti, Krasnoyarskda "Azəri" milli mədəni cəmiyyəti, Tomskda "Azəri" cəmiyyəti, İvanovo şəhərində "Babək" Azərbaycan cəmiyyəti, Yekaterinburqda "Nizami" Azərbaycan mədəniyyət cəmiyyəti, Samarada "Ozan" mədəniyyət mərkəzi, Ulyanovsk şəhərində "Odlar yurdu" Azərbaycan mədəniyyət cəmiyyəti, İrkutskda "Təbriz" Azərbaycan cəmiyyəti, "Birlik" cəmiyyəti, Həştərxanda "Xəzər" cəmiyyəti, Vladivostok şəhərində "Azərbaycan" cəmiyyəti, Saratov vilayətinin Engels şəhərində "Yurd" cəmiyyəti, Voronejdə "Azərbaycan" mədəniyyət mərkəzi, Tümen vilayətində "Dostluq-Drujba" Azərbaycan cəmiyyəti, Perm şəhərində "Yol" Azərbaycan cəmiyyəti, Xabarovskda "Azəri" cəmiyyəti və başqa adda mədəniyyət mərkəzləri və cəmiyyətləri Rusiya Federasiyasının müxtəlif şəhərlərində fəaliyyət göstərir.

Bu mədəniyyət mərkəzləri və cəmiyyətlərinin sədrləri və üzvləri Azərbaycan prezidenti Rusiya Federasiyasında rəsmi səfərdə olduğu vaxt dəfələrlə onunla görüşüblər, fikir mübadiləsi aparıblar, eyni zamanda Vətənə gəldikdə cənab Heydər Əliyev onları qəbul etmiş, qayğı və ehtiyacları ilə tanış olmuşdur.

Novosibirskdə fəaliyyət göstərən "Xəzri" Azərbaycan cəmiyyətinin nümayəndə heyəti 1998-ci il avqustun 6-da Azərbaycan prezidenti tərəfindən qəbul edilmişdir.

"Xəzri" cəmiyyətinin vitse-prezidenti Əlağa Babayev Rusiya Federasiyasının Novosibirsk, Omsk, Tomsk, Kemerovo vilayətlərində və Altay diyarında yaşayan 100 min nəfərdən çox azərbaycanlının salamını dövlət başçımıza yetirmişdir. O, Sibir bölgəsində



yaşayan azərbaycanlıların ölkənin siyasi və iqtisadi həyatını diqqətlə izlədiklərini, Azərbaycanın sabitlik şəraitində yaşadığını və geniş islahatlar apardığını böyük məmnunluq hissi ilə qeyd etmiş, bu sahədə prezidentin həyata keçirdiyi məqsədyönlü siyasəti dəstəklədiklərini bildirmişdir.

Azərbaycan prezidenti görüş zamanı Sibirdə yaşayan azərbaycanlıların həyat və fəaliyyəti ilə maraqlanmış, həmvətənlərimizə öz konkret tövsiyələrini vermişdir. ("Azərbaycan", 7 avqust 1998-ci il).

Görüşdə iştirak edən, Sibirdə yaşayan Hacı Xanəli Mingəçevirdə "Heydər məscidi" tikməsi barədə prezidentə məlumat vermiş və gətirdiyi Quran və təsbehi Azərbaycan prezidentinə təqdim etmişdir.

Görkəmli dövlət xadimi xaricdə yaşayan soydaşlarımızla apardığı geniş və məqsədyönlü iş prosesində həmvətənlərimiz arasında kök salmış bir sıra mənfi xüsusiyyətlərin aradan qaldırılmasına böyük diqqət yetirir. İstər Rusiyada, istərsə də Avropanın, eləcə də dünyanın müxtəlif ölkələrində məskunlaşan azərbaycanlıların müəyyən qismi Vətəndən uzaq düşdüklərinə, öz doğma el-obası ilə əlaqə saxlaya bilmədiklərinə görə tədricən öz milli xüsusiyyətlərini itirir, milli adət və ənənələr xarici mühitdə əriyib yoxa çıxır. Bununla da bəzi soydaşlarımızda Vətənə bahlıq, Vətən sevgisi və məhəbbəti zəif olur. Belə şəxslərdə milli mənlik şüuru da yox dərəcəsində olur və o xaricdəki diasporun nəinki fəaliyyətinə kömək etmir, bəzən özü də bilmədən xaricdəki əleyhdarlarımızın toruna düşür, düşmən dəyirmanına su tökür.

Şübhəsiz ki, belə soydaşlarımız azdır və onlarda xaricdə yaradılmış milli cəmiyyətlər və təşkilatlar

müxtəlif məzmunlu söhbətlər aparmalı, belə soydaşlarımızın milli mənlik şüurunu oyatmalı, onun ideya-siyasi mövqedən dünyagörüşünün möhkəmlənməsi və Vətənə xidmət etmək qabiliyyətinin formalaşması diqqət mərkəzində saxlanmalıdır.

Heydər Əliyev cənabları bu qüsurları görür və onların yaranmasını soydaşlarımız arasında əlaqələrin zəif olmasında axtarır. O, hələ 1994-cü ildə Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşü zamanı bu cəhətə xüsusi toxunaraq qeyd etmişdir ki, "düşdüyünüz mühitdə bəziləri əriyib başqalarına qarışır, öz milli mənliyini saxlaya bilmir. Bu, bizim nöqsan cəhətimizdir". /"Azərbaycan", 3 mart 1994-cü il/.

Hər bir xalqın, millətin nümayəndəsi öz mənsub olduğu xalqın, millətin mənafeyini uca tutmalıdır, harada olmasından asılı olmayaraq, o öz milli varlığını, mənliyini qoruyub saxlamağı bacarmalıdır. Xüsusilə azərbaycanlılar bu məsələdə daha fəal olmalıdırlar. Çünki böyük tarixi ənənəyə, mədəniyyətə əsaslanan bu xalqın, millətin hər bir nümayəndəsi düşdüyü ictimai mühitdə, ölkədə təkcə özlərini yox, Vətənləri Azərbaycanı təmsil edirlər. Onların hər bir hərəkəti, insanlara münasibəti, davranışı, ictimai həyatda tutduqları mövqe millətimiz, xalqımız, bütövlükdə doğma Azərbaycan haqqında müəyyən təsəvvür yaradır.

Bütün bu mühüm keyfiyyətləri nəzərdə tutan Azərbaycan prezidenti xarici soydaşlarımıza həm də bu qüsurun aradan qaldırılması yollarını da göstərmişdir. O bu haqda belə demişdir: "Hesab edirəm ki, indi Azərbaycan müstəqil dövlət olandan sonra digər ölkələrdə yaşayan azərbaycanlılar özlərinin Azərbaycan kimi bir ana Vətəni olduğunu dərk edəndən sonra bu çatışmazlıq, bu nöqsan da aradan götürülə bilər". /"Respublika", 28 dekabr 1997-ci il/.



Deməli, müdrik ağsaqqalımızın, ömrünü bütünlükdə xalqımızın sabahı, gələcəyi və bütövlükdə ümumi mənafeyinə sərf edən görkəmli siyasət xadiminin tövsiyəsi bundan ibarətdir ki, hər bir azərbaycanlı Ana Vətəni olduğunu dərk etməlidir, yə'ni bir soydaşımızda milli özünüdərk hissi, şüuru formalaşmalıdır, o özünü doğma Vətəndən, onun qayğılarından, ölkəmizdə gedən geniş demokratik prosesdən kənarda hiss etməməlidir. Ölkə prezidentinin qarşıya qoyduğu bu mühüm vəzifə təkcə ayrı-ayrı soydaşlarımızın deyil, həm də xaricdə fəaliyyət göstərən müxtəlif milli cəmiyyət və təşkilatlardan, o cümlədən səfirliklərin hər bir nümayəndəsindən, diaspora üzvləri ilə əlaqə saxlayan hər bir azərbaycanlıdan böyük və məqsədyönlü fəaliyyət, səmərəli iş tələb edir. Bu məsələlərə qətiyyən etinasızlıq göstərmək olmaz. Bu gün laqeyidliklə yanaşılan hər hansı bir iş, sabah öz mənfi bəhrəsini verər, bu da artıq Azərbaycanın mənafeyinə müəyyən mə'nada ziyan gətirə bilər.

Heydər Əliyev cənabları azərbaycanlılarda milli mənlik şüurunun formalaşması qayğısına qalaraq soydaşlarımız arasında mövcud olan başqa mənfi xüsusiyyətlərin də ləğv edilməsini aktual bir vəzifə kimi qabarıq nəzərə çarpdırır. O, xaricdə yaşayan soydaşlarımızın müəyyən qismində bu mənfi xüsusiyyətlərini, yə'ni Vətənlə bağlı olmaması hissinin mövcudluğunu onların bu günki müstəqil Azərbaycanda doğulmaması ilə əlaqələndirir. Lakin hörmətli prezidentin fikrincə, bu heç də başlıca səbəb ola bilməz. O fikrini sübuta yetirmək üçün bu haqda belə deyir: "Nə olsun ki,

Azərbaycanda doğulmayıblar, Amerikada yaşayan ermənilər Ermənistanda doğulublar? Onlar Dağlıq Qarabağda doğulublar? Amma ermənidirlər. Ona görə də Ermənistan haqqında düşünürlər". /Amerikadakı Azərbaycan mədəniyyət cəmiyyətinin nümayəndələri ilə görüşündəki çıxışından, "Azərbaycan", 4 avqust 1997-ci il/.

Heydər Əliyev cənablarının məsələni bu cür kəskin qoyması istər-istəməz hər birimizi, xüsusilə xaricdə yaşayan soydaşlarımızı dərindən düşündürməlidir. Öz milli mənsubiyyətini yaddan çıxarmayan, harada yaşamasından asılı olmayaraq erməniliyini saxlayan və bütün fəaliyyətinin mənasını yalnız Vətənə xidmət etməkdə görən hər bir erməni daim öz xalqının, millətinin, Vətəninin təəssübünü necə çəkirsə, imkan daxilində həm maddi, həm də mənəvi cəhətdən erməni millətçiliyinin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə necə çalışırsa hər bir azərbaycanlı da məhz belə olmalıdır.

Bəs soydaşlarımıza bu tarixi prosesdə mane olan hansı cəhətlərdir? Heydər Əliyev cənablarının fikrincə, Azərbaycan diasporunun formalamasına mane olan başlıca xüsusiyyətlərdən biri onlar arasında milli birliyin, həmrəyliyin zəif olmasıdır.

Amerikadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri ilə görüşü zamanı Heydər Əliyev cənabları bu milli birliyin və həmrəyliyin zəif olma səbəbləri haqda belə demişdir: "...Amerikada yaşayan azərbaycanlıların biri deyir, mən İranda doğulmuşam, o biri deyir ki, əşi mənə nə var, arvadım ingilisdir. Moskvada yaşayan başqa birisi deyir ki, mənim arvadım rusdur, ona görə də, azərbaycanlılığımı bir



az itirmişəm".

Azərbaycan prezidenti bu cür düşünən və fəal həyat mövqeyi tutmayan soydaşlarımıza üzünü tutaraq deyir: "Əgər sən azərbaycanlısansa, özünü azərbaycanlı hesab edirsənsə, demək, bilməlisən ki, harada doğulmağından, harada yaşamağından asılı olmayaraq dünyada azərbaycanlıların indi bir müstəqil dövləti var. Hər bir azərbaycanlı bu vətənlə fəxr etməli, onun yaşaması, möhkəmlənməsi naminə çalışmalıdır".

Hörmətli prezidentin çox düzgün olaraq toxunduğu bu məsələ ətrafında müəyyən fikir söyləmək yerinə düşər. Təcrübə göstərir ki, erməni qızı kimə ərə gedirsə, ərini, qohumlarını da öz milli mənafeyinə, ermənilərə xidmət etdirir. Erməni cavanı da həmçinin, onun aldığı qız və qohumları az qala erməni yaxud ermənipərəst olurlar. Dağlıq Qarabağ problemi meydana çıxanda biz dəfələrlə bunun şahidi olmuşuq. Vaxtilə evimizdə çörəyimizi yeyən, respublikamızın qonağı olan neçə-neçə keçmiş Sovet ziyalısı həlledici məqamlarda öz ermənipərəst mövqeyini büruzə verib. Məlum olub ki, onun arvadı, ya da qohumu ermənidir. Bu cəhətdən hörmətli prezidentin yuxarıda söylədiyi fikir çox həyati faktlara əsaslanır.

Həqiqətən, təcrübə göstərir ki, arvadları başqa millətdən olan şəxslərdə bəzən Vətənin problemlərinin həllinə qarşı etinasızıq daha möhkəm olur, yəni bu kateqoriyadan olan şəxslərdə milli təəssübkeşlik, milli mənlik hissləri, milli özünüdərketmə xeyli zəif olur. Təbiidir ki, onların övladları da milli zəmindən çox vaxt uzaq olurlar. Belələri doğma Azərbaycan dilində danışa bilmirlər, milli tariximiz, mədəniyyətimiz və adət və ənənələrimizdən xəbərsiz olduqları üçün, çox vaxt isə

bütün bunlara xor baxdıqları üçün öz milli kökünə, xalqa yad ruhda böyüyür və yaşayırlar. Halbuki belə olmamalıdır.

Hörmətli prezidentimiz Heydər Əliyev cənablarının da istəyi və tövsiyəsi budur ki, dünyanın hansı ölkəsində yaşamasından və kiminlə ailə qurmasından, arvadının, anasının hansı millətin nümayəndəsi olmasından, hansı dildə təhsil almasından asılı olmayaraq azərbaycanlı hər yerdə öz xalqına bağlılığını saxlamalı, tarixini, mədəniyyətini öyrənməli, müstəqil dövlətinin inkişafına, qüdrətinin artmasına kömək etməlidir.

Azərbaycan diasporunun lazımi səviyyədə formalaşdırılması üçün soydaşlarımız arasında milli özünü dərk hissini gücləndirmək çox vacib şərtlərdən biridir.

Heydər Əliyev cənabları soydaşlarımızla görüşlərində, dünya azərbaycanlılarına müraciətində bu məsələyə xüsusi diqqət yetirir.

Azərbaycan diasporunun formalaşmasında düşmənlərimizin, müstəqilliyimizə mane olmaq istəyən əleyhdarlarımızın, qara qüvvələrin respublikamızı informasiya blokadasına salmağa çalışması öz mənfi tə'sirini göstərir, böyük maneçilik törədirdi. Doğma Vətən haqqında, demokratik dəyişikliklərin həyata keçirilməsi barədə, yaxud xalqımızın başına açılan ictimai bəlalar haqqında xaricdə yaşayan soydaşlarımıza vaxtında qeyri-düzgün, təhrif olunmuş variantlarda məlumatların verilməsi, əsl tarixi həqiqətlərin bildirilməməsi, qarşısının alınması həm diasporun formalaşmasına, doğma vətənlə əlaqələrin qırılmasına, həm də dünya meydanında xalqımızın təklənməsinə, dünya ictimaiyyətinin əsl həqiqətlərdən xəbərdar olmamasına gətirib çıxartdı.



Bu informasiya blokadasının tezliklə aradan qaldırılması sahəsində məqsədyönlü fəaliyyət göstərən Heydər Əliyev cənabları çox qısa müddət ərzində Azərbaycanla bağlı əsl tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdıra bildi, eyni zamanda respublikamıza qarşı çevrilmiş informasiya blokadasının yarılmasına nail oldu. Hörmətli prezidentin xarici ölkələrə səfərləri, habelə bu və ya digər rəsmi yığıncaqlarda düşünülmüş, dərin məzmunlu, böyük siyasi-tarixi əhəmiyyətə malik olan çıxışları ölkəmizdə aparılan demokratik dəyişikliklər, xalqın milli suverenliyini qurmaq uğrunda əzmkarlığı, erməni-azərbaycanlı münaqişələrinin əsl tarixi kökləri, son dövrlərdə başımıza açılan faciələr barədə dünya xalqlarında geniş təsəvvür yaratmaqla bərabər, sün'i şəkildə uydurulmuş, təhrif edilmiş mifləri, təsəvvürləri də alt-üst etdi. Demək olar hər bir çıxışında eyni məsələyə toxunan və ölkədə baş verən hadisələrdən, xüsusilə Ermənistanın Azərbaycan torpaqlarını qanunsuz işğal etməsindən, Dağlıq Qarabağın tarixən Azərbaycan torpağı olmasını sübuta yetirən çoxsaylı faktlardan, sənədlərdən söhbət açan, eyni zamanda Azərbaycanın müstəqillik yolu ilə inamla irəliləməsindən əzmlə danışan Heydər Əliyev cənabları bu fəaliyyəti ilə dünya ölkələrində yaşayan azərbaycanlılara qarşı yerli dövlət orqanlarının, xalqın əvvəlki münasibətlərini də dəyişmişdir.

Vaxtilə ermənilər istər Rusiya, istərsə də Avropa, Amerika, Asiya ölkələrində süni şəkildə yaratdıqları informasiya blokadası sayəsində həmin dövlətlərdə buraxılan yerli qəzet və jurnallarda, həm də ermənidilli mətbuatda, hətta televiziya və radio verilişlərində, əhali qarşısında çıxışlarda Azərbaycan haqqın-

da o qədər cəfəng fikirlər irəli sürmüş və bu xalqlarda səhv, əsassız ictimai rəy yaratmışlar ki, Heydər Əliyev cənablarına qədər heç bir dövlət başçısı bu süni blokadanı aradan qaldırmağa, bütün irəli sürülmüş yanlış mülahizələri təkzib etməyə qadir olmamışdı. Hər yerdə azərbaycanlılara qarşı iftira dolu böhtanlar yağdırılır, məqalələr yazılırdı. Lakin onlara cavab vermək, əsl həqiqətləri aşkara çıxarmaq, dünya xalqlarında respublikamızda gedən ictimai-siyasi dəyişikliklər barədə aydın təsəvvür yaratmaq mümkün deyildi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev cənablarının uzaqgörən müdrik siyasəti, topladığı zəngin təcrübə sayəsində həyata keçirdiyi məqsədyönlü fəaliyyəti, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində gecə-gündüz gərgin işi, qətiyyət və əzmkarlığı bu çətinlikləri də aradan qaldırdı. O, bütün dünyaya bildirdi ki, Azərbaycan qədim tarixə malik olan bir ölkədir, bu ölkədə yaşayan bütün xalqlar və millətlər həm keçmişdə, həm də bu gün bərabər-hüquqlu yaşayırlar, Dağlıq Qarabağ tarixən Azərbaycan torpağıdır, ermənilər Azərbaycana, xüsusilə Dağlıq Qarabağ ərazisinə Türkmənçay müqaviləsindən, yəni 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra köçürülüb məskunlaşdırılmışlar. Azərbaycan xalqı öz müstəqilliyini qorumaq, ərazi bütövlüyünü müdafiə etmək uğrunda ayağa qalxmışdır, torpaqlarımızı işğal edən ermənilərə qarşı vuruşmuşdur, xalqımız sülhsevər xalqdır, heç bir xalqın və millətin torpağında gözü yoxdur, Azərbaycan xalqına qarşı keçmiş Sovet imperiyası çox böyük cinayət işlətmiş, ermənilərin torpaq iddialarını dəstəkləmiş,



1990-cı ilin yanvarında respublikamızda qırğın törətmişdir, erməni işğalçıları Azərbaycanın Dağlıq Qarabağ ərazisində başqa daha yeddi rayonun - Kəlbəcər, Laçın, Qubadlı, Fizuli, Ağdam, Cəbrayıl, Zəngilan rayonlarını işğal etmişlər, bir milyondan çox vətəndaşımız torpaqlarımızdan, doğma ev-eşiklərindən zorla qovularaq qaçqına çevrilmişdir..

Azərbaycan qan tökmək istəmir, qonşularla dinc yanaşı yaşamaq siyasəti yeridir, buna görə də xalqımız Ermənistan-Azərbaycan arasında yaranmış bu münaqişəni sülh, danışıqlar yolu ilə həll olunması tərəfdarıdır. Azərbaycanda demokratik siyasi dəyişikliklər aparılır. Azərbaycan bütün dünya şirkətlərinin, korporasiyalarının, ölkəmizlə əməkdaşlıq etmək istəyən hər bir xarici sərmayəçinin üzünə açıqdır və s.

Bütün bu problemləri yalnız siyasi yolla həll etməyə çalışan hörmətli Heydər Əliyev cənabları rəsmi görüşlərdə, yığıncaqlarda, dövlət başçıları ilə fərdi söhbətlərdə hər dəfə bu məsələləri təkrar etməkdən, dünya ictimaiyyətinin nəzər-diqqətini həmin problemlərə yenidən cəlb etməkdən usanmır, yorulmur, əksinə, hər bir görüş zamanı həmin problemlərin tezliklə həll olunmaq zəruriliyini ön plana çəkir, dünya dövlətlərinin gözü qarşısında haqqınədalətin pozulduğunu, tapdandığını qeyd edir, milyondan artıq əhalinin qaçqın vəziyyətində yaşadığını göstərir, torpaqlarımızın 20 faizdən çoxunun işğalına baxmayaraq Azərbaycanın danışıqlara hazır olduğunu bildirir.

Azərbaycan prezidenti 1996-cı il dekabrın 2-də ATƏT-in Lissabon görüşündə dünya dövlətlərinin başçılarının diqqətini həmin problemlərin həllinə yönəldərək demişdir:

"Regional münaqişələr, davakar millətçiliyin və separatçılığın artması, beynəlxalq terrorizm bizim regionumuzda sülh, tərəqqi və inkişaf üçün real təhlükə olaraq qalır. Bir çox xalqlar, o cümlədən keçmiş Sovet məkanında, Qafqazda yaşayan xalqlar qanlı müharibələrə cəlb olunmuşdur. Bu müharibələr insanların kütləvi surətdə qırılması, etnik təmizləmələr, milyonlarla adamın qaçqına çevrilməsi, müstəqil dövlətlərin ərazilərinin işğal edilməsi ilə nəticələnir. Ona görə də ATƏT Avropa qitəsində ümumən təhlükəsizliyin təmin edilməsi üçün hələ olduqca çox iş görməlidir.

Bildiyimiz kimi Ermənistan Respublikası əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı öz əlinə keçirmək məqsədi ilə respublikamıza qarşı təcavüz etmişdir. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bizim vətəndaşlarımızın iyirmi min nəfərdən çoxu öldürülmüş, yüz min nəfərdən çoxu yaralanmış və ya əlil olmuş, altı min nəfəri əsir düşmüşdür. Bir milyondan çox azərbaycanlı, yəni ölkəmizin təqribən on beş faizi qaçqına çevrilmişdir. Dörd ildir ki, onlar qışı çadır şəhərciklərində dözülməz şəraitdə keçirməli olurlar.

İşğal olunmuş ərazilərdə 700-ə qədər şəhər və kənd, habelə minlərlə xəstəxana, məktəb, yaşayış evi, Azərbaycan xalqının tarix və mədəniyyət abidələri dağıdılmış, yandırılmış, talan edilmişdir.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə və onun sədrinin altı bəyanatında Azərbaycanın işğal edilmiş bütün ərazilərində Ermənistan silahlı qüvvələrinin dərhal, tamamilə, qeyd-şərtsiz çıxarılması, qaçqınların və köçkünlərin daimi yaşayış



yerlərinə qaytarılması tələb olunur. Həmin sənədlərdə respublikamızın suverenliyi və ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olduğu təsdiq edilir. Lakin Ermənistan Respublikası bütün bu qərarlara etinasızlıq göstərir". /"Xalq" qəzeti, 6 dekabr 1996-cı il/.

Azərbaycan Prezidentinin Lissabon zirvə görüşündə və sonrakı rəsmi səfərlərdə, yığıncaqlarda bu tarixi həqiqətlər, habelə respublikamızda aparılan siyasi-demokratik dəyişikliklər barədə dünya ictimaiyyətinə ətraflı məlumat verməsi, Azərbaycan haqqında süni şəkildə yaradılmış yanlış təsəvvürləri nəinki aradan qaldırmış, həm də Azərbaycan diasporunun formalaşması sahəsində çox böyük rol oynamışdır.

Lissabon zirvə görüşündə dünyanın əllidən artıq dövləti tərəfindən müdafiə olunan Azərbaycan Respublikası haqqında ATƏT-in qəbul etdiyi qərarın həyata keçirilməsi üçün Heydər Əliyev cənabları bu gün də məqsədyönlü fəaliyyət göstərir. Xarici ölkələrdə Azərbaycan dövləti başçısının respublikanın milli mənafelərini uğurla müdafiə etməsi, dünya ictimaiyyətinin diqqətini yaxşı mə'nada özünə cəlb edə bilməsi, həm ölkəmizə qarşı marağı artırır, dünya xalqlarının dünyagörüşündə yeni təsəvvürlər yaradır, həm də Azərbaycan lobbisinin yaranması və formalaşması üçün lazımi şərait yaradır, geniş meydan açır. Belə, uğurlu, məqsədyönlü fəaliyyət Azərbaycanı daha yaxşı tanıdır, xaricdəki soydaşlarımızın yaşadıqları ölkənin ictimai-siyasi, iqtisadi həyatında daha yaxından iştirak etməsinə zəmin yaradır və onları bu işə ruhlandırır.

Təəsüflə də olsa qeyd etməliyik ki, bu gün xaricdə Azərbaycan lobbisi heç də istənilən səviyyədə

deyildir. Əgər son dövrlərin ictimai-siyasi hadisələri olmasaydı, bəlkə də Azərbaycan lobbisi haqqında danışmaqa lüzum yaranmazdı. Çünki iyirminci əsrin müxtəlif vaxtlarında taleyin burulğanlarına atılmış on minlərlə soydaşımız xarici ölkələrdə Vətənlə heç bir əlaqəsi olmadan, Vətənin ictimai-siyasi həyatında iştirak etmədən yaşamış, doğma Vətənin sevincinə-kədərinə uzaqdan şərik olmuş, ən çətin anlarda belə doğma Vətən tərəfindən müdafiə olunmamışdır. Əksinə, xaricdə yaşayan soydaşlarımız ürəkləri Vətən həsrəti ilə döyünmələrinə baxmayaraq totalitar rejimin yaratdığı üsul-idarə, müxtəlif qadağalar onlarla ünsiyyət saxlamağa belə imkan verməmişdir. Şübhəsiz ki, bütün bunlar xaricdəki soydaşlarımızın mənəviyyatına nə qədər güclü təsir göstərsə də eyni zamanda onlar arasında mənəvi birlik hisslərini də artırmışdır.

Xarici ölkələrdə Azərbaycan lobbisinin yaranmasında müxtəlif dövlətlərdə yaşayan və müəyyən vaxtlardan sonra mühacirlik həyatına qədəm qoyan, ya da Avropa, Asiya, Amerika və başqa qitələrə işləmək məqsədilə gedən azərbaycanlılar, bəzi hallarda isə müxtəlif türkdilli əhali iştirak edir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan, ikinci dünya müharibəsindən, habelə Cənubi Azərbaycanda milli azadlıq mübarizəsindən sonra /1945-1946-cı illər/, şah rejiminin yaratdığı tə`qiblərdən, siyasi repressiyalardan sonra soydaşlarımızın dünyanın hər tərəfinə səpələnmələri, Vətəndən uzaqlarda çox çətinliklə özlərinə həyat şəraitlərini qurmaları, Vətəndən gələn hər bir xəbəri intizarla gözləmələri heç də onların mənəvi-siyasi birliyini pozmamış, əksinə bir-birilərilə daha sıx əlaqə yaratmalarına, xaricdə azərbaycanlı adını



yüksək tutmalarına müsbət təsir göstərmişdir. Təcrübə, aparılan müşahidələr aydın göstərir ki, bir diaspora, bir lobbi kimi azərbaycanlılar milli dövlətçilik, mənafelərimizin müdafiə olunması uğrunda daha çox 1988-ci ildən sonra fəal iştirak etməyə başlamışlar.

Biz heç də bəzi xarici ölkələrdə, xüsusilə Almaniya, Danimarka, Kanada, İsveç və sair dövlətlərdə həmin vaxta qədər azərbaycanlıların yaratdıqları diasporanın fəaliyyətini azaltmaq fikrində deyilik. Əksinə, qeyd etməliyik ki, totalitar rejim hökm sürdüyü bir dövrdə bu dövlətlərdə yaşayan azərbaycanlılar Vətənlə əlaqə saxlaya bilməsələr də özlərinin müxtəlif ictimai-siyasi təşkitlatlarını yaratmışlar, sonrakı dövr üçün Azərbaycan diasporunun fəaliyyətini genişləndirmək, xaricdə lobbizmi inkişaf etdirmək üçün çox iş görmüşlər. Lakin bununla belə xaricdəki soydaşlarımızın fəaliyyəti ilə başqa xalqların yaratdıqları diasporun fəaliyyətini müqayisə etdikdə, istər-istəməz bu sahədə gələcəkdə hələ çox işlər görməyin lazım olduğu aşkar olunur.

Xaricdəki soydaşlarımızın diqqətini bu mühüm məsələyə yönəldən Azərbaycan prezidenti onları erməni, yəhudi, yunan diasporası kimi mütəşəkkil olmağı, daim Vətənin qayğıları ilə yaşamağı tövsiyə edir.

Bəzi ölkələrdə azərbaycanlılar başqa xalqların diaspora nümayəndələrinə nisbətən çoxluq təşkil etmələrinə baxmayaraq bu mühüm məsələdə zəiflik göstərirlər. Belə ki, başqa xarici ölkələrin diaspor nümayəndələri yerli dövlətin bütün hüquqlarından geniş istifadə etdiyi halda, öz doğma milli dövlətləri ilə sıx geniş əməkdaşlıq saxladığı halda burada yaşayan azərbaycanlılar yalnız iqtisadi məsələlərlə məşğul olur, yarat-

dıqları cəmiyyətlərin ətrafında sıx birləşmir, yaxud bu *cəmiyyətlərin qarşıya qoyduqları məqsəd və vəzifələrin* yerinə yetirilməsi işində lazımi səviyyədə iştirak etmirlər, doğma Vətənə, onun siyasi-iqtisadi mənafelərinə qarşı böyük siyasi təxribatçılıq işi aparan erməni lobbisinə, başqa düşmən qüvvələrə qarşı çox vaxt mane ola bilmir, öz etinasızlığı, biganəliyi ilə onlara geniş imkanlar yaradırlar. Məsələn, Azərbaycan prezidenti Heydər Əliyev 1997-ci ilin iyul-avqust aylarında ABŞ-da olarkən ermənilərin təşəbbüsləri ilə həyata keçirilən 907-ci maddənin qüvvəyə minməsinin başlıca səbəbini məhz bunda görmüşdür. Onun fikrincə, əgər bu ölkədə yaşayan azərbaycanlılar vaxtında bu məsələlərə lazımi diqqət yetirsəydilər, yəni onlar da ABŞ-ın ictimai-siyasi həyatında ermənilər kimi fəal iştirak etsəydilər, yəqin ki, bu bədnam 907-ci maddənin həyata keçirilməsinə, daha doğrusu, konqresdə onun qəbul edilməsinə qarşı bu və ya digər konkret addım atar, vaxtında onun qarşısının alınmasına, ermənilərin məkrli sifətlərinin ifşa olunmasına nail olardılar.

ABŞ-da Azərbaycan diasporu bu gün formalaşma prosesi keçirir. Müxtəlif ştatlarda Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətlərinin fəaliyyəti heç də tam qənaətbəxş təsir bağışlamır. Çünki nəzərə almaq lazımdır ki, ABŞ-da yunan lobbisi uzun illərdir ki, erməni lobbisi ilə sıx əməkdaşlıq edir, hər iki xalqın lobbisinin birgə, ümumi mənafelər mövqeyindən çıxış etməsi onların Türkiyəyə qarşı ümumi münasibətindən irəli gəlir. Bu prosesi aydın görüb dərk edən Azərbaycan diasporunun nümayəndələri ABŞ-da türk və yəhudi milli təşkilatları ilə sıx əlaqə saxlayır, mütəşəkkil fəaliyyət göstərməyə çalışırlar.



Bu addım respublikanın prezidentini fərəhləndirir. O, Amerikadakı soydaşlarımızın qarşısında çıxışı zamanı məhz bu məsələyə toxunaraq demişdir: "Mən çox məmnunam ki respublikamızın hüdudlarından kənarda, o cümlədən Amerika Birləşmiş Ştatlarında azərbaycanlılar artıq bir-birinə yaxınlaşırlar, bir yerə toplaşırlar və cəmiyyətlər qururlar". /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Azərbaycan prezidentinin fikrincə, diasporun fəaliyyətində təşkilatlanma başlıca yer tutur. Çünki bütün siyasi, iqtisadi və mədəni tədbirlər məhz diasporun yaratdığı təşkilatlar, cəmiyyətlər vasitəsilə həyata keçirilməlidir. O, azərbaycanlıların dünyanın hər yerində yaşamasından nə qədər sevinirsə, bir-birləri arasında zəif ünsiyyət saxladıqlarını, təşkilatlanma işində passivlik göstərdiklərini görüb bir o qədər təəssüf hissi keçirir: "...indi azərbaycanlılar dünyanın hər yerinə səpələniblər. Elə bir ölkə tapmazsan ki, orada azərbaycanlı olmasın: birində çoxdur, birində azdır. Ancaq təəssüflər olsun ki, ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar təşkilatlana, bir-biri ilə yaxşı ünsiyyət qura bilmirlər" /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Bəs bunun səbəbi nədir? Nə üçün son vaxta qədər xaricdə yaşayan soydaşlarımız arasında ünsiyyət başqa xalqların diasporu, xüsusilə ermənilərlə müqayisədə xeyli zəifdir? Fikrimizcə, xaricdəki soydaşlarımızın əksəriyyətində şəxsi mənafe ümummilli mənafedən xeyli güclüdür. Məhz bu mənfi psixoloji amil onlar arasında əlaqələrin zəif olmasına, lazımi səviyyədə təşkilatlanmamasına gətirib çıxarır ki, bu da Vətən üçün, xalq üçün həlledici anlarda öz mənfi təsirini

bürüzə verir.

Müqayisə üçün qeyd edək ki, ermənilərdə belə deyil. Məsələn, ABŞ-da erməni diasporu yalnız öz mütəşəkkilliyi və möhkəm birliyi, ümummilli mənafelərini şəxsi mənafelərindən üstün tutmaları, mənsub olduğu təşkilatların çıxardığı qərarları dönmədən yerinə yetirmələri, vahid bir məqsədə, amala xidmət göstərmələri sayəsində uğur qazanır.

Amerikada yaşayan ermənilər seçkilərdə ayrı-ayrı təşkilat yaxud cəmiyyət halında deyil, vahid bir blokda birləşib iştirak etməyi daha məqsədəuyğun hesab edirlər.

Bəzi müəlliflərin fikrincə, bu ABŞ-da fəaliyyət göstərən bütün etnik lobbilərin müvəffəqiyyətinin başlıca şərtidir. Yəni ABŞ-da yalnız bu halda konqressmenliyə, qubernatorluğa və prezidentliyə namizədlər seçki kampaniyası dövründə bu və ya digər etnik lobbinin dəstəyinə söykənə bilərlər /"Ayna", 15 mart 1997-ci il/.

ABŞ-da fəaliyyət göstərən erməni təşkilatları bu amildən güclü istifadə edirlər. İri seçkiqabağı kampaniyalar dövründə ABŞ-da nəşr olunan erməni qəzetlərində bu və ya digər namizədə səs vermək çağırışlarına geniş yer verilir. Onlar mümkün olan bütün imkan və vasitələrdən istifadə edirlər, öz məqsədlərinə çatmaq üçün ən iyrənc addımlar belə atırlar, türk dünyasına, o cümlədən Azərbaycana qarşı bədnam fikirlərin yayılmasında fəal iştirak edirlər.

Azərbaycan respublikasının prezidenti Amerikada olarkən ermənilərin məhz bu fəaliyyətinə soydaşlarımızın diqqət yetirməsini tövsiyə etmişdir. O bu haqda demişdir: "Ölkəmiz dövlət müstəqilliyi əldə edəndən sonra, ondan əvvəl də, hələ Sovetlər İttifaqının tərkibində olan zaman da Amerika Birləşmiş Ştatlarında Azərbaycana qarşı fikir yaradan erməni lobbisi olubdur. Amerikada erməni lobbisi, diasporu güclüdür". /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Hazırda Amerikada 700 min erməni vardır. Onlar azərbaycanlılara nisbətən daha mütəşəkkil və çevikdirlər, hadisələrə, baş verən ictimai-siyasi proseslərə, hətta dövlət siyasətinə belə lazımi tə'sir göstərmək qabiliyyətinə malikdirlər.

Ermənilərin ümumilli mənafeləri naminə bu fəallıqlarını siyasi həyatda uzun illər boyu müşahidə edən və düzgün nəticə çıxaran Heydər Əliyev cənablarını bu problem dərindən düşündürdüyündən, o bu məsələyə toxunmaya, soydaşlarımızın diqqətini çox vacib olan bu problemə cəlb etməyə bilmir. O, deyir: "Fikir verin, 300 milyon əhalisi olan bir ölkədə 700 min erməni Amerika Birləşmiş Ştatlarının siyasətinə tə'sir edə bilir... Ermənilər öz millətləri üçün çox dəyərlidirlər" /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Azərbaycan prezidenti öz soydaşlarımızı da məhz belə görmək istəyir. O, qəti əmin olduğunu bildirir ki, "Amerikada yaşayan ermənilərin 99 faizi Dağlıq Qarabağın harada yerləşməsi barədə qətiyyən heç nə bilmir... Ancaq harada erməni varsa, o Dağlıq Qarabağ haqqında düşünür". /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Azərbaycanlılar da belə olmalıdır, öz şəxsi maraqlarını bir tərəfə qoyub, Vətənin gələcəyini, müstəqilliyinin möhkəmlənməsini düşünməlidir, bu yolda qüvvələrini səfərbər etməli, birləşməli, təşkilatlanmalı və vahid məqsəd uğrunda, yəni Azərbaycan uğrunda

mübarizə aparmalıdırlar.

Hər bir azərbaycanlının Vətən ilə milli bağlılığı bu məsələdə mühüm amillərdən biri sayılmalıdır. Bu amili heç vaxt yaddan çıxarmaq olmaz. Milli bağlılıq milli mənafelərimizə aid bir çox problemlərin vaxtında həll edilməsinə, soydaşlarımız arasında həmrəyliyin və milli birliyin möhkəmlənməsinə geniş imkan yaradar. Xaricdə yaşayan soydaşlarımızda milli bağlılıq hissi qüvvətli olarsa, harada yaşamasından asılı olmayaraq, onlar Vətənin qayğıları ilə yaşayacaqlar, respublikaya qarşı çevrilmiş hər cür mənfi fəaliyyəti, əsassız hücumları, böhtanları aradan qaldırmaq istiqamətində fəal çalışacaqlar.

Amerikaya rəsmi səfəri zamanı azərbaycanlılar qarşısındakı çıxışında Heydər Əliyev cənabları ölkəmizə qarşı ermənilərin apardığı siyasətin demək olar bütün mənzərəsini soydaşlarımızın gözü qarşısında canlandırmışdır.

Hələ Sovet İttifaqı dövründə bu sahədə məqsədyönlü fəaliyyət göstərən erməni lobbisi öz tarixi planlarını həyata keçirmək üçün bütün maneələri aradan qaldırmağa başlamış, bu istiqamətdə hər cür vasitələrdən istifadə edərək, nəhayət, öz mənfur məqsədlərinə çatmışlar.

Tarixi təcrübə göstərir ki, ermənilər üçün başlıca maneə Heydər Əliyev cənablarının o vaxt Moskvada ən yüksək vəzifədə işləməsi, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Sov. İKP MK Siyasi Bürosunun üzvü olması idi.

Nə qədər ki, o bu yüksək vəzifədəydi, heç bir erməni Dağlıq Qarabağ haqqında hədyan danışa bilməzdi.



Həmin dövrdə ermənilər və bəzi bədxah niyyətli azərbaycanlılar Moskvaya - Siyasi Büroya, Kremlə Heydər Əliyev haqqında hər cür iftira və böhtan dolu məktublar göndərirdilər, bununla da onun istefa verməsini sürətləndirdilər. Elə Azərbaycanın bütün faciələri də o vaxtdan başladı. Xalqımızın bu ləyaqətli övladı bu böhtanlara, iftiralara dözməyib istefa verdikdən düz 20 gün sonra əvvəlcədən düşünülüb - planlaşdırılmış qondarma Dağlıq Qarabağ problemini "həll etmək üçün ermənilər demək olar bütün sahələrdə hücuma başladılar.

Amerikada soydaşlarımız qarşısında bu məsələyə toxunan və ermənilərin həm o vaxt, həm də bu gün öz bədnam niyyətlərini həyata keçirmək üçün əsl döyüşə atılmalarını və bu sahədə az iş görmədiklərini vurğulayan Azərbaycan prezidenti sanki burada yaşayan həmvətənlərimizin də Azərbaycan üçün, doğma Vətən üçün məhz bu cür çalışmalarını arzulayır.

Ermənilər öz niyyətlərini həyata keçirtmək üçün yaşadıqları ölkələrdə yerli ermənipərəst qüvvələrdən çox bacarıqla istifadə edirlər. Belə ki, onlar ABŞ-da və digər ölkələrdə erməni icmaları ətrafında yaxşı imkanı, nüfuzu olan şəxsləri toplayırlar, onlardan maksimum dərəcədə istifadə etməyə çalışırlar.

Qeyri-rəsmi mənbələrdən məlumdur ki, 1997-ci ildə Dağlıq Qarabağ probleminin həllinə "çalışan" konqresmen Porterin arvadı erməni mənşəlidir. Onun adı ilə bağlı düzəliş xeyli müddət ölkəmizin xaricdə siyasət idarəsini, xalqımızı narahat etmiş, Porter oləvəsinə respublikamız öz mənfi münasibətini bildirmişdir.

Amerikanın ermənipərəst senatorlarından B.Doul də antiazərbaycan mövqedən çıxışlar edir, Dağlıq Qarabağın ermənilərə məxsus olduğunu iddia edir. Nə var ki, vaxtilə ikinci dünya müharibəsi zamanı onu müalicə edən həkim milliyyətcə erməni olmuşdur.

Ermənilər öz milli mənafelərinə təhlükə yaradan nə varsa onun dərhal aradan qaldırılması uğrunda sözün əsl mənasında vuruşurlar. Amerikada soydaşlarımız qarşısındakı çıxışında ermənilərin öz fəaliyyətini faktlarla açıb göstərən Azərbaycan prezidenti həmvətənlərimizə məhz Azərbaycanın müdafiəsi uğrunda, haqqın, ədalətin təntənəsi uğrunda ardıcıl mübarizə aparmağı tövsiyə edir. Necə olur ki, erməni biznesmenləri müxtəlif seçkilərdə iştirak edən ayrı-ayrı namizədlərin seçilməsi üçün pul buraxırlar. ABŞ-da yaşayan azərbaycanlılar, türklər 150 milyard dollar sərvətə malikdirlər. Heydər Əliyev məsələni bütün kəskinliyi ilə belə qoyur: "Bəs bu pul hara sərf olunur? Hamısı elə qarınamı sərf olunur? Görək onlar bunun heç olmasa bir hissəsini özlərinin vətəni olan Azərbaycana ayırsınlar". /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Azərbaycan prezidentinin həyat və fəaliyyəti hər bir azərbaycanlı, xüsusilə xaricdə yaşayan soydaşlarımız üçün bir örnək, bir həyat məktəbidir. Uzun illər boyu müxtəlif vəzifələrdə çalışan Heydər Əliyev cənabları topladığı zəngin təcrübəni bu gün respublikanın müstəqilliyinin möhkəmlənməsinə sərf edir, öz həyat yolunu xaricdəki soydaşlarımıza nümunə çəkir.

Həqiqətən, zəmanəmizin görkəmli siyasi lideri kimi Heydər Əliyev cənabları işlədiyi bütün vəzifələrdə öz xalqının milli mənafeyini hər şeydən uca tutmuşdur, istər 1969-1982-ci illərdə respublikamıza rəhbərlik



etdiyi illərdə, istər 1982-1988-ci illərdə Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində işlədiyi vaxt, istərsə də sonrakı illərdə o daim doğma Azərbaycanın, Vətənin rifahı naminə çalışmışdır.

Heydər Əliyev cənablarının zəngin fəaliyyət dövrünü xarici ölkələrin siyasi xadimləri, müəlliflər yüksək qiymətləndirirlər. Amerika tarixçisi, "Sovet İttifaqı və İran Azərbaycanı: Milli mənsubluqdan siyasi nüfuzetmə vasitəsilə istifadə monoqrafiyasının müəllifi Devid Nismani Azərbaycanın cənubu ilə şimalı arasında əlaqələr yaradılması baxımından Heydər Əliyevin hakimiyyəti dövrünü ən məhsuldar və intensiv mərhələ adlandırır.

Digər məşhur tarixçi Roy Medvedev isə Heydər Əliyevin Cənubi Azərbaycan problemi ilə İkinci dünya müharibəsindən az sonra ciddi şəkildə maraqlandığını və regionda bir sıra çətin vəzifələri yerinə yetirdiyini yazır. Başqa bir Amerika müəllifi Odri Aldstadt 1992-ci ildə ABŞ-da nəşr olunmuş "Azərbaycan türkləri. Dövlət və fərd rus hakimiyyəti altında" monoqrafiyasında Heydər Əliyevin 1969-1987-ci illərdə çox cəhətli fəaliyyətini xarakterizə edərək onun bir siyasi lider kimi nüfuzdan bəhs edən kitabın müvafiq fəslini "Azərbaycanda Heydər Əliyev erası" adlandırır. Amerika alimi zəmanəmizin bu görkəmli siyasi xadimi haqqında həmin fəsildə yazırdı: "Bütün güclü siyasi şəxsiyyətlər kimi Heydər Əliyev də hamını arxasınca apara bilirdi. O, son dərəcə işgüzar və ziyalı bir rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi. Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu... Heydər Əliyev Si-

yasi Büronun tərkibinə daxil olan ilk azərbaycanlı lider kimi burada respublikanın nüfuzunun artması, onun siyasi təsir gücünün çoxalması baxımından son dərəcə əhəmiyyətli amil idi /"Xalq qəzeti, 16 oktyabr 1996-cı il/.

Heydər Əliyev cənablarının bu dövrdəki fəaliyyətini, doğma Vətəni üçün gördüyü böyük işləri, qazandığı müvəffəqiyyətləri yüksək qiymətləndirən "Ümummilli lider: tarixin sınağı və həqiqət anı məqaləsində müəlliflər" /Ramiz Mehdiyev, Vilayət Quliyev/ haqlı olaraq qeyd edirlər ki, "hamımıza aydındır ki, Moskvanın Azərbaycan fenomenini etirafı yolundakı hər bir növbəti addımı Heydər Əliyevin böyük nüfuzu, zəhməti, əzmi və inadkarlığı hesabına, yerdə və mərkəzdəki nihilistlərlə, kosmopolitlərlə, vətənsizlərlə mübarizəsi bahasına başa gəlirdi. Öz millətinə bəslədiyi sonsuz məhəbbət, onu dünyaya tanıtmaq istəyi qarşısında hər hansı siyasi ittiham, qarayaxma və böhtan kampaniyası Heydər Əliyevə kiçik və əhəmiyyətsiz görünürdü . /Xalq qəzeti, 15 oktyabr 1996-cı il/.

Azərbaycan prezidenti soydaşlarımıza öz həyat yolunu nümunə göstərərək Amerika səfərində demişdir: "Mən həmişə belə yaşamışam. İndiyə qədər xalqım üçün əlimdən nə gəlib etmişəm, bundan sonra da edəcəyəm. Sizi də dəvət edirəm ki, bunu edəsiniz" /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Heydər Əliyev cənablarının bu fikri təkcə Amerikada yaşayan soydaşlarımıza aid deyildir. Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar, Azərbaycan diasporu bu fikirdən lazımi nəticələr çıxarmalı, öz fəaliyyətlərində əsaslı dönüş yaratmalıdırlar. O, həmin



tarixi çıxışda soydaşlarımıza müraciət edərək "hər bir azərbaycanlı üçün iftixar mənbəyi olan /Heydər Əliyev/ Vətənin - Azərbaycanın qarşısında gündəlik hesabat verməyi, onun möhkəmlənməsi uğrunda, hər cür təxribatçılıq fəaliyyətinin qarşısını almaq uğrunda əzmlə çalışmalı, mübarizə aparmalı, vuruşmalıdır. Siz düşünməyin ki, Azərbaycan sizə nə etməlidir. Düşünün ki, siz Azərbaycana nə etməlisiniz" /"Azərbaycan" qəzeti, 6 sentyabr 1997-ci il/.

Azərbaycan diasporunun qarşısında çox mühüm vəzifələr qoyan prezident, həm də onları ayıq olmağa, bir çox vəzifələrin həllində düşmən fitvalarına uymamağı çağırır. Çünki respublikamızın bu günkü uğurları ilə barışmaq istəməyən, Heydər Əliyev ölkədə yaratdığı atəşkəsdən, siyasi sabitlikdən, xarici dövlət sərmayədarlarının, iri neft və sənaye şirkətlərinin iqtisadiyyatda dərin dəyişikliklər edəcəyindən narazı qalan bə'zi bədxahlarımız xaricdə ölkəmizin düşmənləri kimi respublikamız haqqında müxtəlif şayiələr yayır, əsl həqiqətləri gizlədir, bugünkü qazanan nailiyyətlərə, özü də çox çətin və gərgin bir vaxtda əldə edilən uğurlara göz yumur, bir sözlə, Vətənə, doğma respublikamıza qarşı böhtanlar yağdırmaqla məşğul olur.

Heydər Əliyev cənabları xaricdəki soydaşlarımıza, Azərbaycan diasporu nümayəndələrinə bir vəzifə olaraq tapşırır ki, belələrinə qarşı mübarizə aparsınlar, Azərbaycanın mənafeyinə, adına xələl gətirən heç bir fəaliyyətə yol verməsinlər. O, soydaşlarımız qarşısındakı çıxışında fikrini davam etdirərək demişdir: "Görün ermənilər burada /ABŞ-da - V.H./ Ermənistan üçün necə vuruşurlar. Amma gəlin

görək, buradakı azərbaycanlılar Azərbaycan üçün vuruşurlarmı, bu işə səylərini qoyurlarmı?" /"Azərbaycan" 6 sentyabr 1997-ci il/.

Göründüyü kimi, Azərbaycan diasporu nümayəndələrinin, bütövlükdə hər bir azərbaycanlının fəallığı öz vətəni, onun gələcəyi naminə mübarizə aparması, çətin, lakin şərəfli, müstəqillik yolunda uğurla addımlayan doğma respublikanın qüdrətinin möhkəmləndirilməsi naminə çalışması Azərbaycan prezidentinin müqəddəs arzusudur. O, soydaşlarımıza demək olar bütün səfərlərində Vətən ilə sıx əlaqə saxlamağa, onun müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsinə bütün qüvvə və bacarıqlarını əsirgəməməyə, səylərini Vətənin işıqlı gələcəyinin tə`min olunması işinə sərf etməyə çağırır. Amerikadakı soydaşlarımızla görüşündə də bu məsələ diqqət mərkəzində saxlanılmışdır: "Azərbaycan müstəqil bir dövlətdir, ona görə də gərək hər bir azərbaycanlı nə mümkündür, onu etsin. Sizin vəzifəniz bu olmalıdır" /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Heydər Əliyev cənabları xaricdəki soydaşlarımızın Vətənə doğru dikilmiş ümüdlərinin gerçəkləşməsini də məhz bunda görür. Əgər azərbaycanlılar Vətənlə müntəzəm əlaqə saxlamasalar, öz doğma torpaqlarının təəssübünü çəkməsələr, xaricdə bütün fəaliyyətlərini ümummilli mənafe əsasında qurmasalar, şübhəsiz ki, Vətənə qarşı çevrilmiş düşmən niyyətlərinin aradan qaldırılmasında xalqımız böyük çətinliklərlə qarşılaşar, öz müstəqilliyini möhkəmləndirmək prosesi xeyli uzanar. XX əsrin axırlarında erməni təcavüzkarlarının işğalçılığı nəticəsində torpaqlarımıza, xalqımıza vurulan mənəvi yaralar tezliklə



aradan qalxa bilməz.

Heydər Əliyev cənabları təkcə xaricdəki soydaşlarımızın deyil, eləcə də respublikamız daxilində yaşayan hər bir azərbaycanlının öz fəaliyyətini məhz ümummilli mənafelərimizin həyata keçirilməsi, reallaşması uğrunda qətiyyətlə çalışmasını arzulayır. Beləliklə məqsədyönlü fəaliyyəti mühüm ümumdövlət, ümumxalq vəzifəsi hesab edir.

Azərbaycan prezidenti xaricdəki soydaşlarımızın Vətən ilə əlaqələrinə yaxud Azərbaycanın mənafeyi naminə çalışmalarına heç də birtərəfli yanaşmır. Məlumdur ki, hər bir azərbaycanlı həm də Vətəndən böyük qayğı və diqqət görməyi, uzaq ölkələrdə onu bir arxa hiss etməyi arzulayır. Bütün arzular gerçəkləşdikdə qürbət ellərdə yaşamaq və işləmək, öz fəaliyyətini qurmaq daha asan olur. Bu cəhətdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların həsrətlə Vətənə dikilmiş baxışlarında uzun illərin nisgilləri artıq 90-cı illərin əvvəllərindən etibarən aradan qalxmışdır. Bu gün onlar respublikamızla əlaqə saxlamaqda, istədikləri vaxt doğma Vətənə gəlib getməkdə heç də çətinlik çəkmirlər.

Soydaşlarımızın Vətən ilə bu əlaqələrinə böyük əhəmiyyət verən prezident onlara heç vaxt özlərini qürbət ölkələrdə tənha hiss etməməyi tövsiyə edir və inamla bildirir ki, "Azərbaycan sizin dayağınızdır. Azərbaycan prezidenti kimi mən dünyada yaşayan hər bir azərbaycanlıya qayğı göstərməyə, hər bir azərbaycanlının dərdinə şərik olmağa hazıram. Mənim və dövlətimizin köməyinə ehtiyac duyan hər bir azərbaycanlıya kömək etməyə hazıram. Çünki o azərbaycanlıdır" /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Müstəqil respublikamızın hörmətli prezidentinin xaricdəki soydaşlarımıza belə qətiyyətli müraciəti, bir azərbaycanlı kimi daim dövlət tərəfindən qayğı və diqqətlə əhatə olunmaq istəyi, şübhəsiz ki, hər bir azərbaycanlıda böyük ruh yüksəkliyi, dövlətimizin başçısına, Vətənə dərin inam hissi yaradır.

Yüksək vətənpərvərlik, siyasi uzaqgörənlik və müqəddəs bəşəri hisslərlə yoğrulmuş bu fikir soydaşlarımız, eləcə də Azərbaycan diasporunun fəaliyyəti qarşısında böyük imkanlar açmışdır. Artıq hər bir azərbaycanlı qürbət ellərdə arxalarında doğma Vətənlərinin, onun sınanmış görkəmli siyasi liderinin arxa durmasını aydın dərk edir və bu onların fəaliyyətlərinə yeni qüvvə və ruh verir.

Heydər Əliyev cənabları Vətən ilə əlaqələrinin möhkəmlənməsinə ümumdövlət siyasətinin tərkib hissəsi kimi baxır və xaricə gedən hər bir həmvətənə onların mənəvi tələbatlarının ödənməsi işində yaxından iştirak etməyi məsləhət görür.

Eyni zamanda xaricdəki soydaşlarımızın da Vətənə müntəzəm gələrək, doğma, müqəddəs torpağı ziyarət etmələrini tövsiyə edir. O, bu məsələdə ermənilərin fəaliyyətlərini misal çəkir: "Bilirsiniz, ermənilər harada yaşasalar da Ermənistana gedirlər. Eçmiədzini ziyarət edirlər, sonra isə deyirlər ki, biz getdik, torpağımızı ziyarət etdik. Axı sizin də Vətəniniz var. O, hamımızın Vətənidir. Bu, müstəqil Azərbaycan respublikasıdır" /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Xaricdəki soydaşlarımızın Vətən ilə müntəzəm əlaqə saxlamaları, müxtəlif vaxtlarda respublikaya gəlib qalmaları və burada həyata keçirilən geniş islahatları, böyük sosial-iqtisadi dəyişiklikləri öz gözləri



ilə görmələri çox vacibdir. Onlar yenidən öz yaşayış yerlərinə qayıtdıqda özləri ilə Azərbaycan həqiqətlərini aparır və xaricdəki digər həmvətənlərimiz arasında yayır, onların Azərbaycanda mövcud ictimai-siyasi, iqtisadi vəziyyət barədə təsəvvürlərini daha da genişləndirirlər.

Xaricdə yaşayan soydaşlarımız arasında əlaqələrin yaradılması və gücləndirilməsi çox vacib şərtlərdən biridir. Bu istiqamətdə məqsədyönlü işin aparılmasına böyük ehtiyac duyulur. Hər bir xarici ölkədə fəaliyyət göstərən diaspor nümayəndələri dünyanın müxtəlif şəhərlərində mövcud olan Azərbaycan mədəniyyət mərkəzləri, cəmiyyətləri ilə əlaqə saxlamağı bacarmalıdır. Bu sahədə V.Arzumanlının və A.Hüseynovun nəşr etdikləri "Azərbaycan" ünvanlı kitabı yaxından kömək göstərə bilər. Müəlliflər böyük zəhmətə qatlaşaraq kitabda xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri haqqında məlumat verir, ünvanlarını da həmçinin göstərirlər. Bu kitab hər bir ölkədə diasporun vəziyyəti və fəaliyyətini yığcam şəkildə özündə əks etdirir.

Fikrimizcə, bu kitab xaricdə fəaliyyət göstərən hər bir Azərbaycan mədəniyyət mərkəzinin və cəmiyyətinin stolüstü kitabı olmalıdır.

Digər tərəfdən, həmvətənlərimizin xarici ölkələrə, yəni məskunlaşdıqları qürbət ellərə Azərbaycan həqiqətlərini özləri ilə aparmaları həm də həmin ölkələrdə Azərbaycan diaspounun fəaliyyətinin yaxşılaşmasına da güclü təsir göstərir.

Bu gün Azərbaycan Respublikasının qarşısında duran başlıca vəzifə müstəqilliyimizi möhkəmləndirməkdən ibarətdir. Hörmətli prezidentimizin

bütün fəaliyyəti məhz bu məqsədin ümummilli vəzifənin həyata keçirilməsinə yönəldilmişdir. O, istər respublika daxilində, istərsə də xarici ölkələrdə, o cümlədən soydaşlarımız qarşısındakı çıxışlarında dəfələrlə bildirmişdir ki, Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi gələcəkdə bütün başqa mühüm problemlərimizin də həll olunmasına, Azərbaycanın sivilizasiya yolu ilə irəliləməsinə gətirib çıxaracaqdır.

Lakin bu yol uzun yoldur, heç də asanlıqla gedilən yol deyildir. Böyük məqsədə çatmaq üçün xalqımız nə qədər məhrumiyyətlərə dözmüşdür, faciələrlə qarşılaşmışdır, milli xəyanətlərə, Vətənin ağır günlərində, çevriliş cəhdini həyata keçirmək hissləri ilə yaşayan satqınlara qarşı bir yumruq kimi prezidentin ətrafında sıx birləşmiş və müstəqilliyimizin başı üzərini almış təhlükənin aradan qaldırılmasında öz sınanmış övladı, dünya əhəmiyyətli görkəmli siyasi xadim Heydər Əliyev cənablarının arxasında monolit sipər kimi durmuşdur.

Azərbaycan respublikasının prezidenti müstəqillik yolunun çox çətin, lakin şərəfli bir yol olduğunu hələ hakimiyyətinin ilk günlərində xalqa bildirmişdir. O, xalqı əmin etmişdir ki, heç bir çətinlik, təhlükə onu bu yoldan, müstəqil Azərbaycana xidmət etmək işindən döndərə bilməz.

Lakin bu vəzifə təkcə onun tərəfindən deyil, bütün Azərbaycan xalqının, o cümlədən xaricdə yaşayan soydaşlarımızın fəal köməyi sayəsində əldə edilə bilər.

Hələ 1994-cü ildə torpaqlarımızda müharibə getdiyi bir vaxtda Heydər Əliyev cənabları xarici ölkələrə səfərləri zamanı həmvətənlilərimizin diqqətini məhz bu vəzifənin birgə həyata keçirilməsinə, Azərbaycanın taleyüklü problemlərinin həllində yaxından iştirak etmələrinə yönəltmişdir.



Belə ki, 1994-cü ilin əvvəlində respublikanın prezidenti Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşündə Vətəndə gedən müharibənin çox böyük fəlakətlər yaratdığını, eyni zamanda bu ağır ictimai bəlaların xalqın, xaricdəki həmvətənlərimizin köməyi sayəsində aradan qalxacağını bildirmişdi: "...Azərbaycan ərazisində müharibə gedir və bu, xalqımıza çox baha oturur. Belə bir vəziyyətdə olan Azərbaycan respublikasının kənarda yaşayan soydaşlarımızın, həmvətənlərimizin, bütün dünya azərbaycanlılarının köməyinə çox böyük ehtiyacı var. Hərə öz imkanı daxilində nəyi bacarırsa ondan istifadə edərək, Azərbaycana kömək göstərməlidir" /"Azərbaycan", 3 mart 1994-cü il/.

Azərbaycan prezidenti xaricdə azərbaycanlıların arasında əlaqələrin inkişaf etdirilməsini diasporun fəaliyyətində mühüm amil hesab edir. O, Böyük Britaniyada bu məsələyə xüsusi diqqət yetirir, soydaşlarımızın bu sahədə qazandığı uğurlara sevinir, eyni zamanda, qeyd edir ki, Avropada, başqa ölkələrdə də, azərbaycanlıların çox yaşamasına baxmayaraq, onların arasında əlaqələr zəif olmuşdur.

Hər dəfə xarici ölkələrə səfər edərkən soydaşlarımızla görüşüb onların problemlərini dinləməsi, gündəlik qayğıları və qarşılarına çıxan çətinliklərlə yaxından tanış olması hörmətli prezidentimiz öz həyatında sanki bir bayram kimi qəbul edir. O, azərbaycanlıların onunla görüşə gəlməsinə böyük əhəmiyyət verir, bu

görüşün diasporun fəaliyyətinin gələcək inkişafında müsbət rol oynayacağını qeyd edir. Onun fikrincə, xaricdə yaşayan azərbaycanlılar bir-biri ilə sıx əlaqə saxlamalı, mehriban, yaxın olmalı, hətta ən çətin anlarda belə soydaşlarına arxa durmalıdırlar.

Hakimiyyətə xalqın tələbi ilə ikinci dəfə gələn Heydər Əliyev qısa müddət ərzində ölkənin siyasi-iqtisadi həyatında mühüm dəyişikliklər yaratmaq üçün xarici ölkələrə rəsmi səfərlərə çıxdı, Azərbaycanın başına açılan bəlaları dünyaya tanıtmaq məqsədi ilə dövlət başçıları, rəsmi şəxslər və soydaşlarımızla görüşdü. Onun Azərbaycan diasporu nümayəndələri qarşısında hər bir çıxışı əsl toy-bayrama çevrildi.

Uzun illər boyu Vətəndən ayrı yaşayan, Vətəndən hər bir xəbəri daim intizarla gözləyən soydaşlarımız dünya şöhrətli bir azərbaycanlının, bütün dünya azərbaycanlılarının prezidenti olan Heydər Əliyevin görüşünə gəlməyi, ondan lazımi məsləhət almağı özləri üçün böyük fəxr, şan-şöhrət hesab edirlər.

Azərbaycan prezidenti 90-cı illərin əvvəllərində respublikamıza qarşı çevrilmiş informasiya blokadasının yarılması, əsl reallığın, tarixi həqiqətlərin aşkara çıxarılması işində xaricdəki soydaşlarımızın fəaliyyətinə arxalanmağı məsləhət görür. Bu fikir demək olar onun bütün çıxışlarında öz əksini tapmışdır.

Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə Azərbaycan diasporunun yaradılmasının çox zəruri olduğunu irəli sürən Heydər Əliyev cənabları doğma Vətəndə belə bir diasporun fəaliyyətini soydaşlarımızın səbirsizliklə gözlədiyini bildirir. Lakin bu diaspora xaricdə erməni lobbisi, erməni diasporu ilə mübarizə şəraitində yaranmalı və inkişaf etməlidir.



Bu, heç də asan məsələ deyildir. Çünki diasporun formalaşması üçün mütləq lazımi zəmin olmalıdır. Belə ki, ermənilərin xaricdə fəaliyyət göstərən diasporu məhz belə möhkəm zəminə əsaslanıb inkişaf etməkdədir.

Xaricdəki soydaşlarımızın diqqətini bu məsələyə yönəldən Azərbaycan prezidenti Böyük Britaniyada soydaşlarımız qarşısında çıxışında demişdir: "...Reallıq bundan ibarətdir ki, başqa ölkələrdə erməni lobbisi, erməni diasporu kimi Azərbaycan lobbisi, Azərbaycan diasporu yaratmaq mümkün deyildir. Yə'ni o maddi imkanlara malik olan, yaxud ayrı-ayrı ölkələrdə dövlət orqanlarında, təbliğat, informasiya vasitələrində möhkəm mövqe tutan ermənilərlə bərabər səviyyəyə nail olmaq azərbaycanlılar üçün indi çox çətin məsələdir" /"Azərbaycan", 3 mart 1994-cü il/.

Həmin dövrdə Azərbaycan prezidenti real vəziyyəti çox düzgün qiymətləndirirdi. Həqiqətən də təkcə Böyük Britaniyada deyil, dünyanın demək olar bütün ölkələrində yaşayan azərbaycanlıların yaratdığı diasporu böyük təcrübəyə malik olan erməni diasporu, lobbisi ilə mübahisə etmək olmazdı.

Bu adi həqiqəti soydaşlarımızın nəzərinə çatdıran ölkə prezidenti heç də ruhdan düşməməyi, müstəqil Azərbaycan dövlətçiliyini möhkəmləndirmək yolunda fəal çalışmağı hər bir xaricdəki soydaşlarımızdan tələb edir: "Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə bir vursun, harada yaşamağından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq, gərək hər kəs öz Ana Vətəni haqqında düşünsün. Azərbaycanlılar artıq bilirlər və daha da çox bilməlidirlər ki, indi bizim nə-

daha sıx əlaqə saxlamalarını arzulayır. O, hələ Böyük Britaniyaya səfəri zamanı bu mühüm məsələyə toxunaraq demişdir: "Güman edirəm ki, belə görüşlər gələcəkdə dünya azərbaycanlılarının həmrəyliyi üçün, onların bir-biri ilə sıx əlaqə saxlaması, bir-biri ilə yaxın olması üçün ilk addımlardır. Arzu edirəm ki, bu addımlar uğurlu olsun, azərbaycanlılar dünyada bir-biri ilə birləşsin, bir-birinə yaxınlaşsın. Hamı Azərbaycan Respublikasının bu gününü və gələcəyini qorusun, müdafiə etsin". /"Azərbaycan", 3 mart 1994-cü il/.

Azərbaycan prezidentinin həmin dövrdə bu çağırışı, dünya azərbaycanlılarına müraciəti bütün xaricdəki soydaşlarımız tərəfindən böyük rəğbətlə qarşılandı. Hər bir həmvətənimiz hörmətli prezidentin qeyd etdiyi kimi Azərbaycana Ana Vətəni kimi baxdı, onun müdafiəsi, müstəqilliyinin qorunub möhkəmlənməsi yolunda əlindən gələni etməyə çalışdı.

Azərbaycan respublikası həmin dövrdə Ermənistanla torpaqlarımızın qorunması uğrunda müharibə aparırdı. Hələ atəşkəs müqaviləsi imzalanmamışdı. Odur ki, xaricdə yaşayan həmvətənlərimiz müstəqil respublikanı erməni işğalçılarından qoruyub müdafiə etmək məqsədilə Vətənə can atırdılar. Müdrik el ağsaqqalının, görkəmli siyasətçinin dünya azərbaycanlılarına müraciəti onları belə bir addım atmağa vadar etmişdi.

Lakin məlum olduğu kimi Azərbaycan prezidenti xaricdəki həmvətənlərimizin öz yaşayış yerlərində Azərbaycanın mənafeyini qorumağa, doğma respublikamızla sıx əlaqə saxlayıb haqqında yayılmış qeyri-obyektiv, bədnam fikirlərin aradan qaldırılmasında, Azərbaycan haqqında əsl obyektiv, real tarixi həqiqətlərin yayılmasında, dünya ictimaiyyətində düzgün ictimai fikrin yaranmasında fəal iştirak etməyi nəzərdə tuturdu.

O, elə bu gün də həmvətənlərimizə müraciətində onların bu istiqamətdə fəaliyyət göstərmələrini arzulayır.

Heydər Əliyev cənabları Böyük Britaniya səfərindən bir qədər əvvəl dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il bayramı münasibətilə xalqa müraciətində də həmin məsələlərə toxunmuşdur. O, 1994-cü il yanvarın 9-da Azərbaycan prezidentinin çağırışına cavab verən xaricdəki soydaşlarımızın ilk dəstəsi ilə Bakıda görüşdüyü zaman da həmçinin bu mühüm problemləri diqqət mərkəzində saxlamışdır. Həmin gün Azərbaycan prezidenti Almaniyadakı "Azərbaycan kültür ocağı"nın nümayəndələri - "Ana dili" qəzetinin naşiri və redaktoru Nurəddin Qərəvini, elektrosənaye doktoru Əli Qarabağini, məşhur qarmon çalan Rəhman Əsədüllahini və hərbi mütəxəssis Əmir Fərəvanini qəbul etmişdir.

Heydər Əliyev cənablarının xaricdəki həmvətənlərimizlə bu görüşündə bir çox mühüm problemlər diqqət mərkəzinə çıxarılmışdır. Qonaqlar etiraf etmişlər ki, dünya azərbaycanlıları arasında sıx əlaqələrin yaradılması sahəsində onun bir prezident kimi böyük əməyi vardır. O, bir azərbaycanlı, müdrik siyasətçi kimi ayrı-ayrı ölkələrə səpələnmiş, vətəndən uzaq düşmüş azərbaycanlıların təşkilatlanması sahəsində uzun illər heç bir iş aparılmadığını görmüş və onların bu istiqamətdə öz işlərini qurmalarını tövsiyə etmişdi.

Xaricdəki həmvətənlərimizin bir diaspor halında fəaliyyət göstərməməsi, lazımi səviyyədə təşkilat-

lanmaması, ümumiyyətlə həm soydaşlarımızın fəaliyyətinə, həm də doğma Vətənin qarşısında duran mühüm problemlərin həll olunmasına, Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasına, möhkəmlənməsinə olduqca təsir göstərmişdir.

Azərbaycan prezidenti ilə görüşündə bu cəhətə xüsusi diqqət yetirən qonaqlar xaricdəki həmvətənlərimiz ürəkağrısı ilə qeyd etmişlər ki, Qərbin ayrı-ayrı nüfuzlu dövlətlərində geniş imkanları olan azərbaycanlılar öz doğma torpaqlarında gedən müharibədən narahat olsalar da, onların pərakəndə halda yaşaması, bir mərkəzdə, müəyyən qurumlarda birləşməsi böyük əngəllər törədir. Buna baxmayaraq dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar görkəmli siyasi xadim, prezident Heydər Əliyevi özlərinin rəhbəri və atası hesab edirlər. /"Azərbaycan", 11 yanvar 1994-cü il/.

Almaniyadan gəlmiş həmvətənlərimiz görüşərkən, Heydər Əliyev cənabları cəmi üç ay idi ki, respublikamıza bir prezident kimi rəhbərlik edirdi. Onun 1993-cü ilin ortalarında ölkəmiz və xalqımız üçün çox çətin bir dövrdə xalqın tələbi ilə Ali Sovetin sədri vəzifəsinə seçilib fəaliyyətə başlaması elə ilk gündən müstəqil dövlətçiliyimizin qorunub saxlanmasında, möhkəmlənməsində böyük rol oynadı, Vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, heç bir səriştəsi, təcrübəsi olmayan ayrı-ayrı dövlət rəhbərləri vəzifədən uzaqlaşdırıldı, nizami ordunun yaradılmasına başlandı, torpaqlarımızın erməni işğalçılarından müdafiəsi və azad olunması sahəsində xeyli iş görüldü.

Görkəmli siyasi xadim Almaniyadakı soydaşlarımız qarşısında bu məsələlərə toxunaraq ağsaçlı anamız Azərbaycananın bu gün hər bir həmvətənimizin köməyinə ehtiyacı olduğunu bildirmişdi. Ölkəmiz üçün ən ağır vaxtlarda belə, o prezident kürsüsünə qalxıb and içəndə bütün dünya azərbaycanlılarının müstəqil respublikamızın dövlətçiliyinin möhkəmlənməsi işində fəal və yaxından iştirak etməsini arzulayırdı. O qəbul etdiyi qonaqlara bu haqda demişdi: "Ölkənin ağır vaxtlarında prezident seçiləndə, prezident kürsüsünə qalxanda da, and içəndə də mən təkcə Azərbaycanın ərazisində olan azərbaycanlılara yox, bütün dünyada yaşayan azərbaycanlılara müraciət etdim. Bildirdim ki, respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan hər bir insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin. Çünki Azərbaycanlının Azərbaycandan başqa vətəni yoxdur. Almaniyada yaşaya bilərsiniz, həm də çox firavan yaşaya bilərsiniz. Fransada, Amerikada da yaşaya bilərsiniz, varınız da, dövlətiniz də olar. Amma o ölkələr sizin Vətəniniz ola bilməz. Bunu təkcə azərbaycanlıya aid etmək olmaz. Hər bir millətin, hər bir insanın ana torpağı onun Vətənidir. Azərbaycanlıların da Vətəni Azərbaycandır". /"Azərbaycan", 11 yanvar 1994-cü il/.

Görkəmli siyasi xadim hər bir azərbaycanlıya doğma Vətənə bir ana ocağı kimi baxmağı tövsiyə edir. O, hansı ölkədə rəsmi yaxud dostluq səfərində olursa azərbaycanlılarda məhz bu müqəddəs hissin oyamasına çalışır. Azərbaycan prezidenti müstəqil dövlətimizin başçısı kimi fəaliyyətə başladığı ilk gündən bu müqəddəs hissi uca tutmağı, hər bir azərbaycanlıda bu hissi oyatmağı öz borcu hesab edir. O, Almaniyadan gəlmiş soydaşlarımızla görüşü zamanı öz fikrini bu haqda belə

ifadə etmişdir: "Mən müraciətlərimdə bütün dünyada - Avropada, Asiyada, Amerikada və s. yerlərdə yaşayan azərbaycanlıların bax, bu hissiyatını oyatmağa çalışıram. Çalışıram ki, bu hissiyatları oyadaraq onları Azərbaycana cəlb edim, Azərbaycana doğma münasibət bəsləmələrinə nail olum". /"Azərbaycan", 11 yanvar 1994-cü il/.

Azərbaycan diasporunun formalaşmasının başlıca mahiyyətini soydaşlarımızın pərakəndə vəziyyətdə yaşamağında deyil, mütəşəkkil şəkildə təşkilatlanmağında görən respublikamızın başçısı bütün çıxışlarında, o cümlədən soydaşlarımızla ilk görüşlərində bu problemi dönə-dönə qaldırır, bunun xalqımız, dövlətçiliyimizin möhkəmlənməsi üçün çox vacib bir fəaliyyət sahəsi olduğunu bildirir.

Ölkə prezidenti xaricdəki soydaşlarımızla hər bir görüşünü böyük fərəh hissi ilə gözləyir və onlarla qarşılaşarkən Azərbycanın dövlətçiliyinin qorunub saxlanmasında hər bir azərbaycanlının öz yeri və rolu olduğunu xatırladır, respublikamızın müstəqillik qazandıqdan sonra həm də böyük çətinliklər, sınaqlar qarşısında qaldığını, xüsusilə erməni təcavüzkarlarının xaricdə yaşayan erməni lobbisi, diasporu tərəfindən məqsədyönlü şəkildə müdafiə edildiklərini qeyd edir. Onun eyni problemi, yəni Azərbaycanın müharibə şəraitində yaşadığını, torpaqlarımızın işğal altında olduğunu, ümumiyyətlə xalqın son illərdə qarşılaşdıqları fəlakətləri dəfələrlə soydaşlarımız qarşısında söyləməsi təkcə görüş iştirakçılarını həmin problemlərlə tanış etmək xarakteri daşımır, dünya ictimaiyyəti, bütün dünya azərbaycanlıları bu problemləri eşitməklə, tanış olmaqla Azərbaycan haqqında təsəvvürləri ge-



nişlənir, əsl həqiqətlər aşkara çıxır, erməni faşizminin işğalçı olması görünür.

Ermənilərin Azərbaycanın başına açdığı bütün fəlakətlərin həyata keçirilməsində erməni diasporunun çox böyük rolu olmuşdur. Soydaşlarımızın nəzərdiqqətini bu məsələyə cəlb edən ölkə başçısı 1994-cü ilin əvvəllərində demişdir: "Nəzərə almaq lazımdır ki, Ermənistana kənardan çox yardım gəlir. Bütün ölkələrdə erməni lobbisi vardır. Belə lobbi Rusiyada da, Fransada, Amerikada, Almaniyada və hətta Ərəb ölkələrində, İranda da var. Bilirsiniz ki, İranda 200 mindən çox erməni yaşayır və şübhəsiz ki, onlar da Ermənistanı dəstəkləyirlər, yardım edirlər". /"Azərbaycan", 11 yanvar 1994-cü il/.

Azərbaycanın həmin dövrdə böyük fəlakətlərlə qarşılaşması ölkənin səriştəsiz şəxslər tərəfindən idarə olunması ilə əlaqədardır. Bu məsələ üzərində dayanan ölkə başçısı böyük ürək ağrısı ilə qeyd edir ki, belə səriştəsiz şəxsləri Vətən, Azərbaycan düşündürməyib. Bir tərəfdən respublikamız onların səriştəsizliyi ucbatından bərbad hala düşübdür, digər tərəfdənsə, xaricdə fəaliyyət göstərən ermənilər, erməni lobbisi müharibə aparan, işğalçılıq fəaliyyətini genişləndirmək istəyən Ermənistana hər cür yardım edirlər.

Azərbaycan prezidenti bu haqda belə deyib: "Digər tərəfdən isə erməni lobbisi Ermənistan silahlı qüvvələrinə kömək edib. Ermənistan üçün hər yer qapalıdır. Azərbaycandan gedən dəmiryol bağlıdır, Gürcüstandan gedən dəmir yolunda vəziyyət çox ağırdır. Ermənistana hava yolu ilə ərzaq, silah, sursat gəlir. Bu ölkənin nə elə bir iqtisadiyyatı, nə də elə bir sənayesi yoxdur ki, Ermənistanın böyük varı olsun. Varı

yoxdur, amma yaşayır, müharibə edir, müharibəyə çox böyük xərclər çəkir. Bunların isə hamısı xaricdən gəlir, hamısını xaricdəki lobbilər təmin edir". /"Azərbaycan", 11 yanvar 1994-cü il/.

Azərbaycan prezidentinin soydaşlarımız qarşısında məsələni belə qoyması, yə`ni həmvətənlərimizin doğma respublikamıza müntəzəm yardım göstərmələrini onların nəzərinə çatdırması tezliklə dünya azərbaycanlıları tərəfindən rəğbətlə qarşılandı. Azərbaycan diasporunun bir çox nümayəndəsi ölkəyə öz yardım əlini uzatdı.

Xaricdəki soydaşlarımızın məskunlaşdıqları ölkələrin həyatında yaxından iştirak etməməsi deməkolar daim Azərbaycan prezidentini düşündürən, narahat edən bir problem olub. Ölkə başçısının xarici ölkələrə səfərləri zamanı bu problemlə dərindən maraqlanması heç də təsadüfi deyildir. Məsələn, respublikanın prezidenti seçildikdən sonra, Fransaya ilk rəsmi səfəri zamanı bu Avropa ölkəsində ermənilərin böyük vəzifələrdə, informasiya orqanlarında işləmələrini, ölkənin həyatında mühüm yer tutmalarını və lazım olduqda öz milli mənafeləri naminə dövlət işlərinə tə`sir göstərmək imkanlarına malik olmalarını təəssüflə də olsa qeyd edir, eyni zamanda, onların bu qızğın fəaliyyətini Fransada yaşayan azərbaycanlılarla müqayisə edərək soydaşlarımıza öz qəti iradlarını bildirir. Heydər Əliyev cənabları Fransa, Almaniya kimi inkişaf etmiş Avropa ölkələrində azər baycanlıların pərakəndə, dağınıq vəziyyətdə yaşamalarını ürək ağrısı ilə göstərir, onlar arasında lazımi əlaqələrin olmamasını qeyd edir.

Təbiidir ki, xaricdəki soydaşlarımız arasında



əlaqələrin belə zəif olması, onların dağınıq, pərakəndə vəziyyətində yaşamaları diasporun formalaşma prosesinə son dərəcə mənfi təsir göstərmiş olardı. Nəticədə, böyük fəlakətlərlə qarşılaşan, xaricdəki həmvətənlərimiz tərəfindən həm maddi, həm də mənəvi yardım ala bilməyən, müdafiə olunmayan müstəqil Azərbaycan Respublikası dövlətçiliyimizin qorunub saxlanmasında daha böyük çətinliklərlə üzbəüz durardı.

Lakin xaricdəki soydaşlarımız Azərbaycan prezidentinin müdrik çıxışlarına elə ilk gündən hay verdilər, dağınıq, pərakəndə vəziyyətində fəaliyyət göstərməmək üçün ən mühüi problemlərin həllində həmrəylik, milli birlik nümunəsi nümayiş etdirdilər. Doğrudur, xaricdə yaşayan soydaşlarımız arasında hələ də bu günə qədər Vətən təəssübünü çəkməyənlər vardır. Onları yalnız öz şəxsi mənafeləri düşündürür.

Azərbaycan prezidenti hələ 1993-cü ildə xaricdəki səfərlərdən aldığı təəssüratda belələrinin mövcudluğu barədə öz narahatlığını bildirirdi. O, Almaniyada, Fransada ticarətin bir hissəsinin azərbaycanlıların əlində cəmləşdiyindən nə qədər fərəhlənirsə, bu ölkələrdə yaşayan bəzi həmyerlilərimizin hələ də öz vətənlərini tanımadıqlarına, onların da başqa xalqlar kimi artıq öz vətənləri olduğunu dərk etmədiklərinə görə dərin təəssüf hissi keçirir.

Hörmətli prezidentimiz xaricdəki soydaşlarımıza həm də məğlubiyyətimizin başlıca səbəblərini də açıqlamışdır. Eyni zamanda, bir dövlət başçısı kimi bu məğlubiyyətdən sarsılmadığını, xalqımızın qüvvəsinə dərin inam bəslədiyini, torpaqlarımızın işğal altından təmizlənəcəyini xüsusilə vurğulamışdır.

Xaricdəki soydaşlarımızın dövlət başçısının be-

lə nikbin əhval-ruhiyyədə olduğunu görmələri, onun öz dilindən bu nikbin sözləri eşitmələri, şübhəsiz ki, həmvətənlərimizin mənəviyyatında dərin iz buraxmış, bir çox məsələlərin gedişindən onları hali etmişdir.

Heydər Əliyev cənabları respublika Ali Sovetinin sədri, sonra isə prezidenti seçildikdən sonra ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan döyüşçüləri erməni işğalçılarının hücumlarının qarşısını almış, azğın düşmənin tapdağı altında olan torpaqlarımızın müəyyən hissəsini geri qaytarmışdır. Almaniyadan gəlmiş soydaşlarımıza bu haqda fərəhlə məlumat verən ölkə başçımız öz görüşündə onu da qeyd etmişdir ki, siz azərbaycanlıların kənardan göstərəcəyi yardımlar bizim qələbəmizi yaxınlaşdıracaq və gücləndirəcəkdir.

Görkəmli dövlət başçısı soydaşlarımız qarşısında çıxış edərkən, Azərbaycanın ərazi bütövlüyünə qarşı həyata keçirilən qəsdlərin üzərində daha çox geniş dayanır. O dəfələrlə bildirmişdir ki, ermənilər özləri heç vaxt Azərbaycan torpaqlarını işğal etməyə cəsarət eləməzlər. Onların fiziki imkanları buna yol verməz. Arxalarında duran üçüncü qüvvənin, dünyanın başqa ölkələrində yaşayan ermənipərəst qüvvələrin, başlıcası isə erməni lobbisinin, bir də aramızda yaşayıb xəyanət yolunu tutan ayrı-ayrı şəxslərin köməyi sayəsində torpaqlarımızı işğal etmək mümkün olub.

Müstəqil Azərbaycanın Ermənistan tərəfindən işğala məruz qalmasının bir obyektiv səbəbi də ölkə daxilində hakimiyyət uğrunda aparılan, mübarizə amili ilə əlaqədardır. Bu haqda soydaşlarımıza ətraflı mə'lumat verən hörmətli prezident ölkəmizin daxilində gedən çəkişmələrin, hakimiyyət uğrunda mübarizənin əsl



mənzərəsini yaratmağa, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda hansı maneələrlə qarşılaşdığımızı göstərməyə çalışmışdır. O Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşü zamanı bu haqda demişdir: "Bir tərəfdən Azərbaycan torpaqları işğal olunduğu halda, onun Qarabağ kimi bir bölgəsinin əldən çıxması real vəziyyətə çevrildiyi halda Azərbaycanda ayrı-ayrı siyasi qruplar, qüvvələr, ayrı-ayrı mafioz qruplar hakimiyyətə gəlmək üçün bir-biri ilə çəkişmişlər. Bilirsiniz ki, bunların nəticəsində son illərdə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olmuş və bu, Azərbaycan xalqına çox baha başa gəlmişdir. Azərbaycan xalqı öz torpaqlarını itirmiş və dediyim kimi bir milyondan artıq vətəndaşımız didərgin, qaçqın vəziyyətinə düşmüşdür.

...Azərbaycan ərazisində müharibə gedir və bu xalqımıza çox baha oturur. Belə bir vəziyyətdə olan Azərbaycan Respublikasının kənarda yaşayan soydaşlarımızın, həmvətənlərimizin, bütün dünya azərbaycanlılarının köməyinə çox böyük ehtiyacı var. Hərə öz imkanı daxilində nəyi bacarırsa ondan istifadə edərək, Azərbaycana kömək göstərməlidir. Sizə müraciətimiz bundan ibarətdir". /"Azərbaycan", 3 mart 1994-cü il/.

Azərbaycan prezidentinin soydaşlarımız qarşısında belə səmimi çıxışları həmvətənlərimiz arasında böyük ruh yüksəkliyi yaratmışdır. Biz dəfələrlə televiziya ekranı qarşısında oturub xaricdəki soydaşlarımızın öz prezidentlərinə necə həssaslıqla qulaq asmasını, onunla fəxr etmələrinin, bu müdrik siyasi liderin hər bir kəlməsini necə diqqətlə izləmələrinin şahidi olmuşuq.

Dili bir, məsləki bir olan həmvətənlərimiz doğma Azərbaycandan çox-çox uzaqlarda mütəşəkkillik

göstərərək ölkəmizin bu və ya digər probleminin həllində yaxından iştirak eləməyi, müstəqil dövlətimizin, qüdrətli dövlət başçısının hər bir çağırışına bir əsgər kimi hazır olmalarını müqəddəs övladlıq borcu hesab edirlər. Onlar bu gün də bu yüksək vətənpərvərlik hissi ilə yaşayırlar.

Heydər Əliyev cənablarının böyüklüyü ondadır ki, o ölkənin ən ağır, ən çətin vaxtlarında belə gələcəyə böyük nikbinliklə baxır, bu yüksək hissiyyatla xalqımızı, həmçinin xaricdəki soydaşlarımızı müstəqilliyimizin qorunması uğrunda mübarizə aparmağa çağırır. O, 1993-cü ildə respublikanın prezidentliyi vəzifəsinin icrasına hansı məs'uliyyətlə, yüksək vətənpərvərlik hissi ilə başlamışdısa, bu gün də həmin qayə, sarsılmaz enerji ilə öz siyasi fəaliyyətini davam etdirir, bir müdrik ağsaqqal kimi ölkənin düşdüyü sosial-iqtisadi burulğandan çıxmasına çalışır, müstəqil, suveren dövlətin qurulmasına və inkişafına, respublikamıza qarşı çevrilmiş hər cür qəsdləri, təxribatları öz mətin, dəmir iradəsi, siyasi uzaqgörənliyi, yorulmaz enerjisi ilə aradan qaldırır.

Hələ 1994-cü ilin əvvəllərində xalqımızın bu müdrik siyasi lideri ölkəmizdə müstəqilliyimizin başı üzərini almış müxtəlif təhlükələri aradan qaldırdıqdan sonra Böyük Britaniyada yaşayan soydaşlarımıza üzünü tutaraq demişdi: "Daxili vəziyyətimiz nə qədər çətin olsa da Azərbaycan sosial-iqtisadi böhran içərisindədir. Son illərdə iqtisadiyyat dağılmışdır. Azərbaycanda yaranmış böyük sənaye, kənd təsərrüfatı potensialı bərbad vəziyyətə düşmüşdür, elm təhsil ocaqlarının çoxu pis gündədir. Sosial sahə çox ağır vəziyyətdədir - lakin Azərbaycan xalqı yaşayır, gələcəyə böyük ümidlə baxır, güman edirəm ki, xalqımız bu vəziyyətdən çıxacaq və Azərbaycan öz torpaqlarının, öz taleyinin sahibi, öz dövlətini gələcəkdə də müstəqil dövlət olaraq yaşadacaqdır". /"Azərbaycan", 3 mart 1997-ci il/.



Göründüyü kimi, siyasi nikbinliklə zəngin olan bu çıxış həmvətənlərimizin gələcəyə inamla baxmasına, Azərbaycanın sosial-iqtisadi qüdrətinin durmadan artacağına böyük ümidlər vəd etmişdir.

Həqiqətən də bu tarixi görüşdən keçən bir neçə il ərzində müstəqil Azərbaycan öz sosial-iqtisadi qüdrətini xeyli artırmış, suverenliyini möhkəmlətmişdir.

Nəzərə almaq lazımdır ki, xarici ölkələrdə Azərbaycan prezidentinin soydaşlarımız qarşısında çıxışı heç də bir dövlətdə yaşayan həmvətənlərimiz üçün proqram xarakteri daşımır. Çünki Heydər Əliyev cənablarının öz çıxışında qaldırdığı mühüm problemlər bütün dünya azərbaycanlılarının bir diaspora kimi fəallaşmasına, onların ideya-siyasi cəhətdən dünyagörüşlərinin artmasına, respublikamızda baş verən ictimai-siyasi hadisələr barədə siyasi məlumat diapazonlarının genişlənməsinə böyük xidmət edir.

Xalqımız heç vaxt təcavüzkarlıq siyasəti ilə yaşamayıb, daima sülh tərəfdarı olub. Müstəqillik qazandıqdan sonra da, baxmayaraq ki, torpaqlarımız işğal altındadır, yenə də öz əvvəlki, humanizm, demokratik fəaliyyətini davam etdirir. Bu gün də bu ruhda fəaliyyət göstərməkdədir.

Lakin Azərbaycan xalqı öz torpaqlarına göz dikən hər bir düşmənə qarşı mərdmərdanə vuruşmağı da bacarır. Xaricdəki həmvətənlərimizə xalqımızın bu yüksək vətənpərvərlik keyfiyyətlərini bir daha xatırladan görkəmli siyasi xadim Heydər Əliyev cənabları

onların torpaqlarımızın işğalı ilə əlaqədar heç də ruhdan düşməməsini arzulayır: "...Xalqımız Artıq başa düşmüşdür ki, azərbaycanlılar öz torpaqlarını yalnız özləri qorumalıdırlar. Azərbaycan xalqı o qədər də aciz deyil, onun qəhrəmanlıqla dolu keçmişi var. Bu onu göstərir ki, əsrlər boyu başına gəlmiş bəlaların hamısından xalqımız öz gücü, cəsarəti, qəhrəmanlığı sayəsində çıxmışdır və indi də çıxacaqdır". /"Azərbaycan", 3 mart 1994-cü il/.

Şübhəsiz ki, müstəqil Azərbycanın tarixi nailiyyətlərinin qazanılmasında xaricdəki həmvətənlərimizin hər birinin Azərbaycan naminə fəaliyyət göstərməsinin böyük rolu vardır. Onların bir diaspor halında birləşmələri, öz aralarında həmrəyliyi və milli birliyi gücləndirərək Vətən ilə daha sıx əlaqə saxlamaları, doğma Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda fəal mübarizə aparmaları bütövlükdə Azərbaycanın mühüm sosial-iqtisadi problemlərinin həllində böyük rol oynayacaq, hüquqi dövlətin yaradılması sahəsində qəti addım olacaqdır.

Heydər Əliyev cənabları xaricdə Azərbaycan diasporunun fəaliyyətini gücləndirmək işində həmin dövlətlərin respublikamızda açılmış səfirliklərinin işçiləri, habelə Azərbaycana rəsmi səfərlərə gəlmiş dövlət başçıları, ayrı-ayrı nümayəndələr ilə fərdi görüşlərindən də səmərəli istifadə edir, eyni zamanda xaricdə qısa müddətli səfərlərində görüşdükləri dövlət adamlarından öz ölkələrində yaşayan azərbaycanlılara qayğı və diqqətlə yanaşmalarını, onlara lazımi şərait yaratmalarını xahiş edir.

Azərbaycan prezidentinin xarici dövlətlərdə dostları çoxdur. Bu dostluq xalqlar arasında mehriban



münasibətlərin yaradılmasına və əlaqələrimizin möhkəmləndirilməsinə xidmət edir. Görkəmli siyasi xadim həmvətənlərimizin bu dövlətlərdə bir çox problemlərin həllində də bu dostluğa arxalanır və həmin istiqamətdə iş görür.

Respublikamızda neft müqaviləsinin bağlanmasında iştirak edən xarici dövlətlərin nümayəndələri ilə aparılan danışıqlar bu sahədə irəliyə doğru atılmış mühüm addım sayılmalıdır. Təkcə iqtisadi problemlər baxımdan deyil, həm də azərbaycanlılara qarşı münasibətlərin aydınlaşmasında, xüsusilə xarici dövlətlərdə yaşayan soydaşlarımıza qarşı münasibətlərin daha da yaxşılaşmasında belə danışıqların, rəsmi dövlət başçıları ilə görüşlərin böyük əhəmiyyəti vardır.

Azərbaycan prezidenti Norveç nümayəndə heyətini qəbul etdiyi zaman /may 1995-ci il/ bu problemlər diqqət mərkəzində olmuşdur. Belə ki, istər Norveç tərəfi, istərsə də respublikamızın prezidenti məşhur Norveç səyyahı Tur Heyerdal və Heydər Əliyev arasında yaranmış dostluq münasibətlərindən danışmış, dostluğun xalqlarımız arasında yaranmış tarixi əlaqələrdən doğduğunu bildirmişlər.

Hörmətli prezidentimizin dəvəti ilə bir neçə dəfə Azərbaycanda olmuş Tur Heyerdal xalqımızın çox qədim tarixə malik olduğunu respublikamızda yazıb dərc etdirdiyi "Azərbaycan teli" məqaləsində söyləmişdir. Onun fikrincə, Norveç xalqının ulu əcdadları sayılan "Aserlər - Azərlər" arasında tarixi bir əlaqə, yaxınlıq mövcuddur.

Bundan əlavə, Norveç səyyahının fikrincə, qədim sivilizasiya Qafqazdan, xüsusilə Azərbaycan ərazisindən başlamışdır.

Norveç aliminin Azərbaycana belə dərin maraq göstərməsi, Qobustan və Günəş gəmiləri haqqında dediyi qiymətli fikirlər, habelə onun ölkəmizin prezidenti ilə sıx dostluq münasibətlərini davam etdirməsi, şübhəsiz ki, Norveç dövlətində yaşayan azərbaycanlılara qarşı qayğı və diqqətin artmasına da öz müsbət təsirini göstərməkdədir.

Ümumiyyətlə, xarici ölkələrdən gəlmiş əcnəbi qonaqlarla aparılan hər bir danışıq, rəsmi görüşlərin keçirilməsi, Azərbaycanla ətraflı tanışlıq həm respublikamız haqqında erməni təbliğat maşınının yaydığı uydurma və təhrif edilmiş məlumatları təkzib edir, həm də həmin ölkələrdə yaşayan soydaşlarımızın səmərəli fəaliyyətinə mühüm təsir göstərir.

Avropa dövlətlərində yaşayan soydaşlarımız uzun illər boyu türk xalqlarını, eləcə də Azərbaycanı keçmiş Sovet İttifaqının rəhbərliyində təmsil etmiş Heydər Əliyev cənabları ilə görüşməyə can atmışlar. Onlar yalnız 1995-ci ildə belə bir şərəfə nail olmuşlar. Belə ki, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1995-ci il aprelin 17-də Belçikanın paytaxtı Brüsseldə, Belçikada və Avropanın bir sıra dövlətlərində yaşayan soydaşlarımızla görüşmüş, onları dinləmiş, qayğı və problemləri ilə yaxından tanış olmuş, eyni zamanda həmvətənlərimiz qarşısında çıxış etmişdir.

Əvvəlki görüşlərdə olduğu kimi, Azərbaycan prezidenti azərbaycanlıların onun görüşünə gəlmələrini böyük məmnunluq hissi ilə qarşılamışdır. O, çıxışının lap başlanğıcında doğma respublikamızda hər bir azərbaycanlı vətəndaşın xaricdə yaşayan həmvətənlərin taleyi ilə maraqlandığını soydaşlarımıza çatdırmışdır. O, demişdir ki, "Azərbaycan müstəqilliyə çıxdıqdan



sonra bütün dünyadakı azərbaycanlıların qayğısına qalır, onların barəsində fikirləşir, düşünür." /Bax.: "Azərbaycan", 25 aprel 1995-ci il/.

Azərbaycanlıların dünyanın hər yerində, o cümlədən Brüsseldə yaşamaları respublikamızın prezidenti tərəfindən böyük məmnunluq hissi ilə qeyd olunur. Onun fikrincə, bir millət təkcə bir torpaqda yaşaya bilməz. O, başqa xalqlarla, dövlətlərlə müntəzəm ünsiyyətdə olmalı, günü harada xoş keçirsə, fəaliyyətini harada yaxşı qurmağı bacarırsa, orada da yaşamalı və işləməlidir. Bunun özünəməxsus müsbət cəhətləri vardır. Heydər Əliyev cənabları həmin müsbət cəhətlərin yalnız birini qeyd edir: "...Əgər Brüsseldə və onun ətrafında azərbaycanlılar yaşamasaydı, mən gəlib burada bir azərbaycanlı görməsəydim, özümü, şübhəsiz ki, pis hiss edərdim. Amma görürəm ki, bizim azərbaycanlılar Avropada yaşayır, işləyir, həyat sürürlər. Bu, sevindirici haldır. /Azərbaycan". 25 aprel 1995-ci il/.

Bəs azərbaycanlıların başqa ölkələrdə yaşamalarının daha hansı müsbət cəhətləri vardır? Azərbaycan prezidenti ayrıca olaraq bu cəhətlər üzərində dayanmasa da onun çıxışlarında həmin cəhətlər demək olar bütünlüklə öz əksini tapmışdır. Belə ki, o dəfələrlə qeyd etmişdir ki, xaricdə yaşayan hər bir azərbaycanlı Vətənin təmsilçisi olmalıdır, onun mənafeyini hər şeydən üstün tutub məhz bu istiqamətdə işini qurmalı və fəaliyyət göstərməlidir, ölkəmiz haqqında yayılmış uydurmaları və təhrif olunmuş qeyri-obyektiv fikirləri, məlumatları öz fəal müdaxilələri ilə aradan qaldırmağı bacarmalıdır, bir sözlə, Azərbaycan haqqında əsl həqiqətləri yaymalıdır. Azərbaycan prezidenti Büresseldə soydaşlarımızla görüşündə də xaricdə, xüsusilə Avropa

və Amerika dövlətlərində güclü diasporaya ehtiyacımız olduğunu həmvətənlərimizə bildirmişdir.

Xarici ölkələrdə yaşayan hər bir azərbaycanlı öz doğma yurdundan ayrı düşdüyü üçün qəm və kədər, öz doğmaları, Vətəni üçün niskil saxlamaq, intizar çəkmək daim onunla yol yoldaşı olur. Çox vaxt azərbaycanlılar bu səbəbdən xarici dövlətlərdə yaşaya bilmirlər. Müdrik ağsaqqalımız azərbaycanlılarda məhz bu psixoloji xüsusiyyətlərin üstünlük təşkil etdiyini bildirərək soydaşlarımıza tövsiyə edir ki, hər bir həmvətənimiz gərək qəriblikdə Vətənin torpağını, xalqını, millətini, dinini, dilini, adət və ənənələrini unutmamalıdır. Belə olduqda onun harada yaşamasının elə bir əhəmiyyəti yoxdur. O, böyük fərəh və inam hissi ilə doğma vətəni naminə çalışacaq, qürbət ölkələrdə çox sıxıntı keçirməyəcəkdir.

Deməli, Heydər Əliyev cənablarının qeyd etdiyi kimi, xarici ölkələrdə diaspora yaradan azərbaycanlılar ilk növbədə bu xüsusiyyətləri özlərində dəf etməyi bacarmalıdır, yəni düşdüyü şəraitdən, keçirdiyi həyat tərzindən asılı olmayaraq milli xüsusiyyətləri yaşatmalı, dini, dinini, adət və ənənələrini qoruyub saxlamalıdır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan prezidenti hər dəfə soydaşlarımız qarşısında çıxış edərkən Müstəqil respublikamızın Ermənistan tərəfindən təcavüzə uğraması faktı üzərində geniş dayanmışdır. Brüssel görüşündə də o Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkarlıq siyasətini pisləmiş, erməni tərəfinin mənfur niyyətlərinin yerinə yetirilməsində diasporun böyük rolu olduğunu göstərmişdir.

Qarabağ problemini ilk gündən müharibə yolu



ilə deyil, yalnız sülh yolu ilə, beynəlxalq təşkilatların vasitəsilə həll etməyi qarşısına məqsəd qoyan Azərbaycan prezidenti bu sahədə atılmış hər bir konkret addımın erməni lobbisi tərəfindən güclü qarşıdurmaya məruz qaldığını qeyd etmişdir.

Azərbaycan prezidentinin fikrincə, bu problemi sülh yolu ilə həll etmək üçün beynəlxalq təşkilatlar Ermənistanın təcavüzkar olduğunu sübuta yetirmək, Azərbaycanın haqq işi uğrunda mübarizə apardığını göstərmək lazımdır. Bu isə asan məsələ deyildir.

Doğrudur, artıq Azərbaycan prezidentinin yüksək siyasi təşkilatçılığı, siyasi uzaqgörənliyi, zəngin dövlətçilik təcrübəsi sayəsində Azərbaycan Respublikası bu adi həqiqətləri, yəni müstəqil dövlətimizin təcavüzə məruz qaldığını, torpaqlarımızın işğal olunduğunu, Ermənistanın təcavüzkarlıq siyasəti yeritdiyini, xalqımızın ədalətli müharibə apardığını dünyanın beynəlxalq təşkilatlarına çatdırmışdır. Bu sahədə müəyyən uğurlar da qazanılmışdır.

Lakin 1995-ci ilin əvvəllərində beynəlxalq təşkilatlar erməni təcavüzkarlığının əsl mahiyyətindən demək olar xəbərdar deyildirlər. Çünki Azərbaycana qarşı həyata keçirilmiş bədnam təcavüzkarlıq siyasəti xaricdə erməni lobbisi tərəfindən müdafiə olunur, informasiya blokadasının yarılması sayəsində hələ az iş görülmüşdü.

Görkəmli dövlət xadimi məhz bu məsələlərə toxunaraq Brüsseldə soydaşlarımıza demişdi: "Çalışırıq ki, beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini və Ermənistanın təcavüzkar olduğunu daha sanballı surətdə sübut edək, bütün bu məsələləri sülh yolu ilə aradan qaldıraq. Amma hansı bir beynəlxalq təşkilatda

işə başlayırıqsa görürük ki, orada erməni lobbisi çox güclüdür. Erməni millətindən olan adamlar çox vaxt heç Ermənistanda yaşamayıblar. Onlər həm güclü və varlıdırlar, həm də dövlət orqanlarına təsir göstərə bilirlər. Ermənilərin Azərbaycana qarşı apardıqları müharibədə haqsız olduqlarına baxmayaraq, erməni lobbisi öz imkanlarından istifadə edərək bizim haqq işimizə, haqlı təkliflərimizin eşidilməsinə maneçilik törədir". ("Azərbaycan", 25 aprel 1995-ci il).

Erməni lobbisinin fəaliyyəti bütünlükdə öz milli mənafelərinin müdafiə olunmasına həsr olunmuşdur. Bu adi həqiqəti hər bir beynəlxalq təşkilatın işi zamanı yaxından hiss edən Azərbaycan prezidentini istər-istəməz belə bir fikir düşündürür və narahat edir ki, xarici ölkələrdə Azərbaycan lobbisi də güclü olmalıdır, bu və ya digər problemin həllinə təsir göstərməyi bacarmalıdır.

Heydər Əliyev cənabları soydaşlarımıza xarici ölkələrdə də yüksək mənəviyyatı qoruyub saxlamağı məsləhət görür. Çünki mənəviyyat insanın daxili aləminin güzgüsüdür, öz xalqına, dilinə, bəşəri duyğulara sıx bağlılığı deməkdir. Belə mənəviyyatlı insanlar ulu babaların verdiyi nəsihətlər əsasında yaşayır, onların ruhuna, yüksək mənəvi duyğulara daim hörmətlə yanaşır. Şübhəsiz ki, saf mənəviyyatlı insanlar heç vaxt Vətənin mənafeyinə biganə qala bilməzlər. Harada yaşamaqlarından asılı olmayaraq öz fəaliyyətindən daim doğma elini, yurdunu, öz soydaşlarını düşünəcək, bütün imkan və vasitələrdən istifadə edib Vətənin aydın gələcəyinin təmin olunmasına çalışacaqdır. Vətəni heç vaxt unutmayacaqlar, onu müntəzəm olaraq yad və təbliğ edəcəklər.



Azərbaycan prezidenti Belçikada bu məsələyə toxunaraq belə deyib: "Bir müstəqil dövlət kimi Azərbaycanın indi Avropada da, Asiyada da, Amerikada da təbliğ olunmağa çox ehtiyacı var". /"Azərbaycan", 25 aprel 1995-ci il/.

Əlbəttə, Azərbaycan həqiqətlərinin təbliğində şübhəsiz ki, xaricdəki soydaşlarımızın çox böyük rolu vardır. Onlar yaşadıqları dövlətin dilini, qanunlarını, xalqların həyat tərzini, psixologiyasını yaxşı bilir, burada fəaliyyət göstərən düşmən qüvvələrinin atdığı hər bir addımı diqqətlə izləyir, onların ermənipərəst qüvvələrlə saxladıqları əlaqələrdən demək olar xəbərdar olurlar. Bu cəhətdən xaricdəki həmvətənlərimiz Azərbaycanın real vəziyyəti, gerçəkliyi barədə daha tez və dolğun təbliğat işi aparmağa qadirdirlər.

Lakin xaricdəki soydaşlarımız bu təbliğatı lazımi səviyyədə aparmaq üçün müntəzəm olaraq müstəqil Azərbaycanın fəaliyyətini izləməli, Vətənlə bağlı məlumatlarla təmin olunmalıdır. Buna görə də Heydər Əliyev uzaqgörən siyasi xadim kimi xarici səfərlərində soydaşlarımızın respublikamızla bağlı ətraflı məlumat əldə etməsinə xüsusi fikir verir, demək olar hər görüşdə müstəqilliyimizin qorunub saxlanması istiqamətində görülən işlərdən danışır, bugünkü real vəziyyəti, ölkənin sosial-iqtisadi inkişaf durumunu təhlil edir, bir sözlə, soydaşlarımızın kifayət qədər məlumatlanmasına çalışır.

Azərbaycanda çox-çox uzaqlarda yaşayan həmvətənlərimiz torpaqlarımızın işğalı, son illərdə respublikamızda gedən ictimai-siyasi və iqtisadi dəyişikliklər barədə vaxtında müfəssəl məlumat əldə edə bilmirlər. Buna görə də onlarda belə təsəvvür yaranıb ki, Ermə-

nistan ordusu Azərbaycan ordusundan qat-qat güclü olduğuna görə bu torpaqlar işğala məruz qalmışdır. Halbuki ərazi bütövlüyümüz təhlükə altında olduğu vaxt Azərbaycanda əsl nizami ordu yaradılmamışdı. Soydaşlarımızın diqqətini bu məsələyə cəlb edən Azərbaycan Prezidenti Brüsseldə çıxışı zamanı demişdir: "Siz Azərbaycandan uzaqlarda olduğunuza görə bilməlisiniz ki, torpaqlarımızın bir qisminin erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi azərbaycanlıların o qədər də aciz olması ilə bağlı deyildir. Yox, azərbaycanlılar aciz milləti, aciz və gücsüz adamlar deyildirlər. Sadəcə olaraq Azərbaycanda hakimiyyətdə olan adamlar, Azərbaycan rəhbərliyi xalqın gücündən, qüdrətindən istifadə edə bilmədilər. Məsələn, Ermənistan ordu yaratdığı halda, Azərbaycanda ordu yaradılmadı. Ermənistana nə lazım idi ki, ordu yaradaydı? Axı, ona heç kəs hücum etmirdi. Amma Azərbaycan artıq 1988-ci ildə Ermənistanın təcavüzünə məruz qalmışdı. Gərək Azərbaycanda ordu yaradılaydı. Adamlar səfərbərliyə alınaydı". /"Azərbaycan", 25 aprel 1995-ci il/.

Azərbaycan torpaqlarının işğal olunması, görkəmli dövlət xadiminin fikrincə, təkcə Ermənistanın respublikamızdan əvvəl ordu yaratması amili ilə əlaqədar deyildir.

Ərazi bütövlüyümüzün pozulması, ölkənin başına açılan fəlakətlər, həm də hakimiyyət uğrunda aparılan bədnam mübarizələrlə sıx bağlıdır.

Respublikamızın prezidenti Brüssel görüşündə bu məsələnin üzərində ayrıca dayanmışdır. O, soydaşlarımıza demişdir: "...Daxildə didişmələr, dedi-qodular, vəzifə mübarizəsi və digər ixtilaflar gedirdi. Bax bunların nəticəsində Azərbaycan torpaqlarının bir qismi



işğal edildi"./"Azərbaycan", 25 aprel 1995-ci il/.

Heydər Əliyev cənabları sonrakı səfərlərində də ölkəmizdə çevriliş cəhdləri barədə xaricdəki soydaşlarımıza ətraflı məlumat vermiş, onları müstəqilliyimizin necə çətinliklə qorunub saxlanması faktı ilə tanış etmişdir.

Şübhəsiz ki, Azərbaycan diasporu nümayəndələrinin bu məlumatları müfəssəl bilmələri, özü də ölkənin prezidentinin dilindən eşitmələri, onların fəaliyyətlərində öz dərin təsirini büruzə verəcəkdir. Çünki vətənin bu günü, sabahı və gələcəyi ilə maraqlanan hər bir azərbaycanlı bu məlumatları bilməsə, ölkənin inkişafı haqqında aydın təsəvvür əldə etməsə müstəqilliyimizin möhkəmlənməsinə də lazımi səviyyədə öz fərdi köməyini edə bilməz, Azərbaycan həqiqətlərinin yayılmasında və təbliğində fəal rol oynaya bilməz.

Azərbaycan prezidenti xaricdəki soydaşlarımız qarşısında çıxışında daha çox ölkəmizdəki vəziyyət üzərində durur. Bu da təbiidir.

Yuxarıda qeyd etdiyimiz kimi həmvətənlərimizin mə`lumatlanmasını, xüsusilə müstəqillik əldə edildikdən sonra Azərbaycanda gedən ictimai-siyasi proseslərin gedişi barədə dürüst informasiyaların çatdırılmasını çox vacib sayır. Brüssel görüşündə soydaşlarımıza bu haqda ətraflı mə`lumat verməklə, o onların Azərbaycanla bağlı təsəvvürlərini xeyli genişləndirib.

Xaricdə Azərbaycan lobbisinin yaranmasına Azərbaycan dövləti də lazımi yardım göstərməlidir. Heydər Əliyev cənabları bunu nəzərə alaraq Brüsseldə soydaşlarımıza müraciət edərək onlara hansı köməyin göstərilməsini soruşmuşdur.

Prezidentin fikrincə, həmvətənlərimiz lobbi yaratmaq işində özləri fəal, təşəbbüskar olmalıdırlar. Xaricdə yaşayan azərbaycanlıların yaratdıqları müxtəlif mədəniyyət mərkəzləri və cəmiyyətləri öz fəaliyyətlərində Vətənlə əlaqə saxlamağı, vahid bir məqsədə - ölkənin sosial-iqtisadi inkişafına hərtərəfli yardım göstərməyi özlərinin başlıca müqəddəs vəzifələri hesab etməlidir.

Xarici ölkələrdə güclü lobbi yaratmaq heç də asan məsələ deyildir. Prezidentin Brüsseldə soydaşlarımız qarşısında çıxışından aydın olur ki, lobbi yaratmaq üçün ilk növbədə böyük maddi imkanlara malik olmaq lazımdır. Bu fikri başqa xalqların yaratdıqları lobbinin fəaliyyəti də təsdiq edir. Dağlıq Qarabağ problemi ətrafında baş verən hadisələr bu fikri bir daha təsdiqləyir. Yəni erməni lobbisi böyük və güclü maddi imkanlara malik olmaları hesablarına dünyanın istənilən ölkəsində Ermənistanın mənafeyinə uyğun olaraq lazımi fikirlər yaratmış və əsl həqiqətlərin aşkara çıxmasına böyük maneçilik törətmişdir. Belə ki, Azərbaycanın dövlət başçısı Brüsseldə bu haqda belə demişdir: "...Lobbi sün'i surətdə yaranmır. Xarici ölkələrdəki lobbilər insanların öz vətəni, milləti ilə bağlılığından asılıdır. Amerikanın erməni millətindən olan ən zəngin adamlarından biri adını çəkmək istəmirəm - bəlkə də heç vaxt Ermənistanı görməyib, orada yaşamayıb, amma daim Ermənistana maddi yardım edir. Eyni zamanda Amerika, Avropada Ermənistan haqqında hansı fikri istəyir, onu da yaradır". /"Azərbaycan", 25 aprel 1995-ci il/.

Buradan aydın olur ki, hər hansı bir xalq xarici ölkələrdə lobbi yaratmaq istəyirsə, deməli, öz ətrafında



maddi imkanları güclü olan Vətən övladlarını cəmləşdirməlidir. Bu isə, şübhəsiz ki, diasporu yaratdıqdan və onun hərtərəfli fəaliyyətini tə'min etdikdən sonra mümkündür. Əks halda, təkcə Vətənə bağlılıq az rol oynayar, yə'ni diaspor yaxud lobbi güclü maddi imkanlara malik olmasa, fəaliyyət göstərdiyi dövlətlərdə qarşılarına qoyduqları məqsədi həyata keçirmək sahəsində bir çox çətinliklərlə qarşılaşır.

Azərbaycan prezidenti haqlı olaraq qeyd edir ki, ermənilər məhz belə bir güclü lobbiyə malik olduqlarına görə ABŞ konqresində Azərbaycan haqqında azadlığı dəstəkləmə aktının 907-ci maddəsinin tətbiq edilməsinə nail olublar.

İstər bu maddə tətbiq olunduğu vaxt, istərsə də bu gün ABŞ-da fəaliyyət göstərən erməni lobbisi bu maddənin ləğv edilməsinə böyük maneçilik göstərir. Erməni lobbisi konqresin bəzi üzvlərini, habelə müxtəlif dövlət strukturlarında işləyən ermənipərəst qüvvələr ələ almaqla həmin maddəni ləğv etməkdə böyük çətinliklər yaratmışlar. Hətta ölkə başçısının 1997-ci ildə ABŞ-a səfəri zamanı bəzi yüksək vəzifə sahibləri açıq etiraf etdilər ki, bu maddə Azərbaycana qarşı əsassız şəkildə tətbiq olunsa da, onu ləğv etmək işində müəyyən çətinliklərlə qarşılaşırlar.

Erməni lobbisinin güclü fəaliyyəti nəticəsində hələ də öz qüvvəsində qalan bu maddənin aradan qaldırılmasında Azərbaycan diasporu çox təəssüf ki, lazımi nəticələr əldə edə bilmir. ABŞ-da erməni lobbisi Ermənistanın mənafeyi ilə bağlı demək olar hər bir fəaliyyəti diqqət mərkəzində saxlamağa çalışır.

Lakin Azərbaycan prezidenti Heydər Əliyev cənablarının ABŞ-da rəsmi səfəri əsl tarixi həqiqətlərin

üzə çıxmasında, erməni-azərbaycan münasibətlərinin kökünü aydınlaşmasında, xüsusilə ölkəmizin müstəqillik və demokratiya yolu ilə irəliləməsi sahəsində görülmüş işlərin, əldə edilmiş uğurların qazanılmasında, habelə erməni diasporu və lobbisinin yaratdığı yanlış mə`lumatların, bədnam fikirlərin aradan qaldırılmasında çox böyük dönüş yaratdı. Dövlət başçımızın ABŞ prezidenti, ayrı-ayrı konqres üzvləri, senatorlar və başqa vəzifə sahibləri ilə fərdi görüşləri erməni-azərbaycan münasibətlərinə aid bir çox məsələlərin aydınlaşmasında mühüm rol oynadı.

Bu tarixi səfər həm də ABŞ-da Azərbaycan diasporunun fəaliyyəti üçün də çox geniş imkanlar açdı. Respublikamızın dövlət strukturları ilə müntəzəm əlaqə saxlamaq sayəsində xaricdəki soydaşlarımız şübhəsiz ki, öz fəaliyyətlərində böyük dönüş yaradacaq, Azərbaycanın mənafeyi naminə daha səylə çalışacaqlar.

Heydər Əliyev cənabları həmvətənlərimizi erməni lobbisinin güclü fəaliyyətindən, xarici ölkələrdəki qazandıqları "uğurlardan ruhdan düşməməyi tövsiyə edir. O, soydaşlarımıza hətta ən kiçik imkandan belə istifadə etməyi məsləhət görür. Onu Azərbaycan dövlətinin başçısı, bir vətəndaş, bir azərbaycanlı kimi soydaşlarımız arasında mövcud olan soyuqluq, onların gec-gec görüşmələri möhkəm narahat edir. Onun fikrincə, azərbaycanlılar tez-tez görüşməlidir. Bunu Azərbaycanın mənafeyi tələb edir, beynəlxalq aləmdə həyata keçirilən siyasət, hadisələrin tez-tez dəyişməsi və düşmən qüvvələrinin bundan öz mənafeləri üçün ustalıqla istifadə etmək səriştəsi tələb edir.

1995-ci ildə Brüsseldə soydaşlarımız qarşısında



bu məsələyə toxunan dövlət başçımız sonrakı görüşlərində də həmin məsələni diqqət mərkəzində saxlamışdır. Avropada yaşayan soydaşlarımız arasında əlaqə yaranmasına, ünsiyyət olmasa, görüşlər tez-tez təşkil edilməsə Azərbaycanın mənafeyini müdafiə etmək sahəsində bir mütəşəkkillik göstərilməsə istənilən uğurlar qazanmaq da çətin olar. Buna nail olmaq üçün müntəzəm görüşlər təşkil edilməli və bu görüşlərdə Azərbaycanın mənafeyi ilə bağlı problemlərin, xaricdəki diasporun inkişafına təsir göstərən məsələlərin yolları axtarılıb tapılmalıdır.

Görkəmli dövlət xadimi xaricdə yaşayan soydaşlarımızla görüşlərində erməni diasporu ilə Azərbaycan diasporunun fəaliyyətini müqayisə edir, bir çox məsələlərdə qonşu xalqın nümayəndələrinin çalışqanlığını, işgüzarlığını qiymətləndirir. Xaricdəki həmvətənlərimiz də öz fəaliyyətlərini belə qurmağı arzulayır. Belə ki, 1995-ci ildə Belçikada soydaşlarımızın diqqətini bu məsələyə cəlb edən ölkə başçımız demişdir: "Ermənilər hara gedirlərsə, özlərinə bir məktəb, kilsə və sair açırlar. Kimin harada işləməsindən asılı olmayaraq, mütləq bu kilsəyə gəlməlidirlər, məktəbdə erməni dilində oxumalıdırlar, erməni dilində qəzet buraxmalıdırlar. Təəssüf ki, bu xüsusiyyət bizim millətimizdə yoxdur". /"Azərbaycan", 25 aprel 1995-ci il/.

Azərbaycan diasporunun məhz bu cür, Vətənin mənafeyi naminə çalışan, güclü təşkilati, səfərbəredici qüvvəyə malik diaspor kimi görmək istəyən Heydər Əliyev cənabları xaricdəki soydaşlarımızın fəaliyyətinin səmərəli qurulmasında səfirliklərlə müntəzəm əlaqə saxlamağın böyük əhəmiyyəti olduğunu qeyd edir. Onun fikrincə, xarici ölkələrdəki Azərbaycan lobbisi-

nin fəaliyyətini gücləndirmək üçün səfirliklərimiz mütləq lazımi iş görməlidir. Özü də bu iş Azərbaycan dövlət quruculuğunun möhkəmlənməsinə xidmət etməlidir, prezidentin qeyd etdiyi kimi, gərək səfirliklərimiz bu işlə gecə-gündüz məşğul olsunlar, harada azərbaycanlı varsa, ona kömək etsinlər, onlar arasında əlaqə yaratsınlar". /"Azərbaycan", 25 aprel 1995-ci il/.

Azərbaycan prezidentinin diasporun fəaliyyəti ilə bağlı dəyərli tövsiyyələrindən düzgün nəticə çıxaran həmvətənlərimiz tezliklə öz işlərində böyük dönüş yaratdılar, erməni təcavüzü haqqında müxtəlif obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynadılar.

Məsələn, 1994-1995-ci illərdə Azərbaycan prezidentinin İngiltərə, Fransa, Belçika, Türkiyə və başqa dövlətlərə səfərlərindən sonra həmin ölkələrdə yaşayan soydaşlarımızın fəaliyyəti bu cəhətdən diqqəti cəlb edir. Belə ki, bu səfərlərin tarixi əhəmiyyəti tezliklə özünü onda göstərdi ki, soydaşlarımız təkcə bu ölkələrdə deyil, eləcə də başqa dövlətlərdə yaratdıqları mədəniyyət mərkəzlərinin və cəmiyyətlərin işini xeyli canlandırdılar, fəaliyyətlərini xeyli genişləndirdilər. Azərbaycanla əvvəlki illərə nisbətən daha müntəzəm əlaqə saxlamağa, istiqlaliyyətimizin, dövlətçiliyimizin möhkəmlənməsi işində daha yaxından iştirak etməyə başladılar.

Ümumiyyətlə, Azərbaycan diasporunun bu dövrdəki fəaliyyəti, yəni dövlət başçımızın xarici ölkələrdəki soydaşlarımızla tarixi görüşlərindən sonrakı mərhələ diasporumuzun formalaşması nöqteyi-nəzərindən xüsusi tədqiqat mövzusudur.

Azərbaycan prezidenti həmin dövrdə soydaşla-



rımızı xüsusilə erməni təcavüzünü ifşa etməyə çağırırdı və o özü bütün səfərlərində, rəsmi görüşlərdə, fərdi söhbətlərdə həmvətənlərimizə əsl nümunə göstərərək, informasiya blokadasının yarılmasında, əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına böyük siyasi fəallıq göstərirdi.

Azərbaycan prezidentinin bu çağırışı dünyanın hər yerində soydaşlarımız tərəfindən böyük rəğbətlə qarşılandı.

Həmvətənlərimiz ölkə başçımızın apardığı məqsədyönlü siyasətdən ruhlanaraq müxtəlif mətbuat orqanlarında erməni təcavüzünün mahiyyətini ifşa etmiş, bir diaspora kimi siyasi fəallıqlarını xeyli artırmışlar.

Məsələn, ABŞ-da çıxan "Midl İst Kvorterli" jurnalının 1994-cü il dekabr nömrəsində "Qafqaz hadisələrinin yanlış anlamı" adlı məqalədə erməni təcavüzünün mahiyyəti Qərb ictimaiyyətinə açıqlanır, ABŞ-ın Ermənistan-Azərbaycan münaqişəsinə qeyri-obyektiv baxışı aşkarlanır. Məqalənin müəllifləri Azərbaycanın ABŞ-dakı səfirliyinin birinci katibi Mahir İbrahimov və Merilend Universitetinin əməkdaşı, sosiologiya üzrə doktorluğa namizəd Elcan Qurbanov Amerika oxucularının diqqətini erməni ekspansionistlərinin qonşu ölkələrin ərazisi hesabına "Böyük Ermənistan" yaratmaq planlarına cəlb etmiş və göstərmişlər ki, Ermənistan və Azərbaycan müharibəsinə tez-tez xristianlarla müsəlmanlar arasında dini müharibə kimi baxılsa da, əslində, bu, Dağlıq Qarabağ ətrafında ərazi münaqişəsidir. Bu fikrin təsdiqi kimi 1988-ci ildən bəri Ermənistanın dövlət orqanlarının Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ilhaqı ilə bağlı qəbul etdiyi qeyri-qanuni qərarlar, rəsmi Yerevan təmsilçilərinin eks-

pansionist məzmunlu bəyanatları misal gətirilir.

Məqalə müəllifləri Qərbdə Ermənistanın işğalçılıq siyasətinin dəstəklənməsi səbəblərini də açıb göstərmişlər: "Azsaylı bir xalq kimi ermənilər Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı ərazi iddialarına özlərinin nail olacaqlarına ümid etmirdilər, ona görə də xaricə müraciət etməli oldular..."

1988-ci ildən başlayaraq ABŞ-dakı amerikalı ermənilər bütün qüvvələrini səfərbər etdilər ki, ABŞ-ın onları dəstəkləməsinə nail olsunlar və Azərbaycanı ABŞ-ın köməyindən məhrum etsinlər. Onlar hər iki cəhətdən böyük müvəffəqiyyət qazandılar... Lakin erməni lobbisinin ən böyük nailiyyəti "Azadlığı dəstəkləmə Aktı"nın 907-ci bölməsinin qəbul olunması idi.

Erməni lobbisinin etnik ermənilərin yaşadıqları ştatlardan olan konqresmenlərə tə`siri nəticəsində, əslində siyasi fırıldaq yolu ilə ABŞ qanunvericilərinə sırıdığı 907-ci maddəni Buş hökumətinin bəyənmədiyinə baxmayaraq, veto hüququndan istifadə olunmadığını göstərən müəlliflər belə bir cəhətə diqqəti cəlb etmişlər ki, erməni lobbisinin fırıldağını duyan "bir neçə konqress üzvü, o cümlədən bu bölmənin ilk tərəfdarlarından olan senator Dennis Dekonqini sonralar 907-ci maddənin əleyhinə çıxış etdilər. /Bax: "Azərbaycan", 24 may 1995-ci il/.

Məqalə müəlliflərinin göstərdiyi kimi, həmin maddənin ləğvi Amerika-Azərbaycan münasibətlərinə və regionda sülh prosesinə müsbət təsir göstərər. ...Azərbaycana qarşı sanksiyaların davam etdirilməsi ümumi sülh prosesinə zərər gətirir və ABŞ-ın maraqlarına ziddir.

1997-ci ildə Azərbaycan prezidenti ABŞ-da rəs-



mi səfərdə olduğu vaxt həmin maddənin ləğv edilməsini iki dövlət arasında sülhün yaranmasına kömək edən mühüm vasitə kimi qiymətləndirmişdir.

Azərbaycan dövlət başçısının xarici ölkələrə səfərlərindən sonra dünya mətbuatında dərc olunan belə xarakterli məqalələr respublikamızın sosial-iqtisadi inkişafı, ermənilər tərəfindən işğalı, Qarabağ probleminin əsl mahiyyəti, Azərbaycana qarşı həyata keçirilən bədnam siyasət haqqında aydın təsəvvür yaradır.

Bu ruhda, obyektiv yazılmış məqalələr xarici dövlətlərin ictimaiyyətini təkcə real gerçəkliklərlə tanış etmir, həm də həmin ölkələrdə soydaşlarımızın fəliyyətini canlandıran, genişləndirən, Azərbaycan diasporunun formalaşmasına təsir göstərən mühüm amil kimi də diqqət cəlb edir. Heydər Əliyev cənab-larının 1993-1994-cü illərdə xarici dövlət xadimləri ilə saxladığı müntəzəm əlaqələr, rəsmi səfərlər, ayrı-ayrı fərdi görüşlər elə həmin vaxtdan etibarən həqiqətin aşkara çıxmasına lazımi şərait yaratdı.

Xarici ölkələrdə təkcə azərbaycanlılar deyil, bəzi qərb politoloqları, dövlət adamları belə Qarabağ problemlərinin əsl mahiyyətini düzgün dərk edib hadisələri obyektivcəsinə əks etdirən məqalələrlə mətbuatda çıxış etməyə başladılar.

Belə ki, hələ 1994-cü ilin yazında, yəni dövlət başçımız xarici dövlətlərə bir neçə rəsmi görüşündən sonra bə`zi ölkələrdə bu ruhda məqalələr dərc olundu. Məsələn ABŞ-ın "Kovert Akşi" bülletenində Elen Rey və Bill Şaap "Bu dəfə ermənilər təcavüzkardırlar" adlı məqalədə yazırdılar: "Azərbaycan ərazisi olan, lakin əhalisinin çoxunu ermənilər təşkil edən Dağlıq Qarabağ üstündə Ermənistan ilə Azərbaycan arasında döh-

şətli münaqişə yeddi ilə yaxındır davam edir.

Bir çox amerikalı və Qərbi Avropalının bu region barəsində təsəvvürünə zidd olaraq məhz Ermənistan Azərbaycana hücum etmiş, məhz Ermənistan Azəri torpaqlarının dörddə birini zəbt etmiş, məhz Ermənistan qanunsuz təcavüz üstündə dəfələrlə BMT tərəfindən təqsirləndirilmişdir. Bununla belə, ABŞ-ın və Qərbin mətbuat orqanları törədilən vəhşiliklərlə hər iki tərəfi təqsirkar sayır. Adətən, Ermənistan zərərçəkən tərəf kimi, Azərbaycan isə hətta xəbərlər buraxılışlarında təcavüzkar kimi təqdim edilir. Əminik ki, təsvir olunan bu mənzərə reallıqdan tamamilə uzaqdır". /"Azərbaycan", 12 avqust 1994-cü il/.

Amerikalı müəlliflər Elen Rey və Billi Şaap bütün məqalə boyu ermənilərin təcavüzkarlığını ifşa etmiş, habelə ermənipərəst senatorların bu məsələdə Azərbaycana qarşı bədnam mövqelərini açıb göstərmişlər.

Amerika və Qərb mətbuatında belə obyektiv ruhlu məqalələrin dərc olunub əsl həqiqətlərin ictimaiyyətə çatdırılmasında, şübhəsiz ki, Azərbaycan diasporunun da özünəməxsus rolu vardır.

Yuxarıda göstərdiyimiz kimi Azərbaycan prezidenti soydaşlarımıza müraciətində bu sahədə məhz öz fəallıqlarını artırmağı tövsiyə edir.

Azərbaycan diasporunun mütəşəkkil iş aparması onun təşkilatlanmasından çox asılıdır. Hələ Brüssel görüşündə bu vacib məsələyə toxunan dövlət başçımız qeyd edirdi ki, "Avropa ölkələrində yerləşən Azərbaycan cəmiyyətləri bir mərkəzdə birləşdirilməlidir. Bunun üçün gərək soydaşlarımız özləri təşəbbüskar olmalı, eyni zamanda səfirliklərimiz də fəallıq göstərməlidirlər" /Bax: "Azərbaycan", 25 aprel 1995-ci il/.



Heydər Əliyev cənabları hansı ölkədə olursa-olsun mütləq vaxt tapıb orada yaşayan soydaşlarımızla görüşür, onların qayğıları və fəaliyyətləri ilə tanış olur, imkan daxilində bir çoxlarını dinləyir, fərdi söhbətlər aparır və həmvətənlərimizə dəyərli məsləhətlər verir.

O, 1994-cü ilin əvvəllərində Fransada soydaşlarımızla görüşündə bu səfərə böyük əhəmiyyət vermiş, onları Azərbaycan-Fransa münasibətlərində, habelə vətənimizlə bağlı əsl həqiqətlərin Qərb ictimaiyyətinə düzgün çatdırılmasında böyük rolları olduğunu bildirmişdir.

Fransa səfərinin materiallarından aydın olur ki, Heydər Əliyev cənablarına qədər heç bir Azərbaycan prezidenti xaricdəki soydaşlarımıza lazımi diqqət və qayğı ilə yanaşmamışdır.

Fransada yaşayan həmvətənlərimizdən Aidə Bornak bu haqda belə deyib: "Ürəyimiz Azərbaycanladır. Onun müstəqillik qazanmasına hədsiz sevinmişik. Bizə arxa olacağına inanmışıq. Bu diləklə Azərbaycana onlikli-kirşanlı və bitli-sirkəli prezidentlərin vaxtında dönə-dönə üz tutmuşuq. Onlar öz nümayəndələrini göndərmək əvəzinə Fransada yaşayan azərbaycanlılarla türk nümayəndələri vasitəsilə maraqlandılar. Heydər Əliyevin buraya səfəri ilə gözümüzə işıq gəldi. Allah onu min budaq eləsin. Kölgəsi üstümüzdən əskik olmasın. Dəfələrlə Azərbaycandakı müharibəyə göndərmək üçün dava-dərman, pal-paltar toplamışıq. O vaxt sahib duran, aparan olmadı". /"Azərbaycan", 4 fevral 1994-cü il/.

Acınacaqlı da olsa qeyd etməliyik ki, xaricdə

yaşayan soydaşlarımızın vətənə göndərmək istədikləri yardımla əlaqədar əksəriyyətinin başına bu bəlalar açılmışdır.

Fransada beş mindən artıq azərbaycanlı yaşayır. Əslən Təbriz, Ərdəbil, Xoy, Mərəd, Urmiya və Tehrandan gələn soydaşlarımız da Azərbaycan prezidentinin görüşünə gəlmişdilər.

Heydər Əliyev bu görüşü zamanı onlara yumruq kimi birləşməyin, siyasi qüvvəyə çevrilməyin zəruriliyindən danışdı, qürbət ölkələrdə münasibətlərindəki soyuqluğu, bir-birilə əlaqə saxlamamağı aradan qaldırmaq üçün fəal olmağı tövsiyə etdi.

Azərbaycan prezidentinin bu səfərini Heydər Əliyev Qərbə pəncərə açdı kimi qiymətləndirənlər heç də səhv etməmişlər. Həqiqətən onun ADR-in parlament sədri sonradan Fransadakı səfiri Əlimərdan bəy Topçubaşov və bəstəkar, qabaqcıl maarif xadimi Ceyhun Hacıbəylinin məzarlarını ziyarət etməsi, qəbirlərin üzərinə əklil qoyması, xatirələrini sükutla yad etməsi Fransadakı bütün həmvətənlərimizi riqqətə gətirdi, doğma respublikamıza, şəxsən onun böyük siyasi xadimi Heydər Əliyev cənablarına inamlarını daha da artırdı.

Fransa ermənilərin meydan suladığı bir ölkədir. Burada yarım milyona yaxın erməni yaşayır. Dövlətin iqtisadiyyat, informasiya, incəsənət və rabitə sistemində kifayət qədər kök atıblar. Bu da hər hansı bir siyasətin həyata keçirilməsində onlara əlverişli imkan yaradır.

Fransada ermənilərin narahatlıqları açıq-aşkar hiss olunurdu. Onlar Azərbaycan prezidentinin əleyhinə mətbuatda çıxışlar təşkil etsələr də, ölkə başçımız rəsmi görüşlərdə, fərdi söhbətlərdə Azərbaycana qar-



şı yönəldilmiş bütün təxribati sualları, fəaliyyəti, ictimai rəyi öz müdrik, uzaqgörən və məqsədyönlü siyasəti, düşünülmüş cavabları ilə aradan qaldırdı.

Azərbaycan diasporunun bu ölkədə fəallaşması üçün, bir yumruq halında birləşib mütəşəkkilcəsinə təşkilatlanması üçün lazımi tövsiyyələr irəli sürdü. Ölkəmizin dövlət başçısı respublikamıza gəlmiş soydaşlarımızı qəbul etdiyi zaman da həmçinin xaricdə Azərbaycan diasporunun fəaliyyətini qüvvətləndirməyin çox vacib olduğunu qeyd edir, bu sahədə onlara müstəqil dövlətimizin hər cür kömək edəcəyini bildirir.

Prezident üçün hər belə görüş sözün əsl mənasında böyük fərəhli hadisəyə çevrilir. O, həmvətənlərimizlə çox səmimi söhbət edir, yaşadıqları dövlətin ərazisində azərbaycanlıların ictimai-siyasi fəaliyyəti, qayğıları ilə maraqlanır, eyni zamanda onlara müstəqillik yolunda qarşımıza çıxan çətinliklərdən, problemlərdən məlumat verir.

Son iki-üç il ərzində keçmiş Bakı milyonçusu Şəmsi Əsədullayevanın nəvəsi, hazırda ABŞ-da yaşayan görkəmli ictimaiyyətçi Züleyxa xanım Veber iki dəfə Azərbaycanda olmuşdur.

Ölkə prezidentinin dəvəti ilə respublikamıza gəlmiş Züleyxa xanım hər dəfə qaçqınlara yardım üçün xeyli paltar və ərzaq məhsulları gətirmişdir. Dövlət başçımız işinin gərginliyinə baxmayaraq onu qəbul etmiş, ABŞ-da Azərbaycan diasporunun fəaliyyəti ilə bağlı dəyərli məsləhətlər vermişdir.

Şübhəsiz ki, xaricdəki soydaşlarımızla hər bir belə görüş Azərbaycan diasporunun fəaliyyətinə öz müsbət təsirini göstərməkdədir.

Azərbaycan prezidenti Züleyxa xanım Veberlə görüşündə də *başqa soydaşlarımızla* söhbətində toxunduğu problemlərdən danışmışdır. Ölkə başçımız ABŞ-da Azərbaycan diasporunun görkəmli simasına mə'lumat verərək bildirmişdir ki, "həm respublikamızın daxilində, həm də xaricdə ölkəmizin müstəqilliyinə qəsd etmək istəyən qüvvələr var. Vəzifə və hakimiyyət iddiasında olan adamlar anlamırlar ki, onların bu davaları respublikamızın müstəqilliyinə, ölkəmizdəki sabitliyin qorunub saxlanmasına olduqca mənfi tə'sir göstərir. Bütün bunlar isə xaricdəki müəyyən qüvvələrin Azərbaycana təcavüz etməsinə şərait yaradır. Bəzi daxili qüvvələr öz hərəkətləri ilə düşmənin dəyirmanına su tökürlər /"Azərbaycan, 31 may 1995-ci il/.

Xaricdəki soydaşlaımızın ölkəmizdəki ictimai-siyasi vəziyyəti yaxşı bilmələri çox vacibdir. Bu, bir diaspor kimi onların səmərəli fəaliyyət göstərilməsində böyük rol oynayar, həmvətənlərimizdə müstəqil Azərbaycan haqqında aydın təsəvvür yaradar.

Son vaxtlar Azərbaycanda yaranan bəzi siyasi qüvvələrin fəaliyyəti təkcə ölkə daxilində deyil, həm də xaricdə Azərbaycan diasporu nümayəndələri arasında da parçalanmaya səbəb ola bilər. Belə ki, ölkədə vətəndaş həmrəyliyi yaratmaq əvəzinə, vətəndaş müharibəsi təhlükəsi yaradan bəzi siyasi qüvvələr öz mənfur fəaliyyətlərində Azərbaycan diasporu nümayəndələrindən istifadə etməyə çalışmışlar. Bu cəhətdən, bu Azərbaycan prezidentinin ölkəmizdə baş verən hadisələr. ümumiyyətlə ictimai-siyasi vəziyyət barədə soydaşlarımıza ətraflı məlumat verməsi həmvətənlərimizdən bəzilərinin müəyyən siyasi qüvvələrin əlində oyuncağa



çevrilməsinin qarşısını almış olur.

Lakin çox təəssüf ki, hələ də xarici ölkələrdə yaşayan soydaşlarımız arasında müxtəlif mövqeydə duranlar vardır. Vaxtı ilə Türkiyədə Azərbaycan üçün lobbiçilik fəaliyyəti göstərən Azərbaycan Kültür dərnəyində Əhməd Qaraca və Məhəmməd Kəngərlinin tərəfdarlarından bir qrupu "Müsavat" partiyasının ambisiyalarını əsas götürərək Heydər Əliyev hakimiyyətinin bütün strukturlarını qeyri-qanunu elan etmişdilər. Onlar bununla da Türkiyədəki Azərbaycan diasporu arasındakı həmrə'yliyi pozmuş, həmvətənlərimizin vətənin ümdə problemlərinin həllinə münasibətdə parçalanmaya, fikir ixtilafına səbəb olmuşdular.

Əlbəttə, istər Azərbaycanın daxilində olan siyasi qüvvələr, istərsə də xaricdə yaşayan soydaşlarımız Vətənin mənafeyini hər şeydən üstün tutmalı və bütün fəaliyyətlərini məhz bu ruhda qurmalıdırlar. Böyük və zəngin siyasi təcrübəyə malik olan Heydər Əliyevdən onlar çox şey öyrənməlidirlər. Çünki Azərbaycan prezidenti istər keçmişdə, istərsə də bu gün bütün siyasi təcrübəsini, bacarığını, fəaliyyətini müstəqilliyimizin qorunub saxlanılmasını, dövlətçiliyimizin möhkəmlənməsi və xalqımızın düçar olduğu sosial fəlakətlərdən qurtulması işinə sərf edir.

Hazırda dünyanın demək olar bütün qitələrində, böyük dövlətlərdə azərbaycanlılar yaşayırlar. Onların yaratdıqları mədəniyyət mərkəzləri və cəmiyyətləri soydaşlarımız arasında geniş siyasi, mədəni iş aparırlar. Azərbaycanın ictimai həyatında uzaqdan olsa da mə'nən yaxından iştirak etməyə çalışırlar.

Xarici dövlətlər arasında ən çox mədəniyyət mərkəzlərinin və cəmiyyətlərin yaradıldığı dövlət Ru-

siya Federasiyasıdır. Bu dövlətin böyük şəhərlərində yaşayan azərbaycanlılar doğma respublikamızla müntəzəm əlaqələr saxlayır, ölkəmizdə həyata keçirilən ictimai-siyasi tədbirlərdə fəal iştirak edirlər.

Azərbaycan prezidenti Rusiya Federasiyasında, eləcə də Müstəqil Dövlətlər Birliyində soydaşlarımızın yaratdıqları diasporun səmərəli fəaliyyət göstərməsi üçün müvafiq dövlət strukturlarına lazımi göstərişlər vermişdir. O, Moskvada rəsmi səfərlərdə olduğu vaxt Rusiyanın müxtəlif şəhərlərində, eləcə də paytaxtda yaşayan azərbaycanlılarla görüşmüş, onların problemləri ilə maraqlanmışdır.

Dövlət başçımız Kislovodskda yaşayan soydaşlarımızla görüşündən də onların problemləri, qayğıları, burada məskunlaşmış başqa millətlərlə münasibətləri, ölkəmizlə əlaqələrinin vəziyyəti ilə maraqlanmış, həmvətənlərimizə ölkəmiz haqqında, son dövrlərdə həyata keçirilən daxili və xarici siyasət, mövcud ictimai-siyasi vəziyyət barədə mə`lumat vermiş, Rusiya Federasiyasında onların fəaliyyətini qüvvətləndirmək məqsədilə bir sıra dəyərli tövsiyələr irəli sürmüşdür.

Azərbaycan prezidenti ilə Kislovodski görüşünə Yesentuki, Jeleznovodski, Pyatiqorsk, Mineralnıye Vodı şəhərlərində və Stavropol diyarında yaşayan azərbaycanlılar gəlmişdilər. Heydər Əliyev cənabları həmin görüşdə soydaşlarımıza demişdir: "Burada yaşayırsınız, yaşayın, möhkəmlənin. Başqa ölkələrdə nə qədər çox azərbaycanlı olsa, bu, müstəqil respublikamızın bir o qədər dayağı olması deməkdir. Qoy hər yerdə bilsinlər ki, Azərbaycan milləti, bizim dövlətimiz, dəyərli insanlarımız var. Dilinizi sevin, ənənələrinizi qoryub saxlayın, bir-birinizə dayaq olun". /"Azərbaycan", 7



iyun 1996-cı il/.

Görkəmli dövlət xadimi soydaşlarımızla görüşərkən ilk növbədə onlar arasında əlaqələrin zəif, normal yaxud yaxşı inkişaf etməsinə xüsusi diqqət yetirir, diasporun bütün fəaliyyətinin məhz bu əlaqələr üzərində qurulduğunu bildirir.

Belə ki, dövlət başçımız 1997-ci ilin yayında Alma-Atada Azərbaycan diasporu nümayəndələri ilə görüşündə bu mühüm məsələyə bir daha toxunaraq demişdir: "Mən hiss edirəm ki, burada yaşayan azərbaycanlıların bir-biri ilə əlaqəsi yaxşıdırsa, yə`ni bir-birinizlə sıx əlaqə saxlayırsınız, görüşürsünüz. Lazım olanda bir-birinizə kömək edirsiniz, bir-birinizin dərdinə qalırsınız, şənliyində iştirak edirsiniz. Burada azərbaycan diasporu dağınıq deyil. Sizin birlikdə olmağınız çox vacibdir" ./"Azərbaycan", 17 iyun 1997-ci il/.

Elə həmin görüşdə dövlət başçımız təkrarən diaspor nümayəndələri arasında əlaqələrin qırılmaz olmasını toxunmuşdur: "Mənim arzum odur ki, bir-birinizlə əlaqəniz olsun, bir-birinizə dayaq olasınız, kömək edəsiniz və Azərbaycanın qayğıları ilə yaşayasınız". /Bax: Yenə orada/.

Maraqlıdır ki, Heydər Əliyev cənablarının soydaşlarımız qarşısında çıxışlarında demək olar daim eyni problemlər qaldırılır. Bu o deməkdir ki, Azərbaycan prezidenti diasporun fəaliyyətini heç vaxt yaddan çıxarmır, onu daim eyni problemlər düşündürür.

Məsələn, xaricdə yaşayan soydaşlarımızın assimilyasiyaya uğraması dövlət başçımızı möhkəm narahat edir. Onun fikrincə, assimilyasiyaya uğrayan hər hansı bir şəxs öz Vətəninə, xalqına, torpağına yaxşı

övlad ola bilməz, milli dövlətinin qayğıları ilə yaşaya bilməz.

Alma-Atada görüşündə bu məsələyə toxunan prezident təəssüflə bildirmişdir: "Bizim Azərbaycan millətinin bir balaca zəifliyi vardır. Bu zəiflik də odur ki, assimilyasiyaya tez düşür. Bizim millət assimliyasiyaya, necə deyərlər, yatımlı bir millətdir. Bunu deməyə mənim əsasım vardır. Çox sağ olun ki, Siz belə deyilsiniz, amma belələri var. Bu, məni narahat edir". /"Azərbaycan," 17 iyun 1997-ci il/.

Alma-Ata görüşündə dövlət rəhbərimiz etiraf edir ki, hələlik Azərbaycan dövlətinin xaricdəki, soydaşlarımızla əlaqələri nisbətən zəifdir. Lakin bu əvvəlki illərdən xeyli fərqlənir, yəni diaspor nümayəndələrinin doğma respublika ilə əlaqələri xeyli artmış, dünyanın müxtəlif ölkələrində müstəqil mədəniyyət mərkəzləri və cəmiyyətləri yaranmışdır. Onlar arasında milli həmrəylik istənilən səviyyədə olmasa da, təcrübə göstərir ki, soydaşlarımız bu sahədə də getdikcə uğurlar qazanırlar.

Heydər Əliyev cənabları qeyd edir ki, "Ölkəmiz, dövlətimiz möhkəmləndikcə, gücləndikcə, inkişaf etdikcə, imkanlarımız artdıqca biz Azərbaycandan kənarda yaşayan soydaşlarımızla əlaqələri daha da genişləndirəcəyik və bu qayğını da, yardımı da artıracağıq". /"Azərbaycan", 17 iyun 1997-ci il/.

Göründüyü kimi, Azərbaycan prezidenti diasporun gələcəyinə, dövlətçiliyimizin inkişaf etdirilməsində mühüm vasitə kimi onun çox böyük qüvvəyə malik olmasına böyük ümidlə yanaşır. O, diaspor nümayəndələrinin fəallığını artırmağı, yaşadığı dövlətin ərazisində ictimai-siyasi hadisələrdə, müxtəlif təd-



birlərin keçirilməsi işində yaxından iştirakını, lazım gələrsə, bu və ya digər məsələ ilə əlaqədar dövlət orqanlarına, ayrı-ayrı vəzifə sahiblərinə təsir göstərmələrini mühüm vəzifə kimi qarşıya qoyur.

Dövlət rəhbərimiz bu məqsədlə Alma-Atada da erməniləri soydaşlarımıza misal gətirir: "Bizimlə qonşu olan və bizə düşmənçilik edən ermənilər bir-birilə çox sıx əlaqədədirlər. Harada erməni varsa, bir-birini müdafiə edir. Ermənilər hər bir yerdə yaşadıqları ölkənin işlərinə təsir edirlər. Fransada dörd yüz min erməni var. Ölkənin əhalisi 55 milyondur. Təsəvvür edin, oradakı 400 min erməni Fransanın siyasətinə təsir edir. Onların Amerikada da, Moskvanın özündə çox böyük təsirləri vardır". /"Azərbaycan", 17 iyun 1997-ci il./

Ölkə rəhbərimizin bu tövsiyələri bütün dünya azərbaycanlılarının diqqət mərkəzində saxlanılmalı, Azərbaycan diasporu öz fəaliyyətində bu tövsiyələrdən lazımi nəticə çıxarmalıdır.

Xarici ölkələrdə yaşayan soydaşlarımız bütün sahələrdə fəallıq göstərməlidir. Azərbaycanın təkcə dövlətçiliyinin möhkəmlənməsi mənafeyi naminə çalışmaqla kifayətlənmək olmaz, eyni zamanda respublikamızın tarixinə, mədəniyyətinə uzanan qara əlləri də vaxtında kəsib atmaq lazımdır, bir sözlə, harada Azərbaycanın nüfuz dairəsinə xələl gəlirsə həmin məsələyə xüsusi diqqət yetirilməlidir.

Bu, cəhətdən Heydər Əliyev cənablarının Böyük Britaniyada səfərindən, habelə bu ölkədən gəlmiş ayrı-ayrı soydaşlarımızla, eləcə də ingilis neft şirkətləri rəhbərləri ilə rəsmi söhbətlərindən sonra, deyəsən bu dövlətdə yaşayan soydaşlarımızda fəallıq xeyli artmışdır. Məsələn, Böyük Britaniyanın paytaxtı Londonun

"Albert və Viktoriya muzeyində neçə illər boyu fars xalçası kimi təqdim edilən məşhur "Şeyx Səfi xalçası artıq 1997-ci ildən etibarən öz *qanuni adını* almışdır.

Dünyanın ən iri xalçası sayılan "Şeyx Səfi" ekskursiyaçılara daha Azərbaycan xalçası kimi təqdim edilir.

Bu nailiyyətin qazanılmasında Böyük Britaniyada yaşayan azərbaycanlıların da özünəməxsus əməkləri vardır. Heç şübhəsiz ki, onlar ölkə prezidentinin diaspor nümayəndələri qarşısında çıxışından lazımi nəticə çıxarmış, böyük tarixə malik olan Azərbaycan mədəniyyəti nümunələrinin xalqımıza qaytarılması, dövlətimizin nüfuzunun qorunması sahəsində konkret addımlar atmağa başlamışlar.

Azərbaycanın ictimai-siyasi həyatında baş verən demokratik dəyişikliklər, yaranmış sağlam demokratik mühit soydaşlarımızla əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar açmışdır.

Azərbaycan prezidenti diasporun fəaliyyətini gücləndirmək məqsədilə respublikamızda ayrı-ayrı təşkilatların məhz bu istiqamətdə iş aparmasına lazımi şərait yaradılmasını tələb edir.

Diasporun fəaliyyətinin öyrənilməsi və həmvətənlərimizlə əlaqələrin genişləndirilməsi sahəsində son vaxtlar müəyyən uğurlu işlər görülmüşdür. Belə ki, Azərbaycan EA-nın Milli Münasibətlər İnstitutunda "Azərbaycan diasporu" şö`bəsi yaradılmış, "Soydaş" Beynəlxalq Assosiasiyası, Azərbaycanlı Gənclərin Beynəlxalq Birliyi Cəmiyyəti, "Azərbaycan Dünyası" Beynəlxalq Əlaqələr Mərkəzi, "Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi" bu istiqamətdə intensiv və faydalı fəaliyyət göstərir.



Bundan əlavə ABŞ-da və Avropa ölkələrində müxtəlif vaxtlarda yaradılmış Azərbaycan Milli Mədəniyyət Mərkəzlərinin və Cəmiyyətlərinin respublikamızda şö`bələri fəaliyyətə başlamışdır.

1997-ci ildə Azərbaycan Respublikası Prezident Aparatı tərkibində xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqə bölməsinin yaradılması bu sahədə irəliyə doğru atılmış mühüm addım sayıla bilər.

Şübhəsiz ki, bütün bunlar respublikamızın müdrik rəhbərinin bu sahəyə qayğı və diqqətinin parlaq təzahürüdür. Demokratiya şəraitində öz fəaliyyətlərini daha da təkmilləşdirən bu cəmiyyətlər, təsisatlar Azərbaycan diasporunun formalaşmasında az əhəmiyyət kəsb etməyəcəklər.

Müstəqil respublikamızın başçısı dənək olar soydaşlarımızla bütün görüşlərində xalqımızın zəngin mə`nəvi sərvəti hesab olunan *milli dilimizin* qorunub saxlanması, inkişaf etdirilməsi üzərində ətraflı dayanır. Heydər Əliyev cənabları Azərbaycan dilini xalqımızın qoruyub saxladığı ən böyük nailiyyət hesab edir. O, Amerikada soydaşlarımız qarşısındakı çıxışında bu məsələyə toxunaraq demişdir: "Azərbaycanın öz dili var. Azərbaycan öz dilində yazır, oxuyur, danışır. Azərbaycanın dövlət dili, ana dili Azərbaycan dilidir. Azərbaycanın bütün universitetləri, məktəbləri, elmi Azərbaycan dilindədir". /"Azərbaycan", 6 sentyabr 1997-ci il/.

Görkəmli dövlət xadimi soydaşlarımıza bu dil ilə fəxr etməyi, onu göz bəbəyi kimi qoruyub saxlamağı, bu dildən dövlətimizin mənafeyi naminə bacarıqla istifadə etməyi, mədəniyyətimizi yaşatmağı, qədim tariximizi

öyrənməyi, qazandığımız bütün uğurları dünya ictimaiyyətinə çatdırmağı mühüm vəzifə kimi irəli sürmüşdür.

Yeri gəlmişkən qeyd edək ki, hörmətli prezidentimiz Heydər Əliyev cənabları məhz bu dildən çox ustalıqla, bacarıqla istifadə edir. O, zəmanəmizin nadir natiqlərindəndir.

Filologiya elmləri doktoru, professor Nizami Xudiyev "Heydər Əliyev və Azərbaycan dili" monoqrafiyasında dövrümüzün böyük və görkəmli siyasi xadimini həm də ana dilimizin mahir qoruyucusu və inkişaf etdiricisi hesab etməsi heç də təsadüfi deyil.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixində xüsusi fərman vermişdir. Fərmanda dilimizin çox qədim tarixə malik olması ilə bağlı deyilir: "Qədim və zəngin tarixə malik türk dil ailəsinin oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV-V əsrlərdən e`tibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdır. Dilimizin özəyini ta qədimlərdə Azərbaycan torpaqlarındakı türk əsilli boyların və soyların dili təşkil etmişdir" /"Ədəbiyyat qəzeti". 29 iyun 2001-ci il/.

Möhtərəm prezidentin verdiyi fərmandan götürülmüş bu fikir dilimizin yayılma tarixini saxtalaşdıranlara çox gözəl cavabdır.

Azərbaycan dili 1995-ci ildə noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyada dövlət dili kimi təsbit olunmuşdur. Görkəmli siyasi



xadimin öz dilinə münasibəti hər bir soydaşımız üçün böyük örnək hesab olunur. O, bu haqda demişdir: "Dilimiz çox zəngin və ahəngdar bir dildir, dərin tarixi köklərə malik dildir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

Heydər Əliyevin Azərbaycan dilinin inkişafı qarşısında çox böyük xidməti var. Görkəmli dilşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Ağamusa Axundov böyük dövlət xadiminin bu sahədəki xidmətlərini çox yüksək qiymətləndirərək yazmışdır: "Hər bir dili yaşada və inkişaf etdirən onun mənsub olduğu xalqdır. Dilin hərtərəfli inkişafı, zənginləşməsi, yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır".

Tarixi təcrübə göstərir ki, dilin inkişafında milli müstəqillik ideyaları və dövlətçilik ən`ənələrinin, həmin ideya və ən`ənələri öz fəaliyyətində gerçəkləşdirən və həyata keçirən qüdrətli dövlət başçılarının, xalqının tarixində şərəfli yer tutan böyük siyasi xadimlərin müstəsna rolu olur. Belə qüdrətli dövlət başçısı və siyasi xadimlər çərgəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adı öz yüksək və layiqli yerini tutur. Mübaliğəsiz deyə bilərik ki, yaşadığımız yüzilliyin son otuz ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə də ümumi dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə - diplomatiya aləminə yol alması, zənginləşə-zənginləşə nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi görkəmli dövlət başçısı Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti və yürütdüyü müdrik, uzaqgörən dil

siyasəti ilə bağlıdır. O, 60-cı illərin sonundan öz zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mə`nəviyyatımıza dərindən bələd olması sayəsində ardıcıl milli dil siyasəti işləyib hazırlamışdır və bütün çətinliklərə sinə gərərək onu dönmədən həyata keçirmişdir.

H.Əliyevin 60-cı illərin əvvəllərindən başlayaraq bu günə kimi Azərbaycan dilinin dövlət dili olması, xalqımızın mə`nəvi mövcudluğunun əsas amillərindən olan dilimizin inkişafı və yüksəlişi uğrunda apardığı mübarizə, gördüyü böyük işlər, onun ana dili, ümumən dil quruculuğu haqqındakı elmi-nəzəri fikirləri, təəssüf ki, hələ indiyə qədər araşdırılmamış, dünyanın ən böyük natiqlərindən birinin zəngin nitq təcrübəsi, natiqlik məharəti barədə əsaslı bir söz deyilməmişdir.

Tanınmış dilçi-alim, filologiya elmləri doktoru, professor Nizami Xudiyevin oxuculara təqdim olunan "Heydər Əliyev və Azərbaycan dili" kitabı bu sahədə ilk təşəbbüs olub, ölkə prezidentinin Azərbaycan dilinin inkişafı, onun dövlət dili statusu alması uğrundakı çoxillik gərgin fəaliyyətinin ayrı-ayrı mərhələlərini əks etdirir. /Bax: N.Xudiyev. Heydər Əliyev və Azərbaycan dili. Bakı, Təhsil, 1997, s.5-6/.

Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılara müraciətində Heydər Əliyev cənabları doğma vətənlə sıx əlaqə saxlamağı və bu dili sevməyi mühüm vəzifə olaraq irəli sürür.

O, 1997-ci ilin axırlarında "Dünya azərbaycanlılarına" müraciətində Azərbaycanı bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba yurdu olmasını bir daha onların nəzərinə çatdırmışdır.

Hörmətli prezidentin öz çıxışlarında hər dəfə



bu məsələyə qayıtması heç də təsadüfi deyil. Təcrübə göstərir ki, xarici ölkələrdə, xüsusilə ABŞ-da yaşayan azərbaycanlıların bir qismi İrandan olduğu üçün çox vaxt Azərbaycan diasporunun fəaliyyətində yaxından iştirak etmir, hətta özünü iranlı sayır.

Göründüyü kimi Azərbaycanın ikiyə parçalanması burada da özünü büruzə verir.

Təbiidir ki, belə hallar Azərbaycan lobbisinin fəaliyyətinə öz mənfi tə`sirini göstərməyə bilməz.

Lakin ABŞ-da yaşayan və Azərbaycanı bir çox beynəlxalq məclislərdə uğurla müdafiə edən professor Tadeuş Svyatixovskinin fikrincə, Azərbaycan lobbisi əgər özünün bütün potensial imkanlarından istifadə edirsə, o erməni lobbisindən qat-qat güclü ola bilər.

Respublikamızın başçısı Heydər Əliyev cənabları da məhz bu fikirdədir. Onun soydaşlarımız qarşısındakı çıxışlarında bu məsələ dəfələrlə qaldırılmışdır, erməni və Azərbaycan diasporunun fəaliyyəti nəzərdən keçirilmiş, konkret vəzifələr irəli sürülmüşdür.

Azərbaycan diasporunun güclənməsi xalqımızın milli azadlıq mübarizəsinin inkişafına dövlətçiliyimizin möhkəmlənməsinə, ölkəmizin tərəqqisinə xidmət etməlidir.

Azərbaycan prezidenti respublikamızın gələcəyini çox parlaq görür, müstəqilliyimizin qorunub saxlanmasına, dövlətçiliyimizin getdikcə daha da möhkəmlənəcəyinə dərin inam bəsləyir. Bu tarixi vəzifələrin həyata keçirilməsində xaricdəki soydaşlarımızın da önəmli xidmətləri olduğunu qeyd edən dövlət başçımız, bütün dünya azərbaycanlıları qarşısında proqram xarakterli yeni vəzifələr qoymuşdur. Bu vəzifələri yerinə yetirmək hər bir azərbaycanlının

müqəddəs borcudur.

Azərbaycan prezidenti dünya azərbaycanlılarına müraciətində demişdir: "Bu gün harada yaşamasından asılı olmayaraq Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrəylik nümayiş etdirməlidir. Vətənini, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin dönməz olması üçün səy göstərməlidir. Bütün azərbaycanlalırda bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxsə azərbaycançılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir. Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır.

İnanıram ki, əsrlərdən bəri arzusunda olduğumuz və uğrunda mübarizə apardığımız müstəqil və azad, Azərbaycan ideyalarının həyata keçdiyi bu tarixi sınaq anlarında dünyanın hər bir guşəsində yaşayan həmvətənlərimiz bizim ümumilli məqsədlərimizin tam gerçəkləşməsi üçün daha böyük əzmlə çalışacaqdır". /"Respublika" qəzeti, 27 dekabr 1997-ci il/.

Biz də ona inanırıq ki, dünya azərbaycanlılarının, zəmanəmizin nəhəng siyasi xadimi, xalqımızın böyük öndəri Heydər Əliyev cənablarının diasporunun fəaliyyətini gücləndirmək məqsədilə qarşıya qoyduğu mühüm vəzifələrin yerinə yetirilməsi, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi işində böyük rol oynayacaqdır.

Bu müqəddəs və ümdə vəzifə hər bir azərbaycanlının, Vətən, Xalq, Ulu Torpaq qarşısında övladlıq



borcudur.

Möhtərəm prezidentimizin, cənab Heydər Əliyevin 1998-ci il avqustun əvvəllərində Böyük Britaniyada yaşayan soydaşlarımızla görüşü böyük ictimai-siyasi maraq doğurur. Ölkə rəhbəri bu görüşü zamanı Böyük Britaniyanın kraliçası, baş naziri və digər rəsmiləri ilə görüşləri, danışıqları barədə ətraflı məlumat vermiş, həm Böyük Britaniya, həm də Azərbaycan üçün bu əlaqələrin davam etdirilməsinin çox böyük əhəmiyyət kəsb etdiyini qeyd etmişdir.

Əlamətdar haldır ki, ölkə prezidenti getdiyi dövlətlərdə azərbaycanlılar qarşısında çıxış edərkən Vətənimizin tarixi keçmişinə aid mütləq müəyyən məlumat verir, Azərbaycanın bir dövlət kimi indiyədək tanınmasının əsas səbəblərini izah etməyə çalışır. O, Böyük Britaniyada da bu ən'ənəsinə sadiq qalmış, soydaşlarımıza bildirmişdir ki, "biz öz müstəqilliyimizi dünyada təsdiq etmək, onu toxunulmaz etmək üçün dünya birliyində Azərbaycanın bu gün nə olduğunu və gələcəkdə nə cür ölkə olacağını sübut etməliyik. Çünki keçmişdə iki əsr çar Rusiyasının, sonra isə Sovetlər İttifaqının tərkibində olan Azərbaycan öz nefti, mədəniyyəti, musiqisi, alimləri ilə nə qədər məşhur olmuşdursa, ancaq bir ölkə, dövlət kimi tanınmamışdır". /"Azərbaycan", 4 avqust 1998-ci il/.

Azərbaycanın tarixi keçmişi barədə qısa məlumatın verilməsi həm Böyük Britaniyada, həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Avropa ölkələrində Azərbaycanın inkişafını izləyən əcnəbilər üçün çox mühüm əhəmiyyət daşıyır. Ona görə ki, müstəqil Azərbaycan Respublikasının tarixi keçmişi

əsl həqiqətlər Avropa xalqları arasında az yayılmışdır. Bunu nəzərə alan ölkə prezidenti soydaşlarımıza müraciət edərək demişdir: "1918-ci ildə Azərbycanda ilk dəfə Xalq Cümhuriyyəti, demokratik respublika yaranan zaman dünya tamamilə başqa bir dünya idi. O hökumətin də Azərbaycanı tanıtmaq cəhdləri çox simvolik xarakter daşıyıbdır. O vaxt bəzi ölkələr Azərbaycanın müstəqilliyini tanıdı, ancaq bundan o tərəfə getmək mümkün olmadı. Bu da təbiidir. Çünki o illər çox ağır və çətin illər idi.

Ona görə də, yenə də deyirəm, Azərbaycan bizim üçün, azərbaycanlılar üçün nə qədər dəyərli bir ölkə olsa da, bizim nə qədər qədim mədniyyətimiz, musiqimiz, şairlərimiz, yazıçılarımız, rəssamlarımız və tarixi me`marlıq abidələrimiz olsa da biz özümüzü dünyada tanıda bilməmişik. O, çərçivədə bunu tanıtmaq da mümkün deyildi. Digər tərəfdən də dünyanın başqa ölkələrində, xüsusən Avropada, Amerikada, yə`ni dünya siyasətini tənzimləyən ölkələrlə Azərbaycanın lazımi qədər soydaşları, müəyyən mənsəb tutmuş, siyasi, iqtisadi imkana malik nümayəndələri olmamışdır.

Ona görə də, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bizim bütün başqa vəzifələrimizlə yanaşı, Azərbaycanı hər gün, hər ay təbliğ etmək. tanıtmaq və xarici ölkələrdə xüsusən dünyanın böyük və inkişaf etmiş, dünya siyasətinə, iqtisadiyyatına tə`sir edən dövlətlərində Azərbaycanı olduğu kimi göstərmək və respublikamızın əleyhinə olan təbliğatın qarşısını almaq, yenə deyirəm, başqa işlərimizlə yanaşı, bizim əsas vəzifəmizdir" /"Azərbaycan", 4 avqust 1998-ci il/.

Göründüyü kimi, Azərbaycan prezidenti soydaşlarımız qarşısında nitqinin əvvəlində əsas diqqətini ölkəmiz, müstəqil respublikamız üçün çox əhəmiyyətli hesab olunan bir sıra problemlərə yönəltməyə çalışmışdır. Azərbaycan prezidentinin fikrincə, soydaşlarımız öz fəaliyyətlərini əsasən 3 *istiqamətdə qurmalıdırlar*.

Birincisi, həmvətənlərimiz yaşadıqları ölkənin, dövlətin ictimai-siyasi həyatında yaxından iştirak etməli, müəyyən mənsəb tutmulı, iqtisadi imkanlara malik olmalıdırlar.

İkincisi, müxtəlif dünya ölkələrində yaşayan azərbaycanlılar Azərbaycanı olduğu kimi tanıtmaq məqsədilə öz təbliğatçılıq fəaliyyətlərini daha da gücləndirməlidirlər, bu üsuldan hər gün səmərəli istifadə etməyi bacarmalıdırlar.

Üçüncüsü, azərbaycanlılar müstəqil respublikamızın əleyhinə olan təbliğatın mütəşəkkil qaydada qarşısını almağa çalışmalıdırlar.

Azərbaycan prezidenti britaniyalı soydaşlarımız qarşısında etiraf edərək bildirir ki, bu qarşıya qoyulan bu *mühüm vəzifələrin bir qismini artıq* bir çox illərdir yorulmadan həyata keçirir, yəni Azərbaycanın tanıdılması, əleyhimizə çevrilmiş düşmən təbliğatının qarşısının alınması, təkzib olunması, Azərbaycanın bu günkü inkişaf səviyyəsinin dünya xalqlarına çatdırılması sahəsində məqsədyönlü, ardıcıl iş aparır.

Möhtərəm prezidentin müşahidələri və gəldiyi qənaətlər bu gün hər bir azərbaycanlı soydaşımızın fəaliyytində mühüm yer tutmalıdır. Heydər Əliyevin qənaətlərinə görə, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların problemləri arasında onların bir-birilə yaxın əlaqə qura bilməmələri, ümumi Azərbaycan üçün təəssübkeşlik naminə yaxşı birləşə bilməmələridir. Onlar ətrafında fəaliyyət göstərən başqa xalqların di-

asporasının fəaliyyətində çox şey öyrənməlidirlər.

Azərbaycan xalqının dünya miqyasında ən böyük problemlərindən biri də onun başımıza daim bəla gətirən bədnam qoşumuz Ermənistanla qonşuluq şəraitində yaşamasıdır.

Azərbaycan prezidenti Ermənistanın xalqımıza, Vətənimizə qarşı təcavüzkarlıq planlarından çox danışıb, onların əsl simasını dünya ictimaiyyəti qarşısında ifşa edib. Amma 1998-ci ildə Böyük Britaniyada azərbaycanlılar qarşısında nitqində Heydər Əliyev ilk dəfə olaraq Ermənistanın bir dövlət kimi başımıza daim bəla açan bir qonşu dövlət olduğunu etiraf etmişdir. O, bu haqda demişdir: "Azərbaycanın dünya miqyasında ən böyük problemi odur ki, bir tərəfdən ölkəmiz üçün daim bəla gətirən qonşumuz vardır, - bu Ermənistandır. Azərbaycan torpaqlarına keçmişdə də indi də göz dikən Ermənistan, bu torpaqları ələ keçirmək istəyən Ermənistan vardır. On ildir ki, /hazırda 13-cü ildir - V.H./ Ermənistanla Azərbaycan arasında hərbi münaqişə mövcuddur. İkinci tərəfdən, həmin Ermənistanın dünyanın demək olar ki, əksər ölkələrində, xüsusən böyük inkişaf etmiş ölkələrində çox güclü diasporu vardır" /"Azərbaycan", 4 avqust 2001-ci il/.

Heydər Əliyev bu nitqdə Erməni diasporunun fəaliyyəti ilə bağlı müəyyən məlumatlar da vermişdir. Ümumiyyətlə, prezidentin xaricdəki soydaşlarımız qarşısındakı bütün çıxışlarda və nitqlərdə erməni diasporunun fəaliyyəti məsələlərinə daim toxunulmuş, onların məskunlaşma siyasəti, yerli hakimiyyət orqanlarının işində səmərəli fəaliyyət göstərmələri, təşkilatlanma qaydaları, ümummilli mənafe naminə əlbir çalışmaları və bir çox gördüyü işlər daim ölkə başçımızın



diqqət mərkəzində saxlanılmışdır. O, Böyük Britaniyda soydaşlarımız qarşısındakı nitqində də bu haqda demişdir: "Biz Azərbaycanı təbliğ etmək, tanıtmaq üçün respublikamızda cürbəcür tədbirlər həyata keçiririk. Amma Ermənistanın buna ehtiyacı yoxdur. Ermənistan üçün bunu Amerikada, İngiltərədə, Fransada, başqa ölkələrdə yaşayan ermənilər, erməni diasporu edir. Ermənilər bu ölkələrdə sayca çoxdular. Onlar bu ölkələrdə yaşadıqları müddətdə özlərinə güclü imkanlar yaradıblar, mövqelər tutublar, böyük sərvətə malikdirlər. Bütün bu imkanlardan istifadə edərək onlar bizimlə qonşu olan və ölkəmizə daim təcavüz etmək əhval-ruhiyyəsi ilə yaşayan torpaqlarımızı işğal edən kiçik bir Ermənistan Respublikasını bu dövlətlər, ölkələr qarşısında daha da yüksəklərə qaldırırlar" /"Azərbaycan", 4 avqust 1998-ci il/.

Azərbaycan diasporunun fəaliyyətini də məhz belə görməyi arzulayan respublika prezidenti soydaşlarımız qarşısında çıxışında ermənilərin əsl simasını ifşa etməyə çalışmışdır, əsl həqiqəti açıb göstərərək ermənilərin Azərbaycanda həmişə firavan yaşadığını, xüsusilə Dağlıq Qarabağ vilayətində ermənilərin vəziyyətinin Azərbaycanın başqa ölkələrində yaşayan vətəndaşların vəziyyətindən həmişə yaxşı olduğunu qeyd etmişdir.

Azərbaycan prezidentinin bu qədər geniş diqqət yetirməsi heç də təsadüfi deyil. Məlum olduğu kimi ermənilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini irəli sürərək bu vailayətdə yaşayan erməni əhalisinin guya azərbaycanlılara nisbətən çox pis vəziyyətdə yaşamalarını bəhanə edirdilər, guya bu vilayətdə onlara qarşı soyqırımı siyasəti həyata keçirilir. Ermənilər bu istiqamətdə geniş təbliğat aparmış, dünya

ictimaiyyətinin beynini öz hədyanları, xalqımıza qarşı iftira və böhtanlar yağdırırdılar.

Ölkə prezidenti ermənilərin bu can-fəşanlığını bir daha soydaşlarımızın nəzərinə çatdırmışdır: "Bu münaqişəni də ermənilər, Ermənistan başlamışdır. 1988-ci ildə Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdi göstərərək münaqişəni başlamışdılar. Amma təbliğat, yəni ermənilərin təbliğatı başqa istiqamətdə getmişdir. Həmin təbliğat bu ölkələrdə əksər insanların beynini doldurmuşdu ki, ermənilər yazıq, məzlum millətdir, guya vaxtilə türklər erməniləri qırıblar, soyqırımı olubdur, guya indi onları azərbaycanlılar qırır, ermənilərə yardım etmək lazımdır". /"Azərbaycan", 4 avqust 1998-ci il/.

Dünya ictimaiyyəti uzun müddət ermənilərin yalan, böhtan və iftira üzərində qurulmuş bu təbliğatın əsiri olmuşdur, əsl həqiqət onlara çatdırılmamışdır. Daha doğrusu, süni şəkildə yaradılmış informasiya blokadası buna imkan verməmişdir.

Möhtərəm prezident Heydər Əliyev cənablarının ardıcıl, məqsədyönlü şəkildə apardığı daxili və xarici siyasətin nəticəsində bu informasiya blokadası aradan qaldırılmış, ermənilərin maskası yırtılaraq məkrli simaları, qondarma siyasətləri dünya ictimaiyyətinə çatdırılmışdır. Əsl tarixi həqiqətlər dünya xalqlarının təsəvvüründə özünə möhkəm yer tapmışdır.

Heydər Əliyev 1998-ci ildə Böyük Britaniyaya rəsmi səfəri zamanı elə həmin gün "Britaniya-Azərbaycan Cəmiyyətinin toplantısında olmuş, həmvətənlərimizlə geniş fikir mübadiləsi aparmışdır. Azərbaycan prezidentinin müşahidəsinə görə Böyük Britaniyada yaşayan azərbaycanlılar artıq öz fəaliyyətlərinə görə



əvvəlki illərə nisbətən xeyli fəallaşıblar, eyni zamanda bu ölkədə Azərbaycan haqqında yaradılmış qeyri-obyektiv təsəvvürlər də dağıdılmışdır: "Mən dörd il bundan öncə, 1994-cü ilin fevral ayında buraya gəlmişdim, onda bunlar yox idi. Artıq indi İngiltərədə, Böyük Britaniyada Azərbaycan tanınır, Azərbaycanı bir ölkə, Azərbaycan xalqını bir millət kimi qəbul ediblər və Azərbaycanla bir əlaqə qurmaq istəyiblər". /"Azərbaycan", 4 avqust 1998-ci il/.

Heydər Əliyev cənabları hər bir ölkədə olduğu vaxt, Böyük Britaniyada da soydaşlarımız qarşısında dərin məzmunlu nitqində Azərbaycanda görülmüş işlər barədə geniş mə`lumat verir. Azərbaycan dövlətinin, xarici sərmayədarların respublikamıza gələrək gördükləri işlər barədə ətraflı məlumat verir, həmvətənlərimizin ölkəmizin iqtisadi həyatında yaxından iştrakı üçün artıq ölkədə hər cür lazımi şəraitin yaranmasını qeyd edir.

Böyük Britaniyadan Azərbaycana gəlmiş 100-dən çox şirkət fəaliyyət göstərir. Bu şirkətlərin sayı ildən-ilə artır. Onların hər biri Azərbaycan iqtisadiyyatına böyük sərmayə qoymuşlar. Bu şirkətlərin Azərbaycana gəlişi təbiidir ki, ölkə prezidentinin dəvəti ilə olmuşdur. Eyni zamanda Azərbaycanda yaradılmış sabitlik, yaxşı şərait bu şirkətlərin fəaliyyət göstərməsinə böyük imkan vermişdir.

Azərbaycan prezidenti öz xarici səfərlərində respublikanın müstəqil inkişaf yolu barədə daim fikir söyləmişdir.

O, Böyük Britaniyada olduğu vaxtda da bu məsələlərə toxunmuşdur: "Biz Azərbaycanda bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yaratmışıq... Azərbay-

canda demokratik proseslər gedir, demokratik dövlət qurulur və inkişaf edir, demokratiya yaranır". /"Azərbaycan", 4 avqust 1998-ci il./

Heydər Əliyev Böyük Britaniyada yaşayan azərbaycanlılar arasında mənəvi birliyin inkişaf etdirilməsinə və möhkəmlənməsinə xüsusi diqqət yetirmişdir. Britaniyalı soydaşlarımız arasında azərbaycançılıq psixologiyasının geniş yayılması möhtərəm prezidentin əsas tövsiyələrindən biridir. O, öz nitqində azərbaycançılığın mahiyyəti barədə soydaşlarımıza mə`lumat vermiş, müstəqil dövlətimizin inktşafı, möhkəmlənməsi naminə bu ideologiyanın həm Azərbaycanda, həm də xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında möhkəm qərarlaşmasının çox vacib mənəvi şərtlərdən biri olduğunu qeyd etmişdir.

Britaniyalı soydaşlarımız qarşısındakı nitqində respublika prezidenti soykökümüz, tariximiz, xüsusilə dilimiz barədə də qiymətli fikirlər söyləmişdir. Heydər Əliyev cənabları çox haqlı olaraq qeyd edir ki, millətin milliliyini saxlayan onun dilidir. O, soydaşlarımıza bu dilin mahiyyətini bir müəllim, böyük təcrübəyə malik pedaqoq kimi izah edir: "Şübhəsiz ki, musiqi də, ədəbiyyatda, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunlar hamısı bir-biri ilə bağlıdır". /"Azərbaycan", 4 avqust 1998-ci il/.

Azərbaycan prezidenti Azərbaycan dilinin inkişafı, yaşaması və əhali arasında möhkəmlənməsi üçün çox işlər görmüşdür. O, öz çıxışları, nitqləri və mə`ruzələri ilə Azərbaycan dilinin necə zəngin bir dil



olduğunu dəfələrlə sübuta yetirmişdir. Onun fikrincə, bu gün Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi bizim ən böyük nailiyyətlərimizdən biridir.

Azərbaycan prezidentinin Azərbaycan dili ilə bağlı verdiyi fərmanda /18 iyun 2001-ci il/ bu fikir bir daha öz əksini tapmışdır.

Böyük Britaniyada azərbaycanlılar qarşısında çıxışında möhtərəm prezident ermənilərin bizim soykökümüzə aid dedikləri bədnam fikirləri, uydurmalar üzərində də ayrıca dayanmışdır: "...Ermənilər çalışırlar ki, sübut etsinlər ki, guya, ümumiyyətlə, Azərbaycan milləti yoxdur, köçərilər olubdur, filan olubdur. Amma azərbaycanlı kimi bizim millətimizin böyük tarixi var. Böyük, qədim tarixi var". /"Azərbaycan", 4 avqust 1998-ci il/.

Xaricdə yaşayan həmvətənlərimiz qarşısında Azərbaycan prezidentinin bu kimi çıxışları azərbaycanlı soydaşlarımıza böyük inam hissi aşılayır, onları doğma yurda, vətənə daha möhkəm tellərlə bağlayır, qərib ölkələrdə Azərbaycanın mənafeyini hər şeydən uca tutmağa ruhlandırır.

1998-ci ildə İngiltərədə azərbaycanlılar Azərbaycan prezidenti Heydər Əliyevin fəaliyyətini çox yüksək qiymətləndirmişlər. Edinburq Universitetinin müəllimi, professor Qulamrza Təbrizi Azərbaycan prezidenti qarşısında çıxış edərək demişdir: "Biz azərbaycanlılar dünyanın hər yerinə səpələnmişik, evimiz olmayıbdır. Amma indi evimiz var, müstəqilik, ürəyimiz işıqlı və istidir.

Mən Edinburq Universitetində 35 il dərs deyəndən sonra Azərbaycana getdim... . İndi mən gedib Ba-

kıda çox yaxşı yaşayıram. Bakıdakı "Nizami" metrosunun arxasında balaca evim var. Bu, mənim üçün böyük qəsrə bərabərdir. Dostlarım, tələbələrim tez-tez yanıma gəlirlər. Mən öz xalqımı sevirəm. Biz həmin evdə gözəl bir mühit, ab-hava, təmizlik yaratmışıq. Bizim camaatla çox gözəl əlaqələrimiz var.

.... Mən indi Azərbaycansız yaşaya bilmərəm. Azərbaycanı təsəvvür etməsəm, gözümə yuxu getməz. İndi mənim vicdanım, ürəyim sakitdir. Bilirəm ki, xalqım üçün lazımi bir işlə məşğul oluram. Bizim başlıca vəzifəmiz ondan ibarətdir ki, azərbaycanlıların dilini, müstəqilliyini qoruyaq. Gərək biz hamımız bu sahədə əlimizdən gələni əsirgəməyək. Doğrudur, vaxtilə Azərbaycana çox səriştəsiz, qeyri-səmimi adamlar rəhbərlik ediblər. Fəxr edirik ki, hazırda Azərbaycanın dünyada tanınmış Prezidenti vardır. Gərək biz onun qədrini bilək. Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi xalqımız üçün tarixi bir hadisədir.

.... Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar bu verilişlərə baxmaq, onları dinləmək istəyirlər. Onlar Azərbaycan musiqisinə, doğma dilimizdə səslənən verilişlərə həsrətdirlər. Cənab prezident, mənə elə gəlir ki, Sizin uzaqgörən, müdrik siyasətinizlə bu məsələləri də həll etmək mümkündür.

Möhtərəm prezident, mən tələbələrimdən bir çoxunu Bakıya aparmışam. Onlar İçərişəhəri abadlaşdırmaq, ordakı su, qaz xətlərini hamısını dəyişmək istəyirlər. Beynəlxalq bank bu işlərə maliyyə cəhətdən kömək göstərməyi də öz öhdəsinə götürübdür.

.... Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımız gecə-gündüz yadımdan çıxmır. Mənim beş yeni kitabım çapdan çıxıb, onların hamısında



Qarabağ məsələsi öz geniş əksini tapıbdır. Qarabağ torpaqlarının işğal olunması xalqımızın tarixinə qara bir ləkədir. Biz bu torpaqlarımızı geri qaytaracağıq. Mən özüm də silah götürüb bu torpaqlarımız uğrunda müharibəyə getməyə həmişə hazıram... Həmin torpaqlardan bir milyondan çox azərbaycanlı qaçqın düşübdür. Biz yayda, qışda gedib onların necə yaşadıqlarını görürük. Biz öz doğma torpaqlarımızı azad etməsək, tarix bunu bizə heç vaxt bağışlamayacaqdır".

Bu, bütün dünya azərbaycanlılarının ürək sözləridir. Onlar möhtərəm prezidentə qürbət ölkələrdə gördükləri işlər barədə hesabat verməklə yanaşı, həm də torpaqlarımızın azad edilməsi uğrunda qətiyyətlə mübarizəyə hazır olduqlarını, lazım gələrsə silahla vuruşacaqlarını da ali baş komandana, Azərbaycan prezidentinə bildirirlər.

İngiltərədə London Universitetinin professoru Türkay Gəncəli də Azərbaycan prezidenti ilə görüşdə çıxış etmişdir. O demişdir:

"Möhtərəm və əziz cənab prezident! Londona Sizin hər bir gəlişiniz bizim üçün böyük iftixardır, sevincdir.

Biz fəxr edirik ki, siz hansı xarici ölkəyə getsəniz də orada öz doğma ana dilinizdə danışırsınız. Bu, çox mühüm məsələdir. Çünki xarici ölkələrdə yaşayan soydaşlarımız üçün Azərbaycan dili çox vacib məsələdir. Cənab prezident, buna görə biz Sizə minnətdarıq.

80 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti qurulduğu zaman M.Ə.Rəsulzadə demişdi: "Bir kərə yüksələn bayraq, bir daha enməz. Təəssüflər ki, bu belə olmadı.

Möhtərəm prezident, üçrəngli bayrağımız - türk-

çülüyün, islamçılığın və müasirliyin rəmzi olan mavi, qırmızı, yaşıl bayrağımız - üzərində Azərbaycan adını təmsil edən səkkiz güşəli ulduzlu bayraq bu gün Sizin iqtidarlı, təcrübəli əlinizdədir. Bu bayrağı əbədiyyətə çatdırmaq hamımızın arzusu, ümididir. Bu bayrağın Sizin müqtədir əlinizdə olması ölkəmizin müstəqilliyinin əbədiyyətə qovuşacağına çox gözəl bir təminatdır.

Cənab prezident. Mən Sizə uzun ömür, can sağlığı və müvəffəqiyyətlər arzu edirəm. Sağ olun".

İngiltərədə Azərbaycan prezidenti ilə soydaşlarımızın görüşündə Britaniya-Azərbaycan Cəmiyyətinin sədri Fəraməz Əkbərian da iştirak etmiş və öz çıxışında aşağıdakı sözləri demişdir:

"Cənab prezident, Mən Birləşmiş Krallığa rəsmi səfərə gəlməyiniz münasibətilə Sizi Britaniya-Azərbaycan Cəmiyyəti adından təbrik edirəm.

Möhtərəm prezident, mən Sizə can sağlığı, uzun ömür arzulayıram.

Bu gün bizim buraya toplaşmağımızın əsas səbəbkarı doğma Azərbaycanımızdır. On il bundan əvvəl müstəqil Azərbaycan Respublikası bizim üçün bir yuxu, xəyal idi. Bu gün Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü dünya ölkələri tərəfindən tanınmışdır. Neçə-neçə xarici ölkədə Azərbaycan səfirliyi fəaliyyət göstərir. Müstəqil Azərbaycan Respublikasının dövlət bayrağı Birləşmiş Millətlər Təşkilatının Baş qərargahı üzərində dalğalanır. Azərbaycanın milli valyutası vardır. Milli dövlət bankı, kömrükxanası fəaliyyət göstərir. Azərbaycan milli ordusu formalaşır və gündən-günə möhkəmlənir. Xarici ölkələrin yüzlərlə şirkəti Azərbaycana külli miqdarda



sərmayə qoymuşdur və onun miqdarı gündən-günə artır. Müstəqil Azərbaycan dövlətinin bütün atributları vardır.

Cənab prezident, bir vaxtlar demisiniz ki, müstəqil dövlətin atributlarından biri onun sərhədləridir və biz öz dövlətimizin sərhədlərini möhkəm qorumalıyıq. Biz inanırıq ki, Azərbaycan işğal olunmuş torpaqları və iki qardaşı bir-birindən ayıran cənub sərhədləri tezliklə düşməndən azad ediləcək, bir milyondan artıq azərbaycanlı öz doğma yerinə, yurduna qayıdıb, respublikamızın iqtisadiyyatının, sənayesinin, mədəniyyətinin inkişafına kömək göstərəcəkdir.

Britaniya-Azərbaycan cəmiyyəti heç bir dövlətin, o cümlədən Azərbaycanın daxili işlərinə qarışmamaq şərti ilə respublikamızın müstəqilliyinə, suverenliyinə və siyasi iqtisadi inkişafına xidmət edən hər bir fəaliyyəti himayə edir və dəstəkləyir. Bizim fikrimizcə, dünya ictimayyətinin diqqətini müstəqil Azərbaycanın hazırki problemlərinə cəlb etmək üçün həm doğma dilimizdə, həm də müxtəlif dillərdə yayılan radioya böyük ehtiyac vardır. Belə hesab edirik ki, biz bu radio vasitəsilə Azərbaycan həqiqətlərini bütün dünya ictimayyətinə çatdıra bilərik.

Əvvəlki illərdə bir sıra xarici ölkələrdə, o cümlədən İngiltərədə ölkəmiz, xalqımız haqqında mənfi fikirlər yayılırdı. Azərbaycan haqqında həqiqətləri, faktları dünya ictimayətinə çatdırmaq üçün bu gün azərbaycanlı tələbə və alimləri xarici ölkə universitetlərinə, elmi tədqiqat mərkəzlərinə daha çox göndərməyə ehtiyac vardır.

Biz ölkəmizin rəhbərliyinin respublikamızın daxilində rüşvətxorluğa, bürokratizmə qarşı apardığı mübarizə tədbirlərini ürəkdən bəyənirik.

Mən fürsətdən istifadə edib səfir Mahmud Məmmədquliyevə bizə göstərdiyi köməyə görə minnətdarlığımı bildirirəm.

Mən həmçinin Azərbaycan Hava Yolları dövlət Konserninə təşəkkür edirəm ki, onlar bizim Vətənə yardım göndərməyimizə həmişə kömək göstəriblər.

Hörmətli prezident, Sizə çan sağlığı, uzun ömür arzulayıram. Sağ olun".

Böyük Britaniyada bir neçə Azərbaycan Mədəniyyət Cəmiyyəti fəaliyyət göstərir. Onların bir çoxu Azərbaycan Respulikasının prezidenti ilə görüşdə iştirak etmişlər. "Azərbaycan cəmiyyətinin sədri Həsən Jandan da öz ürək sözlərini bu görüşdə prezidentə bildirmişdir. O, demişdir:

"Hörmətli prezident!

Mən Böyük Britaniyadakı Azərbaycan cəmiyyəti adından Sizə "Xoş gəlmisiniz deyirəm. Biz böyük iftixar hissi keçiririk ki, Siz Azərbaycanda möhkəm iftixar hissi yaratmısınız.

Biz istəyirik ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımız tezliklə azad edilsin, qaçqınlarımız öz yerlərinə-yurdlarına qayıtsınlar.

Möhtərəm prezident, biz çox arzu edirik ki, Böyük Britaniyada yaşayan soydaşlarımıza Azərbaycan vətəndaşlığı verilməsi məsələsinə kömək göstərəsiniz.

Mən, Mahmud Məmmədquliyevə və səfirliyin işçilərinə təşəkkürümü bildirirəm. Onlar bizə həmişə kömək göstəriblər. Biz burda tez-tez Azərbaycan mədəniyyətinə həsr olunmuş gecələr keçiririk, səfirliyin qapıları üzümüzə həmişə açıqdır.

Cənab prezident, biz sizə can sağlığı, doğma



Azərbaycanımıza baş ucalığı arzu edirik".

Azərbaycan Respublikasının prezidenti Böyük Britaniyada yaşayan azərbaycanlıları bir-bir dinləmiş, onların qayğıları, gördükləri işlərlə, arzu və xahişləri ilə tanış olmuş, lazımi məsləhətlər vermiş, sonra həmvətənlərimiz qarşısında çıxış etmişdir.

Bu gün müstəqil Azərbaycan Respublikasının demək olar dünyanın ən böyük dövlətlərində səfirliyi fəaliyyət göstərir. Xaricdə yaşayan həmvətənlərimiz ilk növbədə bu səfirliklərin ətrafında sıx toplaşmalı və onlar vasitəsilə Azərbaycan Respublikası ilə əlaqələrini yaratmalı və möhkəmləndirməlidirlər.

Prezidentin qeyd etdiyi kimi, bu gün Azərbaycan bayrağı dünyanın hər yerində qaldırılmışdır. Bütün dünya azərbaycanlıları məhz bu bayraq ətrafında sıx birləşməli, Azərbaycanın mənafeyini qorumaq, müdafiə etmək, əsl obyektiv həqiqətləri dünyaya çatdırmaq uğrunda mübarizə aparmalıdırlar.

Bu il dünya azərbaycanlılarının Bakı şəhərində keçiriləcək I qurultayının öhdəsinə çox böyük vəzifələr düşür. Şübhəsiz ki, bu qurultay xaricdə yaşayan həmvətənlərimiz arasında milli birliyi daha da artırmaq, soydaşlarımızın doğma Vətənlə bağlılığını möhkəmləndirmək sahəsində çox mühüm bir addım olacaqdır.

## ƏSRLƏRƏ NÜMUNƏ

Türk dünyasının yetişdirdiyi qüdrətli şəxsiyyətlər arasında möhtərəm prezident Heydər Əliyev xüsusi yer tutur. Onun keçdiyi şərəfli həyat yolu sözün əsl mə`nasında həm nəsillər, həm də əsrlərə nümunə olan bir örnəkdir. Təsadüfi deyil ki, dünyanın ən görkəmli dövlət xadimləri, siyasətçilər, iş adamları və elm xadimləri bu böyük şəxsiyyət haqqında çox qiymətli fikirlər söyləmişlər.

Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması və fəaliyyət göstərməsi onun adı ilə bağlıdır. Xalqımız üçün son dərəcə ağır bir vaxtda hakimiyyətə elə xalqın öz tələbi ilə gələn Heydər Əliyev ilk növbədə ölkədə yaranmış vətəndaş qırğınının qarşısını aldı, respublikanın müxtəlif regionlarında bəzi üzdəniraq siyasətçilərin təhriki altında parçalanma meyllərini aradan qaldırdı, ölkədə sabitlik yaratdı, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atdı.

Dünyanın görkəmli şəxsiyyətləri Azərbaycanın qazandığı bu nailiyyətləri görür və qiymətləndirir. Heydər Əliyevin hər bir ölkə, xüsusilə müstəqillik yoluna qədəm qoymuş hər bir dövlət üçün belə ağır, çox mürəkkəb bir vaxtda bu qədər çətin vəzifələrin öhdəsindən gələrək Azərbaycanı demokratik dövlətlər sırasına çıxarması, dövlət quruculuğu problemlərini məqsədyönlü şəkildə həll etmək bacarığı sözün həqiqi mə`nasında bütün dünyada böyük maraq doğurur. Heydər Əliyev dünyanın ən görkəmli simaları ilə müqayisə edilir. O, XX əsrdə türk xalqlarının bəşəriyyətə verdiyi ən böyük dühalardan biri sayılır.



Kitabda bu böyük şəxsiyyət haqqında deyilmiş fikirləri verməyimiz heç də təsadüfi deyildir. *Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində diasporun fəaliyyətinin böyük rolu və əhəmiyyətini qeyd edən möhtərəm prezidentimizin özünün hərtərəfli fəaliyyəti dünyanın görkəmli dövlət və mədəniyyət xadimlərinin diqqətindədir. Onun haqqında söylənmiş qiymətli fikirlər diaspor nümayəndələrimizin, ümumiyyətlə, hər bir azəbaycanlının dünyagörüşündə Heydər Əliyev cənablarının obrazını daha da dolğunlaşdırar, Azərbaycan Respubikasının müstəqillik şəraitində prezidentin gördüyü məqsədyönlü işlər barədə düzgün təsəvvürün yaranmasına kömək edər.

* Heydər Əliyev haqqında deyilmiş fikirlər "Fikirlərin vəhdəti" kitabından seçilmişdir. Bu məqsədlə kitabın müəllifləri Bəxşeyiş Ələmşahov və Nizami Bəxşeyiş oğluna öz dərin təşəkkürümüzü bildiririk.

Azərbaycanın demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən bir müstəqil dövlət kimi möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və böyük inkişaf əldə olunmasında prezident Heydər Əliyevin müstəsna rolu vardır.

**Bill Klinton,**
**ABŞ-ın keçmiş prezidenti**

Heydər Əliyev təkcə Azərbaycanı, Amerikanı yox, bütün dünyanı idarə etməyi bacaran bir siyasi xadimdir.

**Bill Klinton,**
**ABŞ-ın keçmiş prezidenti**

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanı böyük gələcək gözləyir.

**Jak Şirak,**
**Fransa prezidenti**



Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycanda baş verən müsbət dəyişikliklərdən xəbərdaram. Biz Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın durmadan inkişaf etdirilməsinə xüsusi maraq göstəririk.

**Piter Stoyanov,**
**Bolqarıstan prezidenti**

Biz bilirik ki, demokratiyaya gedən yol çətindir. Planlı-inzibati amirlik iqtisadiyyatından sərbəst bazar iqtisadiyyatına keçid uzun sürən mürəkkəb bir prosesdir. Ancaq biz inanırıq ki, Heydər Əliyevin müstəqillik əzmi, demokratik əzmi, demokratik mövqe tutması bütün dünya ilə əlaqələr yaratması üçün layiqli körpü rolunu oynayacaqdır.

**Oskar Luiçi Skalfaro,**
**İtaliyanın prezidenti**

Heydər Əliyev Sovetlər Birliyində ən böyük vəzifələrdə çalışanda mən onunla fəxr edirdim, onun hər bir müvəffəqiyyətinə qəlbən sevinirdim. Bu gün də onu ən yaxın dostum hesab edirəm.

**Hafiz Əsəd,**
**Suriya prezidenti**

O təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir.

**Süleyman Dəmirəl,**
**Türkiyə Respublikasının prezidenti**

Cahanşümul siyasətçi kimi dünya siyasəti proseslərinin yaxın gələcəkdə hansı istiqamətdə inkişaf edəcəyini Heydər Əliyevin dilindən eşitməyim mənim üçün çox əhəmiyyətlidir.

**Keçeril Narayana,**
**Hindistanın prezidenti**

Heydər Əliyev həmişə mənim qəlbimdədir. Onun problemlərimizə göstərdiyi diqqəti heç vaxt unutmarıq. Azərbaycanın dəstəyini həmişə hiss etmişik, biz bununla fəxr edirik və bundan qüvvət, güc alırıq.

**Yasir Ərəfat,**
**Fələstin rəhbəri**



Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan tezliklə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

**Akixito,**
**Yaponiyanın imperatoru**

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu və iqtisadi islahatlar sahəsində əməli tədbirlər həyata keçirir.

**Emil Konstantinosku,**
**Rumıniya prezidenti**

Prezident Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanda islahatlar müvəfəqqiyətlə həyata keçirilir.

**Vatslav Havel**
**Çexiya prezidenti**

Heydər Əliyev Zaqafqaziya və Xəzər regionunda sülh yaranması və sabitliyin qorunub saxlanmasında çox iş görmüş böyük nüfuza malik siyasətçidir.

**Arpad Hents,**
**Macarıstan Respublikasının prezidenti**

Sizə həqiqətən qibtə edirəm, Heydər Əliyeviç. Siz Azərbaycan tərəfindən qəbul edilən lidersiniz.

**Leonid Kuçma,**
**Ukrayna prezidenti**

Heydər Əliyevin qətiyyətli iştirakı və şəxsi əməyi olmasaydı Azərbaycanın nailiyyətləri də mümkün olmazdı.

**Emoməli Rəhmanov,**
**Tacikistan Respublikasının prezidenti**

Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, təcrübəli, müdrik rəhbər olan Heydər Əliyev çətin vaxtda yenidən hakimiyyətə qayıtdı.

**Əsgər Akayev,**
**Qırğızıstan prezidenti**

Heydər Əliyev xalqı sıx birləşdirməyə və onu tərəqqi, inkişaf yoluna istiqamətləndirməyə müvəffəq olmuşdur. Buna müasir tarixdə əslində heç kəs nail olmamışdır.

**Nursultan Nazarbayev,**
**Qazaxıstan Respublikasının prezidenti**



Bu gün Azərbaycanın nümayiş etdirdiyi uğurlar, qazandığı nailiyyətlər daha əhəmiyyətli və daha sanballıdır. Bütün bunlar Azərbaycan xalqının tanınmış lideri Heydər Əliyevin çox böyük şəxsi töhfəsinin və şəxsi şücaətinin nəticəsidir.

**Saparmurad Niyazov,**
**Türkmənistan Respublikasının prezidenti**

Heydər Əliyev kimi rəhbəri olan xalq xoşbəxtdir.

**İslam Kərimov,**
**Özbəkistan Respublikasının prezidenti**

Bir çox nüfuzlu neft şirkətləri ilə Azərbaycanın tarixi əhəmiyyətli müqavilələr imzalaması görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin bariz nümunəsidir.

**Quntus Ulmanis,**
**Latviya prezidenti**

Heydər Əliyev zəngin təcrübəsi və müdrikliyi sayəsində əldə edilmiş nəticələr yeni müstəqillik qazanmış digər ölkələr üçün də gözəl nümunədir.

**Algirdas Brazauskas,**
**Litva prezidenti**

XX əsr liderlər əsridir, Heydər Əliyev də əsrimizin lideridir.

**Eduard Şevarnadze,**
**Gürcüstan prezidenti**

XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli adam olub: Atatürk və Heydər Əliyev.

**Karen Dəmirçiyan,**
**Ermənistan KP MK-nın sabiq 1 katibi**

Zəngin təcrübəyə malik siyasi xadim Heydər Əliyev ilə görüşə həmişə ehtiyac duyuram.

**Petro Luçinski,**
**Moldova prezidenti**

Prezident Heydər Əliyevin xarici siyasəti nəticəsində Azərbaycan dünya birliyinə çox uğurla qovuşur.

***Mintimer Şaymiyev,***
**Tatarıstan prezidenti**



Heydər Əliyev böyük və parlaq ömür yolu keçmiş dövlət xadimi və siyasi xadim, öz ölkəsinin vətənpərvəri, Azərbaycan xalqının sədaqətli oğludur.

**Aslan Carimov,**
**Adıgey Respublikasının prezidenti**

Azərbaycan prezidenti Heydər Əliyev müasir zəmanəmizin görkəmli siyasi xadimlərindən biridir.

**Marqaret Tetçer,**
**Böyük Britaniyanın sabiq baş naziri**

Heydər Əliyev cənabları təkcə Azərbaycana deyil, bütün islam dünyasına və Şərq aləminə məxsus liderdir.

**Bənəzir Bhutto,**
**Pakistanın sabiq baş naziri**

Türkdilli xalqlar arasında birliyin yaranmasında prezident Heydər Əliyevin xüsusi rolu vardır. Bunu tarix özü qiymətləndirəcəkdir.

**Marsel Taişev,**
**Tatarıstanın mədəniyyət naziri**

Heydər Əliyev siyasət dünyasında bişmiş, təcrübəli, geniş dünyagörüşünə malik, bilikli bir adamdır.

**Xəlil bəy Fəadin,**
**İsveçin Lyusdal şəhərində**
**"Azərbaycan" Kültür Cəmiyyətinin sədri**

Heydər Əliyev bizim də Cumhur başqanımızdır. O, bizim Atatürkümüzdür. Hər dövlətin öz xilaskarı və siyasi qəhrəmanı vardır. Uinston Çorçill, general de Qoll, Corc Vaşinqton, Atatürk, Möhtərəm prezidentimiz Heydər Əliyev də bu sırada dayanan milli qəhrəmandır.

**Yəhya Taşdələn,**
**Türkiyədə Azərbaycan lobbisinin başqanı,**
**professor**

Zaman öz axarındadır. Bu dünyada heç kim əbədi yaşamayıb. Bəxtəvər o kəsdir ki, özü cismən olmasa da, adı yaşasın, dönə-dönə xatırlansın. İlk görüşümüz zamanı cənab Heydər Əliyevdə keyfiyyətləri gördüm, o yaşaya-yaşaya özünə əbədilik qazanıb.

**Züleyxa xanım Əsədullayeva,**
**Amerikada yaşayan soydaşımız**



Hörmətli Heydər Əliyevi biz gəncliyimizdən indiyədək əfsanəvi bir şəxsiyyət, lider kimi tanıyırıq və təbliğ edirik. Bir türkün böyük bir dövlətlər birliyinin ən yüksək vəzifəsində çalışmasından vaxtilə biz həmişə böyük iftixar hissi keçirmişik. Biz Heydər Əliyevin timsalında Azərbaycanın xilaskarını görürük.

Heydər Əliyev bütün türk dünyasının lideridir. Mən onun zəkası, ağlı, düşüncəsi, cəsarəti qarşısında baş əyirəm.

**Namiq Kamal Zeybək,**
**Türkiyənin dövlət naziri**

Heydər Əliyev Avropanın ən görkəmli siyasi xadimi, Azərbaycan isə Avropanın ən məşhur dövlətidir.

**Flavis Kotti,**
**ATƏT-in sabiq sədri,**
**İsveçrənin xarici işlər naziri**

Heydər Əliyev nəinki Azərbaycanın, o cümlədən bütün Qafqazın atasıdır.

**Vaxa Arsanov,**
**Çeçenistanın vitse-prezidenti**

Azərbaycanın dünyəvi dövlət olması Heydər Əliyevin liderliyinin və cəsarətinin aydın nümunəsidir.

**Con Makkeyn,**
**ABŞ senatoru**

Azərbaycan prezidenti Heydər Əliyev öz ölkəsinin müstəqilliyini qoruyub saxlamağı bacaran nadir şəxsiyyətlərdəndir.

**Riçard Şelbi,**
**ABŞ senatoru**

Türk milləti tarix boyunca zaman-zaman böyük sərkərdələrini meydana çıxarmışdır. Heydər Əlirza oğlu da o böyük sərkərdələrdən biridir. Mustafa Kamal Paşa Tükiyəni düşdüyü girdabdan çıxardığı kimi, Heydər Paşa da Azərbaycanı bu bəladan qurtaracaqdır.

**Doğan Gürəş,**
**Türkiyə Respublikası ordu generalı**

Cənab Əliyev, 1982-ci ildə Sizin Kremlə gəlişinizlə Sovetlər Birliyinin Yaxın Şərqdəki siyasəti kökündən dəyişdi, ona yeni impuls verildi...

**Alen Deskar,**
**Görkəmli Fransa politoloqu**



Cənab Əliyev, siz canlı əfsanəsiniz.

**Jan Düre,**
**Fransız sovetoloqu**

Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur.

**Qreq Laflin,**
**ABŞ konqressmeni**

Heydər Əliyev Azərbaycanda demokratiyanın tə`minatçısıdır.

**Quşeydun,**
**Fransa parlamentinin üzvü**

Heydər Əliyev Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür.

**Bülənd Ecevit,**
**Türkiyə Respublikasının Baş naziri**

Siz bütün dünyanın etiraf etdiyi görkəmli lidersiniz.

**Federiko Mayor,**
**YUNESKO-nun direktoru**

Prezident Heydər Əliyevin müdrikliyi sayəsində Azərbaycanda yəhudilər üçün yaradılan şərait dünyadakı bütün müsəlmanlar və yəhudilər üçün nümunə olmalıdır.

**Avraam Burq,**
**Ümumdünya Yəhudi Agentliyi**
**Direktorlar Şurasının Sədri**

İndi Azərbaycanı dünyanın hər yerində tanıyırlar, Avropa Şurası, ATƏT, NATO və Qərbin digər qurumları ilə onun əlaqələri genişlənmişdir. Bu sahədə başlıca xidmət prezident Heydər Əliyevə məxsusdur.

**Osman Farux Lağoğlu,**
**Türkiyə Respublikasının Azərbaycanda**
**sabiq səfiri**



Heydər Əliyevi yalnız Kanelf Adenauerlə müqayisə etmək olar.

**Frenk Lambax,**
**Almaniya Federativ Respublikasının**
**Azərbaycan Respublikasında səfiri**

Prezident Heydər Əliyev dünyanın ən uca bir nöqtəsini tutub, dünya siyasət çərçivəsində böyük bir mənsəbə, məqama ucalıbdır. Sevinirəm ki, müdrik prezident mənim soydaşımdır, müsəlmandır.

**Hüseyn Soytürk,**
**Cənubi Azərbaycan**

Heydər Əliyev dünyanın ən böyük siyasi xadimidir. Onun kimi insanlar təkcə ayrı-ayrı dövrlərdə deyil, hətta bütün planetdə, əsrdə bir dəfə dünyaya gəlirlər.

**Əli Yücəl,**
**İstanbul**

Heydər Əliyev Azərbaycanı XXI əsrə iqtisadi cəhətdən inkişaf etmiş ölkə kimi aparır.

**Şafiq Qabr,**
**Misir Ərəb Respublikası biznesmeni**

Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ən böyük xoşbəxtlikdir. İnanırıq ki, Azərbaycan xalqı onun sayəsində yaxın gələcəkdə dünyanın ən xoşbəxt və varlı xalqlarından biri olacaqdır.

**Hacı Məmməd**
**ABŞ biznesmeni**

Heydər Əliyev əfsanəvi adamdır.

**Boris Şıxmuradov,**
**Türkmənistan Respublikasının Xarici İşlər naziri**

Azərbaycan prezidenti qeyri-adi, dahi şəxsiyyətdir. Onun ən görkəmli siyasi və dövlət xadimi kimi Corc Vaşinqtonla müqayisə edirəm.

**Adlen Ueyişeyn,**
**ABŞ-da demokratiya mərkəzinin prezidenti**

Heydər Əliyev dövrün görkəmli siyasi xadimidir.

**Butros-Butros Qali,**
**BMT-nin sabiq Baş katibi**



Heydər Əliyev dünyada Atatürkdən sonra yetişmiş ən böyük siyasət adamıdır.

**Əli Əsgər Aşırım,**
**Türkiyə Respublikası İqdır bələdiyyə başqanı**

Heydər Əliyev bu gün dünyada barmaqla sayılan dövlət adamlarındandır. Onun bütün dərdi, bütün qayğısı Azərbaycandır. Azərbaycanı bu adam bəladan qurtaracaq.

**Züleyxa xanım Əsədullayeva,**
**Amerikada yaşayan kübar əsilzadə,**
**Şəmsi Əsədullayevin qızı**

Heydər Əliyev bütün varlığı ilə xalqa bağlı adamdır.

**Qulamrza Səbri Təbrizi,**
**İngiltərədə yaşayan yazıçı-alim**

Dünya dövlətləri arasında Azərbaycanın mövqeyi getdikcə güclənir. Bu da tanınmış lider Heydər Əliyev cənablarının yeritdiyi uğurlu siyasətin nəticəsidir

**Fernando Amandi,**
**"Matarolla" Beynəlxalq**
**şəbəkələr sisteminin prezidenti**

Heydər Əliyev Azərbaycanda parlayan günəşdir.

**Filip Karroll,**
**ABŞ-ın "Şell" şirkətinin prezidenti**

Heydər Əliyev güclü, qüdrətli və müstəqil Azərbaycan dövləti qurmaq üçün beynəlxalq siyasətin yaratdığı imkanlardan müdriklə istifadə edir.

**Uilyam Yaut,**
**ABŞ-ın "Frontera Resursez" şirkətinin prezidenti**

Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də bütün bölgənin liderlik yükünü çiynində daşıyan siyasi xadimdir.

**Çarlz Kertis,**
**ABŞ-ın energetika nazirinin müavini**

Heydər Əliyev bütün dünya azərbaycanlılarının işıqlı gələcəyidir.

**Hidayət Hüseynov,**
**Gürcüstan parlamentinin deputatı**



ABŞ-da yaşayan azərbaycanlıların hamısı Heydər Əliyevlə fəxr edir. Biz onu Çerçildən də görkəmli dövlət xadimi hesab edirik.

**Züleyxa xanım Əsədullayeva,**
**Amerikda yaşayan soydaşımız,**
**Şəmsi Əsədullayevanın qızı**

Prezident Heydər Əliyev müdrikliyi sayəsində Azərbaycanda yəhudilər üçün yaradılan şərait dünyadakı bütün müsəlmanlar və yəhudilər üçün nümunə olmalıdır.

**Avraam Burq,**
**Ümumdünya Yəhudi Agentliyi**
**Direktorlar Şurasını sədri**

Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bu günkü qurucularındandır.

**Çingiz Aytmatov,**
**Qırğızıstan yazıçısı**

Azərbaycan xalqı xoşbəxtdir ki, onun belə böyük prezidenti var. Mən Heydər Əliyev şəxsiyyəti qarşısında baş əyirəm.

**Svetlana Bezrodnaya,**
**Rusiyanın xalq artisti**

Bütün güclü şəxsiyyətlər kimi Heydər Əliyev hamını öz arxasınca apara bilər. O, son dərəcə işgüzar və ziyalı bir rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu.

**Odri Aldstadt,**
**Amerikalı tarixçi**

Heydər Əliyev cənabları kiminləsə müqayisə oluna biləcək şəxsiyyət deyil.

**Məmməd Gülməmmədov,**
**Gürcüstan Respublikasında**
**Azərbaycan mədəniyyət mərkəzinin sədri**

Heydər Əliyev müdrik dövlət xadimi kimi türkdilli xalqların ən görkəmli liderlərindən biridir.

**İhsan Doğramacı,**
**Türkdilli ölkələrin Milli Pediatriya**
**Cəmiyyətləri Birliyinin fəxri prezidenti, professor**



Heydər Əlirza oğlu bütün mənliyi ilə türk oğlu türkdür.

**İrfan Ənvər Nəsrəddin oğlu**
**Türkiyə Respublikası, yazıçı**

Heydər Əliyev Türk dünyasının öndə olan liderlərindən biridir. O, Qafqazda sabitlik və tarazlıq amilidir.

**Vəli Sarıtorpaq,**
**Türkiyə TÜSİAV-ın idarə hey`ətinin sədri**

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan demokratik inkişaf sahəsində böyük uğurlar qazanmışdır.

**Cövdət Açkalı,**
**Türkiyə Böyük Millət Məclisinin deputatı**

Heydər Əliyev təkcə Azərbaycanda deyil, dünyanın hər yerində yaşayan azərbaycanlıların prezidentidir.

**Süleyman Süleymanov,**
**“Gürcüstan” qəzetinin redaktoru**

Azərbaycan xalqı fəxr edə bilər ki, prezident Heydər Əliyevin rəhbərliyi altında özünün hazırki tarixini yazır, həqiqətən öz fəaliyyətinə nəzarət edir.

**Tomas Klokenbrinq,**
**Şimali Abşeron Əməliyyat Şirkətinin prezidenti**

Mən xoşbəxtəm ki, müasir dövrün ən böyük şəxsiyyətlərindən, liderlərindən biri olan Heydər Əliyevlə görüşməyə imkan qazanmışam. O, müdrik, uzaqgörən, təcrübəli bir dövlət rəhbəridir.

**Tesma,**
**İtaliyanın "Eiel" korporasiyası**
**Direktorlar Şurasının sədri**

Heydər Əliyev təkcə Azərbaycanın gələcək müvəffəqiyyəti üçün deyil, həm də bütün regionun inkişafına yol açmışdır.

**Stiven D.Çizbro,**
**"Penizoyl" şirkətinin prezidenti**



Kim Heydər Əliyev haqqında yalan danışarsa, deməli o Allahını, həzrəti Peyğəmbəri də danır. Belələri müsəlmanlığı da, həm türklüyü də, həqiqəti qəbul etmir.

**Yunis Arifoğlu,**
**Türkiyənin "Etsun" şirkətinin vitse-prezidenti**

Heydər Əliyevin həyat yolu əsrlərə nümunədir.

**Bill Uayt,**
**Amerikanın "Haubeyker diveleniment kompani" şirkətinin prezidenti**

Heydər Əliyev Azərbaycanda demokratiyanın və fikir plüralizminin, yeni iqtisadi və siyasi münasibətlərin qarantıdır.

**Zbiqnev Bjezinski,**
**ABŞ Beynəlxalq Strateji Tədqiqatlar**
**Mərkəzinin Rəhbəri, politoloq**

## DÜNYA AZƏRBAYCANLILARINA TƏBRİKLƏR VƏ MÜRACİƏTLƏR

### AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

Əziz soydaşlarımız!

Dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəyliyi günüdür.

Azərbaycan xalqı uzun əsrlər boyu yadelli işğalçıların zülmlərinə məruz qalmış və şərəfli tarixini şəhidlərinin al qanı ilə yazmışdır. Bu ağır zərbələr ləyaqətlə sinə gələn soydaşlarımız bir çox hallarda doğma torpaqlarından uzaq düşmüş, Vətəndən ayrı yaşamağa məcbur olmuşlar. Lakin öz xalqının taleyini, gələcəyini düşünən qardaş və bacılarımız Azərbaycanın istiqlal mücadiləsini bir an belə yaddan çıxarmamış, müstəqil dövlətçiliyimiz uğrunda fəal mübarizə aparmışlar.

Xaricdə yaşayan həmvətənlərimiz bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai həyatı ilə dərindən maraqlanır, Vətənimizin çiçəklənməsi naminə əllərindən gələni əsirgəmirlər. İşğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda apardığımız mübarizə, ölkədəki iqtisadi və sosial dəyişikliklər,



respublikamızın yeritdiyi ardıcıl müstəqillik xətti daim onların diqqət mərkəzindədir.

Bu əlamətdar gündə bütün dünya azərbaycanlılarını Milli Həmrə'ylik günü münasibətilə ürəkdən təbrik edir, müstəqil Azərbaycan dövlətinin daha işıqlı gələcəyi, xalqımızın birliyi və həmrəyliyi naminə hamınıza uğurlar arzulayıram.

**Azərbaycan**
**Respublikasının prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 31 dekabr 1994-cü il

### BÜTÜN DÜNYA AZƏRBAYCANLILARINA TƏBRİK

Əziz soydaşlar, hörmətli həmvətənlər!

Artıq bir neçə ildir ki, müstəqil Azərbaycan Respublikası bütün dünyada yaşayan həmvətənləri ilə birgə 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik gününü Dövlət Bayramı kimi qeyd edir.

Bu ilki bayram əlamətdar bir dövrə - Azərbaycanın dünya iqtisadiyyatına qovuşmasında önəmli addım hesab edilən xarici neft şirkətləri konsorsiumu ilə tarixi müqavilənin bağlandığı və ATƏM-in Budapeşt Zirvə toplantısında Dağlıq Qarabağ probleminin həllinə

dair Azərbaycan rəhbərliyinin təklifi əsasında çox vacib qərarın qəbul edildiyi bir zamana təsadüf edir.

Əmin ola bilərsiniz ki, respublika prezidenti Heydər Əliyevin "Azərbaycan iki mininci ilə tamamilə başqa görkəmdə qədəm qoyacaq proqram xətti üzrə gələcəyə inamla addımlayan müstəqil dövlətimiz qarşısına çıxan bütün çətinlikləri dəf edəcək, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsinin qarşısı alınacaq, zəbt olunmuş torpaqlar boşaldılacaq, ölkənin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin ediləcək, xalqın qüdrəti, respublika rəhbərliyinin müdrik və qətiyyətli siyasəti sayəsində iqtisadi və siyasi böhran dalğasından tezliklə çıxıb möhkəmlənəcək, dünya məmləkətləri sırasında özünə layiqli yer tutacaq.

Azərbaycan Respublikasının Milli Məclisi sizi, doğma Azərbaycandan kənarda yaşayan, əslən azərbaycanlı və respublikamızın digər xalqlarının nümayəndələri olan həmvətənlərini bu əziz bayram münasibəti ilə təbrik edir, sizə Azərbaycan xalqının səmimi salamını, xoş arzularını yetirir, hamımızın Vətəni Azərbaycanın və xalqımızın tərəqqisi, inkişafı naminə sizə dəyanət və əzmkarlıq arzulayır.

**Azərbaycan Respublikasının**
**Milli Məclisi**

Bakı şəhəri, 31 dekabr 1994-cü il



## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ

Hörmətli soydaşlarımız!
Əziz Azərbaycanlılar!

Dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə hamınızı ürəkdən salamlayır, sizə ən xoş arzularımı yetirirəm. Artıq beşinci ildir ki, Azərbaycan xalqı on illərlə həsrətini çəkdiyi, uğrunda ardıcıl mübarizə apardığı tarixi haqqına - milli müstəqilliyinə qovuşmuşdur. Müstəqilliyə aparan yol hamar olmamış, xalqımız tarixin müxtəlif keşməkeşli mərhələlərindən keçərək bir çox ağır sınaqlarla qarşılaşmışdır. Lakin Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhrumiyyətlərə düçar olsa da, qurbanlar versə də mətin iradəsi sarsılmamışdır.

Öz taleyinin sahibi olmuş xalqımız hüquqi, demokratik dövlət quruculuğu yolundadır və əmin ola bilərsiniz ki, heç bir qüvvə onu bu yoldan döndərə bilməyəcəkdir. Azərbaycan Respublikası dünya birliyinin tam və bərabər hüquqlu üzvi kimi müstəqil daxili və xarici siyasət yeridir.

Bu gün Azərbaycanın müstəqilliyə qovuşmasında yaxın-uzaq xaricdə yaşayan soydaşlarımızında diqqətəlayiq xidmətləri vardır. Harada yaşamasından asılı olmayaraq, öz ənənələrinə sadiq qalan, milli-mənəvi köklərinə bağlı olan vətənpərvər soydaşlarımız tarixi Vətənə - Azərbaycana müqəddəs övladlıq borcunu ləyaqətlə yerinə yetirir, Azərbaycan həqiqətlərinin, xalqımızın haqq səsini dünyaya obyektiv çatdırılmasında ardıcıl fəaliyyət göstərir. Məhz bu birlik və milli həmrəylik dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsinə və bu sahədə qanuni uğurlar qazanılmasına xidmət edir.

Bu əlamətdar gündə sizi bir daha əmin etmək istəyirəm ki, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızın mənəvi ocağı olan Azərbaycan qapıları öz övladlarının üzünə həmişə açıqdır.

Əziz soydaşlarımız!

Hamınızı dünya azərbaycanlılarının həmrəylik günündə bağrıma basır, hər birinizin sağlığı nı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayır, Vətənimizin çiçəklənməsi naminə əməl və amal birliyinə dəvət edirəm.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**prezidenti**

30 dekabr 1995-ci il



**DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**

# HEYDƏR ƏLİYEVİN MÜRACİƏTİ

Hörmətli həmvətənlər!
Əziz soydaşlarımız!

31 dekabr Dünya azərbaycanlılarının həmrəylik günüdür. Bu ümummilli bayram münasibətilə hamınızı ürəkdən salamlayır, ən səmimi arzularımı yetirirəm.

Suverenliyinin və dövlət müstəqilliyinin altıncı ilini yaşayan xalqımız ötən dövr ərzində ağır sınaqlarla qarşılaşsa da, haqq yolundan dönməmiş, öz taleyinin sahibi olduğunu, demokratik, hüquqi prinsiplərə və milli dövlətçiliyə sadiqliyini dünyaya sübut etmişdir.

Azərbaycan Respublikası milli dövlət quruculuğu yolunda uğurlar qazanaraq böyük gələcəyə doğru inamla addımlayır. Azərbaycan dövlətinin daxili və xarici siyasəti xalqımızın iradəsinin beynəlxalq aləmdə təsdiqinə, qarşıda duran tarixi vəzifələrin dönmədən həyata keçirilməsinə xidmət edir.

Əziz soydaşlar!

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba ocağıdır.

Xalqımızın milli müstəqillik uğrunda çoxəsrlik mübarizəsində dünyanın bütün ölkələrində yaşayan

soydaşlarımızın da diqqətəlayiq xidmətləri, haqq-sayları vardır. Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrə`ylik tələb olunur. Zaman-zaman qəlbimizdə yaşatdığımız müstəqillik və azadlıq ideallarının həyata keçirdiyi bu tarixi sınaq anlarında dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızın Vətən təəssübkeşliyinə, övladlıq haqqında dərin inamını ifadə edərək, Sizi azad, müstəqil, qüdrətli, demokratik Azərbaycan dövləti uğrunda səfərbər olmağa və milli həmrəyliyə çağırıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,
Azərbaycan Respublikasının
prezidenti**

Bakı şəhəri, 28 dekabr 1996-cı il



## DÜNYA AZƏRBAYCANLILARINA

Hörmətli həmvətənlər!
Əziz soydaşlarımız!

31 Dekabr Dünya Azərbaycanlılarının həmrəylik günüdür. Bu ümummilli bayram münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə səmimi arzularımı yetirirəm.

Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Onun əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azxadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Xalqımızın "Kitabi-Dədə Qorqud, "Koroğlu dastanları kimi möhtəşəm sənət abidələri, dünya sivilizasiya tarixində silinməz iz qoymuş Nizami Gəncəvi, Əfzələddin Xaqani, Xətib Təbrizi, İmadəddin Nəsimi, Qətran Təbrizi, Məhəmməd Füzuli kimi korifeylərinin yaratdığı bəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideallarin bərqərar olmasına xidmət etmişdir. Səfiəddin Urməvinin, Əcəmi Naxçıvaninin, Sultan Məhəmməd Təbrizinin dünya mədəniyyəti xəzinəsinə verdikləri incilər sənətsevərləri indi də heyran qoyur.

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. Nəsirəddin Tusinin, Əbülhəsən Bəhmənyarın, Mirzə Fətəli Axundovun, Abbasqulu Ağa Bakıxanovun və digər mütəfəkkirlərin adları dünya elm aləminə yaxşı tanışdır.

Cavanşir və Babək kimi sərkərdələrin qəhrə-

manlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.

Keçən əsrdə milli maarifçilik ideyalarının gerçəkləşməsi sayəsində Azərbaycanda demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi, Bakının qısa bir müddət ərzində dünyanın neft paytaxtına çevrilməsi iqtisadiyyatla yanaşı ictimai-siyasi və mədəni həyatda köklü dəyişikliklər üçün möhkəm zəmin yaratdı.

Azərbaycanın görkəmli şəxsiyyətləri müstəqillik ideyası ətrafında birləşərək 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına nail oldular. Lakin Azərbaycan demokratik dövləti çox yaşaya bilmədi, xarici müdaxilə nəticəsində süqut etdi.

Bundan sonra Azərbaycanda sovet hakimiyyəti qurulmuşdur. 1922-ci ildə isə respublikamız SSRİ-nin tərkibinə daxil edilmişdir. Tariximizin sovet dövründə ölkəmiz müstəqil yaşamasa da Azərbaycanın dövlət rəmzləri - bayrağı, himni, gerbi və sair dövlətçilik atributları mövcud olmuş, xalqımız öz millimənəvi dəyərlərini, dilini, dinini, adət-ənənələrini qoruyub saxlamış, iqtisadiyyatını, elmini, mədəniyyətini daha da inkişaf etdirmişdir. Nəhayət, altı il bundan öncə xalqımız öz istiqlaliyyətini əldə etmiş və Azərbaycan Respublikasını yaratmışdır.

Müstəqil Azərbaycan dövlətinin qurulması bizim həyatımızda mühüm tarixi hadisədir. Doğrudur,



müstəqillik yolu bizim üçün hamar olmayıb və biz ağır sınaqlara məruz qalmışıq. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, erməni qəsbkarlının ərazimizin 20 faizini işğal etməsi bir milyondan çox həmvətənlərimizi doğma yurd-yuvasından didərgin salaraq qaçqın və köçkünə çevirmişdir. Müstəqil dövlətçiliyimizə mane olmağa çalışan daxili və xarici qüvvələrin təxribatları, keçmiş iqtisadi əlaqələrin pozulması, keçid dövrünün sosial-iqtisadi çətinlikləri və sair problemlər də bizim müstəqillik yolumuzu xeyli çətinləşdirmişdir. Lakin bütün bunlar xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, mübarizə əzmini və qətiyyətini nəinki sarsıtmamış, əksinə, daha da möhkəmlətmişdir.

Son illərdə aparılan məqsədyönlü siyasət nəticəsində ölkənin həyatında əldə edilmiş nailiyyətlər göz qabağındadır. Ermənistanla 1988-ci ildən bəri davam edən müharibə üç il yarımdan artıqdır ki, dayandırılmış, atəşkəsə nail olunmuşdur. Ölkə daxilində qeyri-qanuni silahlı dəstələrin fəaliyyətinə birdəfəlik son qoyulmuş, siyasi hərc-mərcliyin qarşısı alınmışdır. Qətiyyətlə deyə bilərəm ki, hal-hazırda Azərbaycan Respublikası tam siyasi sabitlik şəraitində yaşayır. Bu da ölkə həyatının müxtəlif sahələrində köklü dəyişikliklərin həyata keçirilməsi üçün möhkəm zəmin yaradır.

Azərbaycan Respublikası müstəqil bir ölkə kimi demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə gedir. Cəmiyyətimiz dünyada sınaqdan çıxmış və xalqımızın milli xüsusiyyətlərinə uyğun gələn demokratik prinsiplər əsasında formalaşır. Xalqımızın tarixi arzusu olan müstəqil dövlətimizin ilk konstitusiyası ümumxalq referendumu nəticəsində qəbul edilmişdir. Konstitusiya Azərbaycan dövlətinin suverenliyinin,

ərazi bütövlüyünün qorunmasını, vətəndaş cəmiyyətinin bərqərar edilməsini Əsas Qanun şəklində təsbit etdi. Konstitusiyanın müddəaları əsasında çoxpartiyalı, demokratik seçkilər yolu ilə parlament yaradılmış, siyasi plüralizmə nail olmaq, cəmiyyətimizdə demokratik prinsipləri inkişaf etdirmək üçün qanunlar qəbul edilmişdir.

Azərbaycan dilinin dövlət dili kimi həyatımızın bütün sahələrində yaşaması və inkişafı üçün hərtərəfli şərait yaradılmış, onun zənginləşməsi və dünya dilləri arasında layiqli mövqe tutması üçün daha geniş perspektivlər açılmışdır.

İndi Azərbaycanda fikir müxtəlifliyi, söz, mətbuat, vicdan azadlığı, insan hüquqlarının qorunması cəmiyyətimizin əsas və dönməz prinsiplərini təşkil edir. Xalqımız öz həyatını qanunların aliliyi, tarixi, milli-mənəvi dəyərlərin qorunması və inkişafı şəraitində qurur və bundan sonra da bu yolla gedəcəkdir.

Azərbaycan iqtisadiyyatı böyük dəyişikliklər və islahatlar dövrünü yaşayır. Bazar münasibətlərinə keçid və dünya iqtisadi sisteminə inteqrasiya olunmaq siyasətimizin əsas istiqamətlərini təşkil edir. Ölkədə makroiqtisadi sabitlik təmin olunmuş, 80-ci illərin sonundan iqtisadiyyatda baş verən geriləmə hallarının qarşısı alınmış, bəzi sahələrdə isə nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir.

Bu gün ölkədə aparılan iqtisadi islahatlar keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. İqtisadiyyatın strukturunda köklü dəyişikliklər baş verir, yeni təsərrüfat sisteminin tələblərinə uyğun təsisatlar və iqtisadi münasibətlər formalaşır. Hazırda sənayenin, ticarətin, nəqliyyatın, məişət xidməti sahələrinin özəl-



ləşdirilməsi, bank-maliyyə sisteminin, istehsalın yenidən qurulması, dünyanın ən böyük dövlət və özəl qurumları ilə müştərək layihələrin həyata keçirilməsi və sair Azərbaycanın iqtisadiyyat sahəsində əldə etdiyi uğurlardandır.

Dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə neft müqavilələrinin bağlanması, bu müqavilələrin işə başlanması, ilkin neftin artıq Qərb bazarlarına nəql edilməsi ölkə iqtisadiyyatında böyük dəyişikliklərə zəmin yaratmışdır.

İslahatlar iqtisadiyyatın digər sahələrinə nisbətən aqrar sahədə daha sür`ətlə gedir.

Kənd təsərrüfatında apardığı radikal islahatlar - ictimai və dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsi, torpaqların xüsusi mülkiyyətə verilməsi, mülkiyyət formalarının dəyişdirilməsi, kəndlidə həqiqi, sahibkarlıq hisslərinin yaradılması və müsbət nəticələrini vermiş və Azərbaycanda ərzaq problemi birdəfəlik aradan qaldırılmışdır.

Ölkə iqtisadiyyatında həyata keçirilən dəyişikliklər və bunun nəticəsində nail olduğumuz inkişaf dövlətə əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq, elmə, mədəniyyətə, təhsilə daha çox vəsait cəlb etmək imkanı yaradır.

Azərbaycan bu gün müstəqil bir dövlət kimi bütün dünyada tanınır və özünəməxsus nüfuza malikdir. İstiqlaliyyət əldə etdikdən sonra dövlətimiz qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Türk Dövlətləri Birliyinin, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fon-

dunun, Ümumdünya Bərpa və İnkişaf Bankının, İslam İnkişaf Bankının üzvü olmuş, Parlamentlərarası İttifaq, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır.

Azərbaycan diplomatiyası dövlətimizin müstəqilliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün tə`min olunması, bütün ölkələrlə hərtərəfli, bərabərhüquqlu və qarşılıqlı faydalı münasibətlər qurmaq sahəsində mühüm uğurlar qazanmışdır.

Bu gün dövlətimizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycanın haqq səsi dünya dövlətləri, beynəlxalq və regional qurumlar tərəfindən dəstəklənir. İnanıram ki, yaxın zamanlarda bu problem sülh yolu ilə özünün ədalətli həllini tapacaq və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Biz dəfələrlə bəyan etmişik ki, Ermənistan-Azərbaycan münaqişəsi dinc yolla həll olunmalıdır. Biz müharibə istəmirik. Biz sülh tərəfdarıyıq. Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur. Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, əlalxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir.

Qoy Azərbaycanın müstəqilliyinə qəsd etmək niyyətində olan bütün xarici və daxili qüvvələr bilsinlər ki, öz suverenliyi və ərazi bütövlüyü uğrunda minlərlə qurban vermiş Azərbaycan xalqı hər bir təcavüzkara, hər bir qara qüvvəyə, hər bir təxribatçıya və onların əlində alətə çevrilən şəxslərə layiqincə cavab verə-



cəkdir.

Əziz soydaşlarımız!

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba yurdudur. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, dunyanın bütün ölkələrində yaşayan və qəlbi doğma Azərbaycanla bir döyünən həmvətənlərimizin də xalqımızın milli azadlıq mübarizəsində, ölkəmizin tərəqqisi və inkişafı yolunda önəmli xidmətləri vardır.

Bu gün arada yaşamasından asılı olmayaraq Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrə`ylik nümayiş etdirməlidir. Vətənini, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın mustəqilliyinin dönməz olması üçün sə`y göstərməlidir. Bütün azərbaycanlılarda, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxsə azərbaycanlılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir. Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır.

Müstəqil Azərbaycanın dövlət rəmzləri - bayrağı, gerbi, himni ilə bütün dünya azərbaycanlıları fəxr edə bilər. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, təhlükəsizliyi, bu günü və gələcəyi hər bir soydaşımızı, milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq hər bir həmvətənimizi düşündürməlidir. Bütün dünya bilməlidir ki, Azərbaycan xalqının müstəqillik əzmi və iradəsi qarşılaşdığımız hər bir çətinliyə qalib gələcəkdir. Xalqımızın müdrikliyi, yenilməzliyi və qəhrmanlığı müstəqil dövlətimizin ya-

şamasının və inkişafının əsasını təşkil edir.

Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlılar üçün doğma vətəndir, hansı ölkədə yaşamasından asılı olmayaraq azərbaycanlı öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim zəngin mədəniyyətə malik olan Azərbaycan kimi Vətəni vardır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi müstəqil bir dövlət durur.

İnanıram ki, əsrlərdən bəri arzusunda olduğumuz və uğrunda mübarizə apardığımız müstəqil və azad Azərbaycan ideallarının həyata keçdiyi bu tarixi sınaq anlarında dünyanın hər bir guşəsində yaşayan həmvətənlərimiz bizim ümumilli məqsədlərimizin tam gerçəkləşməsi üçün daha böyük əzmlə çalışacaqlar. Qətiyyətlə bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir və heç bir qüvvə bizi bu yoldan döndərə bilməyəcəkdir.

Hamınızı azad, müstəqil, demokratik Azərbaycan dövlətinin daha da möhkəmlənməsi naminə həmrəyliyə və milli birliyə çağırıram.

Ulu Tanrıdan bütün dünya azərbaycanlılarına səadət və əmin-amanlıq diləyirəm.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının**
**prezidenti**

Bakı şəhəri, 25 dekabr 1997-ci il



## DÜNYA AZƏRBAYCANLILARINA

Hörmətli həmvətənlər!
Əziz soydaşlarımız!

31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd edilməsi artıq ənənəyə çevrilmişdir. Bu bayram qədim tarixə və böyük mədəniyyətə malik olan Azərbaycan xalqının müstəqillik əldə etdiyi andan bütün dünya azərbaycanlılarına bəxş etdiyi, ümummilli əhəmiyyət kəsb edən, yeni və çox ümidverici bir bayramdır.

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, milli - mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət təşkil edir.

Heç kəsə sirr deyil ki, hal-hazırda bütün dünya azərbaycanlılarının milli-mənəvi varlığını yaşadan bir dövlət var. Bu dövlət Azərbaycan Respublikasıdır. Onun müstəqilliyini dönməz etmək, dövlətçiliyini qorumaq, ərazi bütövlüyünü, təhlükəsizliyini və sərhədlərinin toxunulmazlığını təmin etmək, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa nail olmaq tək Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının övladlıq borcudur. Bu sahədə ilkin vəzifə işğal olunmuş torpaqlarımızın geri alınması, öz Vətənlərində qaçqın və köçkünə çevrilmiş insanların doğma ocaqlarına qaytarılmasıdır.

Xalqımızın mədəniyyətini, dilini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək bizim hər birimizin üzərinə düşən

çox məsuliyyətli bir tarixi yükdür.

Azərbaycan Respublikasından kənarda on milyonlarla soydaşımız yaşayır. Onların içərisində çoxlu məşhur elm və mədəniyyət xadimləri, iş adamları, yüksək mənsəb sahibi olan insanlar vardır. Onları dünyada və Azərbaycanda tanıtmaq hamımızın borcu olduğu kimi, bizim də onlardan öz tarixi vətənləri, doğma ata-baba yurdları üçün və təəssübkeş olmağı tələb etməyə haqqımız var.

Hal-hazırda qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni, iste`dadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

XXI əsrin astanasında dünya azərbaycanlılarının həmrəyliyinə daha böyük ehtiyac vardır. Sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı qarşıdan gələn yeni yüzillik və minillikdə ciddi və müqəddəs mübarizələr gözləyir. Biz nəinki təkcə müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmlənməsi və inkişaf etməsi uğrunda, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməliyik. Vətəni, xalqını sevən hər bir soydaşımız, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxs Azərbaycan dövlətini öz arxasında hiss edərək azərbaycançılıq, vətənpərvərlik



hissləri ilə tarixi torpaqlarımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamalıdır. Vətənimizin, respublikamızın taleyi hər bir azərbaycanlının taleyinə çevrilməlidir.

İnanıram ki, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı əsrlərdən bəri arzusunda olduğumuz və uğrunda mübarizə apardığımız müstəqil və azad Azərbaycan ideyasının, ümummilli məqsədlərimizin tam gerçəkləşməsi üçün daha sarsılmaz həmrəylik nümayiş etdirəcək. Xalqımızın müstəqillik əzmi və iradəsi, sıx birliyi qarşılaşdığımız hər bir çətinliyə qalib gələcəkdir.

Sizi bu ümummilli bayram münasibətilə ürəkdən təbrik edir və ali məqsədlərimizin reallaşması naminə yenilməz birliyə, həmrəyliyə çağırıram.

Ulu Tanrıdan hamınıza səadət və əminamanlıq diləyirəm.

**Heydər Əliyev,**
**Azərbycan Respublikasının**
**prezidenti**

Bakı şəhəri, 24 dekabr 1998-ci il

# DÜNYA AZƏRBAYCANLILARINA

Hörmətli həmvətənlər!
Əziz soydaşlarımız!

31 dekabr - Dünya azərbaycanlılarının həmrəylik gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, mili-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir.

Bu gün harada yaşamasından asılı olmayaraq, Azərbaycanı özlərinin tarixi Vətəni sayan bütün insanlar ölkəmizin müstəqillik və dövlətçilik amalları, doğma respublikamızın qayğıları, problemləri ilə yaşamalı, Vətən qarşısında övladlıq borcunu dərk etməlidir.

Bütün azərbaycanlılara, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan hər bir şəxsə azərbaycançılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, dilimizə, mədəniyyətimizə, mədəni irsimizə və dövlət rəmzlərimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir.

Dünya azərbaycanlılarının həmrəyliyi XXI əsrin astanasında daha böyük məna və əhəmiyyət kəsb edir. Müstəqillik qazandıqdan sonra ölkəmizdə dövlət quruculuğunun bütün sahələrində əldə olunan mühüm nailiyyətlər Azərbaycanın dünya birliyində layiqli yer tutmasına, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçməsinə geniş imkanlar açır. Bütün bu nailiyyətlərin inkişaf etdirilməsi üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik.

İnanıram ki, gələcəyin güclü, qüdrətli Azərbaycanı dünya azərbaycanlılarının bu günlərimizdə əsası qoyulan və getdikcə mətinləşən həmrəyliyinin möhkəm bünövrəsi üzərində qurulacaqdır.

Sizi bu ümummilli bayram münasibətilə səmimi qəlbdən təbrik edir və ali məqsədlərimizin reallaşması naminə yenilməz birliyə, həmrəyliyə çağırıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının prezidenti**

Bakı şəhəri, 28 dekabr 1999-cu il

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlərim!
Hörmətli soydaşlarımız!

Artıq 10 ildir ki, 31 dekabr Dünya Azərbaycanlılarının həmrəyliyi günü dövlət bayramı kimi Azərbaycan Respublikasının vətəndaşları və dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız tərəfindən təntənəli şəkildə qeyd edilir.

Hər bir azərbaycanlı üçün vacib olan birlik və həmrəylik xalqımızın milli şüurunun güclənməsinin və azadlıq mübarizəsinin məntiqi nəticəsi kimi mey-dana çıxmışdır. Bu bayram qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirir, hər bir azərbaycanlını öz tarixi vətəni, milli varlığı, ölkəsinin və soydaşlarının taleyi üçün düşünməyə dəvət edir.

Azərbaycan xalqı bu gün öz tarixinin məsuliyyətli, çətin və şərəfli bir dövrünü yaşayır. Bir neçə gündən sonra XX əsr, ikinci minillik sona çatır, bəşəriyyət XXI əsrə, üçüncü minilliyə qədəm qoyur. Azərbaycan doqquz ildir ki, müstəqil yaşayır. Biz XX əsri müstəqil və Dünya Birliyinin bərabərhüquqlu üzvü kimi başa vuraraq yeni əsrə və minilliyə inamla daxil oluruq. Ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedir. Qabaqcıl dünya təcrübəsində sınaqdan çıxmış və xalqımızın milli xüsusiyyətlərinə uyğun gələn demokratik prinsiplər, insan hüquq və azadlıqlarının qorunması, çoxpartiyalı sistem, siyasi plüralizm ictimai həyatımızın gündəlik normasına



çevrilir. Azərbaycan dünyanın böyük iqtisadi və enerji mərkəzlərindən bir kimi inkişaf edir. Ölkəmizdə iqtisadi islahatlar cəsarətlə və uğurla həyata keçirilir. Azərbaycan Respublikası yeni minilliyə mühüm nailiyyətlərlə bərabər, həm də, təəssüf ki, Dağlıq Qarabağ problemi, ərazi bütövlüyünün pozulması, yüz minlərlə insanın qaçqın və köçkünə çevrilməsi kimi çətin problemlərlə daxil olur.

Azərbaycan Respublikası bütün dünya azərbaycanlıları üçün istinad və cazibə mərkəzi, onların ümid və məhəbbətlə üz tutduqları müqəddəs məkandır. Buna görə də bütün azərbaycanlılar müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun azad, firavan, daha da güclü və qüdrətli olması üçün əllərindən gələni etməlidirlər.

Azərbaycan Respublikası etnik və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıların vahid vətənidir. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı vətən qarşısında övladlıq borcunu hiss etməli, respublikanın qayğıları, problemləri ilə yaşamalı, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmalıdır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında yalnız güclü, nüfuzlu və müstəqil Azərbaycan dövləti dayana bilər.

Bu gün milyonlarla azərbaycanlı dünyanın müxtəlif ölkələrində toplumlar halında yaşayır. Onlar bu ölkələrin iqtisadi, ictimai-siyasi həyatında fəal iştirak etməklə, elminin, mədəniyyətinin inkişafına töhfələr verməklə yanaşı, həm də Azərbaycan xalqının, millətimizin milli-mənəvi dəyərlərini, dilini özündə yaşatmalı, onun tarixi, mədəniyyəti, mütərəqqi ənənələri ilə

fəxr etməlidir. Hər bir azərbaycanlı düşünməlidir ki, o yaşadığı ölkənin layiqli vətəndaşı olmaqla yanaşı, həm də Azərbaycanı, onun mədəniyyətini, milli xüsusiyyətlərini təmsil edir.

Xarici ölkələrdə təşkilatlanma prosesinin ilk mərhələsini keçən azərbaycanlı icmalarının, mədəniyyət mərkəzlərinin və dostluq cəmiyyətlərinin imkanlarından geniş istifadə olunmalıdır. Yaxın-uzaq ölkələrin tarixi əyani şəkildə sübut edir ki, mütəşəkkil icmalar halında dünyanın müxtəlif ölkələrində yaşayan, məqsədyönlü fəaliyyət göstərən, özünəməxsus milli ideyalar ətrafında birləşən, öz mütərəqqi adət-ənənələrini qoruyub saxlayan soydaşlar öz ölkələrinə böyük kömək göstərir, yaşadıqları ölkələrlə tarixi vətənləri arasında qarşılıqlı faydalı münasibətlərin qurulmasında daha güclü amil kimi çıxış edirlər. Bu sahədə bizim istifadə olunmamış geniş potensialımız var bu potensial mütləq hərəkətə gətirilməlidir.

İnanıram ki, müstəqil Azərbaycan Respublikasının getdikcə güclənməsi, azad, varlı və demokratik bir ölkəyə çevrilməsi həm dünya azərbaycanlılarının milli birliyinə, Azərbaycan xalqına və dövlətinə mənsubluq hissinə mütəşəkkillik, yenilik və daimilik gətirəcək, həm də bütün dünyada onların vətəndaş və milli haqlarının daha dolğun təmin olunmasına, qorunmasına təkan verəcəkdir.

Hörmətli həmvətənlər! Əziz dostlar!

Azərbaycan Respublikasının Prezidenti kimi mən bu əziz bayram günündə ölkənin tarixi müqəddaratını düşünərək, onun tərəqqisinə və firavan gələcəyinə çalışaraq, Azərbaycan Respublikasının vətəndaşlarını və dünya azərbaycanlılarını milli birliyə və sarsılmaz həmrəyliyə dəvət edirəm.



Hamınızı bu ümimilli bayram münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailələrinizə səadət və əmin-amanlıq arzulayıram.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının**
**prezidenti**

Bakı şəhəri, 26 dekabr 2000-ci il

## ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN BİRİNCİ QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!
Əziz soydaşlarım!

Sizi - Ümumrusiya Azərbaycan konqresinin Moskva şəhərində keçirilən birinci qurultayının iştirakçılarını ürəkdən salamlayır, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Hazırda dünyanın müxtəlif ölkələrində çoxmilyonlu Azərbaycan diasporu yaşayır. Həmin ölkələr sırasında azərbaycanlıların ən çox məskunlaşdığı dövlət, şübhəsiz ki, Rusiya Federasiyasıdır. Bu hər şeydən əvvəl, iki əsrə yaxın bir müddət ərzində ölkələrimizin eyni siyasi-coğrafi məkana mənsub olması ilə əlaqədardır.

Azərbaycan-Rusiya münasibətlərinin dərin tarixi kökləri vardır. Xalqlarımız öz milli müstəqilliyinə nail olduqdan sonra bu münasibətlər yeni tarixi mərhələyə qədəm qoymuşdur. Artıq müstəqil dövlətlər olaraq Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında tarixi ənənələrə söykənən dostluq və mehriban qonşuluq münasibətləri, bərarbərhüquqlu qarşılıqlı əməkdaşlıq durmadan inkişaf edir. Prezident Vladimir Putinin bu ilin yanvarında Azərbaycana səfərini dövlətlərarası əlaqələrimizi forma və məzmunca zənginləşdirən, ona yeni nəfəs verən əhəmiyyətli hadisə kimi dəyərləndirirəm. Biz beynəlxalq normalara, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan münasibətlərimizin ardıcıl, dinamik inkişafında maraqlıyıq və bu işdə əlimizdən gələni əsirgəməyəcəyik.



Əziz dostlar!

Xalqlarımızın və dövlətlərimizin bir-birinə daha da yaxınlaşmasında xalq diplomatiyasının böyük rolunun xüsusilə qeyd etmək lazımdır. Bu baxımdan, Rusiyada Azərbaycan icmasının təşkilatlanması və ictimai nüfuzunun yüksəlməsi bizi ürəkdən sevindirir. Fərəhli haldır ki, sıralarında çoxsaylı ictimai təşkilatları və görkəmli soydaşlarımızı birləşdirən Ümumrusiya Azərbaycan Konqresi Rusiyada yaşayan azərbaycanlıların mənəvi-mədəni və intellektual güc mərkəzinə çevrilməkdədir. Bu həm də onunla əlamətdardır ki, Ümumrusiya Azərbaycan Konqresi tarixi vətəndən kənarda millətimizin və ölkəmizi ləyaqətlə təmsil etmək, Rusiya kimi böyük bir dövlətin ictimaiyyətində Azərbaycan haqqında obyektiv və doğru-dürüst fikir formalaşdırmaq missiyası ilə fəaliyyətə başlamışdır. Bu çox gərəkli və məsuliyyətli bir işdir. Çünki sizlərin hər biri min illərcə şərəfli tarixi keçmişi olan, bəşər sivilizasiyasına ölməz dühalar bəxş etmiş böyük bir millətə mənsubsunuz. Millətimizə, adət-ənənələrimizə sədaqət və xalqımızın yüksək milli keyfiyyətlərinin təbliği harda yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının müqəddəs borcu və şərəfli vəzifəsidir. İnanıram ki, dünya azərbaycanlılarının Bakıda keçiriləcək I qurultayı ərəfəsində təşkil olunmuş toplantımız bu vəzifənin yerinə yetirilməsi yolunda mühüm bir addım olacaqdır.

Bu gün Rusiya Federasiyasında böyük tarixi yeniləşmə, vüsətli hüquqi-diplomatik proseslər gedir və onun beynəlxalq nüfuzu durmadan artır. Bütün

bunları biz diqqətlə izləyir və tarixi qonşumuzun, dost ölkənin hər bir uğuruna ürəkdən sevinirik. Mənim üçün çox xoşdur ki, çoxminli Azərbaycan icması da bu qaynar tarixi proseslərdən kənarda deyil və Rusiyanın ictimai-siyasi, elmi-mədəni, sosial-iqtisadi həyatında yaxından iştirak edir, soydaşlarımız yaşadıqları ailə qarşısında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirirlər. Rusiya elminə, mədəniyyətinə, ədəbiyyat və incəsənətinə, iqtisadiyyatına sanballı töhfələr verən Azərbaycan övladları ilə dünya şöhrətli soydaşlarımızla haqlı olaraq fəxr edirlər.

Hörmətli qurultay iştirakçıları!

Xalqlarımızın və dövlətlərimizin bir-birinə daha da yaxınlaşması, tarixi qonşuluq və dostluq əlaqələrimizin möhkəm təməllər üzərində inkişafı naminə göstərdiyiniz şərəfli fəaliyyəti yüksək qiymətləndirirəm. Ümidvaram ki, bu nüfuzlu tədbir Rusiyanın ictimai-siyasi həyatında və soydaşlarımızın həyatında böyük hadisə olacaq, xoşməramlı Rusiya-Azərbaycan münasibətlərinə yeni stimul və təkan verəcəkdir. Bu yolda hər birinizə möhkəm can sağlığı və böyük uğurlar, ailələrinizə əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının**
**prezidenti.**

Bakı şəhəri, 02 oktyabr 2001-ci il





**1. Belçikada Azərbaycan diasporu nümayəndələri ilə görüş. 1995-ci il.**



**2. Belçikada Azərbaycan diasporu nümayəndələri ilə görüş. 1995-ci il.**



**3. Belçikada Azərbaycan diasporu nümayəndələri Heydər Əliyevi yola salır. 1995-ci il.**




4.Almaniyada Azərbaycan diasporu qarşısında çıxış edir. 1996-cı il.



5. Almaniyada Azərbaycan diasporu nümayəndələri arasında. 1996-cı il.



6. Almaniyada Azərbaycan diasporu nümayəndələri ilə görüşərkən. 1996-cı il.





7. Almaniyada Azərbaycan diasporu nümayəndələri arasında. 1996-cı il.



**8. Almaniyada Azərbaycan diasporu nümayəndələri ilə söhbət edərkən. 1996-cı il.**





**9. Almaniyada Azərbaycan diasporu nümayəndələri Heydər Əliyevi yola salır. 1996-cı il.**


10. Fransada Azərbaycan diasporu nümayəndələri ilə görüşür. 1994-cü il.


11. Fransada azərbaycan diasporu nümayəndələri arasında. 1994-cü il.



12. Fransada Əlimərdan bəy Topçubaşovun məzarına əklil qoyur. 1994-cü il.






13. Fransada Ceyhun Hacıbəylinin məzarı qarşısında. 1994-cü il.




**14. İnqiltərədə Azərbaycan diasporu qarşısında çıxış edərkən. 1998-ci il.**






**15. İnqiltərədə Azərbaycan diasporu nümayəndələri Heydər Əliyevə qulaq asır. 1998-ci il.**



16. İnqiltərədə Azərbaycan diasporu nümayəndələri ilə H.Əliyevin görüşü. 1998-ci il.





17. H.Əliyev İnqiltərədə Azərbaycan diasporu nümayəndələri qarşısında çıxış edərkən. 1998-ci il.



**18. H. Əliyev İnqiltərədə Azərbaycan diasporu nümayəndələri arasında. 1998-ci il.**





**19. H.Əliyev İnqiltərədə Azərbaycan diasporu nümayəndələri arasında. 1998-ci il.**



20. H.Əliyev Şotlandiyada Azərbaycan diasporu nümayəndələri ilə görüşür. 1998-ci il.



21. Şotlandiyada Azərbaycan diasporu nümayəndələrinin uşaqları H.Əliyevlə görüşürlər. 1998-ci il.



22. İnqiltərədə Azərbaycan Prezidenti H. Əliyevə gül təqdim olunur. 1998-ci il.





23. Şotlandiyada Azərbaycan diasporu nümayəndələri ilə görüşərkən. 1998-si il.



24. H.Əliyev ABŞ-da yaşayan Züleyxa Əsədullayevanı (Veberlə) qəbul edib söhbət edərkən.





25. H.Əliyev ABŞ-dakı Azərbaycan diasporu nümayəndələri arasında.



26. H.Əliyev ABŞ-da Azərbaycan diasporu nümayəndələri ilə söhbət zamanı.





27. H.Əliyev ABŞ-da Azərbaycan diasporu nümayəndələri ilə söhbət edir.



28. H.Əliyev qeneral-leytenant Kərim Kərimovu qəbul edir.





29. Rusiyada Azərbaycan diasporu nümayəndələri ilə görüş zamanı. 2000-ci il.




30. Rusiyada azərbaycan diasporu ilə görüş zamanı. 2000-ci il.





31. Rusiyada Azərbaycan diasporu nümayəndələri ilə söhbət edərkən. 2000-ci il.



32. Kislovodsk şəhərində Azərbaycan diasporu nümayəndələri ilə görüşərkən.





33. Kislovodskda yaşayan soydaşlarımızla görüşüb söhbət edərkən.



34. Türkiyada Azərbaycan diasporu nümayəndələri qarşısında çıxış edərkən.





35. H.Əliyev Özbəkistanda Azərbaycan diasporu nümayəndələri arasında.



36. H.Əliyev Özbəkistanda Azərbaycan diasporu nümayəndələri ilə söhbət edərkən.





37. H Əliyev Qazaxstanda Azərbaycan diasporu nümayəndələri arasında.



38. H.Əliyev Ukraynada Azərbaycan diasporu nümayəndələri ilə görüşür.





39. Ukraynada Azərbaycan diasporu nümayəndələri H.Əliyevlə görüşərkən.



40. H.Əliyev Ukraynada Azərbaycan diasporu nümayəndələri arasında.



**DÜNYA AZƏRBAYCANLILARININ PREZİDENTƏ BƏZİ TƏBRİKLƏRİ**

Azərbaycan Respublikasının Prezidenti
zati-aliləri Heydər Əliyevə!

Zati-aliləri!

Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə böyük məmnuniyyətlə sizə səmimi təbriklərimizi yetiririk. Bu həmrəylik bayramı 1991-ci ildən, yəni tarixi Vətənimizə Azərbaycanın inkişaf edib yüksəlməsinə dünya azərbaycanlılarını cəlb etmək işinə güclü təkan verdiyiniz vaxtdan bəri sizin şəxsi təşəbbüsünüz sayəsində qeyd olunur.

Dünya Azərbaycanlılarının həmrəylik günü ilə əlaqədar sizin şəxsi təbrikləriniz bizim hamımız üçün şərəfdir. Biz bilirik ki, Azərbaycanın siyasi və iqtisadi müvəffəqiyyətlərinin hamısı sizin əla liderliyiniz, gündəlik böyük, gərgin işiniz nəticəsində gerçəkliyə çevrilmiş və mümkün olmuşdur. Biz qabaqcadan görürük və əminik ki, Azərbaycan respublikası növbəti əsrdə sizin müdrik və səriştəli rəhbərliyiniz altında inkişaf etmiş güclü ölkələrin birinə çevriləcəkdir.

Biz "Tele-E-Star Komyunikeyşnz" şirkətində çalışanlar bu nəticənin əldə edilməsinə öz köməyimizi əsirgəməyəcəyik. Sizin xidmətinizdə durmağa həmişə hazırıq!

Səmimiyyətlə:

**Əhməd Qhassabah,**
**"Tele-E-Star Komyunikeyşnz" şirkətinin prezidenti.**
London, 29 dekabr 1997-ci il

Azərbaycan Respublikasının prezidenti
zati-aliləri cənab Heydər Əliyevə!

Zati-aliləri, möhtərəm cənab prezident Əliyev!
Möhtərəm cənab prezident!

Mən bu məktubla sizə 31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik günü münasitətilə təbriklərimi yetirmək və Azərbaycan xalqı naminə üzərinizə götürdüyünüz məsuliyyətə görə sizə can sağlığı və bütün işlərinizdə uğurlar arzulamaq istərdim. Mən Köln Universitetinin professoru kimi Almaniyada yaşayan başqa azərbaycanlılar adından da sizə bu təbrik məktubunu göndərirəm.

Möhtərəm cənab prezident, biz əminik ki, sizin siyasi məsuliyyətiniz sayəsində Azərbaycanda demokratiya daha da inkişaf edəcək və Azərbaycanın xarici, siyasi nüfuzu daha da möhkəmlənəcəkdir. Almaniya və Qərbi Avropa universitetləri arasında elmi əməkdaşlığın inkişafı üçün siz Azərbaycanda siyasi sabitliyin və demokratik inkişafın möhkəmləndirilməsinin təminatçısınız. Bu inkişaf öz növbəsində mədəniyyətin, iqtisadiyyatın, elmin və siyasətin bütün sahələrində Azərbaycanın müstəqilliyini və suverenliyini möhkəmləndirir. Biz, xaricdə yaşayan azərbaycanlı alimlər Azərbaycanın mədəniyyət elçiləri kimi fəal iş aparmağı, Azərbaycanda elm və texnikanın inkişafına kömək göstərmək üçün bütün imkanlardan istifadə etməyi özümüzün mənəvi borcumuz hesab edirik.

Mən alman alimi kimi ömrümdə ilk dəfə olaraq 1998-ci ilin fevralında Azərbaycan Texniki Universitetində mühazirələr oxudum və Almaniyada qazandığım bilikləri gənc Azərbaycanlı alimlərə çatdırmağı özümə böyük şərəf bilirəm.



Hörmətlə:

**Rza Qalebi Dəryani**

**Azərbaycan Respublikasının prezidenti**
**Möhtərəm Heydər Əliyevə!**

Hörmətli cənab prezident!

Sizi, müstəqil Dünya Azərbaycanlılarının həmrəylik günü və Yeni ilə münasibətilə İsveçdə yaşayan soydaşlarımız və ümumən dünya azərbaycanlıları adından təbrik edir, tutduğunuz bu müqəddəs yolda Sizə uğurlar və can sağlığı arzulayırıq.

Biz İsveçrədə yaşayan azərbaycanlılar dediyiniz kimi, Azərbaycanı özümüzə doğma yurd və səcdəgah hesab edirik. Azərbaycanda baş verən hər bir ictimai-siyasi hadisə bizim diqqət mərkəzimizdə olur və yurdumuzun haqq səsinin daim dünyaya çatdırılması üçün səy göstəririk. Qoy 1998-ci il dünya azərbaycanlılarının həyatına xoş və yaddaqalan hadisələr ili kimi daxil olsun, torpaqlarımız özümüzə qaytarılsın,

xalqımız firavan günlər yaşasın. Bu yolda da bütün dünya azərbaycanlıları Sizə inanır və ümid bəsləyirlər. Bir daha Sizə xoş arzularımızı bildiririk.

Hörmət və ehtiramla:

**"Alkoros storos A V" şirkətinin prezidenti Bəhman Nəbizadə**

İsveç, Stokholm

## ALMANİYALI SOYDAŞLARIMIZ HƏMRƏYLİK GÜNÜNÜ QEYD ETDİLƏR

Azərbaycanın Almaniyadakı səfirliyindən Azər.TAC-a Bildirmişlər ki, 31 dekabr - Dünya Azərbaycanlılarının həmrəylik günü ilə əlaqədar Azərbaycan Respublikasının Almaniyadakı səfirliyində Almaniyada yaşayan soydaşlarımızla görüş keçirmişdir. Görüşdə Bonn, Köln, Maynts və Koblento şəhərlərində fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin üzvləri, Almaniyanın Universitetlərində çalışan azərbaycanlı ziyalılar, habelə Azərbaycan respublikasından gəlib Kölndə təhsil alan bir qrup tələbə iştirak edirdilər. Azərbaycan Respublikasının AFR-dəki səfiri Hüseynağa Sadıqov görüş iştirakçılarını, onların şəxsində Azərbaycanda, eləcə də səfirliyin akkreditə olunduğu digər ölkələrdə yaşayan bütün soydaşlarımızı və onların ailə üzvlərini bu əlamətdar gün münasibətilə Azərbaycan rəhbərliyi adından təbrik etdi. Sonra o, görüş iştirakçılarını Azərbaycan respublikasının prezidenti cənab Heydər Əliyevin dünya azərbaycanlılarına müraciətinin mətni ilə tanış etdi və onları maraqlandıran suallara cavab verdi.

Görüş iiştirakçıları ümummilli bayram - Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti hörmətli Heydər Əliyevə təbrik qəbul etdilər.

**Azər TAC-ın məlumatı,**
"Respublika" qəzeti, 4 yanvar 1998-ci il

**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyevə!**

Hörmətli prezident!

31 dekabr - Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə Sizi və Sizin şəxsinizdə bütün Dünya Azərbaycanlılarını Belçikada yaşayan azərbaycanlılar adından təbrik edirik.

Hörmətli prezident, demokratik Azərbaycanın dirçəlişi yolunda atdığınız görkəmli addımlar, Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, adət və ənənələrinin qorunub saxlanması üçün nümayiş etdirdiyiniz əzmkarlıq vətəndən min kilometrlərlə uzaqda yaşa-

yan biz azərbaycanlıların vətən həsrəti ilə yanan ürəklərinə təpər vermişdir.

Müstəqil Azərbaycanın möhkəmlənməsi yolunda atdığınız hər addım bizim qəlbimizdə iftixar hissi oyadır. Bilin ki, Azərbaycan xalqı Sizin açdığınız bu müstəqillik yolu ilə mətin addımlarla irəliləyəcəkdir. Xaricdə yaşayan biz azərbaycanlılar ünsiyyətdə olduğumuz xalqlara vətənimiz haqqında lazımi məlumat veririk və bu işi daha da genişləndirəcəyik.

Dünya Azərbaycanlılarının həmrəylik günü ərəfəsində bizlərə müraciət etdiyiniz, verdiyiniz tövsiyələr hamımızın qəlbini riqqətə gətirmişdir.

Bir daha Sizə öz ehtiramımızı bildirir və Allahtaaladan yeni ilin bütün azərbaycanlılar üçün xeyirli il olmasını diləyərik.

**Bülend Gürcam,**
**Belçikadakı Azərbaycan kültür və informasiya mərkəzinin rəhbəri**

**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əliyevə!**

Çox hörmətli prezident!

Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə zati-alinizi və Azərbaycan Respublikasının xalqını təbrik etməyi özümə şərəf bilirəm.

Öz müstəqilliyini və suerenliyini bərpa edə bilmiş qardaş Azərbaycana ürəkdən tərəqqi və uğurlar



arzulamaqdan məmnunluq duyuram. Ümidvaram ki, ikitərəfli əlaqələrimiz, Pakistan və Azərbaycan xalqları arasında dostluq və çoxtərəfli əməkdaşlıq daha da möhkəmlənəcəkdir.

**Zəfər Bexteveri,**
**Pakistanın Mərkəzi Asiya və Azərbaycan İlə Dostluq cəmiyyətinin baş katibi,**
**Pakistan, İslamabad**

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əliyevə!

Hörmətli prezident!

31 dekabr - Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə Sizə müraciətimizi bir daha bizə yüksək qayğınızın təzahürü kimi qəbul etdik. Son dərəcə gərgin dövlət işlərinə baxmayaraq Siz xaricdə yaşayan azərbaycanlıların həyat və güzəranı ilə həmişə maraqlanmış, onların mənəvi bağlılığının qayğısına qalmısınız.

Gürcüstan ərazicə Azərbaycandan uzaqda deyil. Buna baxmayaraq biz həmişə Azərbaycana, onun müdrik lideri olan Sizə ümid və iftixar hissi ilə baxmışıq. Məhz Sizin sayənizdə, apardığınız uğurlu siyasətin sa-yəsində biz Gürcüstanın tamhüquqlu vətəndaşları kimi ölkənin həyatının bütün sahələrində

yaxın iştirakçılara çevrilmişik. Vaxtilə başqa qüvvələrin təhriki ilə bizə qarşı olan ayrıseçkiliyə Sizin və E.Şevarnadzeninin birgə səyi ilə son qoyulub. Bütün bunlara görə biz Sizə, Sizin apardığınız uğurlu siyasətə borcluyuq.

Hörmətli Prezident, 31 dekabr - Dünya Azərbaycanlılarının həmrəylik və Birlik günü və Yeni il münasibətilə Sizi təbrik edir, Sizə uzun ömür, cansağlığı, mə'nəvi Vətənimiz Azərbaycana iqtisadi çiçəklənmə, ərazi bütövlüyünü bərpa etməyi arzulayırıq. Sizi əmin etmək istəyirik ki, bir azərbaycanlı kimi boyunumuza düşən işi milli köklərə bağlılığı qoruyub saxlayacaq, Sizin tövsiyələrinizə həmişə əməl edəcəyik.

**Gürcüstanın Qardabani rayonunun azərbaycanlı sakinləri adından Məhərrəm Həsənov, Məmməd Məmmədov və başqaları.**

**Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əlirza oğlu Əliyeva!**

Cənab prezident!

Moskvadakı "Ocaq Azərbaycan mədəniyyəti cəmiyyəti Sizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların həmrəylik günü münasibətilə təbrik edir.

Biz Moskva azərbycanlıları Vətən ilə əlaqəni heç vaxt kəsməmişik, onun müvəffəqiyyətlərinə sevinmiş, uğursuzluqlarına kədərlənmişik. Biz qəti əminik ki, həmrəyliyimiz, əlbir səylərimiz sayəsində Azərbaycan Respublikası öz müstəqilliyini möhkəmləndirəcək, öz iqtisadiyyatını, mədəniyyətini yüksəldəcək, öz torpaqlarını qəsbkarlardan azad edəcəkdir. Bizim istedadlı və əməksevər xalqımız daha yaxşı yaşamağa layiqdir. İnanırıq ki, ölkəmizin dünya birliyində layiqli yerini tutacağı gün gəlib çatacaqdır.

Fürsətdən istifadə edib sizi və bütün Azərbaycan xalqını yeni, 1998-ci il münasibəti ilə təbrik edir, ölkəmizə firavanlıq və əmin-amanlıq arzulayırıq.

**Professor Tofiq Məlikov, "Ocaq" Azərbaycan mədəniyyət cəmiyyətinin sədri**

**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyevə!**

Hörmətli Heydər Əlirza oğlu!

Dünya Azərbaycanlılarının həmrə'ylik gününün bayram edilməsi ilə əlaqədar olaraq Sizi səmimi qəlbdən təbrik edirik.

Tale bizi haraya aparıb çıxartsa da, biz vətənimizi unutmuruq və azərbaycanlı olduğumuzu iftixarla təsdiq edirik. Biz xoşbəxtik ki, liderimiz olan Siz bizi yaddan çıxartmırsınız. Məhz sizin maarifə göstərdiyiniz diqqət sahəsində bu il də bizim üçün dönüş ili olmuşdur. Göstərişinizlə Rusiyanın və Moskvanın hökumətləri ilə imzalanmış sazişlər bizə imkan vermişdir ki, Azərbaycandan uzaqda olsaq da, onun dilinə, ənənələrinə, mədəniyyətinə sadiq qalaq. Buna g görə sağ olun. Biz əlimizdən gələni edəcəyik ki, respublikamızın tarixinin, dilinin, ədəbiyyatının öyrənilməsi vasitəsilə onun nüfuzunu qaldıraq.

Sizə səadət və can sağlığı arzulayırıq. Əminik ki, xalqımızın qələbələri və müvəffəqiyyətləri həmişə sizin adınızla bağlı olmuşdur və olacaqdır.

**Moskva şəhərindəki 157 saylı**
**Rus-Azərbaycan orta ümumtəhsil**
**məktəbinin şagirdləri , müəllimləri**
**və valideynləri adından məktəbin direktoru**
**Aida Quliyeva**



**Azərbaycan Respublikasının Prezidenti**
**zati-aliləri cənab Heydər Əlirza oğlu Əliyevə!**

Möhtərəm cənab prezident!

Nijni Novqorod şəhərində və vilayətində yaşayan azərbaycanlılar "Vətən" cəmiyyəti adından Sizi və bütün Azərbaycan xalqını Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə səmimi qəlbdən təbrik edirlər. Hamımız üçün müqəddəs olan bu bayramda Azərbaycan xalqına can sağlığı və vətənimizin tərəqqisi naminə uğurlar, sülh və firavanlıq arzulayırıq.

Biz inanırıq ki, Azərbaycanımız güclü, sarsılmaz dövlətə çevriləcəkdir. Öz vətəninin hüdudlarından kənarda yaşayan azərbaycanlılar, o cümlədən də biz buna kömək edəcəyik.

Cənab prezident, Nijni Novqorod şəhərində və vilayətində yaşayan azərbaycanlılar Sizə Sibir sağlımlığı və Azərbaycan uzunömürlülüyü arzulayırıq.

Çox mürəkkəb işinizdə Sizə uğurlar diləyirik.

Bütün Dünya Azərbaycanlıları, birləşin, çünki tərəqqi birlikdədir!

Hörmətlə:

**M.A.Məmmədov,**
**Nijni Novqorod şəhərindəki**
**"Vətən" cəmiyyətinin sədri.**

Azərbaycan Respublikasının Prezidenti,
zati-aliləri cənab Heydər Əliyevə!

Möhtərəm prezident!

Ukraynada yaşayan bütün azərbaycanlılar, o cümlədən ziyalılar adından Sizi Dünya Azərbaycanlılarının həmrəylik günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, Vətənimizin dirçəlişi və xalqımızın yüksəlişi naminə səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Bu ilki həmrəylik günü şərəfinə Sizin Dünya Azərbaycanlılarına müraciətiniz hamımızın qəlbini fərəh hissi ilə doldurmuşdur. Bu müraciət xaricdə yaşayan azərbaycanlılara göstərdiyiniz qayğı və diqqətin ən parlaq təzahürüdür. Vətənin hüdudlarından kənarda olan azərbaycanlı icmalarının birliyi ideyasının gerçəkləşməsi yalnız onun sayəsində mümkün olmuşdur ki, xaricdəki həmvətənlərimiz milli liderimiz, Sizə, milləti və dövləti dirçəltmək naminə Sizin apardığınız böyük və müqəddəs işə ürəkdən inanırlar. Bu gün həmin iş daha geniş vüsət almışdır.

Sizin 1997-ci ilin mart ayında Ukraynaya rəsmi səfəriniz, səfər zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə verdiyiniz tövsiyələr burada yaşayan azərbaycanlılara qol-qanad vermişdir.

Biz sizin daxili və xarici siyasət sahəsində həyata keçirdiyiniz bütün tədbirləri izləyirik, qazandığınız uğurlara sevinirik və fəaliyyətinizin səmərəsinin daha da artması üçün əlimizdən gələni əsirgəmirik.



Hörmətli Prezident, Sizi əmin edirik ki, Ukrayna azərbaycanlıları Vətənimizin şərəf və ləyaqətini həmişə yüksək tutacaqlar. Sizi bir daha təbrik edirik və inanırıq ki, sizin rəhbərliyiniz altında Azərbaycan xalqı diqqətəlayiq qələbələr qazanacaqdır.

Dərin hörmətlə:

**Avtomatika İnstitutunun direktoru,**
**akademik Ərəstun Baxşəliyev,**
**akademik Məmməd Bağırov,**
**Ukrayna Elmlər Akademiyasının**
**Müxbir üzvü Nadir Alışov, və başqaları.**

**Azərbaycan Respublikasının Prezidenti**
**zati-aliləri cənab**
**Heydər Əlirza oğlu Əliyevə**

Çox hörmətli cənab prezident!

Biz, Ümumrusiya Azərbaycan Konqresinin birinci qurultayının nümayəndələri forumumuzun ünvanına göndərdiyiniz təbriki son dərəcə minnətdarlıqla qarşıladıq.

Sizin, Azərbaycan xalqının böyük oğlunun Rusiyada yaşayan həmvətənlərə diqqət və qayğısı bizi dərindən həyəcanlandırdı. Bu, bizdə də iftixar hissi doğurur ki, ümumi tarixi Vətənimizə - Azərbaycana gərəyik.

Rusiyadakı Azərbaycan diasporunun sağlam qüvvələrinin həmrəyliyinin və sıx birliyinin zəruriliyi yaşadığımız dövrün hökmüdür, həmvətənlərimizin ümdə problemlərindən irəli gəlmişdir. Amma təəssüflər olsun ki, işdə irəliləyiş yox idi. Odur ki, sözdən işə keçmək və irəliləyişə başlamaq üçün Sizin xeyir-duanız və dəstəyiniz lazım idi.

Konqresin yaradılması Rusiyadakı Azərbaycan diasporu üçün yeni vaxtın başlanğıcı oldu. Bu diasporun həmrəyliyi və sıx birliyi də xeyli dərəcədə Sizin səylərinizlə bağlıdır.

Konqres mövcud olduğu qısa dövr ərzində yüz minlərlə rusiyalı həmvətənimiz arasında çox böyük hörmət qazana, Rusiyanın ictimai-siyasi həyatında layiqli yer tuta bilmişdi. Rusiya prezidentinin Vladimir Putinin, Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksinin ÜAK-ın birinci qurultayına diqqəti də buna sübutdur. Biz Azərbaycan Respublikası rəhbərliyinin Rusiya Federasiyası ilə münasibətlərin yaxınlaşmasına və dinamikləşməsinə yönəldilmiş xəttini birmənalı şəkildə dəstəkləyirik. Xalqlarımızın taleyindən ötrü son dərəcə vacib olan bu prosesin uğurla irəliləməsi üçün əlimizdən gələn hər şeyi etməyə hazırıq.

ÜAK-ın birinci qurultayına göndərdiyiniz təbrikin Konqresin uzunmüddətli fəaliyyət proqramını müəyyənləşdirmək baxımından da misilsiz əhəmiyyəti vardır. Çox hörmətli cənab prezident, biz Sizi əmin edirik ki, qarşımıza qoyulmuş vəzifələr səviyyəsində olmaq üçün var qüvvə ilə səy göstərəcək, bütün mənəvi, yaradıcılıq və iqtisad potensialımızdan istifadə edəcəyik.

Konqresimiz dünya azərbaycanlılarının bu



yaxınlarda Bakıda keçiriləcək birinci qurultayına əli boş gəlmir. Birgə əməyimizin və fəaliyyətimizin nəinki xalqımız üçün, eləcə də bütün sivilizasialı bəşəriyyət üçün tarixi əhəmiyyət kəsb etməsindən ötrü hələ nə qədər iş görülməli olduğunu aydın dərk edirik.

Cənab prezident, bir daha çox sağ olun! Sizə möhkəm cansağlığı, uzun ömür və Vətənimizin xoşbəxtliyi və tərəqqisi naminə bütün işlərinizdə uğurlar arzulayırıq!

**Ümumrusiya Azərbaycan Konqresi I qurultayının nümayəndələri**

Moskva, 4 oktyabr 2001-ci il

# DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ KEÇİRİLMƏSİ MÜSTƏQİL DÖVLƏTİMİZİN BÖYÜK, TARİXİ NAİLİYYƏTİDİR

Azərbaycan Respublikasının müstəqilliyinin 10-cu ildönümünün ölkəmizdə təntənə ilə qeyd olunduğu bir ərəfədə Respublikamızın paytaxtı Bakı şəhərində 2001-ci il noyabrın 9-10-da Dünya azərbaycanlılarının I qurultayı keçirilmişdir.

Möhtərəm prezident, cənab Heydər Əliyevin bütün həyatı boyu istər xarici ölkələrdə, istərsə də Azərbaycanın daxilində dünya azərbaycanlılarının görkəmli nümayəndələri, soydaşlarımızla apardığı məqsədyönlü iş, onların qarşısında etdiyi çıxışlar, söhbətlər, verdiyi mühüm tapşırıqlar, vəzifələr məhz belə bir qurultayın keçirilməsinə zəmin hazırlamışdır.

Müstəqil respublikamızın möhkəmlənməsi və inkişafı yollarında möhtərəm prezidentin rəhbərliyi altında qazanılmış bütün mühüm nailiyyətlər dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün də sözün əsl mə`nasında milli iftixar hissi doğurur. Onlar bütün potensial imkanlarını müstəqil dövlətçiliyimizin inkişafı prosesində meydana çıxan müxtəlif problemlərin həll olunmasında iştirak etməyə çalışır, xüsusən ölkəmizin beynəlxalq nüfuzunun artmasında yaxından iştirak etməyi öz gündəlik işlərinin tərkib hissəsi sayırlar.

2001-ci il mayın 23-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha



da möhkəmləndirilməsi, Dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin ətraflı müzakirə edilməsini nəzərə alaraq xüsusi sərəncam imzalamışdır. Məhz bu sərəncama əsasən, 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində ilk dəfə olaraq Dünya azərbaycanlılarının birinci qurultayı keçirilmişdir.

Dünya Azərbaycanlılarının I qurultayında 35 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil edən 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Qurultayda ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Kanada, Almaniya, Fransa, Gürcüstan, Avstriya, Rumıniya, İsveçrə, Avstraliya, Özbəkistan, Ukrayna, Estoniya, Latviya, Moldova, Qazaxıstan, Danimarka, Hollandiya, Finlandiya, Belarus, İsrail və sair dövlətlərdə fəaliyyət göstərən milli mədəniyyət mərkəzlərinin və cəmiyyətlərinin nümayəndələri iştirak etmişlər.

Bundan əlavə, qurultayda Azərbaycan Respublikası 150-dan çox müxtəlif dövlət və ictimai qurultaylardan, elm, təhsil, mədəniyyət və digər yaratdığı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur.

Dünya Azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının prezidenti, möhtərəm Heydər Əliyev geniş nitq söyləmişdir. Ölkə başçımızın, bütün Dünya azərbaycanlılarının lideri, cənab Heydər Əliyev bu tarixi nitqində Azərbaycan dövlətinin keçdiyi tarixi inkişaf yolunun mərhələlərini geniş təhlil etmiş, Azərbaycanın müstəqillik qazandıqdan sonra qarşılaşdığı

mühüm siyasi, iqtisadi problemlər üzərində dayanaraq qurultay iştirakçılarına, soydaşlarımıza ətraflı mə'lumat vermiş, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu sahəsində görülmüş işlərin böyük əhəmiyət kəsb etdiyini məntiqi ardıcıllıqla izah etmişdir.

Möhtərəm prezident Dünya azərbaycanlılarının indiyədək Vətənin mənafeyi naminə gördükləri işləri yüksək qiymətləndirmişdir, eyni zamanda artıq dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımız qarşısında mühüm vəzifələr də qoymuşdur. O, demişdir: "Biz hesab edirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların hər biri yaşadığı ölkədə həyatını özü istədiyi kimi qurub yaşayır. Yaşadığı ölkənin vətəndaşıdır, onun qanun-qaydaları ilə yaşamalıdır və istədiyi yol ilə getməlidir.

Ancaq eyni zamanda, indi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqədar yaratması tarixin bir mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır. Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir.



Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində - Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Son illər bu icmalar get-gedə təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrə'yliyini tə'min edir. Son illər bu proses sürətlə gedir. Güman edirəm ki, məhz müstəqil Azərbaycanın varlığı bu həmrə'yliyin inkişafının əsasını təşkil edir.

Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şerlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir.

Azərbaycanda bir çox millətlər yaşayır. Azərbaycan öz milli-etnik tərkibinə görə bütün başqa dünya dövlətlərinə nümunədir. Çünki bu ölkədə yaşayan hər bir xalq bu respublikanın, bu torpağın doğma sakinidir, o gündəlik yaşayış prosesində heç vaxt milli ayrı-seçkiliklə qarşılaşmır. Bu cəhətdən ölkədə bərqərar olan azərbaycançılıq ideyası hamını bir-birinə birləşdirir, doğmalaşdırır.

Möhtərəm prezident də məhz bu amili əsas götürərək Dünya azərbaycanlıları arasında bu mühüm mənəvi hissin gücləndirilməsini mühüm bir vəzifə kimi irəli sürmüşdür:

"İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimilyasiya prosesi də var. İnsanlar - mən

azərbaycanlılar haqqında danışıram - gərək, yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sabiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümümbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.

Bizim bu qurultayı keçirməkdə məqsədimiz məhz bundan ibarət olmuşdur. Güman edirəm ki, qurultay nümayəndələri, dünyanın bir çox uzaq ölkələrindən Azərbaycana, doğma Vətənə gəlmiş soydaşlarımız burada, qurultay günlərində bir-biri ilə daha da sıx ünsiyyətdə olacaqlar, bir-birini anlamağa çalışacaqlar, müxtəlif ölkələrdə olan icmaların bir diaspor kimi formalaşmasında daha fəal iştirak edəcəklər və Azərbaycan ilə dünyada, digər ölkələrdə olan azərbaycanlıların əlaqələrini möhkəmləndirəcəklər. Hesab edirəm ki, qurultay bu sahədə, azərbaycançılıq ideyalarının həyata keçirilməsi üçün, dünya azərbaycanlılarının həmrəyliyinin genişləndirilməsi və inkişaf etdirilməsi üçün çox mühüm tarixi bir mərhələdir."

Qurultayda Prezidentin proqram xarakterli nitqində xüsusilə belə bir fikir vurğulanmışdır ki, Azərbaycanın beynəlxalq aləmdə mühüm problemlərinin həll olunmasında xaricdə yaşayan soydaşlarımızın qüvvəsindən səmərəli istifadə olunmalıdır. Doğrudur, Dağlıq Qarabağ probleminin həlli prosesində dünyanın müxtəlif beynəlxalq təşkilatları, eləcə də müəyyən aparıcı dövlətlər fəal iştirak edirlər. Amma Azərbaycan Respublikasının prezidenti qurultayda iştirak edən soydaşlarımızın bir daha nəzərinə çatdırmışdır ki, bu məsələnin həllində Azərbaycan diasporunun da üzərinə çox böyük, mühüm vəzifələr düşür:

"Biz ötən illər bu təşkilatla, Minsk qrupu ilə, onun həmsədrləri ilə çox işlər görmüşük. Üç-dörd gün bundan öncə həmsədrlər - Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın təmsilçiləri yenə də bölgəmizdə olmuş, bizimlə görüşüb danışıqlar aparmış, Ermənistanda olmuşlar. Biz bir daha bəyan etmişik ki, məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və bunu hər iki tərəfdən müəyyən kompromislər nəticəsində həll etmək olar. Ancaq bu, beynəlxalq hüquq normaları əsasında, dünyada hamı tərəfindən tanınmış prinsiplər - ölkənin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır. Biz bu işi davam etdirəcəyik. Əmin olduğumu bildirmək istəyirəm ki, biz bu münaqişənin də ləğv olunmasına, aradan götürülməsinə nail olacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar.

Təbiidir ki, bu sahədə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan

diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxalif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da məhz bu məqsədi daşıyır.

Bir də qeyd edirəm, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hər birinin öz ölkəsində yaxşı yaşamasını, öz mövqeyini möhkəmləndirməsini, öz rifah halını yaxşılaşdırmasını arzulayırıq. Arzulayırıq ki, hər bir azərbaycanlı yaşadığı ölkədə ictimai-siyasi həyatda fəal iştirak etsin, özünə görkəmli bir yer tutsun, müəyyən təsir imkanına malik olsun. Biz bunları arzu edirik."

Cənab Heydər Əliyev xarici ölkələrdə diasporumuzun təşkilatlanması, doğma Vətənlə əlaqə saxlaması, Vətənin gələcək inkişafı naminə çalışması, xarici ölkələrdə dilimizi, adət və ənənələrimizi, mədəniyyətimizi yaddan çıxarmamağı, onları inkişaf etdirməyi, gənclərə öyrətməyi tövsiyə etmişdir, həmvətlər arasında milli birlik, həmrə`ylik tellərinin möhkəmlənməsini



arzulamışdır. Dəfələrlə öz çıxışlarında bu məsələyə toxunan möhtərəm prezident qurultayda dilimiz, mə`nəviyyatımızla bağlı xüsusi fikir söyləmişdir. O demişdir:

"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik.

Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanmasında az da olsa, çox da olsa, öz xidmətini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir.

Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin.

Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən, başqa ölkələrdə yaşayan azərbaycanlılar. Ona görə də mən arzu edirəm ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar, Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar."

Bu gün Azərbaycan dövləti gəncdir, möhtərəm prezidentin qeyd etdiyi kimi, "Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdirlər."

Azərbaycan Respublikasının prezidenti, cənab Heydər Əliyev gələcəyə böyük ümidlə baxır. O,



müstəqil respublikamızın XXI əsrdə keçəcəyi yolu qabaqcadan görür, böyük fəxrlə göstərir ki, müstəqilliyimiz möhkəmləndikcə xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanacaq, milli dövlətçiliyimizin inkişafında daha fəal iştirak edəcəklər.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi qurultay iştirakçıları tərəfindən böyük məmnuniyyətlə dinlənmiş və ruh yüksəkliyi ilə qarşılanmışdır. Dünyanın müxtəlif ölkələrindən gəlmiş azərbaycanlılar qurultayda çıxış edərək Dünya azərbaycanlılarının birinci qurultayını alqışlamış və azərbaycanlıların milli birliyi, həmrəyliyi, azərbaycançılıq ideyası ətrafında birləşmək haqqında Azərbaycanın dövlət başçısının fikirlərinə şərik olduqlarını bildirmişlər.

Dünya azərbaycanlılarının I qurultayını hazırlayan Təşkilat Komitəsinin məlumatında göstərilir ki, Qurultay öz işini səkkiz komissiyada - İnsan hüquqları və beynəlxalq əlaqələr, Ana dili və azərbaycanşünaslıq, Elm və təhsil, Mədəniyyət, İqtisadi əlaqələr, Gənclər və İdman məsələləri, Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılması məsələləri, kütləvi informasiya vasitələri və informasiya mübadiləsi komissiyalarında davam etdirmişdir. Komissiyalarda səmərəli müzakirələr aparılmış və mühüm qərarlar qəbul edilmişdir.

Noyabrın 10-da öz işini başa vuran qurultay "Dünya Azərbaycanlılarının I qurultayının qətnaməsi", "Dünya Azərbaycanlılarının I qurultayı nümayəndələrinin bütün dünya azərbaycanlılarına müraciəti", "Dünya Azərbaycanlılarının I qurultayı iştirakçılarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əla-

qədər dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə müraciəti", "Dünya Azərbaycanlılarının I qurultayının Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə müraciəti", "Dünya Azərbaycanlılarının I qurultayı nümayəndələrinin 2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş qanlı terror hadisələri ilə bağlı Amerika xalqına müraciəti" adlı sənədlərini qəbul etdi.

Qurultay 102 nəfərdən ibarət Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasını və onun 23 nəfərdən ibarət idarə heyətini, idarə heyətinin sədrini və dörd müavinini seçdi (Bu siyahılar mətbuatda dərc olunmuşdur).

Qurultayın qəbul etdiyi bütün qərarlar və sənədlər yeni yaradılmış şuranın idarə heyətinə təqdim edilmişdir. Dünyanın 36 ölkəsində məskunlaşmış bütün soydaşlarımızın və həmvətənlərimizin geniş təmsil olunduğu I qurultay dünya azərbaycanlılarının yekdil həmrəyliyi, səmərəli işgüzarlığı, ruh yüksəkliyi və fəallığı şəraitində keçmiş, müvəffəqiyyətlə öz işini yekunlaşdırmışdır. Bunu həm qurultay nümayəndələrinin əhval-ruhiyyəsi, həm də qurultayın ünvanına müxtəlif ölkələrdən, cəmiyyətlərdən, tanınmış ictimai-siyasi xadimlərdən, ayrı-ayrı şəxslərdən daxil olmuş yüzlərlə təbrik teleqramı və məktubu da təsdiq edir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən siyasi partiyaların və ictimai təşkilatların geniş spektrini təmsil edən nümayəndələr də Dünya Azərbaycanlılarının I qurultayına dəvət almışdılar. Lakin bir sıra siyasi partiya sədrləri - Müsavat Partiyası, Milli İstiqlal Partiyası, Xalq Cəbhəsi Partiyası, Demokrat Partiyası,



Liberal Partiyası və s. qurultaya dəvət qəbul etməmiş və onun işində iştirakdan imtina etmişlər.

Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev qurultaydan sonra onun iştirakçılarının şərəfinə "Gülüstan" sarayında ziyafət vermişdir.

Azərbaycan Respublikasının prezidenti, cənab Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayının açılması və işə başlanması ilə əlaqədar olaraq dünyanın müxtəlif dövlətlərindən, ayrı-ayrı görkəmli şəxslərdən, qurultaya gəlmək imkanı olmayan tanınmış soydaşlarımızdan, həmvətənlərimizdən təbriklər almışdır.

Bu təbriklərdə bir daha belə mühüm tədbirin keçirilməsində möhtərəm prezidentin rolu geniş qeyd olunur, Azərbaycanın gələcək taleyində bu qurultayın böyük əhəmiyyət kəsb edəcəyi aydın göstərilir.

## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB HEYDƏR ƏLİYEVƏ MÜRACİƏTİ

Zati-aliləri!

Dünya Azərbaycanlılarının I qurultayının nümayəndələri dərin minnətdarıq duyğuları ilə Sizə müraciət edirlər. Dünyanın hər tərəfindən bu tarixi məclisə yığılmış dünya azərbaycanlılarının nümayəndələri bugünkü qurultayı Sizin tarixi xidmətiniz, xalqımız, millətimiz, Vətənimiz yolunda göstərdiyiniz növbəti fədakarlıq nümunəsi hesab edirlər. Sizin təşəbbüsünüz sayəsində təşəkkül tapmış diaspor hərəkatı getdikcə genişlənərək, bü gün öz gerçək bəhrələrini verməkdədir.

Bu gün müstəqil Azərbaycan Respublikasında yeridilən müdrik daxili və xarici siyasət nəticəsində ölkə dünya birliyində layiqli yerini tutmuş, beynəlxalq aləmdə tanınmış, onun iqtisadi və mənəvi-intellektual imkanları dünyaya açılmış, o, beynəlxalq sistemə inteqrasiya olunmuşdur. Qurultay münasibətilə doğma Azərbaycana səfər müddətində tarixən az bir zaman kəsiyi - on il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərin bir çoxu ilə əyani şəkildə tanış olduq. Biz burada möhkəm siyasi sabitliyin, demokratik, sivil, hüquqi dövlət quruculuğunun, intensiv iqtisadi inkişafın, düşünülmüş, investisiya siyasətinin bəhrəlrini öz gözlərimizlə gördük. Bütün bunlar bizi sevindirir, qəlbimizdə müstəqil Azərbaycan üçün böyük iftixar və qürur hissi doğurur. Biz - dünya azərbaycanlıları



Azərbaycan Respublikasının yeritdiyi rəsmi daxili və xarici siyasəti bəyənir və dəstəkləyirik.

Möhtərəm Prezident! Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkədə aparılan iqtisadi və hüquqi islahatlar, demokratikləşmə prosesləri, Azərbaycanın Qafqazda və bütün regionda mühüm siyasi qüvvəyə, beynəlxalq iqtisadi layihələrin mərkəzinə çevrilməsi və qüdrətinin getdikcə artması Azərbaycanın dünya sivilizasiyasına inteqrasiyasının sübutudur. Bu, dünya azərbaycanlılarının da mütəşəkkilliyinin və həmrəyliyinin artmasına, onların Azərbaycan xalqına mənsubluğu hissinin güclənməsinə və azərbaycançılıq ideyaları ətrafında daha sıx birləşməsinə güclü təkan verəcəkdir. Biz əmin olduğumuzu bildiririk ki, Azərbaycan Respublikası həmişə bütün dünya azərbaycanlılarının ümid və məhəbbətlə üz tutduğu müqəddəs məkan, onların layiqli təmsilçisi, beynəlxalq hüquq normalarında əks edilmiş əsas insan hüquqları və azadlıqlarının müdafiəçisi və ifadəçisi olacaqdır.

Dünya azərbaycanlıları müstəqil Azərbaycan Respublikasının dərdlərini, problemlərini öz dərdi kimi qəbul edirlər. Biz Azərbaycan torpaqlarının 20 faizinin erməni qəsbkarları tərəfindən işğalı, bir milyonadək qaçqının ağır şəraitdə yaşaması faktı ilə heç cür barışmır və buna qəti etirazımızı bildiririk. Erməni millətçilərinin Azərbaycan xalqına qarşı təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti Azərbaycan dövlətinin ardıcıl siyasi fəaliyyəti sayəsində beynəlxalq aləmə çatdırmış, təcavüzkar erməni millətçiləri ifşa olunmuşdur. Yaxın zamanda münaqişənin ədalətli həllinə nail olunacağına da şübhə yoxdur. Bununla belə, dünya azərbaycanlıları bütün mümkün vasitələrdən istifadə etməklə, Azər-

baycan torpaqlarının sülh yolu ilə azad edilməsi işində öz səylərini daim artıracaqlar.

Möhtərəm Prezident! Qurultay dünya azərbaycanlılarının fəaliyyətində yeni bir mərhələ açdı. Dünya azərbaycanlıları Azərbaycan dövlətini qəti əmin edirlər ki, dəfələrlə bəyan olunan və qurultayın təsbit etdiyi məqsəd və vəzifələr - ümumbəşəri dəyərləri mənimsəməklə yanaşı, milli dəyərlərin qorunub-saxlanılması, Azərbaycan dilinin, adət və ənənələrin, milli mədəniyyət və incəsənətin yaşadılması, inkişaf etdirilməsi, təbliğ olunması yolunda yorulmadan çalışacaq, onların gələcək nəsillərə ötürülməsi üçün öz səylərini əsirgəməyəcəklər. Dünya azərbaycanlıları müxtəlif ölkələrdə yaşayan Azərbaycan icmalarının azərbaycançılıq ideyaları ətrafında birləşməsini, onların həmrəyliyinin möhkəmləndirilməsini, müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin genişləndirilməsini, Azərbaycan diasporunun daha mütəşəkkil qüvvəyə çevrililməsini özlərinin amalı, vətəndaşlıq borcu hesab edirlər.

Möhtərəm Prezident! Biz - Dünya Azərbaycanlılarının I qurultayının istirakçıları müstəqil Azərbaycan dövlətinin əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirir, onun beynəlxalq aləmdə qazandığı nüfuzundan böyük qürur və iftixar hissi duyaraq bəyan edirik ki, müstəqillik, milli birlik, həmrəyilik amallarına, ümumbəşəri və milli dəyərlərə əsaslanan azərbaycançılıq ideyalarının bərqərar olması naminə bütün səylərimizi səfərbər edəcəyik.

**Müraciət Dünya Azərbaycanlılarının qurultayında qəbul olunmuşdur.**

Bakı şəhəri, 10 noyabr 2001-ci il



## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ QƏTNAMƏSİ

Biz - dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları təmsil edən qurultay nümayəndələri Dünya Azərbaycanlılarının I qurultayının müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində çağırılmasından böyük qürur hissi keçiririk. Qurultayın Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasının 10-cu ildönümü günlərinə təsadüf etməsi bizi sevindirir. Bu yüksək forumun çağırılması qərarı, onun səmərəli keçirilməsi, bütün dünya azərbaycanlılarının nümayəndələrinə taleyüklü məsələlər ətrafında geniş, sərbəst fikir mübadiləsi aparmaq fürsətinin verilməsi müstəqil Azərbaycan dövləti və onun Prezidenti cənab Heydər Əliyevin tarixi xidmətlərindən biri kimi qiymətləndirilməlidir. Bu fürsəti bizə verdiklərinə görə Azərbaycan dövlətinə və onun Prezidentinə, Azərbaycan hökumətinə, qurultayın hazırlanmasında zəhməti olan bütün insanlara dərin minnətdarlığımızı bildiririk.

Qurultay qeyd edir ki, XX əsrin son onilliyi dünyanın coğrafi-siyasi xəritəsində əhəmiyyətli dəyişikliklərin baş verməsi, dünya siyasətində yeni üfüqlərin açılması ilə əlamətdar olmuşdur. Beynəlxalq aləmdə gedən qlobal hadisələr nəticəsində Azərbaycan xalqı əsrlərlə arzuladığı müstəqilliyinə yenidən qovuşmuş və son illər ərzində aparılan uzaqgörən, məqsədyönlü siyasət nəticəsində öz müstəqilliyini möhkəmləndirmişdir.

Dünya mədəniyyəti xəzinəsinə böyük dühalar bəxş etmiş Azərbaycan xalqı artıq başa çatmış XX əsrin əvvəlində öz zəngin dövlətçilik ənənələrini inkişaf etdirərək Şərqdə parlamentli ilk demokratik respublika yaratmış, əsrin sonunda öz dövlət müstəqilliyini bərpa etmiş və XXI əsrə Avropa xalqları ailəsinin bərabər hüquqlu üzvü kimi qədəm qoymuşdur. Azərbaycan xalqı inkişaf etmiş müasir sivilizasiyalı xalqlarla birgə, demokratiyanın hakim olduğu cəmiyyətdə yaşamaq əzmini bütün dünyaya nümayiş etdirmişdir.

Müstəqil Azərbaycan Respublikası qısa bir müddətdə əsrlərə bərabər şərəfli yol keçmişdir. Bütün çətinliklərə baxmayaraq, xalqımızın misilsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, milli birliyin və vətəndaş birliyinin təmin edilməsi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi sahəsində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan vermişdir. Azərbaycan müstəqil inkişaf yolu ilə inamla irəliləyir və tam qətiyyətlə demək olar ki, heç bir qüvvə onu bu yoldan döndərə bilməz.

Dünya Azərbaycanlılarının I qurultayının iştirakçıları Azərbaycan Respublikasının, onun Prezidenti Heydər Əliyevin Azərbaycanın tərəqqisi, xalqımızın firavan həyatı naminə yeritdiyi xarici və daxili siyasətin bütün azərbaycanlıların mənafeyinə uyğun gəldiyini bildirir, onu ürəkdən bəyənir və dəstəkləyir.

Qurultay iftixar hissi ilə bəyan edir ki, bu gün harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar Azərbaycan Respublikasının tərəqqisi, çiçəklənməsi naminə əllərindən gələni əsirgəmirlər. Azərbaycan Respublikasının iqtisadi, siyasi və mədəni inkişafı, beynəlxalq münasibətlərin bərabər hüquqlu üzvü kimi çıxış etməsi, nüfuzlu iqtisadi və siyasi qurumlara inteqrasiyası, bəşər sivilizasiyasında layiqli yer tutması yolunda atılan addımlar dünya azərbaycanlılarının birgə maraqlarına cavab verir və tərəfimizdən daim dəstəklənəcəklər.

Qurultay hesab edir ki, bu gün Azərbaycanın demokratik inkişafına mane olan ən başlıca problemlərdən biri Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişələri, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğalı, bunun nəticəsi kimi bir milyonadək soydaşımızın qaçqın-köçkün vəziyyətinə düşməsi Azərbaycanın müstəqil inkişafı yolunda ciddi maneəyə çevrilmişdir. Azərbaycan xalqı sülhsevər xalqdır. O, regionda vəziyyəti gərginləşdirməyə çalışan qüvvələrin bütün təxribatlarına təmkinlə, beynəlxalq hüququn tələblərinə uyğun cavab verir. Lakin, Azərbaycanın haqq işinin qələbəsinə hərtərəfli yardım olmalıdır ki, problemin sülh yolundan başqa həllinə yer qalmasın. Bu işdə respublikadan kənarda yaşayan soydaşlarımızın da fəal olmasına, ümumiyyətlə, onların daha mütəşəkkil şəkildə təşkilatlanaraq bu və ya digər məsələnin həllində fəal mövqe tutmasına ehtiyac duyulur.

Azərbaycanlıların ayrı-ayrı ölkələrə mühacirət tarixi XX əsrin əvvəlindən başlasa da, Azərbaycan diasporunun formalaşması işi xeyli gecikmişdir. Təəssüf hissi ilə qeyd edilməlidir ki, onun formalaşması Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa

etməsindən sonrakı illərə, daha dəqiq desək, 1993-cü ildən sonrakı dövrə təsadüf edir. Məhz bu dövrdən etibarən Azərbaycan Respublikası Prezidentinin xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdəki Azərbaycan icmaları nümayəndələri ilə keçirdiyi görüşlərdə Azərbaycan diasporunun formalaşması və təşkilatlanması zərurəti bir vəzifə kimi qarşıya qoyuldu.

Azərbaycan Respublikası Prezidentinin çıxışları və nitqlərində, imzaladığı sənədlərdə, hər il dekabrın 31-də dünya azərbaycanlılarına müraciətlərində Azərbaycan diasporunun məqsəd və vəzifələri, onun formalaşmasının ideya zəmini - azərbaycançılıq ideologiyası yaradılmışdır. Beləliklə, müstəqil Azərbaycan Respublikasının simasında istinad ediləsi möhkəm dayaq və azərbaycançılıq kimi möhkəm ideya zəmini əldə etməklə, Azərbaycan diasporunun yaradılması yolunda konkret tədbirlər həyata keçirilməyə başlandı.

Dünyanın indiki inkişaf mərhələsində diasporun əhəmiyyəti danılmazdır. Bu baxımdan Azərbaycanın da xarici ölkələrdə mütəşəkkil və güclü diasporu olmalıdır. Güclü diasporun mövcudluğu doğma Vətənin güclənməsinə xidmət etməklə bərabər, həm də dünya azərbaycanlıları arasında geniş əlaqələrin yaradılmasına, onların milli və vətəndaş hüquqlarının qorunmasında səylərin birləşdirilməsi zəmin yaradır. Diasporun Vətənlə və bir-biri ilə əlaqələrinin möhkəmliyi diasporun saflığına və milli birliyinə xidmət edən amil, Vətənindən ayrı düşmüş insanların milli-mənəvi dəyərlərə bağlılığını qoruyub artıran vasitədir. Diaspor öz vətəni ilə mövcud olduğu ölkələr arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərinin bərqərar olmasında da müstəsna əhəmiyyətə malikdir. Diaspor bu gün Azərbaycan üçün



çox vacib olan lobbiçilik fəaliyyətinin formalaşmasında və onun Azərbaycanın həyati maraqlarına yönəldilməsində də mühüm rol oynaya bilər. Buna görə də qurultay müstəqil Azərbaycan Respublikasının diasporla bağlı xüsusi siyasət yeritməsini, onun dövlət səviyyəsinə qaldırılmasını dəstəkləyir və bu istiqamətdə işlərin davam etdirilməsini zəruri hesab edir. Dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I qurultayının başlıca məqsədləri ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin möhkəmləndirilməsindən, müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin genişləndirilməsindən, onların ictimai təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsindən ibarətdir. Qurultay dünyanın müxtəlif ölkələrindən gəlmiş nümayəndələrin mülahizələrini, çoxsaylı təkliflərini, eləcə də azərbaycanlıların müasir dünyadakı sosial-siyasi, iqtisadi, mədəni və s. mövqeyini, azərbaycançılıq platformasına söykənən maraqlarını, tarixən yaranmış mənəvi birlik ehtiyacını nəzərə alaraq qərara alır:

1. Dünya azərbaycanlıları müstəqil Azərbaycan Respublikasının on il ərzində müxtəlif sahələrdə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirir, Azərbaycan dövlətinin daxili və xarici siyasətini tam dəstəkləyirlər.

2. Azərbaycanlıların müstəqil Azərbaycan dövləti ilə, mədəni, ictimai-siyasi, iqtisadi və s. əlaqələri daha da gücləndirilsin və bu zaman nəzərə alınsın ki, müstəqil Azərbaycan Respublikası dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, bütün azərbaycanlıların mənəvi dayağı, milli-mədəni maraqlarının ifadəçisidir. Azərbaycanın ərazi bütöv-

lüyünün qorunması, müstəqil respublikaya hər hansı formada - daxildən, yaxud xaricdən göstərilən təcavüzün qarşısının alınması, onun demokratik, dünyəvi, hüquqi, milli bir dövlət olaraq inkişaf edib möhkəmlənməsi yalnız respublika vətəndaşlarının deyil, habelə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, hər bir azərbaycanlının müqəddəs işidir.

3. Azərbaycanlıların məskunlaşdığları ölkələrin ictimai-siyasi, iqtisadi-təsərrüfat, mədəni-mənəvi həyatında fəal iştirak etməsi ilə yanaşı, onların etnik-tarixi dəyərlərə, milli ənənələrə sədaqət naminə xüsusi diaspor yaratmasına, lobbiçilik fəaliyyəti ilə məşğul olmalarına böyük ehtiyac vardır.

4. Azərbaycan dilini, milli-əxlaqi dəyərləri, azərbaycanlıların bir xalq, millət kimi formalaşdığı tarixi Vətənin şərəfini qorumaq, harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan icmasının, hər bir azərbaycanlının müqəddəs vəzifəsidir.

5. Müasir dünya bir inteqrasiya, intensiv millətlərarası əlaqələr, qlobal münasibətlər, milli sərhədləri aşıb keçən hadisələr dünyası olduğundan, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar beynəlxalq təşkilatlarda təmsil olunmağa, milli maraqları müdafiə etməyə səy göstərməlidirlər.

6. Azərbaycanda uzun əsrlər boyu ümumbəşəri dəyərlərə hörmətlə yanaşılaraq, yüksək tolerantlıq, dözümlülük nümayiş etdirilməsi və ölkədə bu zəmində formaşaşmış milli-mənəvi mühit böyük nailiyyət sayılmışdır. Gələcəkdə də bunların qorunub saxlanması ən ümdə vəzifələrdən biri hesab olunmalıdır.

7. Dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıların təşkilatlanması, onların hüquqlarının müdafiəsi, milli-mənəvi dəyərlərin birgə qorunması məqsədi ilə xüsusi əlaqələndirmə mərkəzi - Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası yaradılsın.



8. Dünya azərbaycanlılarının qurultayları hər üç ildən bir keçirilsin. Qurultay əmin olduğunu bildirir ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmrəylik nümayiş etdirərək, qurultayın qərar və tövsiyələrinin yerinə yetirilməsi işində var qüvvələrini sərf edəcəklər.

**Qətnamə Dünya Azərbaycanlılarının I qurultayında qəbul olunmuşdur.**

Bakı şəhəri, 10 noyabr 2001-ci il.

## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN BÜTÜN DÜNYA AZƏRBAYCANLILARINA MÜRACİƏTİ

Əziz həmvətənlər! Biz - Dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I qurultayının iştirakçıları Sizə müraciət edərək bildiririk ki, bir xalqın milli varlığının əsas şərtlərindən biri onun həmrəyliyi, etnik-siyasi mütəşəkkiliyidir. Tarix dönə-dönə sübut etmişdir ki, həmrəylikdən, etnik-siyasi mütəşəkkilikdən məhrum olan xalqlar tez-gec güclü millətlərin təsiri altına düşərək assimilyasiya olunur və öz milli simasını itirir. Müasir dünyanın qabaqcıl xalqlarından, millətlərindən biri olmaq üçünsə güclü milli əzm, siyasi iradə nümayiş etdirmək, bir millət kimi beynəlxalq nüfuz qazanmaq lazım deyil. Odur ki, həm öz tarixi vətənində - Azərbaycanda yaşayan, həm də bu və ya digər səbəbdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlılar xalqımızın, millətimizin gələcəyi naminə möhkəm həmrəylik və mütəşəkkillik nümayiş etdirməlidir. Azərbaycan xalqının tarixi qədim, mədəniyyəti isə zəngindir. Onun Nizami, Nəsimi, Füzuli, Mirzə Fətəli Axundov, Hüseyn Cavid, Səməd Vurğun kimi böyük mütəfəkkirləri mənsub olduqları xalqın istedadını tarixin ayrı-ayrı dövrlərində bütün dünyaya nümayiş etdirmişlər. Azərbaycanlılar XX əsrin əvvəllərində qədim və tarixi dövlətçilik ənənəsinə söykənərək, Şərqdə ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti yaratmışdır. XX əsrin sonunda müstəqil Azərbaycan Respublikası da həmin



möhtəşəm dövlətçilik təcrübəsi əsasında yaranmış və tarixən azərbaycanlılara xas olan dövlətçilik ənənələrini müasir şəraitdə bütün dünyada sübut etmişdir. Dünya azərbaycanlılarının harada məskunlaşmalarından asılı olmayaraq, ən mühüm, ən müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyi qorunub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yer tutmasına çalışmaqdan ibarətdir. Unutmaq olmaz ki, müstəqil Azərbaycan dövlətinin mövcudluğu, onun demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləməsi yalnız Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının milli müstəqillik və dövlətçilik təfəkkürünün inkişafına, onların həmrəyliyinə təkan verir, mədəni bir etnos kimi Azərbaycan xalqına beynəlxalq nüfuz gətirir.

Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların mədəni-siyasi birliyi, həmrəyliyi müstəqil Azərbaycan Respublikasının və bütün dünya azərbaycanlılarının mənafeyinə uyğundur və onun əsas strateji məqsədlərindən biridir. Ona görə də vətəndən ayrı düşmüş hər bir azərbaycanlı əmin olmalıdır ki, onun nüfuzunu, şərəfini qorumağa həmişə hazır olan bir dövlət - Azərbaycan Respublikası vardır. Azərbaycan dövləti Azərbaycan xalqının tarixən dünya mədəniyyətinə verdiyi zəngin maddi, mənəvi-əxlaqi, ideoloji sərvətlərin, Azərbaycan adının etibarlı müdafiəçisi və sahibidir. Yer üzərində mövcud olan milyonlarla azərbaycanlının əsas ünsiyyət vasitəsi olan Azərbaycan dili - Azərbaycan Respublikasının dövlət dilidir. Odur ki, azərbaycançılıq amalı və müstəqil dövlətçilik

ətrafında yaranan milli birlik, milli həmrəylik harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının mənafeyinə tam uyğundur. İndi hər bir dünya azərbaycanlısının üz tutmağa,sevgisini, məhəbbətini bildirməyə Azərbaycan adında doğma, müqəddəs bir ocaq, sözünü deməyə, qayğılarını, dərdlərini bölüşməyə isti bir yurd var. Hər bir azərbaycanlı bu ocağa ərklə üz tutduğu kimi, eyni zamanda məsuliyyətlə dərk etməlidir ki, Vətən sevgisini işdə sübut etmək, Vətənin problemlərindən xəbərdar olmaq, bunları aradan qaldırmaq üçün yollar aramaq, Vətənlə nəfəs almaq, onun təəssübünü çəkmək və qayğıları ilə yaşamaq lazımdır. Dünya Azərbaycanlılarının I qurultayı məhz bu danılmaz həqiqəti, tarixi zərurəti əyani ifadə etdi.

Azərbaycan Respublikasının vətəndaşları olan qardaş və bacılarımız kimi, Vətəndən kənarda yaşayan dünya azərbaycanlılarının da öz ölkəsi, vətəndaşı olduğu öz dövləti vardır. Biz hərəmiz bir ölkənin vətəndaşıyıq. Lakin bizim hamımız azərbaycanlı olmaq kimi böyük bir məsuliyyəti hiss, amal birləşdirir. Vətəndaşlıq borcu bizi yaşadığımız ölkə qarşısında hansı məsuliyyətə sövq edirsə, milli mənsubluq hissi, azərbaycançılıq amalı bizim hər birimizi müstəqil Azərbaycan dövləti, ata-baba yurdu qarşısında eyni məsuliyyətə sövq edir. Odur ki, azərbaycanlı adını biz həm öz ölkəmiz qarşısında, həm də müstəqil Azərbaycan qarşısında layiqincə doğrultmalıyıq. Elə bu məqsədilə də biz həm müstəqil Azərbaycan dövləti ətrafında, həm də öz aramızda sıx birləşməyə, təşkilatlanmağa çalışmalı, mütəşəkkil qüvvəyə çevrilməliyik. Bugünkü qurultay Azərbaycan diasporunun yaranması və mütəşəkkil bir qüvvəyə çevrilməsi mərhələsinin



başlanğıcını qoydu.

Bu gün dünyanın hər yerində yaşayan azərbaycanlılar müxtəlif dövrlərdə müraciətlər etmiş insanların övladlarını, nəsillərini və Azərbaycandan kənarda yaşayan digər soydaşlarımızı təmsil edir. Soydaşlarımızın əksəriyyəti özgə millətlər içərisində azərbaycançılığı, milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dilimizi qoruyub-saxlaya bilmiş və övladlarına ötürmüşlər. Amma bir həqiqət qeyd olunmalıdır ki, ayrı-ayrı cəhdlərə baxmayaraq, uzun bir tarixi əhatə edən dövr ərzində dünya azərbaycanlıları nümayiş etdirə bilməmiş, təşkilatlanmamış, icmalar, diaspor şəklində təmsil olunmamış, dağınıq şəkildə yaşamışlar. Bu da sözsüz ki, milli əlaqələrin və müvafiq olaraq milli varlığın zəifləməsinə şərait yaratmışdır.

On il əvvəl müstəqil Azərbaycan Respublikasının yaranması bütövlükdə Azərbaycan xalqının, o cümlədən dünya azərbaycanlılarının taleyində dönüş nöqtəsi olmuşdur. Bütün dünya azərbaycanlılarını tarixi Vətənin, Azərbaycan xalqının ayrılmaz hissəsi hesab edən Azərbaycan dövləti və onun Prezidenti cənab Heydər Əliyev dünya azərbaycanlılarının milli birlik və həmrəylik problemini dövlət siyasəti səviyyəsinə qaldırmış, Azərbaycan diasporunun formalaşdırılması, dünya azərbaycanlılarının bir-biri ilə və Vətənlə əlaqələrinin yaradılması və möhkəmləndirilməsi məsələlərini bilavasitə gündəmə gətirmişdir.

Bu gün dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya - azərbaycançılıq, müstəqil dövlətçilik və milli mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır. Azərbaycan Respublikasının müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilmə-

si, onun mövqeyinin dünya müstəvisində gücləndirilməsi, erməni təcavüzünə məruz qalmış Azərbaycan xalqının haqq səsinin dünyaya çatdırılması, Dağlıq Qarabağ probleminin ədalətli həllinə nail olunması və digər ümummilli məsələlərin həlli dünyada yaşayan bütün soydaşlarımızın birliyini və həmrəyliyini daha zəruri edir. Bundan başqa dünya azərbaycanlılarının birliyi, həmrəyliyi onların yaşadığı ölkələrdə və bütün dünyada güclü və monolit bir qüvvə kimi çıxış etmələrinə, öz milli və vətəndaş haqlarını daha dolğun qorumalarına da əhəmiyyətli təsir göstərə bilər.

Əziz həmvətənlərimiz! Azərbaycan adlı müstəqil dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, XX yüzildə bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir. Xalqımız nəinki ata-babalarımızın yolunu davam etdirərək müstəqil dövlətçiliyimizi bərpa etmiş, həmçinin on il ərzində onu qoruyaraq hərtərəfli möhkəmləndirmiş, iqtisadi, hüquqi, siyasi, mənəvi baxımdan inkişaf etdirmişdir. Bu gün dünya birliyinə daxil olan müstəqil, suveren Azərbaycan Respublikası millətimizin dünyada yeganə dövləti olub bütün dünya azərbaycanlılarının həm mənəvi pənahı, həm də məbədgahıdır. Odur ki, hər bir azərbaycanlı tarixi Vətənin, Azərbaycan dövlətinin taleyində iştirak etməli, onun müstəqilliyi, inkişafı yolunda durmadan çalışmalı, fəaliyyət göstərməlidir.
Azad, firavan, qüdrətli Azərbaycan Respublikası bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzidir. Hər bir azərbaycanlı onu da bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi azad, müstəqil dövlət durur. Azərbaycanı özlərinin tarixi vətəni hesab edən insanlar Azərbaycan dövlətçiliyi ideyaları ətrafında



birləşməli, ümumiyyətlə məsələlərdə sarsılmaz həmrəylik nümayiş etdirməlidirlər. Xarici ölkələrdə təşkilatlanma prosesinin ilk mərhələsini yaşayan azərbaycanlı icmalarının, mədəniyyət mərkəzlərinin və dostluq cəmiyyətlərinin imkanlarından geniş istifadə olunmalıdır. Yaxın-uzaq ölkələrin tarixi əyani şəkildə sübut edir ki, mütəşəkkil icmalar halında dünyanın müxtəlif ölkələrində yaşayan, məqsədyönlü fəaliyyət göstərən soydaşlar öz ölkələrinə böyük kömək göstərir, yaşadıqları ölkələrlə tarixi Vətən arasında münasibətlərdə güclü amil kimi çıxış edirlər. Bu sahədə bizim istifadə olunmamış zəngin potensialımız vardır və bu potensial mütləq hərəkətə gətirilməlidir. Müstəqil Azərbaycan Respublikasının 20 faiz ərazisi işğal altındadır. Bir milyonadək soydaşımız öz doğma yurdundan didərgin düşərək ağır qaçqın həyatı yaşamaqdadır. Qarabağ torpağı müqəddəs Vətənimizin sadəcə olaraq bir parçası deyil, eyni zamanda milli mədəniyyətimizin incilərini yaşadan mühüm mədəni-tarixi bölgədir. Bu ərazidə cəmləşən nadir mədəniyyət, tarixi abidələrimiz, təkrarsız təbiət incilərimiz erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdılır, məhv edilir. Hər bir azərbaycanlı xalqımıza qarşı erməni təcavüzü və Dağlıq Qarabağ probleminin ədalətli həlli yolunda haqqa səsini ən yüksək beynəlxalq kürsülərdə ucaltmalı, yorulmadan çalışmalı, yaşadığı dövlətin parlamentinə, hökumətinə, ictimaiyyətinə həqiqəti çatdırmalıdır. Yalnız bütün Azərbaycan xalqının birgə səyi ilə münaqişənin ədalətli və beynəlxalq hüquq prinsipləri əsasında həllinə nail olmaq olar. Bu gün Azərbaycan diasporunun formalaşması, təşəkkül tapması bilavasitə Azərbaycan dövləti və onun Prezidenti cənab Heydər Əliyev tərəfindən

dövlət səviyyəsində həyata keçirilir. 1991-ci ildən başlayaraq ilk dəfə onun təşəbbüsü ilə Naxçıvanda, sonra isə bütün Azərbaycan miqyasında hər il 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi xüsusi qeyd edilir. Bu bayram ərəfəsində bütün dünya azərbaycanlıları üçün xüsusi tədbirlər təşkil olunur, qəbullar keçirilir və ölkə başçısının müraciəti səsləndirilir. 1994-cü ildən başlayaraq xarici ölkələrə səfərlər zamanı - Fransada, Böyük Britaniyada, Türkiyədə, ABŞ-da, Almaniyada, Rusiyada, Ukraynada, Polşada, Rumıniyada, Belçikada, Norveçdə, Bolqarıstanda və bir çox digər ölkələrdə yaşayan soydaşlarımızla maraqlanan, görüşlər keçirən Azərbaycan Prezidenti cənab Heydər Əliyev xaricdə yaşayan həmvətənlərimizi daim milli ideya ətrafında birləşməyə, təşkilatanmağa, icmalar, milli-mədəni cəmiyyətlər yaratmağa səsləyir. İnanırıq ki, 1993-cü ildən başlayaraq bu günə qədər davam edən ardıcıl, məqsədyönlü, getdikcə genişlənən milli diaspor hərəkatı Dünya Azərbaycanlılarının I qurultayından sonra daha da güclənəcək, bu hərəkatın gerçək nəticələri, təşkilatlanma səviyyəsi yüksələcəkdir.

Əziz soydaşlarımız! Dünya azərbaycanlılarının qarşısında duran tarixi vəzifələr hər bir azərbaycanlını tarixi Vətəni - müstəqil Azərbaycan Respublikası ilə fəxr etmək, onun həyatında yaxından iştirak etmək, sıx əlaqə saxlamaqla yanaşı, yaşadığı ölkədə azərbaycançılığı ehtiva edən milli dəyərləri qorumaq, tanıtmaq, yaşatmaq, inkişaf etdirmək kimi məsuliyyətə səsləyir. Bu, hər şeydən əvvəl, Azərbaycan dilinin qorunması, yaşadılması, soydaşlarımız arasında təbliğ olunmasına aiddir. Dünya azərbaycanlıları buna yaşadıqları ərazilərdə məktəblər, təhsil və tərbiyə ocaqları, mədəniyyət



mərkəzləri açmaqla nail ola bilərlər. Bundan başqa, harada yaşamasından asılı olmayaraq, sağlam milli adət və ənənələrin, mədəni dəyərlərin qorunub saxlanılması, yeni nəsillərə ötürülməsi dünya azərbaycanlılarının mənəvi borcudur. Qurultayın gedişindən və ölkə Prezidenti cənab Heydər Əliyevin nitqindən də göründü ki, müstəqil Azərbaycan Respublikası bu sahədə dünya azərbaycanlılarına hər cür yardım göstərməyə bundan sonra da hazırdır.

Dünya Azərbaycanlılarının I qurultayı sübut etdi ki, hər bir xalq, millət, yalnız mütəşəkkil olanda, birlik nümayiş etdirəndə, həmrəy olanda güclüdür. Ümumi məqsədlər ətrafında birləşmək, təşkilatlanmaq, yaşadığı dövlətdə icmalar, qurumlar, cəmiyyətlər şəklində birbirilə sıx təmas qurmaq, siyasi və mədəni həyatda fəal iştirak etmək dünya azərbaycanlılarının bundan sonrakı fəaliyyətində ən ümdə məsələ olmalıdır. Həm tarixi Vətənlə, *həm də özləri arasında qırılmaz əlaqələr yarat*maq, xaricdə yaşayan azərbaycanlının və bütövlükdə Azərbaycan diasporunun qarşısında duran tarixi vəzifələrdir. Harada yaşamasından, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları vahid bir xalqı, bir milləti, bir Vətəni təmsil edirlər.

Əziz həmvətənlərimiz! Gəlin ümummilli ideya - müstəqil Azərbaycan dövlətçiliyi, vahid milli-mənəvi dəyərlər, azərbaycançılıq ideyası ətrafında daha da sıx birləşək! Yaşasın dünya azərbaycanlılarının sarsılmaz həmrəyliyi və birliyi!

**Müraciət Dünya Azərbaycanlılarının I qurultayında qəbul olunmuşdur.**

Bakı şəhəri, 10 noyabr 2001-ci il.

# DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ PROBLEMİ İLƏ ƏLAQƏDAR DÜNYA İCTİMAİYYƏTİNƏ, BEYNƏLXALQ TƏŞKİLATLARA, XARİCİ ÖLKƏLƏRİN HÖKUMƏT RƏHBƏRLƏRİNƏ VƏ PARLAMENTLƏRİNƏ MÜRACİƏTİ

Hörmətli xanımlar və cənablar! Dünya Azərbaycanlılarının I qurultayının Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində toplanmış nümayəndələri böyük inam hissi ilə Sizə müraciət edirlər.

Məlum olduğu kimi, XX əsrin sonlarında bir qrup erməni separatçılarının fəaliyyəti nəticəsində dünyanın siyasi leksikonuna yeni bir anlayış daxil olur. "Dağlıq Qarabağ münaqişəsi. Azərbaycan mədəniyyətinin böyük dühalarının vətəni olan Dağlıq Qarabağ Azərbaycan xalqının bu gün də yaşadığı olduqca böyük faciənin və humanitar fəlakətin rəmzinə çevrildi. İndi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi İsrail-Fələstin münaqişəsindən sonra ən uzun sürən münaqişə kimi tanınır.

Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsi, əslində, Ermənistanın Azərbaycana qarşı aşkar ərazi iddiaları, zaman-zaman həyata keçirilən qəsbkarlıq planlarının növbəti mərhələsinin başlanması idi. Azərbaycanlılara qarşı müntəzəm yeridilən bədnam soyqırımı, deportasiya və işğal siyasətinin yüz illərlə ölçülən uzun tarixi vardır. XIX əsrin əvvəllərindən etibarən tarixi Azərbaycan



torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir. Bədnam "Böyük Ermənistan ideyasını gerçəkləşdirmək üçün saxta ideoloji tezislər formalaşdırılmış, bu məqsədi reallaşdırmaq üçün terrorçu təşkilatlar yaradılmışdır. Erməni əhalisi türk və Azərbaycan xalqına qarşı daim millətçilik, şovinizm ruhunda tərbiyə olunmuşdur.

Sovet hakimiyyəti illərində davam etdirilən deportasiya və soyqırımı siyasəti tarixi Azərbaycan torpaqlarının - Göyçə, Zəngəzur və başqa ərazilərinin zorla Ermənistana verilməsi, yüz minlərlə azərbaycanlının doğma torpaqlarından çıxarılması ilə nəticələnmişdir. Sovet imperiyasının dağıldığı dövrdə erməni qəsbkarları həmin planların həyata keçirilməsi üçün yaranmış əlverişli şəraitdən istifadə etdilər. Münaqişənin ilkin mərhələsində Ermənistanın azərbaycanlılardan etnik təmizlənməsi çox qısa müddətdə başa çatdırıldı. Etnik təmizləmə müdafiəsiz insanlara qarşı kütləvi zorakılıq və qətillərlə müşayiət olunurdu.

1988-ci ilin fevralından etibarən SSRİ rəhbərliyinin ədalətsiz mövqeyi və təcavüzkarı şirnikləşdirmə siyasəti Ermənistanın, habelə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti rəhbərlərinin millətçi-şovinist təbliğatına və yerli azərbaycanlı əhaliyə qarşı Konstitusiyaya zidd hərəkətlərinə rəvac verdi. Bu, Ermənistanın Azərbaycana qarşı geniş miqyaslı hərbi-siyasi təcavüzünün başlanğıcı idi.

SSRİ rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünün kobud şəkildə pozulmasına, Dağlıq Qarabağın

Azərbaycandan qoparılmasına yönəldilmiş məqsədyönlü siyasətə qarşı çıxmağa cəsarət edən Azərbaycan xalqına qarşı açıq-aşkar zorakılıq yolunu seçdi. Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların 1990-ci il yanvarın 20-də Bakını işğal etməsi görünməmiş qəddarlıq və vəhşiliklərlə müşayiət edildi. Ermənistanın qəsbkarlıq planlarına qarşı çıxmağa cəsarət etmiş Azərbaycan xalqının inamını və iradəsini qırmaq, sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə törədilən 20 Yanvar faciəsi totalitar rejimin Azərbaycan xalqına qarşı dəhşətli cinayəti idi. Mərkəzin dəstəyindən sonra daha da azğınlaşan Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunda Konstitusiyaya və beynəlxalq hüquq normalarına zidd hakimiyyət strukturları yaradaraq, separatçı, oyuncaq "Dağlıq Qarabağ Respublikasını elan etdi. Dağlıq Qarabağ Muxtar Vilayətində və onun ətrafında yerləşən sovet qoşunlarının bütün silahları qanunsuz olaraq əslində Ermənistan ordusunun bir hissəsi olan və "özünümüdafiə qüvvələri adlandırılan erməni silahlı dəstələrinin sərəncamına verildi. Azərbaycana qarşı silahlı təcavüzü həyata keçirmək üçün əməliyyat meydanı yaradıldı. Ermənistan Azərbaycana qarşı hərbi təcavüz mərhələsinə qədəm qoydu.

1992-ci ilin fevralında Azərbaycanın qədim Xocalı şəhərlərində qocalar, qadınlar və uşaqlar da daxil olmaqla min nəfərə yaxın dinc əhali ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Xocalı soyqırımı XX əsr tarixinə ən dəhşətli faciələrdən biri kimi daxil oldu. Elə həmin ilin mayında Şuşa şəhərinin işğalı ilə Dağlıq Qarabağda etnik təmizləmə əməliyyatı başa



çatdırıldı. 1992-ci ildə erməni təcavüzü Dağlıq Qarabağın inzibati hüdudlarından kənara çıxaraq Azərbaycanın qalan hissəsinə yayılmağa başladı. 1992-ci ilin mayında Laçın rayonu işğal olundu.

Azərbaycanın və Ermənistanın Birləşmiş Millətlər Təşkilatına üzv olması ilə Dağlıq Qarabağ problemi regional müstəvidən çıxaraq, ən gərgin beynəlxalq münaqişə ocaqlarından birinə çevrildi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 1993-cü il ərzində Dağlıq Qarabağla bağlı 822, 853, 874 və 884 nömrəli qətnamələrini qəbul etdi. Həmin qətnamələrdə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilərək, sərhədlərin dəyişdirilməsi üçün zor işlədilməsinin yolverilməzliyi təsdiq edildi. Təhlükəsizlik Şurası öz qətnamələrində silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulmasını, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Ermənistan Respublikası isə Təhlükəsizlik Şurasının tələblərinə məhəl qoymayaraq, Azərbaycan ərazisini hələ də işğal altında saxlamaqda və orada öz hərbi qüvvələrini artırmaqda davam edir. Azərbaycan Respublikasına qarşı təcavüz nəticəsində 17 min kvadrat kilometrdən çox torpaq, yəni ölkə ərazisinin təqribən 20 faizi işğal edilmişdir. 18 min nəfərdən çox adam həlak olmuş, 50 mindən çox adam yaralanmış və ya əlil olmuşdur. Yüzlərlə yaşayış məntəqəsi, iqtisadi obyekt, məktəb, tibb müəssisəsi və sair dağıdılmış və ya talan edilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərindən didərgin düşən məcburi köçkünlərin və Ermənistandan gələn qaçqınların sayı bir milyon nəfərdən çoxdur. Səkkiz

milyon əhalisi olan bir ölkədə bu rəqəm dünyanın oxşar vəziyyətdə olan regionları ilə müqayisədə çox yüksək göstəricidir və Azərbaycanın necə böyük bir humanitar fəlakətlə üzləşdiyindən xəbər verir. Bütün bu illər ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi-nin dinc yolla nizamlanması üçün xeyli səylər göstərilmişdir. ATƏT-in bu məqsədlə yaradılmış xüsusi təsisatı olan Minsk qrupunun bu istiqamətdə apardığı iş, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri hələ konkret nəticə verməmişdir. ATƏT-in Lissabon sammiti münaqişəni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etməyi qərara alsa da, Ermənistan Respublikası bu nüfuzlu təşkilatın tələblərinə məhəl qoymur. Əksinə, Azərbaycanın işğal olunmuş ərazilərində özünün silahlı qüvvələrini və döyüş texnikasını kəmiyyət və keyfiyyətcə artırmaqda davam edir.

Dağlıq Qarabağ münaqişəsinin acı təcrübəsi göstərir ki, vasitəçilərin qətiyyətsizliyi, qeyri-prinsipial mövqeyi və işğalçı ilə təcavüzə məruz qalmış tərəf arasında tarazlıq yaratmaq cəhdləri təcavüzkarın əməllərini nəinki şirnikləndirmək deməkdir, həm də bütün Qafqaz regionunda əmin-amanlıq və sabitlik üçün təhlükədir. Bu il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında baş vermiş dəhşətli terror aktlarından sonra dünyada yaranmış yeni siyasi vəziyyət, dünya hadisələrinə yeni kontekstdən baxış da Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizama salınmasını zəruri edir və bunun üçün əlavə imkanlar yaradır. Dağlıq Qarabağda tüğyan edən təcavüzkar erməni separatçılığı təkcə Azərbaycan üçün, Qafqaz regionu üçün deyil, bütün dünya üçün təhlükəli nəticələrə gətirib çıxara bilər. Çünki beynəlxalq terrorizmi qidalandıran əsas mənbələrdən, onun başlıca komponentlərindən biri məhz təcavüzkar separatçılıqdır. Azərbaycan xalqı sülhsevər xalqdır. Milliyyətindən, irqindən, dilindən və dinindən asılı olmayaraq, bütün xalqların nümayəndələ-ri Azərbaycanda həmişə böyük səmimiyyət, mehribanlıq və dostluq şəraitində yaşamışlar. Xalqımızın tarixi onun yüksək tolerantlığı və sülhsevərliyi faktları ilə zəngindir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi məsələsində də Azərbaycan xalqı böyük səbr və təmkin nümayiş etdirir, möhkəm və ədalətli sülhün bərqərar olması və regionda təhlükəsizlik üçün təminat yaradılması yolunda yorulmadan səylər göstərir. Lakin bugünkü reallıq ondan ibarətdir ki, Ermənistanın təcavüzünün nəticələri Azərbaycan üçün əsl milli faciəyə çevrilmişdir. Bu gün Azərbaycanda müharibə getmir, lakin Ermənistanla daimi sülh də bərqərar edilmişdir. "Nə müharibə, nə də sülh vəziyyəti - Azərbaycan torpaqlarının işğal altında qalması, çadır düşərgələri, minlərlə qocanın, qadının və uşağın məşəqqəti, bədbəxtliyi, çoxsaylı itkilər isə məyusluq yaradır.

Dünya Azərbaycanlılarının I qurultayının iştirakçıları bütün dünya ictimaiyyətinə, beynəlxalq təşkilatların rəhbərlərinə, ayrı-ayrı ölkələrin dövlət, hökumət və parlament rəhbərlərinə, üzvlərinə, bütün sülhsevər insanlara müraciət edərək, Azərbaycan xalqının haqq işinin müdafiə olunması, regionda, həmçinin dünyada sülh və əmin-amanlıq üçün təhlükə törədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun nizama salınması üçün davamlı səylər göstərməyə

çağırır. Sizi tarixən regionda öz pozuculuq fəaliyyəti ilə problemlər yaratmış davakar erməni millətçilərinin, dünyanın bir çox ölkəsində heç bir hüquqi və məntiqi əsasa söykənməyən iddialarının, arqumentsiz tələblərinin əsl mahiyyətinə bələd olmaq üçün problemlə daha yaxından tanış olmağa, təcavüzkar Ermənistanla işğala məruz qalmış Azərbaycana fərqli münasibət nümayiş etdirməyə səsləyirik. Ümid edirik ki, dünyada sülhün və əmin-amanlığın bərqərar olması, xalqların dinclik və təhlükəsizlik şəraitində yaşaması üçün səmərəli fəaliyyət göstərən beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər və dünya ictimaiyyəti səsimizə səs verəcək, Qafqaz regionundakı bu təhlükə ocağının ləğv edilməsi, münaqişənin qarşılıqlı kompromislər əsasında, normalarına uyğun nizama salınması üçün bütün potensial imkanlardan istifadə edəcəklər. Sizə əvvəlcədən öz dərin minnətdarlığımızı bildiririk.

**Müraciət Dünya Azərbaycanlılarının I qurultayında qəbul olunmuşdur.**

Bakı şəhəri, 10 noyabr 2001-ci il



## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN 2001-ci İL SENTYABRIN 11-də AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA TÖRƏDİLMİŞ QANLI TERROR HADİSƏLƏRİ İLƏ BAĞLI AMERİKA XALQINA

# MÜRACİƏTİ

Hörmətli xanımlar və cənablar!

Dünya azərbaycanlılarının Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I qurultayının nümayəndələri bildirir ki, 2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş terror hadisələri və bu hadisələrdə həyatını qurban vermiş insanların faciəsi dünyanın bütün tərəqqipərvər insanları kimi, biz azərbaycanlıları da hiddətləndirmiş və məyus etmişdir. 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayına toplaşmış 36 ölkənin nümayəndələri Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin terror hadisələrindən dərhal sonra Amerika xalqına və konqresmenlərinə, ABŞ prezidenti cənab Corc Buşa ünvanladığı müraciətə qoşulur, bu məsələ ilə bağlı onun prinsipial mövqeyini dəstəkləyirlər. Kütləvi insan faciəsi ilə müşayiət olunan terrorizm Azərbaycan xalqına yaxşı tanışdır. 1988-ci ildən başlayaraq qonşu Ermənistan və onun millətçi, separatçı qüvvələri tərəfindən dinc Azərbaycan əhalisinə qarşı yüzlərlə belə qanlı terror aktları törədilmişdir. Odur ki, Amerika Birləşmiş Ştatlarında törədilmiş terror hadisələri Azərbaycan xalqı tərəfindən daha kəskin hiddətlə

qarşılanmışdır. Qurultay nümayəndələri 11 sentyabr terroru qurbanlarının xatirəsini dərin hüznlə yad edir və Amerika xalqına başsağlığı verirlər. Əminik ki, Amerika xalqının azadlıq əzmini, sülhsevər və ədalətli mövqeyini heç bir terror aktı ilə qırmaq olmaz. Ümidvarıq ki, bütün bəşəriyyət üçün ciddi təhlükə doğuran beynəlxalq terrorizmə dünya ölkələrinin birgə səyi ilə birdəfəlik son qoyulacaqdır.

**Sizə dərin hörmət və məhəbbətlə,**
**Dünya azərbaycanlıları.**

Bakı şəhəri, 10 noyabr 2001-ci il



# XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN MİLLİ-MƏDƏNİ TƏŞKİLATLARI

## Almaniya Federativ Respublikası

### Azərbaycan Cəmiyyətləri Federasiyası

1996-cı ildə Almaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin əlaqələndirici qurumu kimi təsis edilib. Mərkəzi Berlində yerləşir.
Federasiyanın sədri - Nüsrət Delbəstə
Ünvan: Schlesishestr,19
10997 Berlin
Tel/faks: + 49 30 612 843 44

### "Bakı" Cəmiyyəti

1997-ci ilin iyun ayının 7-də Maynts şəhərində təsis edilib.
Sədr - Ə.Heybətov. (Azərbaycanın əməkdar rəssamı)
Ünvan: Hohenzollernamtstr 150
56068 Koblents
Telefon: 0261 35071
01758231613

## Berlin

### Azərbaycan-Türk Mədəniyyət Mərkəzi

2000-ci ilin noyabr ayında Berlin şəhərində təsis edilib.
Sədr - Nüsrət Delbəstə.
Ünvan: Schlesishestr,19
10997 Berlin
Tel/faks: + 49 30 612 843 44

**Azərbaycan-Almaniya Alimlər Birliyi**
Təşkilat 1986-cı ildə Berlində təsis edilib.
Sədr - doktor Əhməd Ümid Yəzdani.
Ünvan: Lehrterstr, 56A
10557 Berlin
Tel: +49 30 797 48 102

**"Ocaq" Cəmiyyəti**
Cəmiyyət 1988-ci ildə Berlində təsis edilib.
Sədr - Mirqadir Mənsur.
Ünvan: Oranienstr, 159
10969 Berlin
Tel: +49 30 623 28 97
+49 30 33 00 2 96
+49 30 33 00 52 96

**"Xəzər" Cəmiyyəti**
Cəmiyyət 1997-ci ildə Hannoverdə təsis edilib.
Rəhbəri - Hüseynağa Qəniyev
Ünvan: Plaunerstr, 31
30179 Hannover
Tel/faks: 0511 637982

**Azərbaycan Türklərinin Mədəniyyət Mərkəzi**
1997-ci ildə təsis edilib.
Rəhbəri - Kənan Günaydın
Cəmiyyət əsasən Frankfurt-Mayn şəhərində fəaliyyət göstərir.
Ünvan: Münchbruchstrasse 57.
65450 Kelsterbach
Tel: 00 49 61 07 63 49 25



**Maynts Azərbaycan Cəmiyyəti**
1993-cü ildə Maynts şəhərində təsis edilib.
Rəhbəri - Başar Kömür.
Ünvan: Heidelberqer Fassdasse 11
55116 Maynts Tel/faks: 06 131 22 28 06

**Azərbaycan Kültür Cəmiyyəti**
1990-cı ildə Stutqart şəhərində təsis edilib.
Rəhbəri - Cumali Turan
Ünvan: Landuerstrasse 29
70499 Stutqart
Tel/faks: 0711 8893158

**Azərbaycan Kültür və Dayanışma Cəmiyyəti**
1990-cı ildə Köln şəhərində təsis edilib.
Rəhbəri - İbrahim Alev
Ünvan: Karolinqerstr,25
50676 Köln
Tel/faks: 0221 33 18 845

**Amerika Birləşmiş Ştatları**

**Dünya Azərbaycanlıları Konqresi (DAK)**
Sıralarında dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları birləşdirir. İdarə heyətinin sədri bir illiyə seçilir.
Ünvan: World Azerbaijanis Conqress
P.O.Box 650201
Sterling, VA 20165, USA
Tel: (703) 406 7844
Faks: (703) 406 1043
US representative: Mr.Reza Salahshour

**Amerikanın Azərbaycan Cəmiyyəti (AAS)**

Əsası 1956-cı ildə qoyulub. AAS-nın baş qərargahı Nyuark (Nyu-Cersi ştatı) şəhərində yerləşir.
Cəmiyyətin prezidenti - Tomris Azəri.
Ünvan: Azerbaijan Society of Amerika
P.O.Box 69
Lodi, NJ 07644
Tel: (973) 523 1151
Ms. Tomris Azeri
AAS-in internet səhifəsinin ünvanı: www, azerbaijan-amerika.ord.

**Cəmiyyətin mərkəzi qərb şöbəsi**

Cəmiyyətin mərkəzi qərb şöbəsi Missuri ştatında yerləşir. Təşkilatın buradakı nümayəndəsi Fariz İsmayılzadədir.
Azerbaijan Society of Amerika (ASA) - Mid West
Mr. Fariz İsmailzadeh
e-mail: fariz baky @ yahoo. com

**Cəmiyyətin qərb şöbəsi**

Cəmiyyətin qərb şöbəsi Kaliforniya ştatında yerləşir. Buradakı nümayəndə Cavid Hüseynov həmçinin AAS-nin mətbuatla əlaqə məsələləri üzrə məsul şəxsdir.
Azerbaijan Society of Amerika (ASA) - West
Mr. Javid Hüseynov
e-mail: javid @ ics. uci. edu

**"Bakinetz" Mədəniyyət Mərkəzi (BMM)**

1996-cı ildə fəaliyyətə başlayıb. Mərkəz Nyu-York şəhərinin Bruklin hissəsində yerləşir.
Sədr - Yakov Abramov



Ünvan: "Bakinetz Cultural Center Brooklyn, HY
Tel: (212) 524 7261
Mr. Yakov Abramov

**"Bakılı" cəmiyyəti**

1995-ci ildən fəaliyyət göstərir. Merilend ştatının Baltimor şəhərində yerləşir.
Cəmiyyətin prezidenti - Fəxrəddin Fətəliyev.
Ünvan: "Bakılı Society 3224 Smith
Avenue Baltimore MD.21208
Tel: (410) 653 2176
(443) 253 4668
Mr. Fakhraddin Fataliyev

**Amerika-Azərbaycan Dostluq Cəmiyyəti**

1994-cü ildə yaradılıb. Qurumun prezideknti Rey Bauer, vitse-prezidenti Gülbəniz Arifqızıdır.
Ünvan: Amerikan-Azerbaijan Friendship Society
201 Anita Drive
202 Orange, CA 92868
Tel: (714) 978 1000
(714) 734 8501
(714) 323 5949
Mr. Ray Bayer

**Azərbaycan Mədəniyyət Cəmiyyəti**

Sədr - Elçin Heydəroğlu
Ünvan: 3170 Dela Cruz Blvd. Suite # 100
San Jose, SA 95054
Tel: (408) 3776178; faks: (408) 7275985

**Azərbaycan Kültür Assosiasiyası**
Los-Ancelesdə fəaliyyət göstərir.
Sədr - Hüseyn Həqiqi
Ünvan: Box 614 Santa Monika, CA

**"Yeni dostlar" Forumu**
Əsasən ABŞ-da təhsil alan tələbələri birləşdirir.
Sədr - Adil Bağırov

**Avstraliya**

**Azərbaycanlılar Cəmiyyəti**

1992-ci ildən Sidney şəhərində fəaliyyət göstərir.
Cəmiyyətin prezidenti - Əhməd Qeybi.
Ünvan: 252 Whitford Road, Green Valley, HSW 2168. Sidney. Avstralia.
Telefon/faks: 02-9608-61-57
mobil: 04-18-460-939.

**Avstriya**

**Azərbaycan Mədəniyyət Cəmiyyəti**
1990-cı ildə Vyanada təsis edilib.
Sədr - Səttar Piran.
Ünvan: PF 97, A-1164 Wien
Telefon/faks: + (431) 5235400

**Azərbaycan Mədəniyyət Cəmiyyəti**
Qrats şəhərində fəaliyyət göstərir.
Sədr - Tofiq Fərzi
Ünvan: Nadellstrasse 28, A-8010 Graz



Telefon: + (43 0316) 671711;
mobil: + (43676) 585 06 69
Faks: + (43 0316) 609137

**Avstriya-Azərbaycan Ticarət Cəmiyyəti (ASOV)**
Qrats şəhərində fəaliyyət göstərir.
Həmsədrlər - Mir Hesabi, Fərhad Abtin.
Ünvan: Schillerstrasse 4, A-8020 Graz
Telefon/faks: +(43 0316) 386677

**Əlibəy məscidi və Mədəniyyət Cəmiyyəti**
Zalsburq şəhərində fəaliyyət göstərir.
Sədr - Cəfər Oruc
Ünvan: Mulbacherhofweg 2, A-5020 Salzburq
Tel: +(43 0662) 847465; mobil: +(43 664) 493 2043
Faks: + (43 0662) 45 14 76

**Belçika**

**Azərbaycan-Belçika Dostluq Cəmiyyəti**
Əvvəllər fəaliyyt göstərmiş "Azərbaycan Kültür və İnformasiya Mərkəzinin əsasında 1999-cu ilin əvvəlində Brüsseldə təsis edilmişdir.
Cəmiyyətin prezidenti - Mehmet Yıldız.
Ünvan: 21, Ch de Haecht, 1210, Bruxelles
Tel: (00322) 219 1586, faks: (00322) 219 58 24
E-mail: azerbelqium@yahoo. com.

### Belarus Respublikası

**"Qobustan" İctimai-Mədəni Birliyi**

1990-cı ilin sentyabrında Minsk şəhərində yaradılıb.
Prezident - Natiq Bağırov.
Ünvan: 220020, Minsk şəhəri, Raduynaya küçəsi, 13/8.
Tel: 375-29-651-06-86; 375-17-254-89-15.

**"Xəzər" Azərbaycan İctimai Birliyi**

2001-ci ilin iyun ayında Moqilyov şəhərində yaradılıb.
Sədr - Tapdıq Abuşov
Ünvan: 220040, Moqilyov şəhəri, Dmitrov prospekti, 55/235
Tel: 375-222-22-80-69; 375-222-46-63-28.
Azərbaycan Tarix və Mədəniyyət Cəmiyyəti
2000-ci ildə Bobruysk şəhərində yaradılıb.
Sədr - Ədalət Həsənov.
Ünvan: Bobruysk şəhəri, Tolstoy küçəsi, 74.
Tel: 375-2251-751-76; 375-2251-760-43

**"Dostluq" İctimai Birliyi**

2001-ci ildə Qrodno şəhərində yaradılıb.
Sədr - Vahid Hüseynov
Ünvan: Qrodno şəhəri, Folyuşa küçəsi, 192/24.
Tel: 375-29-477-50-38; 375-15-22-5-50-18.



### Böyük Britaniya

**"Vətən" Cəmiyyəti**
Rəhbəri - Murad Həsənli.
Ünvan: 162 Shirland Road, London W92 BT
Tel/faks: +44(0) 20 72896118
E-mail: vatan @ post. com.
veb səhifəsi: www vatan. orq. uk.

**"Azərbaycan" Cəmiyyəti**
Fəal üzvləri - Həsən Jand, Rəhman Xətibi, Firuz Yavərı
Tel: 020-8556-8812

**"Humay" Azərbaycan Mədəniyyət Mərkəzi**
Rəhbəri - Müslüm Eldarov
Tel: 020-7407-1085

**Britaniya Azərbaycan İcması**
Rəhbəri - Fərəməz Əkbəriyan
Tel/faks: 011 89-772-758

**Azərbaycan Türkləri Cəmiyyəti**
Sədr - Şəhrux Məzhəri
Tel: 020 8838 4004; fax: 020 8838 3939

### Çexiya Respublikası

**Çex-Azəri Mədəni Əlaqələr Mərkəzi**
1998-ci ilin mart ayında qeydiyyata alınıb.
Sədr - Oldrix Şaşinka
Ünvan: Çexiya, Brno şəhəri, Qorkeho küçəsi 13 "A.
Tel: (042) 0604798526

(042) 060467374
Faks:(042) 0541 21 03 86

### Danimarka

**Danimarka-Azərbaycan Mədəniyyət Mərkəzi**
Arhus şəhərində fəaliyyət göstərir.
Sədr - Kərim Xan (Yaşar Azəroğlu adı ilə məşhurdur)
Tel: (0045) 87 39 07 36;
faks: (0045) 86 18 08 09
İnternet saytı:www.indvndrerradio.dk

**Danimarka-Azərbaycan Cəmiyyəti**
Kopenhagen şəhərində fəaliyyət göstərir.
Sədr - Abbas Cəidlər
Tel: (0045) 3297 3004; mobil - (0045) 26 46 55 60

### Estoniya

**Estoniya Azərbaycan İcması**
1988-ci ildən Tallinndə fəaliyyət göstərir.
İcmanın fəxri sədri - Niyazi Hacıyev
Ünvan: Tallinn 10505 r/k 3272
Tel: 372 641 0162; 372 502 52 93
İnternet saytı:www.azeri.ee.

### Fransa

**"Azərbaycan evi" Assosiasiyası**
Parisdə fəaliyyət göstərir.
Rəhbəri - Səid İsmayılov
Tel: (331) 45 67 81 77



**Azərbaycanla Mədəni Əlaqələr Cəmiyyəti**
1990-cı ildə Strasburqda yaradılıb.
Rəhbəri - Mustafa Alıca
Tel: (33 3) 88 61 13 13
FAks: (33 3) 88 61 09 05
Mob: (33 6) 09 81 60 37

**Azərbaycan Kültür Mərkəzi**
Strasburqda fəaliyyət göstərir.
Rəhbəri - Əhməd Mehribani
Tel (mobil): (49 172) 910 12 64
Faks: (33 3) 88 62 97 90

**Fransada Azərbaycanlı Tələbələr Assosiasiyası**
1999-cu ildən Strasburqda fəaliyyət göstərir.
Rəhbəri - Mətin Kərimli
Ünvan: Maison des Associations 1a, place des Orphelins 67000 Strasburg, France
Tel: (33 6) 17 18 08 82
(Paris filialı - Turab Qurbanov: telefon: (336) 71 88 45 08)

**Azərbaycan-Fransa Azad Mübadilələr Assosiasiyası**
Qrenobl şəhərində fəaliyyət göstərir.
Rəhbəri - Ağasəlim Rəsulov Tel/faks: (33 4) 76 44 26 60
Mobil: (33 6) 12 73 56 32

**Təhsil və tədqiqatların inkişafı üzrə Fransa-Azərbaycan Tələbə Assosiasiyası**
2001-ci ildə Qrenobl şəhərində yaradılıb.
Rəhbəri - Fazil Zeynalov
Ünvan: 11, rue General Mangin, 121, 38100 Qrenoble
Tel: (336) 11 57 15 12

## Gürcüstan

**Azərbaycanlıların Tbilisi Mədəniyyət Mərkəzi**
1996-cı ildə Tbilisidə təsis edilib.
Mərkəzin direktoru - Məmməd Gülməmmədov.
Ünvan: Tbilisi şəhəri, Qorqasali küçəsi, 17
Tel: 72-15-71.

**"Qeyrət" Xalq Hərəkatı**
1989-cu ildə Marneulidə yaradılıb.
Rəhbəri - Əlibala Əsgərov

**Gürcüstan Azərbaycanlılarının Ziyalılar Birliyi**
2001-ci ildə Tbilisidə təsis edilib.
Sədr - Valeh Hacıyev

**Acarıstan Gürcü-Azərbaycan Xeyriyyə Cəmiyyəti**
1997-ci ildə Batumidə təsis edilib.
Sədr - Vidadi Axundov.
Ünvan: Batumi şəhəri, Qamsaxurdiya küçəsi, 8.
Tel: 7-65-08; 2-38-70.

## İsveç

**Azərbaycan Federasiyası**
İsveçdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin əlaqələndirici qurumu kimi Stokholmda fəaliyyət göstərir.
Sədr - Məşdəli Mollazadə
Tel: (0046) 70 71 50 117; (0046) 87 586 635



**"Araz" Cəmiyyəti**
Malmö şəhərində fəaliyyət göstərir.
Sədr - Cavad Dərəxti
Tel: (0046) 70 4332 227; (0046) 40 29 46 62

**"Ərk" Cəmiyyəti**
Stokholm şəhərində fəaliyyət göstərir.
Sədr - Səttar Mahmudi
Tel: (0046) 70 71 50 117; (0046) 87 58 66 35

**"Ulduz" Cəmiyyəti**
Stokholm şəhərində fəaliyyət göstərir.
Sədr - Məşdəli Mollazadə.

**"Savalan" Cəmiyyəti**
Qotebborq şəhərində fəaliyyət göstərir.
Sədr - Mahmud Faziliyan
Tel: (0046) 70 73 81 466; (0046) 31268747

**"Durna" Cəmiyyəti**
Stokholm şəhərində fəaliyyət göstərir.
Sədr - Əhəd Əşqiriz.

**İran Azərbaycanlılarının Dostluq Cəmiyyəti**
Qotebborq şəhərində fəaliyyət göstərir. Sədr - Behruz Əsədi
Tel: (0046) 31 54 79 37; (0046) 07 07 36 0003

**"Mişov" Dərnəyi**
Yüsdal şəhərində fəaliyyət göstərir.
Rəhbəri - Xəlil Fədai

### "Babək" Dərnəyi

Linşopinq şəhərində fəaliyyət göstərir.
Rəhbəri - Aslan Ərəblui

### "Günəş" Qadınlar Dərnəyi

Stokholm şəhərində fəaliyyət göstərir.
Rəhbəri - Əfsanə

## İsveçrə

### Azərbaycan Türklərinin Kültür Dərnəyi

1992-ci ildə tə'sis edilib.
Rəhbəri - Nurəddin Turan
Ünvan: Zukhwulerstr.16
Schweiz. Tel:+763 89 51 99

## İtaliya

### "Yeni Azərbaycan" cəmiyyəti

Romada fəaliyyət göstərir.
Sədr: Çingiz Daverpənah
Tel: 0039 64 51 04 52

## Kanada

### Azərbaycan mədəniyyət mərkəzi

1988-ci ildə Monreal şəhərində tə'sis edilibö
Mərkəzin rəhbərləri: Oktay Azər, Əsəd Babazadə, Hüseyn Ağabəyzadə.
Ünvan: 66 30 Sherbrooke West # 1603, Monreal, Quebec H 4B 1 17, Kanada
Tel: (516) 4998507



### Kanada Azərbaycan Milli Federsiyası

Prezident: Səid Kazimi
Ünvan: Sheppard Centre, 2 Sheppard Avebur, Suite 900, North Vork, Ontario M 2 № 5 V7
Tel: (416) 665 76 69; Fax: (416) 479 16 66

### Kanada - Azərbaycan Ticarət Palatası

Rəhbər - Səid Kazimi
Ünvan:21 Jewetts Court, Unionville, Ontario L 3 S 2 W3, Canada
Tel: (905) 908 31 13; (905) 479 1666; (905) 508 51 51

### Azərbaycan İcmaları Assasiyasiyası

1988-ci ildə Ontarioda təsis edilib.
Rəhbər - Cavad Zərrin
Ünvan: 1111 Finch Ave, West, Unit# 160.
Toranto, Ontario M 3 J 2 E 5, Canada

### Kanada Azərbaycan Alyansı

Rəhbəri - Natiq Yusifov
Tel: (416) 645 8342; (416) 5680523; (416) 492 08 84

Azərbaycan Mədəniyyət Assosiasiyası
Ünvan: CP 54, Roxoboro, Montreal, Quebec H8V 3E8

## Qazaxıstan

### "Turan" Azərbaycan Mədəniyyət Mərkəzi

1992-ci ildə Almatı şəhərində təsis edilib.
Sədr - Müseyib Novruzov
Ünvan: Almatı şəhəri, Kurmanqazı küçəsi, 40.
Tel: +29-92-66 (ev)

**Qazaxıstan, Qırğızıstan və Özbəkistandakı Azərbaycan ictimai-mədəni cəmiyyətlərinin Konqresi - "Turan"**

2001-ci ildə təsis edilib.
Prezidenti - Müseyib Novruzov
Ünvan: Almatı şəhəri, Kurmanqazı küçəsi, 40
Tel: + 29-92-66 (ev)

## Qırğızıstan

**Azərbaycanlıların Mədəniyyət Mərkəzi**

Bişkekdə fəaliyyət göstərir.
Sədr - Əsəd Həsənov
Ünvan: Bişkek şəhəri, Sibir keçidi, 7
Tel: + 48-30-04

## Latviya

**"Azəri" Cəmiyyəti**

1988-ci ildə Riqada yaradılıb.
Sədr - Ulduzxan Əhmədov
Ünvan: Slokas 37, Riqa
Tel: 7-241898; 7-241909; faks: 7-145 003

**"Azəri-Vəhdət" Latviya - Azərbaycan Mədəni Cəmiyyəti**

2001-ci ildə yaradılıb.
*Riqada fəaliyyət göstərir.*
Sədr - Əlirza Hüseynov.
Ünvan: Riqa şəhəri, Albert küçəsi, 12, ofis 13.
Telefon: + 371 7 33 2452; + 371 64 54 970
faks: + 371 7 33-20-90



## Litva

**Litva Azərbaycanlıları Cəmiyyəti**

1988-ci ildən Vilnüsdə fəaliyyət göstərir.
Sədr - Mahir Həmzəyev
Ünvan: Raugyklos 25, LT-2001, Vilnius, Lithuania.
Telefon: (8-22) 736596 (8-22) 261476
Faks: (8-22) 260408
Moldova

**Moldova Azərbaycanlıları Konqresi (MAK)**

2001-ci ildə Kişinyovda təsis edilib.
Rəhbəri - Mehman İsmayılov
Ünvan: Kişinyov şəhəri, Mateyeviç küçəsi, 109/1
Tel: (103 732) 33-77-10

**"Araz" Cəmiyyəti**

1991-ci ildən fəaliyyət göstərir.
Sədr - Mehman İsmayılov
Ünvan: Kişinyov şəhəri, Mateyeviç küçəsi, 109/1
Tel: (103 732) 33-77-10

**"Azəri" Mədəniyyət mərkəzi**

1995-ci ildən fəaliyyət göstərir.
Sədr - Tanrıverdi Mustafayev
Ünvan: Kişinyov şəhəri, Kotoveki küçəsi 34/2, otaq 39
Tel: (103 732) 72 56 80

**Moldova - Azərbaycan Əməkdaşlıq Cəmiyyəti**

2000-ci ildə yaradılıb.
Sədr - Müharib Allahverdiyev
Ünvan: Kişinyov şəhəri, Matveyeviç küçəsi 109/1
Tel: (103 732) 72 82 88

**Niderland**

**Azərbaycan Türk Mədəniyyət Mərkəzi**

1993-cü ildə Haada həzərində yaradılıb.
Sədr - Gəlal Qaragöz
Ünvan: Stationsweg 88, 2515 BR Haada, Niderland
Tel: 0031 170 389 84 36

**Norveç**

**Norveç Azərbaycan Mədəniyyət Mərkəzi**

1989-cu ildə Oslo şəhərində yaradılıb.
Sədr - Yaqub Cahid (6 aydanbir sədr dəyişilir)
Tel: (0047) 92 28 97 79 (mobil); tel/faks: (0047) 22 10 57 87 - Yaqub Cahid
(0047) 95 97 98 31 (mobil); (0047) 66 80 36 71 - Əhməd Şatuvar

**"ANA" - Azərbaycan-Norveç Assosiasiyası**

Oslo şəhərində fəaliyyət göstərir.
Sədr - Toğay Əhmədzadə
Tel: (0047) 93 89 16 31 (mobil) - Davud Qəmbəri



**Özbəkistan**

**"Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzi**

1989-cu ildə Daşkənddə təsis edilmişdir.
Sədr - İsmayıl Məmmədov
Ünvan: Daşkənd şəhəri, Mirabad rayonu, Temiryolçular küçəsi, 111
Tel: (998-71) 191-00-93-ev; (998-71) 173-94-85-iş

**"Azərbaycan-Özbəkistan" Mədəni-İqtisadi Əlaqələr Mərkəzi**

Səmərqənd şəhərində fəaliyyət göstərir.
Sədr - Səxavət Oçiyev.
Ünvan: Səmərqənd şəhəri, Sarteko yaşayış massivi, ev 42, mənzil 55
Tel: (998-3662) 21-17-74-ev, (998-3662) 33-54-83-iş.

**Rumıniya**

**Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyası**

2001-ci ildə Buxarestdə təsis edilmişdir.
Prezidenti - Fərid Rəhmanov
Tel: (40-1) 21 13 044

**Rusiya Federasiyası**

**Ümumrusiya Azərbaycan Konqresi**

2001-ci ilin mart ayında Moskva şəhərində təsis edilib.
Prezidenti - Məmmədbağır Əliyev
Ünvan: Moskva şəhəri, Leninqrad pr-ti, 31.
Tel/faks: (095) - 737-46-51

## ÜAK-ın regiqnal bölmələri

### Adigey Respublikası
2001-ci ilin fevral ayında Maykop şəhərində yaradılıb.
Sədr - Qabil Rizayev
Ünvan: Maykop ş., Jukovski küçəsi, ev.40.
Telefon: (87722) - 708-70
Faks: (87722) 301-66

### Başqırdıstan Respublikası
2001-ci ilin fevral ayında Ufa şəhərində yaradılıb.
Sədr - Etibar Haqverdiyev
Ünvan: Ufa ş., Rossiyskaya küçəsi 31, mən.67.
Tel: (3472) - 24-46-35; (3472) 31-80-45

### Buryatiya Respublikası
1997-ci ilin noyabr ayında Ulan-Ude şəhərində yaradılıb.
Sədr - Balamirzə Əhədov
Ünvan: Ulan-Ude ş., 50-letiya Oktyabrya pr-ti, ev 20/39
Tel: (3012) - 28-35-66; (3012) 34-00-92

### Dağıstan Respublikası
2001-ci ilin mart ayında Dərbənd şəhərində yaradılıb.
Sədr - Seyran Rəhimlv
Ünvan: Dərbənd ş., Avain kuçəsi, ev.2. korp.7.
Tel: (87240) -2-53-52; (87240) 2-68-70

### Qaraçay-Çərkəz Respublikası
2001-ci ilin mart ayında Çerkask şəhərində yaradılıb.
Sədr - Bulud Fətullayev
Ünvan: Çerkask ş., Şirşov küç., 120.
Tel: (87822)-4-49-59



### Komi Respublikası
2001-ci ilin fevral ayında Uxta şəhərində yaradılıb.
Sədr - Nazim Kərimov
Ünvan: Uxta ş., Puşkin küç., 2.
Tel: (82151) -3-43-32

### Mariy-El Respublikası
2001-ci ilin fevral ayında Yoşqar-Ola şəhərində yaradılıb.
Sədr - Elxan Allahverdiyev
Ünvan: Yoşqar-Ola ş., Severnaya küç., 59.
Tel: (8362) - 118-97; (8362) 118-347; (8362) 129-134

### Şimali Osetiya Respublikası - Alaniya
2001-ci ilin fevral ayında Vladiqafqaz şəhərində yaradılıb
Sədr - Ağahüseyn Fərəcov.
Ünvan: Vladiqafqaz ş., General Pliyev küç., 28.
Tel: (8672) - 74-40-83; (8672) 75-31-79; (8672) 75-83-44

### Udmurt Respublikası
2001-ci ilin mart ayında Qlazov şəhərində yaradılıb.
Sədr - Vəli Əhmədov
Ünvan: Qlazov ş., Tretya küç., ev.29.
Tel: (34141) 3-76-10; (34141) 4-55-76

### Cuvaş Respublikası
2001-ci ilin fevral ayında Çeboksar şəhərində yaradılıb.
Sədr - Aqil Əliyev.
Ünvan: Çeboksar ş., Kalinin küç., ev 104, mən.25.
Tel: (8352) - 42-65-06

**Altay Diyarı**
2001-ci ilin fevral ayında Barnaul şəhərində yaradılıb.
Sədr - Rövşən Rüstəmov
Ünvan: Barnaul ş., Lenin pr-ti, 135, mən.61.
Tel: (3852) - 38-70-38; (3852) 35-65-48.

**Krasnodar diyarı**
2001-ci ilin fevral ayında Krasnodar şəhərində yaradılıb.
Sədr - Fikrət Qasımov
Ünvan: Krasnodar ş., Krasnoarmeyskaya küç., 53.
Tel: (8612) 55-89-60

**Primorsk diyarı**
2001-ci ilin mart ayında Vladivostok şəhərində yaradılıb.
Sədr - Əli İbadov
Ünvan: Vladivostok ş., Russkaya küç., 94 mən, 810.
Tel: (4232) - 23-05-74; (4232) 26-67-07.

**Stavropol diyarı**
2001-ci ilin fevral ayında Stavropol şəhərində yaradılıb.
Sədr - Fəxrəddin Yarıyev
Ünvan: Stavropol ş., Kovalyov küç., 19.
Tel: (8652) 28-00-15.

**Xabarovsk diyarı**
2001-ci ilin fevral ayında Xabarovsk şəhərində yaradılıb.
Sədr - İmran Məmmədov.
Ünvan: Xabarovsk ş., Şironov küç., 60 k.1. mən. 42.
Tel: (4212) - 22-33-71



**Arxangelsk vilayəti**
2001-ci fevral ayında Arxangelsk şəhərində yaradılıb.
Sədr - Cəmil Əliyev
Ünvan: Arxangelsk ş., Oktyabryat küç.,42
Tel: (8182) 23-47-58

**Həştərxan vilayəti**
2001-ci ilin fevral ayında Həştərxan şəhərində yaradılıb.
Sədr - Vilayət Əliyev
Ünvan: Həştərxan ş., Zvyozdnaya 47, k.3, mən.53.
Tel: (8512) - 37-20-58; (8512) 52-80-70

**Belqorod vilayəti**
2001-ci ilin fevral ayında Belqorod şəhərində yaradılıb.
Sədr - Nəcəf Həsənov
Ünvan: Belqorod ş., Xmelnitskaya, 86.
Tel: (0722) 34-66-12

**Bryansk vilayəti**
2001-ci ilin fevral ayında Bryansk şəhərində yaradılıb.
Sədr - Şəhriyar Heydərov
Ünvan: Bryansk ş., Orlovskaya küç., 21
Tel: (0832) - 57-04-14; faks: (0832) 57-23-71

**Vladimir vilayəti**
2001-ci ilin fevral ayında Vladimir şəhərində yaradılıb.
Sədr - Elman Turkanov
Ünvan: Vladimir ş., Lakin küç., 153
Tel: (0922) - 33-27-49

**Volqoqrad vilayəti**

2001-ci ilin mart ayında Volqoqrad şəhərində yaradılıb.
Sədr - Rizvan Seyfullayev
Ünvan: Volqoqrad ş., Elektrolesovskaya küç.
Tel: (8442) - 92-215

**Voloqda vilayəti**

2001-ci ilin fevral ayında Çerepovets şəhərində yaradılıb.
Sədr -Ataş Əliyev
Ünvan: Çerepovets ş., Molodyojnaya küç., 33/46, m.23.
Tel: (8202) - 29-68-35

**Voronej vilayəti**

2001-ci ilin fevral ayında Voronej şəhərində yaradılıb.
Sədr - İlham Kazımov
Ünvan: Voronej ş., Kalininqradskaya küç., 102 mən. 11.
Tel: 52-52-04

**İvanov vilayəti**

2001-ci ilin fevral ayında İvanovo şəhərində yaradılıb.
Sədr - Sərraf Məmmədov
Ünvan: İvanovo ş., R.Kommuna küç., 15.
Tel: (0932) - 37-15-65

**Kalininqrad vilayəti**

2001-ci ilin mart ayında Kalininqrad şəhərində yaradılıb.
Sədr - Tofiq Rzayev
Ünvan: Kalininqrad ş., Dm.Donskoy küç. 7, mən.121.
Tel: (0112) - 22-55-58; (0112) 22-56-29; (0112) 75-62-22



**Kamçatka vilayəti**

2001-ci ilin fevral ayında Petropavlovsk-Kamçatka şəhərində yaradılıb.
Sədr - Qurban Əzimov
Ünvan: Petropalovsk-Kamçatka ş., Larin küç., 10/2.
Tel: (4152)-13-46-71

**Kirov vilayəti**

2001-ci ilin fevral ayında Kirov şəhərində yaradılıb.
Sədr - Ramiz Əfəndiyev
Ünvan: Kirov ş., Nekrasov küç., 32, mən.36
Tel: (8332) - 31-04-88; (8332) 36-11-22

**Kostroma vilayəti**

2001-ci ilin mart ayında Kostroma şəhərində yaradılıb.
Sədr - Şakir Cəfərov
Ünvan: Kostrama ş., İvanovsk küç., 23, mən.4.
Tel: (0942) - 31-62-82

**Kurqan vilayəti**

2001-ci ilin fevral ayında Kurqan şəhərində yaradılıb.
Sədr - Ərşad Cuvarlinski
Ünvan: Kurqan ş., Konstitusiya pr-ti, 35.

**Moskva vilayəti**

2001-ci ilin mart ayında Dzerjinsk şəhərində yaradılıb.
Sədr - Mirzəbala Musayev
Ünvan: Dzerjinsk ş., Uqrejskaya küç., 14
Tel: (095) - 551-32-23

## Nijeqorodsk vilayəti

2001-ci ilin fevral ayında Nijni-Novqorod şəhərində yaradılıb.
Sədr - Məmmədcamal Məmmədov.
Ünvan: Nijni-Novqorod ş., İnternasional küç., 19, mən.7.
Tel: (83158) - 21-456; (83158) 21-029

## Novosibirsk vilayəti

2001-ci ilin fevral ayında Novosibirsk şəhərində yaradılıb.
Sədr - Nurəddin Əsədov
Ünvan: Novosibirsk ş., İnskaya küç., 1a
Tel: (3832) - 66-75-54; (3832) 66-38-55

## Perm vilayəti

2001-ci ilin mart ayında Perm şəhərində yaradılıb.
Sədr - Camal Məmmədov
Ünvan: Perm ş., Belyayev küç., 33.
Tel: (3422) - 33-75-36; (3422) 22-40-00

## Rostov vilayəti

2001-ci ilin fevral ayında Volqodonsk şəhərində yaradılıb.
Sədr - Şakir Məmmədov
Ünvan: Volqodonsk ş., Entuziast küç., 3 otaq 125.
Tel: (86392) - 65-150; (86392) 66-859

## Ryazan vilayəti

2001-ci ilin fevral ayında Ryazan şəhərində yaradılıb.
Sədr - Bəhram Ömərov
Ünvan: Ryazan ş., Novoselov küç., 19, mən.99.
Telefon: (0912) - 227-163: faks: (0912) 765-662



## Samara vilayəti

2001-ci ilin fevral ayında Samara şəhərində yaradılıb.
Sədr - Vaqif Ömərov
Ünvan: Samara ş., Kevolyutsionnaya küç., 75.
Tel: (8462) - 99-22-61

## Saratov vilayəti

2001-ci ilin fevral ayında Saratov şəhərində yaradılıb.
Sədr - Vladimir Muradov
Ünvan: Saratov ş., Çernişevski küç., 160/164
Tel: (8452) - 27-49-60

## Sverdlov viliyaəti

2001-ci ilin mart ayında Yekaterinburq şəhərində yaradılıb.
Sədr - Hidayət Cəfərov
Ünvan: Yekaterinburq ş., Qoqol küç., 25
Tel: (3432) - 51-28-56; (3432) 51-21-58

## Tver vilayəti

2001-ci ilin mart ayında Tver şəhərində yaradılıb.
Sədr - Vilayət Qayıbov
Ünvan: Tver ş., Pobeda küç.,9.
Tel: (0822) - 33-47-85: (0822) 42-69-61

## Tomsk vilayəti

2001-ci ilin fevral ayında Tomsk şəhərində yaradılıb
Sədr - Məhəmməd Əliyev
Ünvan: Tomsk ş., Safinix küç.,5.
Tel: (3822) - 27-90-36

**Tula vilayəti**

2001-ci ilin mart ayında Tula şəhərində yaradılıb.
Sədr - Lətif Abbasov
Ünvan: Tula ş., Volkov küç., 1.
Tel: (0872) - 77-56-68

**Ulyanovsk vilayəti**

2001-ci ilin fevral ayında Ulyanovsk şəhərində yaradılıb.
Sədr - Şakir Göyüşov
Ünvan: Ulyanovsk ş., Lenin küç., 95
Tel: (8422) - 31-90-20; (8422) 47 52 82

**Moskva şəhəri**

2001-ci ilin fevral ayında Moskva şəhərində yaradılıb.
Sədr - İlyar Hacıyev
Ünvan: Moskva ş., Usiyeviç küç., 12/14
Tel: (095) - 151-34-46; (095) 151-34-47; (095) 250-49-90

**Sankt-Peterburq şəhəri**

2001-ci ilin fevral ayında Sankt-Peterburq şəhərində yaradılıb.
Sədr - Əlixan Musayev
Ünvan: Sankt-Peterburq ş., Telejnaya küç.,37.
Tel: (812) - 274-76-62; (812) 277-97-16

**Xantı-Mansiysk muxtar okruqu**

2001-ci ilin mart ayında Megion şəhərində yaradılıb.
Sədr - Yusif Əsgərov
Ünvan: Megion ş., Zareçqaya küç., 15
Tel: (34663) - 3-04-06



**"AZERROS" Rusiyada Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyatı**

1999-cu ilin oktyabr ayında Moskva şəhərində yaradılıb.
Sədr - Söyün Sadıqov
Ünvan: Moskva ş., Xavskaya küç., 26
Tel/faks: )095) 954 45 01

**Rusiya Federasiyasında fəaliyyət göstərən Azərbaycan ictimai-mədəni təşkilatları**

**Privoljye okruqu üzrə**

**"Nizami" Azərbaycan İctimai Təşkilatı**

1988-ci ilin may ayında Ulyanovsk şəhərində yaradılıb.
Sədr - Şakir Göyüşov
Ünvan: 432071, Ulyanovsk şəhəri, Lenin küç.,95
Tel: (8422) 31 90 20; (8422) 47.52.82

**"Çuvaş-Azərbaycan" Dostluq və Əməkdaşlıq Cəmiyyəti**

Sədr - Aqil Əliyev
Ünvan: 428032, Çuvaş Respublikası, Çeboksar şəhəri. Leniqrad küç.,16.
Tel: (8352) 20 27 60; (8352) 42 65 06

**"Dostluq" Azərbaycan ictimai Mərkəzi**

Sədr - Fərhad Hümbətov
Ünvan: 426000, Udmurt Respublikası, İjevsk şəhəri, Universitet küç. 25a.
Tel: (3412) 76 85 58

**"Turan" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr - Ramiz Əskərov
Ünvan: Orenburq şəhəri, Mir prospekti, 16
Tel: (3532) 35 38 43; (3532) 63 98 05

**"Odlar Yurdu" Azərbaycan Cəmiyyəti**
Sədr - Vəli Əhmədov
Ünvan: 427627, Udmurt Respublikası, Qlazov şəhəri, Tretya küç. 29.
Tel: (34141) 3 76 10

**Azərbaycan - Türk Xalqlarının İctimai Təşkilatı**
Sədr - Ramiz Əfəndiyev
Ünvan: 610014 Kirov şəhəri, Şors küç., 26 - 2
Tel: (8332) 36 11 22; (8332) 36 04 88

**"Yurd" Azərbaycan Milli-Mədəniyyət Mərkəzi**
1996-cı ilin noyabr ayında Engels şəhərində yaradılıb
Sədr - Adil Sarayev
Ünvan: 413100 Engels şəhəri, Mayakovski küç.4.
Tel: (84511) 6 48 82; (84511) 4 98 33

**"Dostluq" Azərbaycan İctimai Təşkilatı**
Sədr - Elxan Allahverdiyev
Ünvan: 424039 Mariy El Respublikası, Yoşqar -Ola şəh. Severnaya küç. 59.
Tel: (8362) 11 83 47; (8362) 12 91 34



**Tatarıstan Respublikası Azərbaycan Milli Mədəni Muxtariyatı**
2001-ci ilin mart ayında Kazan şəhərində yaradılmışdır.
Sədr - Elçin Əliyev
Ünvan: 420111, Tatarıstan Respublikası, Kazan şəhəri. Ostrovski küç. 23
Tel: (8432) 92 16 06; (8432) 66 39 35

**Azərbaycan Milli Mədəni Mərkəzi**
2001-ci ilin fevralında Başqırdıstanın Ufa şəhərində təsis edilib.
Sədr - Qabil Məmmədov
Ünvan: 450000, Ufa şəhəri, Lenin küç., 56
Tel: 22 04 54, faks - 22 89 89

**"Dalğa" Azərbaycan Cəmiyyəti**
Sədr - Camal Məmmədov
Ünvan: 614046 Perm şəhəri, Park prospekti, 33-22
Tel: (3422) 931981; (3422) 48 34 54

**"Vətən" Azərbaycan Milli Birlik Cəmiyyəti**
Sədr - Məmməd Məmmədov
Ünvan: (603000) Nijni Novqorod, Voljskaya Naberej-naya, 8-7.
Tel: (83158) 2 15 56; (83158) 2 14 56

**"Azərbaycan" icması**
1998-ci ildə Volqoqrad şəhərində yaradılıb.
Sədr - Sakit Allahverdiyev
Ünvan: Volqoqrad şəh. Anqarskaya küç. 17, mən.301.
Tel: (8442) 37 16 01; (8442) 38-86-76

**Şimali Qafqaz okruqu üzrə**

**“Xəzər” Azərbaycan Mədəni mərkəzi**
Sədr - Vilayət Əliyev
Ünvan: 414022, Həştərxan şəh., Zvezdnaya küç., 47, mən.53.
Tel: (8512) 37 20 58; (8512) 52 60 53

**“Birlik” Azərbaycan Mədəni Mərkəzi**
Sədr - Fikrət Qasımov
Ünvan: 350000, Krasnodar diyarı, Krasnodar şəhəri. Krasnoarmeyskaya küç.5.
Tel: (8612) 55 89 60; (8612) 55 57 87

**“Dərbənd-Azəri” İctimai Hərəkatı**
Sədr - Seyran Rəhimov
Ünvan: 368600, Dərbənd şəhəri, Krupskaya küç., 5.
Tel: (87240) 2 32 52; (87240) 2 10 69

**“Azərbaycan İcması” İctimai Təşkilatı**
Sədr - Rizvan Seyfullayev
Ünvan: 400000, Volqoqrad şəh., Elektrolesovskaya küç.,15.
Tel: (8442) 38 86 08; (8442) 32 37 83

**“Azəri” Mədəni - Maarif Təşkilatı**
Sədr - Ağahüseyn Fərəcov
Ünvan: 362021, Şimali Osetiya Respublikası, - Alaniya Vladiqafqaz şəhəri, İrisponskaya küç. 27a-69
Tel: (8672) 74 40 83; (8672) 75 31 79



**“Odlar Yurdu” Azərbaycan İcması**
Sədr - Fəxrəddin Yarıyev
Ünvan: 355008, Stavropol şəh., Kovalyov küç.19.
Tel: (8652) 28 00 15; (8652) 92 48 75

**“Ümid” Azərbaycan Mədəniyyət və Şəfqət Cəmiyyəti**
Sədr - Şakir Məmmədov
Ünvan: 347340, Rostov vilayəti, Volqodonsk şəh. Entuziaistlar küç.3.
Tel: (86392) 6 68 50; (86392) 6 51 50

**Mərkəzi okruq üzrə**

**“Dostluq-Drujba” Beynəlxalq İctimai Təşkilatı**
1996-cı ilin sentyabr ayında Tula şəhərində yaradılıb.
Sədr - Tofiq Musayev
Ünvan: 300062, Tula şəh., Kutuzov küç. 100
Tel: (0872) 77 56-68

**“Birlik” Azərbaycan Cəmiyyəti**
Sədr - İlham Kazımov
Ünvan: 394326, Voronej şəh., Kalininrad küç. 12, mən.11
Tel: (732) 27 20 04

**“Birlik” Azərbaycan Milli Mədəniyyət Mərkəzi**
2000-ci ilin noyabr ayında Lipetsk şəhərində yaradılıb.
Sədr - Zakir Şabanov
Ünvan: 398005, Lipetsk şəh. Almaznaya küç.10.
Tel: (0742) 43 05 92; (0742) 72 22 74

**"Bulaq" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr - Elşən Əliyev
Ünvan: 390048, Ryazan şəh. Novoselov küç. 19-99
Tel: (912) 41 78 88; (1912) 41 73 58

**Az NA-Tver Azərbaycanlıların Tver regional Milli Mədəni Muxtariyyatı**
1998-ci ilin noyabr ayında Tver şəhərində yaradılıb.
Sədr - Sərdar Abdullayev
Ünvan: Tver şəh. Pobeda küç.9.
Tel: (0822) 33 47 85; (0822) 42 69 61
Moskva Azərbaycanlılar Cəmiyyəti
2000-ci ilin iyun ayında Moskva şəhərində yaradılıb
Sədr - Məmməd Bağırov
Ünvan: 119634, Moskva şəh., Serafimov küç. 2.
Tel: (095) 953-75-35

**"Ocaq" Azərbaycan Mədəni Cəmiyyəti**
1988-ci ilin fevral ayında Moskva şəhərində yaradılıb.
Sədr - Tofiq Məlikov
Ünvan: 113519, Moskva şəh., Kirovoqradskaya küç., 24, mən.22.
Tel: (095) 458-11-87

**"KANKA" Kostroma Azərbaycan Milli Mədəni Muxtariyyatı**
Sədr - Şakir Cəfərov
Ünvan: 158010, Kostroma şəh., İvanovskaya küç. 23-4.
Tel: (0942) 31 62 82



**"Moskva Vilayəti Azərbaycanlılarının Vətəndaş Hüquqları və Sosial Mədəni İnkişafına Yardım" Təşkilatı**
Sədr - Mirzəbala Musayev
Ünvan: 140091, Moskovskaya obl., Dzerjinsk şəh., Kooperasiya küç.7.
Tel: 269 81 00; 551 32 23

**"Azərbaycan" Cəmiyyəti**
1989-cu ilin noyabr ayında Moskva şəhərində yaradılıb.
Sədr - Oktay Hüseynov
Ünvan: Moskva şəh. Neopolimovski döngəsi, Smolenski bulvar, 3/5
Tel: (095) 122 96 21

**"Azərbaycan" Mədəni İctimai Xeyriyyə Fondu**
Sədr - Səyavuş İbrahimov
Ünvan: 150062, Yaroslav şəh., Dzerjinski keçidi 27, mən.9.
Tel: (0852) 24 08 65; (0852) 24 32 07

**Sibir okruqu üzrə**

**"Azərbaycan icması" Regional İctimai Hərəkatı**
Sədr - Əligüşad Kərimov
Ünvan: 663300, Taymır Muxtar okruqu, Norilsk şəh., Oktyabrskaya küç. 28
Tel: (3919) 35 32 01; (3919) 35 37 90

**"Xəzri" Azərbaycan Cəmiyyəti**
Sədr - Nurəddin Əsədov
Ünvan: 630000, Novosibirsk şəh. İnskaya küç.1a
Tel: (3832) 66 75 54; (3832) 66 38 55

**"Bulaq" milli mədəniyyət mərkəzi**
Sədr - Mehman İskəndərov
Ünvan: 650043, Kemerovo şəh. Krasnaya küç.6.
Tel: (3842) 35 50 79; (3842) 36 73 53

**"Abşeron" Kemerovo regional təşkilatı**
Sədr - Şahlar Əbdürrəhmanov
Ünvan:
Tel (3842) 35 88 73

**"Azəri" milli mədəniyyət mərkəzi**
Sədr - Ələkbər Rəhimov
Ünvan: 634028, Tomsk şəh., Savinix küç.5.
Tel: (3822) 75 13 68; (3822) 21 33 47

**"Azərbaycan Mədəniyyət Mərkəzi"**
Sədr - Rövşən Rüstəmov
Ünvan: 656016, Altay diyarı, Barnaul şəh., Kommunarov küç. 120 a.
Tel: (3852) 26 47 05

**"Vətən" Azərbaycan İcması**
Sədr - Mirzə Əhmədov
Ünvan: 670034, Buryatiya Respublikası, Ulan-Ude şəh., Oktyabrın 50 illiyi prti, 20-39.
Tel: (8109) 32 45 76



**"Azəri" Azərbaycan Milli Mədəniyyət Mərkəzi**
2000-ci ilin noyabr ayında Krasnoyarsk şəhərində yaradılıb.
Sədr - Mahir İlyasov
Ünvan: 660017, Krasnoyarsk şəh.,Mir meydanı, 1
Tel: (3912) 23 83 89; (3912) 55 78 40

**"Odlar Yurdu" İctimai Təşkilatı**
Sədr - Məmməd Şirinov
Ünvan: Nefteyuqansk şəhəri.

**"Birlik" (Edinstvo) Azərbaycan Milli-Mədəni Cəmiyyəti**
1993-cü ilin yanvar ayında Baykalsk şəhərində yaradılıb.
Sədr - Əlirza Salayev
Ünvan: 665914 - İrkutsk vilayəti, Baykalsk şəh., Qaqarin küç. 30, mən.35
Tel: (2420) 30 11; (2420) 30 77

**Ural okruqu üzrə**

**"Azərbaycan Xalqının Mədəniyyət Mərkəzi"**
Sədr - Hidayət Cəfərov
Ünvan: 620151, Sverdlovsk vilayəti, Yekaterinburq şəh., Qoqol küç. 25.
Tel: (3432) 27 31 35; (3432) 51 28 96

**"Araz" Azərbaycan Mədəniyyət Mərkəzi**
Sədr - Rəşad Cuvarlinski
Ünvan: 640016, Kurqan şəh., Mironov küç.9.
Tel: (35222) 7 00 47

**"Azərbaycan" Mədəni Maarif Cəmiyyəti**
Sədr - Yusif Əskərov
Ünvan: 628624, Xantı-Mansiysk okquru, Meqion şəh., Pobeda küç. 18-62.
Tel: (34663) 3 04 06; (34663) 3 82-93

**"Dostluq-Drujba" Azərbaycanlılarının İctimai Təşkilatı**
1992-ci ilin avqust ayında Tümen şəhərində yaradılıb.
Sədr - Fuad Əliyev
Ünvan: 625000, Tümen vilayəti, Tümen şəh., Respublika küç., 52-309
Tel: (3452) 46 35 93; (3452) 24 25 81

**"Ozan" Azərbaycan Mədəniyyət Mərkəzi**
2000-ci ilin mart ayında Çelyabinsk şəhərində yaradılıb
Sədr - Rəfael Quliyev
Ünvan: 454008, Çelyabinsk şəh., Pobeda küç. 227.
Tel: (3512) 62 78 28

**Uzaq Şərq okruqu üzrə**

**"Sodrujestvo" İctimai Təşkilatı**
Sədr - Eyvaz Həsənov
Ünvan: 680001, Xabarovsk diyarı, Xabarovsk şəh., Muxin küç. 17.
Tel: (4212) 35 86 40; (4212) 35 86 42



**"Xəzər" Cəmiyyəti**
Sədr - Qurban Əzimov
Ünvan: 683000, Kamçatsk vilayəti, Petropavlosk-Kamçatsk şəh., Baxmin küç. 102-43.
Tel: (41522) 35 50 79; (41522) 36 37 53

**"Azərbaycan" İcması**
Sədr - Əziz Əliyev
Ünvan: 690034, Primorsk diyarı, Vladivostok şəh., Fadeev küç. 8a - 121.
Tel: (4232) 27 17 11

**"Qobustan" İctimai Təşkilatı**
1994-cü ildən Lensk şəhərində yaradılıb
Sədr - Rafiq Qafarov
Ünvan: 678140, Saxa Respublikası (Yakutiya), Lensk şəh., Pervomaysk küç. 10.
Tel: (41137) 4 31 96; (41137) 4 15 45

**Şimal-Qərbi okruq üzrə**

**"Abşeron" İctimai Təşkilatı**
Sədr - Tofiq Rzayev
Ünvan: 236000, Kalininqrad şəh., Dmitri Donski küç. 7, kab. 121.
Tel: (0112) 22 55 58; (0112) 22 56 29

**Sankt-Peterburq "Azərbaycan Milli Mədəni Muxtariyyatı"**

1999-cu ilin aprel ayında Sankt-Peterburq şəhərində yaradılıb.
Həmsədrlər - Vaqif Məmişov, Ağaismayıl Rəhimov
Ünvan: 193167, Sankt-Peterburq şəh., Telejnaya küç.37.
Tel: (8812) 274 76 62

**"Odlar Diyarı" Azərbaycan Mədəni Cəmiyyəti**

Sədr - Ataş Əliyev
Ünvan: 162600, Voloqodsk vilayəti, Çerepovetsk şəh. Molodyojnaya küç. 33/46-29
Tel: (8202) 29 68 35

**"Məclis" Azərbaycan İcması**

1996-cı ilin iyun ayında Velikiy Luki şəhərində yaradılıb.
Sədr - Yusif Məhərrəmov
Ünvan: 182100, Pskov vilayəti, Velikiy Luki şəhəri, Tolstoy küç.25
Tel: (81153) 5 69 73; (81153) 5 45 38

**"Bakı" Azərbaycan Müsəlman İcması**

1998-ci ilin may ayında Murmansk şəhərində yaradılıb.
Sədr - Fərhad Mahmudov
Ünvan: 183000, Murmansk şəh., Burkov küç. 35-24
Tel: (8152) 56 26 84

**"Borçalı" Azərbaycan İcması**

Sədr - Qara Şamilov
Ünvan: 185000, Petrozavodsk şəh., Çapayev küç. 16-37.
Tel: (8142) 72 41 80



**"Birlik" Azərbaycan İcması**

Sədr - Cəmil Əliyev
Ünvan: Arxangelsk vilayəti, Arxangelsk şəhəri
Tel: (8182) 43 19 04; (8182) 26 03 86

**"Karvan" İctimai - Siyasi Birliyi**

Sədr - Nazim Kərimov
Ünvan: 169906, Komi Respublikası, Volkuta şəh., Lenin küç. 27a-13
Tel: (82151) 7 35 55; (82151) 4 86 03

**"Bakılı" Azərbaycan Mədəniyyət Mərkəzi**

2001-ci ilin fevral ayında Velikiy Novqorod şəhərində yaradılıb.
Sədr - Həsən Abbasov
Ünvan: Velikiy Novqorod şəh., Studentçeskaya küç. 2a.
Tel: (8162) 3 39 80; (8162) 5 12 57

## Türkiyə

**"Türkiyə-Azərbaycan" Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfi (TADİV).**

Təşkilat 1997-ci ildə Türkiyə və dünya miqyasında tanınmış pediatır, məşhur ictimai xadim, prof.dr. İhsan Doğramacı tərəfindən yaradılmışdır.

**Qars-Ardahan-İqdır Dərnəyi Ankarada fəaliyyət göstərir.**

Rəhbəri - Bülənt İşkur
Tel: (0312) 2318153

**Azərbaycan Kültür Dərnəyi (İzmir şöbəsi)**
Rəhbəri - Namiq Kamal Babakər
Tel: (0232) 4259463

## Ukrayna

**Ukrayna Azərbaycanlıları Konqresi (UAK)**
Ukraynada fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri nümayəndələrinin iştirakı ilə 21 mart 1999-cu ildə Kiyev şəhərində təsis olunmuşdur.
Sədr - T.Əliyev
Ünvan: Kiyev ş., Xorevaya küç., 3a
Tel: +(38 044) 4637751

***UAK-ın regional təşkilatları***

**Volin vilayəti**
Sədr - Əliheydər Bağırov
15 dekabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Vinnittsa vilayəti**
Sədr - Eyvaz Quliyev
8 avqust 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Dnepropetrovsk vilayəti**
Sədr - Qüdrət Hacıyev
18 aprel 2000-ci ildə qeydiyyatdan keçmişdir.



**Donetsk vilayəti**
Sədr - Manaf İskəndərov
11 oktyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Zakarpatye vilayəti**
Sədr - Zakir Göyüşov
1 mart 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Zaporojye vilayəti**
Sədr - Miryaqub Miryaqubov
19 oktyabr 1999-cu ildə qeydiyyatdan keçmişdir.

**Jitomir vilayəti**
Sədr - Saatxan Hasilov
1 dekabr 1999-cu ildə qeydiyyatdan keçmişdir.

**İvano-Frankovsk vilayəti**
Sədr - Fərhad Turanlı
15 may 1999-cu ildə qeydiyyatdan keçmişdir.

**Kiyev vilayəti**
Sədr - Akif Dadaşev
8 yanvar 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Kiyev şəhəri**
Sədr - Oqtay Əfəndiyev
8 dekabr 1999-cu ildə qeydiyyatdan keçmişdir.

**Kirovoqrad vilayəti**
Sədr - Vilayət Məmmədov
30 mart 2000-ci ildə qeydiyyatdan keçmişdir.
Krım Muxtar Respublikası

Sədr - Rəhim Hümbətov
11 fevral 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Lvov vilayəti**
Sədr - Məcid Nuxiyev
14 iyul 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Luqansk vilayəti**
Sədr - Mürvət Səidi
24 sentyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Nikolayev vilayəti**
Sədr - Kəbir Bədəlov
2 fevral 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Odessa vilayəti**
Sədr - Elxan Sarıyev
21 sentyabr 2001-ci ildə qeydiyyatdan keçmişdir.

**Poltava vilayəti**
Sədr - Telman Mahmudov
15 mart 2001-ci ildə qeydiyyatdan keçmişdir.

**Rovno vilayəti**
Sədr - Yusif Sadıxov
10 may 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Sevastopol şəhəri**
Sədr - Çingiz Bədəlov
1 dekabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.



**Sumi vilayəti**
Sədr - Viktor Cavadov
21 yanvar 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Ternopol vilayəti**
Sədr - Hidayət İbrahimov
30 may 2001-ci ildə qeydiyyatdan keçmişdir.

**Xarkov vilayəti**
Sədr - Abbas Qurbanov
3 mart 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Xerson vilayəti**
Sədr - Əlimərdan Kərimov
25 sentyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Xmelnitski vilayəti**
Sədr - Ceyhun Qasımov
21 mart 2001-ci ildə qeydiyyatdan keçmişdir.

**Çerkasi vilayəti**
Sədr - Aydın Şirinov
18 oktyabr 2000-ci ildə qeydiyyatdan keçmişdir.

**Çerniqov vilayəti**
Sədr - Tahir Həsənov
12 aprel 1999-cu ildə qeydiyyatdan keçmişdir.

**Çernovitsi vilayəti**
Sədr - Namiq Əliyev
29 iyun 2000-ci ildə qeydiyyatdan keçmişdir.

## DÜNYA ÖLKƏLƏRİNDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN SAYI*

| | |
|---|---|
| 1. ABŞ | 1.000000 |
| 2. Avstraliya | 8.000 |
| 3. Avstriya | 19.000 |
| 4. Albaniya | 12.000 |
| 5. Argentina | 12.000 |
| 6. Əlcazair | 260.000 |
| 7. Əfqanıstan | 50.000 |
| 8. Banqladeş | 175.000 |
| 9. Belçika | 13.000 |
| 10. Birma | 8.000 |
| 11. Bolqarıstan | 65.000 |
| 12. Braziliya | 75.000 |
| 13. Butan | 1500 |

* Cədvəl Vaqif Arzumanlı və Adil Hüseynovun "Azərbaycan ünvanlı kitabından və "Azərbaycan XXI əsr qəzetinin 1 mart 1999-cu il tarixli sayından götürülmüşdür.



| | |
|---|---|
| 14. Böyük Britaniya | 170.000 |
| 15. Macarıstan | 27.000 |
| 16. Yunanıstan | 13.000 |
| 17. Danimarka | 60.000 |
| 18. Misir | 900.000 |
| 19. Hindistan | 300.000 |
| 20. İndoneziya | 44.000 |
| 21. İordaniya | 450.000 |
| 22. İraq | 1.000.000 |
| 23. İran | 30.000.000 |
| 24. İrlandiya | 4000 |
| 25. İspaniya | 14.000 |
| 26. İtaliya | 33.000 |
| 27. Yəmən Ərəb Respublikası | 35.000 |
| 28. Yəmən Demokratik Respublikası | 27.000 |
| 29. Kanada | 170.000 |

| | |
|---|---|
| 30. Çin | 30.000 |
| 31. Küveyt | 19.000 |
| 32. Malta | 2500 |
| 33. Meksika | 27.000 |
| 34. Monqolustan | 5.000 |
| 35. Norveç | 50.000 |
| 36. Birləşmiş Ərəb Əmirlikləri | 55.000 |
| 37. Omman | 19.000 |
| 38. Pakistan | 650.000 |
| 39. Polşa | 12.000 |
| 40. Portuqaliya | 7.000 |
| 41. Rumıniya | 45.000 |
| 42. Səudiyyə Ərəbistanı | 40.000 |
| 43. Suriya | 95.000 |
| 44. Sudan | 17.000 |
| 45. Türkiyə | 3.000.000 |



| | |
|---|---|
| 46. Finlandiya | 12.000 |
| 47. Fransa | 70.000 |
| 48. Almaniya | 300.000 |
| 49. Çexiya | 2.000 |
| 50. Slovakiya | 2000 |
| 51. İsveç | 2.000 |
| 52. Yuqoslaviya | 6.000 |
| 53. Yaponiya | 10.000 |
| 54. Ukrayna | 500.000 |
| 55. Belarusiya | 7.000 |
| 56. Rusiya Federasiyası* | 3.000.000 |
| 57. Özbəkistan | 60.000 |
| 58. Qazağıstan | 100.000 |
| 59. Gürcüstan | 600.000 |
| 60. Litva | 2000 |
| 61. Moldova | 5.000 |

| | |
|---|---|
| 62. Latviya | 4000 |
| 63. Qırğızıstan | 16.000 |
| 64. Tacikistan | 14.000 |
| 65. Türkmənistan | 45.000 |
| 66. Estoniya | 3.000 |
| 67. Azərbaycan Respublikası | 7.000.000 |

Bütün dünyada yaşayan azərbaycanlıların sayı 50.000.000 nəfərdən çoxdur.



## KİTABIN İÇİNDƏKİLƏR


Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı................................ 3

Diasporumuzun formalaşmasında yeni mərhələ.............. 8

Müəllifdən.................................................................. 19

Müstəqilliyimizi əbədiləşdirən dahi şəxsiyyət................ 24

Dünyaya açılan geniş pəncərə........................................ 39

Əsrlərə nümunə............................................................. 160

Dünya azərbaycanlılarına təbrikləri və müraciətləri........ 184

Dünya azərbaycanlılarının prezidentə bəzi Təbrikləri..................................................................... 251

Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi müstəqil dövlətimizin böyük, tarixi nailiyyətidir........................................................ 266

Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə müraciəti.................. 278

Dünya azərbaycanlılarının I qurultayının qətnaməsi......... 281

Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin bütün dünya azərbaycanlılarına müraciəti........................ 288

Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökümət rəhbərlərinə və

parlamentlərinə müraciəti........................................................ 296
Dünya azərbaycanlılarının I qurultayı
nümayəndələrinin 2001-ci il sentyabrın
11-də Amerika Birləşmiş Ştatlarında
törədilmiş qanlı terror hadisələri ilə
bağlı Amerika xalqına müraciəti........................................ 303
Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni
təşkilatları........................................................................ 305
Dünya ölkələrində yaşayan azərbaycanlıların sayı............ 350

Vəli Həbiboğlu
Məcidov

# HEYDƏR ƏLİYEV
# VƏ
# AZƏRBAYCAN DİASPORU

Nəşriyyatın direktoru
Vaqif Arzumanlı

Бакы - Гартал - 2001